**Bakı Dövlət Universiteti**

**Tarix fakültəsi**
**Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası**
**nəzdində “Dünya azərbaycanlıları: tarixi-demoqrafiya”**
**Elmi-tədqiqat laboratoriyası**

# DÜNYA AZƏRBAYCANLILARI: TARİX VƏ MÜASİRLİK

**(Elmi-nəzəri toplu)**

## VIII BURAXILIŞ

***Azərbaycanın Dövlət Müstəqilliyinin bərpasına və Dünya Azərbaycanlılarının həmrəylik gününün 30 illik yubileylərinə həsr edilir.***

*Toplu BDU-nun Tarix fakültəsi Elmi Şurasının 24 noyabr 2021-ci il tarixli qərarı ilə çap edilir.*

**BAKI – 2021**

**REDAKSİYA HEYƏTİ**

akad.Yaqub Mahmudov (BDU)
prof.Anar İsgəndərov (BDU)
prof.İbrahim Zeynalov (BDU)
prof.Qüdrət İsmayılzadə (BDU)
t.e.d.Tarix Dostiyev (BDU)
dos.Mehman Abdullayev (BDU)
dos.Kəmalə Nəcəfova (BDU)
dos.İlqar Niftəliyev (AMEA Tarix İnstitutu)
dos.Arzu Məmmədova (BDU)
dos.Səidə Əli qızı (BDU)
dos.Səidə Quliyeva (BDU)
dos.Sevinc Qasımova (BDU)
dos.Elvira Lətifova (BDU)
dos.Boran Əziz (BDU)
dos.Rövşən Hətəmov (BDU)
t.f.d.Hicran Mahmudova (BDU)
t.f.d.Zəhra İslamova (BDU)
t.f.d.Asəf Hacıyev (BDU)
b.e.i.Ulduz Paşayeva (BDU)
e.i.İlham Məmmədov (BDU)

**Dünya azərbaycanlıları: tarix və müasirlik**. (Elmi-nəzəri toplu). VIII buraxılış. Bakı, "Füyuzat" nəşriyyatı, 2021, 160 səh.

***Ünvan:*** Bakı şəhəri, Z.Xəlilov küçəsi, 23
Bakı Dövlət Universiteti, III tədris binası, 9-cu mərtəbə, 904-cü otaq
***Əlaqə:*** 012-537-04-61; dunya.azerbaycanlilari.etl@gmail.com

K 0501000000-66
2021

© "Füyuzat", 2021

# MÜNDƏRİCAT

## I BÖLMƏ
## AZƏRBAYCANIN ƏRAZİSİ VƏ ƏHALİSİ

**Tarix Dostiyev**
*İslamaqədərki dövrdə etnik - mədəni proseslərə dair bəzi qeydlər* .... 5
**Bəymirzə Şabiyev**
*Çuxur - Səəd əhalisinin say dinamikası, yerləşməsi, etnik və dini tərkibi* .......... 16
**Zəhra İslamova**
*XIV əsrin II yarısında Naxçıvan uğrunda siyasi mübarizə* ................ 29
**Zəhra İslamova, Ulduz Paşayeva**
*Nadir xanın Azərbaycan uğrunda Rusiya ilə mübarizəsi* .................. 35
**İlham Məmmədov, Yeganə Abdullayeva**
*İrəvan bölgəsində inzibati - ərazi dəyişiklikləri və əhalinin etnik tərkibinə dair (XVIII-XIX əsrin I yarısı)*........................................... 44
**Mehman Abdullayev**
*XIX - XX əsrin əvvəllərində Azərbaycanın Qarabağ bölgəsində inzibati dəyişikliklər və əhalinin say tərkibi* ...................................... 56
**Asəf Hacıyev**
*XIX - XX əsrin əvvəllərində Dərbənd əhalisinin məşğuliyyəti (əkinçilik və heyvandarlıq)* ............................................................... 62
**Günay Aşurova**
*XIX əsrin I yarısında Gəncənin tarixi demoqrafik xüsusiyyətləri* ...... 67
**Ulduz Paşayeva**
*Şamaxı bölgəsinin inzibati - ərazi quruluşu və əhalisinin say dinamikasi (XIX əsrin II yarısı)* ........................................................ 71
**Səidə Əli qızı**
*"Qarabağ Azərbaycandır" davasının qəhrəmanlarından biri - Xosrov bəy Sultanov (tarixi yaddaş)*
........................................................................................................ 81
**Aydın Məmmədov**
*XX əsrin ikinci yarısı Azərbaycan tarixçilərinin orta əsrlər dövrünə dair tədqiqat əsərlərində tarixi demoqrafiya məsələləri* .................. 91
**Anar İsgəndərov, Səidə Əli qızı**
*SSRİ-nin süqutu və Azərbaycanın dövlət müstəqilliyinin bərpası* ..... 100
**Səidə Quliyeva**
*Dünya Azərbaycanlılarının həmrəyliyinin təzahürü* ......................... 110

## II BÖLMƏ
## ÜMUMİ TARİX MƏSƏLƏLƏRİ

**Hicran Mahmudova**
*Mərkəzi Asiya türkləri və müasir antropogenetik araşdırmalar* ......... 122
**Nigarxanım Qasımova, İlham Məmmədov**
*Qarabağ bölgəsi üzrə etnotoponomik lüğətinin hazırlanmasına dair.* 130
**Balamirzə Məmmədli**
*İkinci Dünya müharibəsi illərində SSRİ-də almanların deportasiyası məsələlərinə dair* ............................................................................ 140

## YUBİLEYLƏR

**Yaqub Mahmudov**
*Dost sözü və DOSTUN ÖZÜ (Səidə Əli qızına həsr olunur)* ............ 151
**Ulduz Paşayeva**
*Sədaqət və peşəkarlıq nümunəsi (Səidə Əli qızının 75 illiyinə həsr olunur)*.......................................................................................... 153
**Fikrət Əlizadə**
*Bizim Səidə xanım!*.............................................................................. 156

**Jurnalın qaydaları**........................................................................... 158

## I BÖLMƏ

## AZƏRBAYCANIN ƏRAZİSİ VƏ ƏHALİSİ

**UOT 94 (479.24); 930:314**

# İSLAMAQƏDƏRKİ DÖVRDƏ ETNİK-MƏDƏNİ PROSESLƏRƏ DAİR BƏZİ QEYDLƏR

**Tarix Dostiyev**
*BDU, Tarix fakültəsi, tarix elmlər doktoru*
*dostiyev.tarikh@mail.ru*

*Məqalədə daş dövründən ərəb fəthlərinədək olan geniş bir xronoloji çərçivədə etnik-mədəni proseslərə nəzər yetirilir. Yazılı mənbə məlumatları, başlıca isə arxeoloji dəlillər əsasında miqrasiyaların istiqamətlərinin, etnik-mədəni proseslərin ana xətlərinin müəyyənləşdirilməsinə cəhd edilir. Şərq və Qərbin, Cənub və Şimalın qovşağında yerləşən, mixtəlif istiqamətli miqrasiyaların, hərbi yürüşlərin və ticarət əlaqələrinin gerçəkləşməsində körpü rolunu oynamış Azərbaycan əlverişli coğrafi, hərbi-strateji, iqtisadi imkanları ilə daim müxtəlif tayfa və xalqların diqqətini cəlb etmişdir. Erkən daş dövründən bu region məskunlaşmış, zaman-zaman buraya müxtəlif istiqamətlərdən miqrasiyalar olmuş, gəlmələr yerli əhali ilə qaynayıb qarışaraq etnik-mədəni zənginləşmədə iştirak etmişdilər. Antik dövrdən fəaliyyətə başlayan Böyük İpək yolunun marşrutlarının buradan keçməsi də entik-mədəni proseslərə təsir edən amillərdən olmuşdur. İlk orta əsrlərdə etnik-mədəni proseslər xüsusilə intensiv xarakter daşımış, Sasanilərin, Bizansın bütün cəhdlərinə baxmayaraq bu proseslərdə türk tayfaları fəal olmuş və ərəb fəthləri ərəfəsində burada türk etnosu üstünlük təşkil etmiş və türk dili ünsiyyət vasitəsi rolunu oynamışdı.*

***Açar sözlər:*** *Azərbaycan, etnik mədəni proseslər, köçürmə siyasəti, köçərilər, miqrasiya.*

### *SOME REMARKS ABOUT THE ETHNIC CULTURAL PROCESSES IN THE PRE-ISLAMIC PERIOD*

*The article deals about the ethnic-cultural processes in a broad chronological context from the Stone Age to the Arab conquests. Attempts are being made to determine the directions of migration, the main directions of ethnic-cultural processes on the basis of written sources, mainly archaeological evidence. Located at the crossroads of East and West, South and North, Azerbaijan has always attracted the attention of various tribes and peoples with its favorable geographic, military-strategic and economic capabilities. From time to time there were migrations from different directions, and the newcomers mixed with the local population and participated in ethnic and cultural enrichment. The passage of the routes of the Great Silk Road, dating back to ancient times, was one of the factors influencing ancient and cultural processes. In the early Middle Ages, ethnic-cultural processes were especially intense, Turkic tribes were active in these processes, and on the eve of the Arab conquests, the Turkic ethnos dominated here, and the Turkic language played the role of a means of communication.*

***Keywords****: Azerbaijan, ethno-cultural processes, resettlement policy, nomads, migration.*

**Giriş.** Qafqazın etnik xəritəsi minilliklər ərzində cərəyan etmiş mürəkkəb etnogenetik və miqrasiya proseslərinin nəticələrini əks etdirir. Regionun coğrafi şəraiti onun nəinki Qafqaz, eləcə də Yaxın Şərq və Cənub-Şərqi Avropa üçün önəmli bir məkan, əlaqələndirici körpü olmasını şərtləndirmişdi. Xəzər və Qara dəniz arasında qərarlaşmış Qafqaz dağları meridial istiqamətdə miqrasiyalar, tacir karvanlarının, eləcə də istilaçı orduların hərəkəti üçün təbii maneə idi. Belə hal Xəzər dənizinin qərb sahili boyunca uzanan dəhlizin və Dəryal keçidinin əhəmiyyətini müstəsna dərəcədə artırırdı. Həmin dəhlizin ən dar keçidi Böyük Qafqaz dağlarının Xəzər dənizinə daha sıx yaxınlaşdığı Dərbənd və Beşbarmaq keçidləri idi. Xəzər dənizi boyunca uzanan marşrut daha rahat idi və arxeoloji dəlillər miqrasiyaların bu istiqamətdə hələ daş dövründə baş verdiyini təsdiqləməyə imkan verir. Təbii ki, yazılı qaynaqların olmadığı bir dövrdə əhalinin etnik-mədəni səciyyəsinə dair arxeoloji və paleoantropoloji dəlillər əvəzolunmaz dəyərə malik olmaqla obyektiv fikir yürütməyə imkan verir, tədqiqatçını yanılmalardan qoruyur. Bu nöqteyi nəzərdən Azərbaycan Respublikası ərazisində aparılan arxeoloji tədqiqatlar daş dövründən orta əsrlərədək cərəyan etmiş miqrasiyaların, etno-mədəni proseslərin ana xəttini müəyyənləşdirməyə imkan verir. Arxeoloji və paleoantropoloji dəlillər miqrasiya dalğalarının tarixi inkişafının müxtəlif mərhələlərində gah güclü, gah da sönük olduğunu göstərir.

**Daş və Tunc dövrlərində miqrasiyalar və etno-mədəni proseslər.** Bəşəriyyətin sübh çağında ilk miqrasiya dalğası baş vermiş, erkən paleolitdə, təxminən 2 mln. il bundan öncə ibtidai insanlar Afrikadan Yaxın Şərqə, oradan Azərbaycana gəlmiş, Qarabağın zəngin təbii-iqlim şəraitinə uyğunlaşaraq, Azıx mağara düşərgəsində yaşamışdılar. Qafqazın erkən paleolit abidələri ibtidai insanların Qarabağdan şimala ən azından iki istiqamətdə miqrasiya etdiyi ehtimalını irəli sürməyə əsas verir. Onlar Mingəcevirdə Qaraca və Dağıstanda Aynikab, Muxkay və digər düşərgələr salmış, buradan da Cənub-Şərqi Avropaya ilk miqrasiyası baş vermişdi. Qarabağdan digər miqrasiya xətti Dmanisi və daha sonra şimala istiqamətlənmişdi [16;29;33].

Paleometal dövrünün erkən çağında güclü miqrasiya dalğasının baş verməsinin, İkiçayarası və Şərqi Anadoludan gələn miqrantlarla yerli əhali arasında etnik-mədəni əlaqələrin dərinləşməsi və inteqrasiyasının nəticəsində Azərbaycan ərazisində e.ə. IV minillikdə parlaq Leylatəpə mədəniyyəti təşəkkül tapmışdı [9; 10]. Tədqiqatçıların fikrincə e.ə. IV minilliyin ilk qərinəsində İkiçayarasında şəhər həyat tərzinin və dövlət qurumlarının bərqərar olması demoqrafik partlayış və İkiçayarasından miqrasiyalarla müşayiət olunmuşdu [15]. Leylatəpə mədəniyyətin daşıyıcıları sonradan Azərbaycandan Şimali Qafqaza hərəkət edərək burada Maykop mədəniyyətini yaratmışdılar [10]. Bəzi tədqiqatçılar hətta Leylatəpə, Maykop arxeoloji mədəniyyətlərinin ilk Qədim Şərq sivilizasiyalarının ucqarları, onun tərkib hissəsi hesab edir [43].

Erkən əkinçilik mədəniyyətinin inkişafında yeni mərhələnin başlan-

ması, tunc metallurgiyasının meydana çıxması, əlverişli təbii-iqlim şəraiti bu dövrdə Qafqaz regionun bütün təbii-iqlim və fiziki-coğrafi zonalarında – düzən, dağətəyi və dağlıq zonalarda məskunlaşmanın intensivləşməsini şərtləndirmişdi. Erkən tunc dövrünün arxeoloji abidələri müxtəlif istiqamətli hərəkətlərə, miqrasiyalara şahidlik edirlər. Cənubi Qafqazda təşəkkül tapan Kür-Araz mədəniyyəti daşıyıcıları cənub və qərb istiqamətlərində Şərqi Anadolu və Şərqi Aralıq dənizi bölgəsinə qədər hərəkət edərək Kür-Araz tarixi-mədəni birliyinın formalaşmasını şərtləndirmişdilər. Azərbaycan Respublikasının və Dağıstanın Xəzəryanı ərazisində tədqiq olunmuş arxeoloji abidələrin tədqiqi bu regionda Kür-Araz mədəniyyətinin özəllikləri ilə diqqəti çəkən məhəlli variantını müəyyənləşdirməyə imkan vermişdir [21; 22; 41]. Erkən tunc dövrü bütövlükdə abidələrin sıxlığının artması, müvafiq olaraq region əhalisinin artması, yeni ərazilərin məskunlaşması ilə əlamətdar olmuşdur.

E.ə.III minillikdə quraqlaşmanın artması, iqlim dəyişiklikləri, Kür-Araz mədəni-tarixi birliyinin yüksəliş keçirdiyi mərhələdən sonra kəskin tənəzzülə uğramasında özünü göstərmişdir. E.ə. III minilliyin son rübündən təbii-coğrafi amillərin təsiri altında təsərrüfat həyatındakı dəyişikliklər Kür-Araz mədəni-tarixi birliyinin tənəzzülünü, yeni arxeoloji mədəniyyətlərin formalaşmasını labüt etdi. Azərbaycan ərazisində orta tunc dövrünə aid yaşayış yerlərinin kəmiyyət etibarı ilə xeyli azalması, əksinə kurqan qəbir abidələrinin artması, söz yox ki, təsərrüfatda, demoqrafik durumda baş verən proseslərlə bağlı idi [18]. Bu dövrdə həm Anadolu və Yaxın Şərqdən, həm də Cənubi Rusiya çöllərindən Qafqaza, o cümlədən Azərbaycana miqrasiyalar baş vermişdir. Bu prosesləri Qafqazın orta tunc arxeoloji mədəniyyətləri izləməyə imkan verir. Maraqlıdır ki, Abşeron yaranmasında e.ə. III-II minilliklərə aid qayaüstü rəsmlərdə Şumer mifologiyasının motivləri qabarıq özünü büruzə verir [3, s. 64-84]. Abşeron abidələri həm də Orta tunc dövründə Cənubi Rusiya çöllərindən Xəzəryanı bölgədən keçməklə cənuba miqrasiyalar olduğunu izləməyə imkan verir. Cənubi Rusiya çöllərindən Cənubi Azərbaycana və Anadoluya, Van gölünədək ərazidə kurqanların üstündə daş bütlərin – stellaların ucaldılması adəti yayılır. E.ə. III minilliyin sonu – II minilliyə aid belə kurqanlar Abşeron yarımadasında, Astara rayonunda, Ərdəbil bölgəsində aşkarlanmışdır [12]. Bu dövrdə Qafqaz regionu daxilində də miqrasiyalar, mədəniyyətlərin qarşılıqlı əlaqəsi də arxeoloji abidələrdə öz əksini tapmışdır [18, s. 88].

Arxeoloji və antropoloji dəlillər tunc dövrünün son mərhəsi, eləcə də dəmir dövründə Azərbaycanda etnik-mədəni proseslərin kifayət qədər intensiv olduğuna dəlalət edir. E.ə. XIV-XIII əsrlərdə Cənubi Azərbaycanda cərəyan edən etnik-mədəni proseslər Naxçıvan diyarında Naxçıvan mədəniyyəti, Qarabağ və Gəncə-Qazax bölgəsində Xocalı-Gədəbəy mədəniyyəti, Muğan və Lənkəran-Astara bölgəsində Talış-Muğan mədəniyyətinin təşəkkül tapmasını şərtləndirmiş və həmin mədəniyyətlər e.ə.VII əsrədək mövcud olmuşdur. Bu arxeoloji mədəniyyətlər üçün metallurgiya və metalişləmənin kifayət qə-

dər yüksək səviyyəsi, xüsusilə özünəməxsus silah dəsti, keramika, bəzək əşyaları və s. səciyyəvidir. Sözü gedən arxeoloji mədəniyyətlərə aid arxeoloji abidələrin tədqiqi bu mədəniyyətin daşıyıcılarının Ön Asiya və Qafqaz etnosları ilə sıx qarşılıqlı əlaqədə inkişaf etdiyini təsdiqləməyə əsas verir [30; 38].

**E.ə. I minilliyin birinci yarısında miqrasiyalar və etno-mədəni proseslər.** E.ə. VII əsrdə skiflər Dərbənd keçidindən, Qərbi Xəzəryanı bölgədən keçməklə Ön Asiyaya getmişdilər. Xəzəryanı bölgənin erkən dəmir dövrünə aid qəbir abidələrindən skif maddi mədəniyyət nümunələri: ox ucluqları, at əsləhələri, kəmər toqqaları və s. aşkarlanmışdır. Məhz bu dövrdə Dərbənd təpələrində ilk istehkam tikililəri inşa olunmuşdu [37, s.31]. Qarabağın son tunc və erkən dəmir dövrü kurqanlarının təhlili əsasında arxeoloq Mübariz Xəlilov belə bir qənaətə gəlir ki, hələ həmin dövrdə protoskit tayfalar Qarabağa miqrasiya etmişdilər [47]. Azərbaycan Respublikası ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində skiflərin e.ə. I minilliyin birinci yarısında Qarabağ, Gəncə-Qazax, Abşeron yarımadası, Mil-Muğan bölgəsi, Lerik rayonunda olmalarına dair dəlillər aşkarlanmışdır [8, s. 55-65]. Belə arxeoloji faktlar Mingəçevir qəbir abidələrindən daha çox əldə olunub. Mingəçevirin, eləcə də son illərdə tədqiq olunmuş Kür hövzəsi bölgəsinin e.ə.VII-IV əsrlərə aid qəbir abidələrinin qazıntılarından əldə olunmuş dəlilləri təhlil edərək arxeoloq Qoşqar Qoşqarlı belə qənaətə gəlir ki, Kürdən şimalda yerləşən bölgədə skif mədəniyyəti elementlərinin geniş yayılması yalnız hərbi yürüşlərin nəticəsi deyil, skiflərin bir qisminin yerli əhaliyə qarışaraq oturaq həyata keçməsi, burada məskunlaşması ilə bağlıdır. Tədqiqatçı skiflərin alban etnosunun təşəkkül tapmasında iştirakının da mümkünlüyünü nəzərə çatdırır [28, s. 112]. E.ə.VII-V əsrlərə aid antropoloji dəlillər də arxeoloji faktik materialları təsdiqləyərək həmin dövrün etnik-mədəni proseslərinin mənzərəsinə aydınlıq gətirir. E.ə. VII – IV əsrlərin qəbir abidələrindən aşkar olunmuş antropoloji dəlillərin təhlili əhalinin böyük əksəriyyətini Avropoid irqinin cənub qoluna, Kaspi antropoloji tipinə mənsubluğu ilə yanaşı skif-saklardan ibarət gəlmə etnosun da mövcudluğunu təsdiqləmişdir [35].

Yazılı mənbələrdə e.ə. I minillikdə Qərbi Xəzəryanı regionun cənubunda məskunlaşmış kadusilər, kaspilər haqqında məlumat verilir. Yazılı mənbələrin məlumatından bəlli olur ki, döyüşkən kadusilər Qərbi Xəzəryanı regionda midiyalıların, albanların, kaspilərin, sakların, tapirlərin və digərlərin qonşuları idilər. İqrar Əliyevin ehtimalına görə erkən antik dövr müəllifləri kaspi tayfaları adı altında Qərbi Xəzəryanı regionun cənub-qərbindəki etnosları nəzərdə tuturlar. Bununla belə sonradan “Kadusilərin torpağı” və “Kaspilər torpağı” anlayışları fərqləndirilir [14, s. 15]. Kaspilər haqqında yazılı mənbələr e.ə.471-ci ildən başlayaraq məlumat verməyə başlayırlar. Maldarlıq təsərrüfatının üstünlük təşkil etdiyi, eləcə də qismən əkinçilik və balıqçılıqla məşğul olan kaspilər həm də gözəl gəmi inşa edənlər və dənizçilər idilər. Onlar öz adlarını Xəzər dənizinə və Kaspiana vilayətinə vermişdilər [39].

**Antik dövrdə etno-mədəni proseslər**. Antik dövrdə məhsuldar qüvvə-

lərin yüksəlişi, iqtisadiyyatın inkişafı, əmlak və sosial differensiasiyanın dərinləşməsi, politegenezdəki uğurlar yeni şəhərlərin və iri yaşayış məskənlərinin meydana gəlməsini şərtləndirmişdir. Azərbaycanın cənubunda Atropatena, şimalında Albaniya dövlətlərinin yaranması etno-mədəni proseslərə öz təsirini göstərməyə bilməzdi. Yazılı mənbə məlumatı Albaniyada 26 tayfanın məskunlaşdığını, tayfa ittifaqına ən böyük qövm olan albanların başçılıq etdiyini bildirir [7, s.5, 22]. Burada 29 şəhər və iri yaşayış məskənin yerləşdiyini xəbər verir. Bu şəhərlər ölkənin dövlət-inzibati, hərbi-siyasi, sənətkarlıq-ticarət və mədəni-dini mərkəzləri idi. Albaniyanın baş şəhəri Qəbələ idi [19].

Erkən antik dövrdə təbii-iqlim şəraitinin əhəmiyyətli dərəcədə dəyişməsi, soyuqlaşma və rütubətliyin yüksəlməsi dağlıq ərazidə məskunlaşmanın seyrəlməsinə, düzən və dağətəyi ərazidə isə əksinə əhali sıxlığının yüksəlməsi müşahidə olunur. Görünür, dağlıq ərazilərdə təsərrüfatın təşkilinin az effektli olması əhalinin dağətəyi və düzən ərazilərə miqrasiyasını şərtləndirmişdi. Xəzəryanı region arxeoloji abidələrinin xəritəsi antik, xüsusilə e.ə. II - e. II əsrlərində düzən ərazinin sıx məskunlaşdığını əyani nümayiş etdirir [23, s. 312-315].

Antik dövr qəbiristanlarının, xüsusilə nekropolların tədqiqi qəbir tiplərinin müxtəlifliyini (yeddi qəbir tipi müəyyənləşib) göstərir. Albanşünas arxeoloqlar qəbir tiplərinin müxtəlifliyini şərh edərkən sosial-iqtisadi, siyasi amillərə, miqrasiyalara, dini etiqatların və dəfn adətlərinin dəyişməsi və digər proseslərə diqqət yönəldirlər [19; 28; 44].

Antik dövrdə, e.ə. II əsrdən fəaliyyətə başlayan, uzunluğu 12 min kilometrdən çox olan, 1500 ilə yaxın bir müddətdə Şərq və Qərb xalqları arasında iqtisadi və mədəni əlaqələrin sürətlənməsini və genişlənməsini təmin edən İpək yolu həm də etnik-mədəni proseslərin mürəkkəbləşməsini şərtləndirirdi. İpək yolunun çoxsaylı qolları vardı. Həmin marşrutlardan tədqiqatçıların “Strabon yolu”, qədim coğrafiyaşünas və tarixçilərin "aors yolu" adlandırdıqları ticarət yolları Azərbaycan ərazisindən keçirdi, antik dövrdə cənub ölkələrinin mallarının şimala, şimal mallarının isə Yaxın Şərqə, Şərq mallarının Qərbə daşınması təmin edilirdi [13]. Antik dövrün qüdrətli dövlətləri Roma və Parfiya dövlətləri, eləcə də şimal köçəriləri həmin ticarət yoluna nəzarət uğrunda mübarizə aparırdı, xüsusilə Qərbi Xəzər ətrafı region cənubdan və şimaldan təzyiqə məruz qalmış məngənəni xatırladırdı. Arxeoloji tədqiqatlar sarmat, alan tayfalarının Azərbaycanın Xəzəryanı bölgələrinə vaxtaşırı yürüşlər etdiklərini sübut edir [28; 45]. Şimal köçəriləri Qərbi Xəzəryanı dəhlizdən keçməklə Romanın Yaxın Şərqdəki əyalətlərinədək irəliləyir və Roma ağalığı üçün təhlikə mənbəyinə çevrilmişdi.

E.ə.I əsrdə Roma sərkərdələri Lukull (e.ə.69-67), Q.Pompey (e.ə. 66-65), Antoninin (e.ə.38-33) Şərq yürüşlərinin məqsədlərindən biri də İpək yolunun Qərbi Xəzərboyu marşrutunu nəzarət altına almaq, Xəzər ətrafı regionu öz nüfuz dairəsinə daxil etmək idi. Eramızın 68-ci ilində imperator Neron Dərbənd keçidi üzərində nəzarəti ələ almaq üçün böyük bir yürüş planlaşdırmış, qoşun hissələrini Xəzəryanı bölgəyə göndərmişdi, lakin imperator

vəfat etdiyində Roma ordusu yarı yoldan geri qaytarılmışdı [13, s.97-99]. Qobustandakı latın dilində həkk olunmuş kitabə isə 84-96-cı illər arasında Roma hərbçilərinin Qərbi Xəzər ətrafı ərazidə olmasından xəbər verir. Seyran Vəliyevin mülahizəsinə görə, romalılar Xəzərboyu ticarət yolunu nəzarət altında saxlamaq üçün Beşbarmaq keçidində möhkəmlənmişdilər. Bu zaman romalıların düşərgə kimi seçdiyi ərazilərdən biri Abşeron yarımadasındakı hazırkı Ramanı kəndi olmuşdur və fikrini möhkəmlətmək üçün hələ keçən əsrin 70-80-ci illərinədək kənd sakinləri arasında Ramanı toponimi ilə yanaşı Romanı adının yaşadığını və sonuncu toponimin daha qədim olduğunu bildirir [20, s. 21-22].

Antik dövr arxeoloji abidələrin, xüsusilə qəbiristanların tədqiqi bu dövrdə həm şimaldan, həm də cənubdan miqrasiyaların olmasından xəbər verir, xüsusilə Xəzər ətrafı bölgə hər iki tərəfdən sıxılan məngənəni xatırladırdı. Belə ki, Rustov, Canaxır, Altıağac, Əmirtürbə qəbiristanların tədqiqi sarmat-alban qarşılıqlı əlaqələrindən xəbər verir. Antik dövrün təknə qəbirləri, çiy kərpicdən inşa olunan sərdabələr isə Parfiyadan olan miqrasiyanın göstərici kimi qəbul oluna bilər [28, s. 103-113].

Antik dövrün etnik-mədəni proseslərindən bəhs edərkən bu dövrdə ümumalban mədəniyyətinin formalaşmasını qeyd etmək lazımdır. Albanşünas arxeoloq Cabbar Xəlilov haqlı olaraq belə qənaətə gəlir ki, Albaniya dövlətinin yaranması ilə onun ərazisində alban mədəniyyəti təşəkkül tapmış, elmi ədəbiyyatda rast gəlinən "Küp qəbirləri mədəniyyəti", "Yaloylutəpə mədəniyyəti" müstəqil, ayrıca bir arxeoloji mədəniyyət olmayıb alban mədəniyyətinin məhəlli variantlarıdır [44, s. 213-214].

**IV-VII əsrin ilk qərinəsində miqrasiyalar və etno-mədəni proseslər.** Hunların Qafqaza miqrasiyası və Şimali Qafqazda hun ağalığının bərqərar olması regionun, o cümlədən Azərbaycanın sosial-iqtisadi, siyasi və etnik-mədəni durumuna əsaslı təsir göstərdi. "Xalqların böyük köcü" dövründə Albaniya, xüsusilə də Xəzəryanı region hərbi-siyasi və etnik-mədəni hadisələr burulğanına fəal cəlb olmuşdur. Məlum olduğu kimi, həmin dövr xalqların hərəkətə gəlməsi, hərbi əməliyyatların əhatə dairəsinin genişlənməsi, hərb sənətinə və müdafiə memarlığına diqqətin artması əlamətdar olmuşdur. Hun tayfalarının: barsillərin, haylandurların, saraqurların, onoqurların, sabirlərin, avarların və digərlərinin cənuba, Yaxın Şərqə yürüşləri Xəzəryanı regiondan keçirdi. Hunlar bölgədə oturaq-əkinçi əhali ilə yanaşı burada eramızın I minilliyinin ilk əsrlərindən burada məskunlaşmış köçəri və yarımköçəri tayfalar – maskutlarla qarşılaşdılar. Maskut tayfalarının adı Samurdan Gilgilçayadək düzənliyi əhatə edən Müşkür toponimində öz əksini tapmışdır [24, s. 173-178]. Bəzi tədqiqatçıların hunların köçü və Qafqazda hegemonlığı ilə əlaqədar bölgədə sosial-iqtisadi və mədəni tənəzzülün baş verməsi haqqında mülahizəsi arxeoloji tədqiqatların nəticələri ilə təkzib olunur. Xəzəryanı regionda qeydə alınmış şəhər yerlərinin, qalaların və kənd tipli kənd yerlərinin çoxluğu və sıxlığı iqtisadi və mədəni yüksəlişi təsdiqləməyə imkan verir [11;23].

Mənbələrin məlumatından bəlli olur ki, IV-V əsrlərdə Maskut dövləti "Masaha-hünlar"ın dövləti adlanırdı [26, s.93]. Bu dövlətin sərhədləri Dərbənddən Beşbarmaq dağınadək, bəzən hətta Kür çayınadək uzanırdı. Cənubi Dağıstanda tədqiq olunmuş Palasa-sırt qəbiristanı etnik-siyasi və sosial-iqtisadi hadisələrin burulğanına cəlb olunmuş maskut və hun tayfalarının inteqrasiyasını qabarıq əks etdirən abidələrdəndir [25, s. 87].

Hun hərbi birliyinin hərbi qüdrəti o dövrün fövqəl dövlətləri olan Bizans imperiyasını və Sasani dövlətini vahiməyə salmış, müdafiə olunmaq üçün ciddi tədbir görməyə məcbur etmişdir. Sasani hökmdarları döyüşkən türk tayfalarının cənuba doğru irəliləməsinin qarşısını nəhəng istehkam tikililəri ucaltmaqda almaq istəyirdilər. Müdafiə sədlərinin quraşdırılması üçün strateji baxımdan ən əlverişli məkan Böyük Qafqaz sıra dağlarının Xəzər dənizinə sıx yaxınlaşaraq sahil boyu düzənlikdə dar keçidlər əmələ gətirdiyi yerlər idi. Albaniyanın şimal-şərqindəki dar keçidlərdə beş müdafiə səddi salınmışdı. Onlardan üçü-Beşbarmaq, Gilgilçay Dərbənd sədləri xüsusilə böyük əhəmiyyətə malik idi. Onlar erkən orta əsrlərin nəhəng istehkam tikililəri olub Azərbaycan hərb memarlığının şah əsərlərindəndir. Azərbaycanın az abidəsi tapılar ki, bu sədlər qədər orta əsrlərin və yeni dövrün tarixcilərinin, coğrafiyacılarının, səyyahlarının diqqətini cəlb etsin.

Yazılı mənbələrdə müdafiə sədlərinin inşaatı ilə əlaqəli dörd sasani şahının – II Yəzdigerd, Firuz, I Qubad və I Xosrov Ənuşirəvanın adı qeyd olunur. Müdafiə sədlərinin inşaatında Sasani hərb memarlığının inşaat texnikası və üsulları tətbiq edilmiş, inşaatın gedişatına sasani məmurları nəzarət etmiş, amma bu nəhəng tikintinin bütün ağırlığı yerli əhalinin üzərinə düşmüşdü. I Xosrov Ənuşirəvanın dövründə ucaldılan Dərbəndin daş müdafiə divarlarının ilk orta əsr hərb memarlıq sənətinin tacı hesab etsək yanılmarıq.

Sasani şahları böyük strateji əhəmiyyət kəsb edən Xəzərboyu dəhlizi nəzarətdə saxlamaq məqsədi ilə fəal köcürmə siyasəti aparır, İranın daxili rayonlarından İran dilli tayfaları bu ərazilərə köçürürdülər. Həmin tayfalar hərbi-strateji əhəmiyyətli, müdafiə sədlərinin qərarlaşdığı ərazilərdə yerləşdirilimişdi. Yaqut əl-Həməvi yazır ki, "Fars şahları, mühüm əhəmiyyətə malik olduğuna görə (kənardan təhlükə olduğuna görə) diyara böyük diqqət yetirir və onun bütün işlərini nəzarətdə saxlayırdılar. Ona görə də bu yerin [müdafiəsi] üçün müxtəlif ölkələrdən köçürülən mühafizə dəstələri və onların inamını qazanmış adamları təyin edirdilər" [2, s. 153].

Bu dövr həm də dini qarşıdurma ilə əlamətdar olmuşdur. Fövqəl dövlətlər - Sasani dövləti və Bizans imperiyası qlobal siyasətində dini faktordan istifadə edir, sasanilər Xəzəryanı bölgədə zor gücünə zərdüştlüyü yaymağa səy göstərirdi [27, s. 250].

Sasani şahlarının bütün cəhdlərinə baxmayaraq Şimalın köçəri tayfalarının Xəzərboyu dəhlizdən keçməklə cənuba hərəkətinin qarşısının alınması mümkün olmadı. V-VI əsrlərdə qarşılıqlı təsir nəticəsində istər köçəri, istərsə də oturaq əkinci əhalinin iqtisadiyyatında, sosial quruluşunda və mədəni

həyatında nəzərə çarpacaq dəyişikliklər baş verdi. Bir tərəfdən sasani şahlarının köçürmə siyasəti, digər tərəfdən şimal köçərilərinin tədrici oturaq həyat tərzinə keçməsi Xəzəryanı regionun sıx məskunlaşmasını şərtləndirdi. Bütün bu hadisələr regionun arxeoloji abidələrində öz qabarıq əksini tapmışdır. "Xalqların böyük köçü" dövrünə aid şəhərgahlar, qalaların, kənd tipli yaşayış yerlərinin sıxlığı, bir çox şəhərlərin məhz bu dövrdə formalaşması iqtisadi və mədəni inkişafa dəlalət edir. Hunların Albaniyaya miqrasiyasi güclənir, onların bir qismi yerli əhali ilə qarışaraq buranın daimi sakinlərinə çevrilirlər. Yeni salınan bəzi şəhərlərin sakinlərinin əksəriyyətini oturaq həyat tərzinə keçən keçmiş köçərilər və onların varisləri təşkil edirdi. Belə şəhərlərdən biri Şabran idi. Söz yox ki, şəhərin erkən orta əsrlərdə təşəkkül tapması Xəzəryanı bölgənin hərbi-siyasi, etno-konfessional və iqtisadi-mədəni əlaqələrdə mühüm əhəmiyyət kəsb etməsi ilə bağlı olmuşdur. Yazılı qaynaqların məlumatının arxeoloji materiallarla müqayisəli təhlili V-VI əsrlərdə bölgədə məskunlaşan sabirlərin Şabran şəhərinin təşəkkül tapmasında fəal iştirak etdiyini təsdiqləyir [1, s. 218; 17, s.188; 24, s.158; 32, s. 59].

Ərəb istilası ərəfəsində Azərbaycan, xüsusilə onun şimal-şərq bölgəsi polietnik tərkibə malik idi və burada türk, Şahdağ qrupu xalqları, İran mənşəli xalqlar, yəhidilər yaşayırdılar. Türk etnosu üstünlük təşkil edirdi. Region təkcə polietnik tərkibi ilə deyil, həm də konfessional rəngarəngliyi ilə fərqlənirdi. Sasani şahları ideoloji təsir məqsədi ilə yerli əhali arasında zərdüştlüyün yayılması, hakim ideologiyaya çevrilməsinə böyük səylər göstərirdi. IV əsrdən xristianlıq Albaniyada rəsmi din statusu almışdı. Alban hökmdarları xristianlığın geniş yayılmasında, alban kilsəsinin mövqelərinin möhkəmlənməsində maraqlı idilər. Alban kilsəsi də öz növbəsində maskutlar, hunlar arasında xristianlığı yaymağa cəhdlər edirdi. IV əsrin əvvəllərində müqəddəs Qriqoris Xəzəryanı bölgədə maskut və hun tayfaları arasında xristianlığı yaymağa cəhd etmişdi. Mənbədə bildirilir ki, "müqəddəs Qriqoris saysız-hesabsız hun ordusunun başçısı Maskut hökmdarının yanına gəlib özünü təqdim etdi və xristian ehkamlarını onlara təbliğ edərək dedi: "Allahı tanıyın!" Əvvəlcə onlar dinləyib qəbul etdilər və ona tabe oldular". Lakin sonradan maskutlar müqəddəs Qriqorisi təxribatçılıqda günahlandırıb, onu atın quyruğuna bağladılar və əzablı ölümlə məhv etdilər [34, кн. I, гл. 14].

Cənub-Şərqi Dağıstanda və Şimal - Şərqi Azərbaycanda maskutlara məxsus qəbiristanlarda aparılan arxeoloji qazıntılar əhali arasında xristianlığın geniş yayılmadığını göstərir [48, s. 162] . VI yüzilliyin 20-ci illərindən alban kilsəsinin şimal köçəriləri - hunlar arasında xristianlığı yaymaq üzrə fəaliyyəti güclənir. Yepiskop Kardost 522-535-ci illərdə hunların ölkəsində yaşayıb missionerlik fəaliyyəti ilə məşğul olmuş, müqəddəs kitabı hun dilinə tərcümə etmişdi [6, s. 73; 48, s. 164]. Lakin hunlar arasında xristianlıq arzu olunan uğuru qazanmamış, bütpərəstlikdən xristianlığa keçid ləng və tədrici xarakter daşımışdı.

Xəzəryanı bölgədə daha bir monoteist dinin nümayəndələri məskun-

laşmışdılar. Regionda ən azından 1500 il bundan öncə iudaizmin yayılması Sasani şahlarının Mesopotamiyadan yəhudilərin bir qismini buraya köcürməsi ilə bağlı olmuşdur [1, s. 235].

Albaniyada bütpərəstlik kifayət qədər böyük təsirə malik idi. Mübariz Xəlilov erkən orta əsr alban bütpərəst mədəniyyətində şimal köçərilərinin güclü təsiri altında təşəkkül tapmış Dərbənd-Şamaxı məhəlli variantını müəyyənləşdirə bilib [4, s. 46-47]. Alban kilsəsinin mövqelərinin kifayət qədər güclü olduğu Qarabağ bölgəsində də bütpərəstlik müəyyən dərəcədə qalmaqda idi. Bunu Qarabağda IV-VII əsrlərə aid olunan 19 daş büt aşkarlaması da təsdiqləyir [46]. Sığnaq yaşayış yerində isə daş bütlərin hazırlandığı emalatxana üzə çıxarılmışdır. Alban bütləri üçün monolit daşdan stela formasında yonulması, ayaqların və boynun bildirilməməsi, əllərin gövdədə qabarıq göstərilməsi səciyyəvidir. Görünür, bu qanuniləşdirilmiş xüsusiyyətlər kultun ideoloji xüsusiyyətləri bağlı olmuşdur. Tədqiqatçılar Qarabağ heykəllərinin ikinoqrafiya və yonulma üslubunda qədim türk heykəlləri ilə oxşarlığı yekdilliklə qeyd edirlər [28, s. 102].

Yerli, İran və Şimal köçərilərinin ənənələrinin qarşılıqlı təsiri mədəniyyət komplekslərinə əhəmiyyətli dərəcədə təsir göstərməkdə idi. Yerli sənətkarlar sasani incəsənətinin süjet və motivlərindən bəhrələnir, bəzən hətta onlara bənzətmələr hazırlayırdılar. Qliptika və torevtika sənətlərində bu özünü daha qabarıq göstərir. Yerli mədəniyyətin inkişafında hun tayfalarının təsiri də əhəmiyyətli dərəcədə idi. Mədəniyyətlərin qarşılıqlı təsiri qəbir abidələrində özünü büruzə verir. Xucbala, Quxuroba, Sandıqtəpə, Canaxır abidələrində yerli oturaq və Şimal köçəri mədəniyyətin sintezini izləmək mümkündür [5].

Türk tayfalarının İrandilli və Qafqazdilli tayfalarla sıx təması, onların qarşılıqlı təsiri etnik transformasiyaya, konsolidasiyaya güclü təkan verirdi. Köçərilərin miqrasiyası, tədqiq olunan Albaniyada oturaq həyata keçməsi və böyük passionar potensialı türk etnosunun sayının artmasını və türk dilinin artıq erkən orta əsrlərdən tayfalararası ünsiyyət dili rolunu ifadə etməsini şərtləndirmişdi.

**Nəticə.** Azərbaycanın ərazisinin təbii-coğrafi şəraiti onun nəinki Qafqaz, eləcə də Yaxın Şərq və Cənub-Şərqi Avropa üçün önəmli bir məkan, əlaqələndirici körpü olmasını şərtləndirmiş, erkən daş dövründən bu region məskunlaşmış, zaman-zaman buraya cənubdan, şimaldan, qərbdən miqrasiyalar olmuş, gəlmələr yerli əhali qaynayıb qarışaraq etnik-mədəni proseslərdə iştirak etmişdilər. Antik dövrdən fəaliyyətə başlayan Böyük İpək yolunun bəzi marşrutlarının Azərbaycan ərazisindən keçməsi də entik-mədəni proseslərə təsir edən amillərdən olmuşdur. Xalqların böyük köçü dövründə Albaniya hərbi-siyasi, etnik-mədəni proseslər orbinə fəal cəlb olunan dövlətlərdən idi. Sasanilərin, Bizansın bütün şimaldan türk tayfalarının Azərbaycana axının qarşısını almaq üzrə cəhdləri uğursuz olmuş və müsəlman fəthləri ərəfəsində burada türk etnosu üstünlük təşkil etmiş və türk dili vasitəçi rol oynamışdı.

**Ədəbiyyat siyahısı:**

1. Dostiyev T.M. Şimal-Şərqi Azərbaycan IX-XV əsrlərdə.Bakı,Bakı Universiteti,2001,396 s.
2. Əliyeva N. "Mucəm əl-buldən" əsərində Azərbaycan və Qafqaz. Bakı, "Elm və təhsil", 2020, 424 s.
3. Əliyev İ, Abdullayev F. Haməlum Abşeron. Bakı: Digital Age Production, 2011, 128 s.
4. Xəlilov M.C. Albaniyanın ilk orta əsr maddi mədəniyyəti //Azərbaycan arxeologiyası, 2007, №1-2, s. 38-54.
5. Xəlilov M.C. Albaniyanın qəbir abidələri (IV-X əsrlər). Bakı, "Nafta-Press" nəşr.,2009,180 s.
6. Xəlilov M.C. Albaniyanın xristian abidələri (IV-X əsrlər). Bakı, "Xəzər Universiteti" nəşr., 2011, 344 s.
7. Xəlilov M.C. Albaniyanın tarixi, etno-mədəni hüdudlar, qərb istiqaməti. Bakı: RS Poliqraf, 2017, 116 s.
8. Mahmudova H.R. İskit-Sibir dünyası və Azərbaycan. Bakı: Bakı Dövlət Universiteti, 2019, 220 s.
9. Müseyibli N.Ə. Leylatəpə mədəniyyəti. Bakı:"Elm və təhsil", 2020, 576 s.
10. Nərimanov İ.H. Leylatəpə mədəniyyətinin Azərbaycanın qədim tarixində əhəmiyyəti // Azərbaycanın maddi mədəniyyətinə tarixinə dair 1990-cı ildə aparılmış çöl tədqiqatlarının yekunlarına həsr olunmuş elmi konfransın məruzələrinin tezisləri. Bakı, 1991, s.7-8
11. Orucov A.Ş. Şimal-Şərqi Azərbaycan ilk orta əsrlərdə. Bakı: 2018, 304 s.
12. Schachner A. Azerbaycan Astara Müzesi'ndeki bir Stel örneğinde M.Ö. 2. Binde Hazar Denizi ile Van Gölü arasındakı Yontu Sanatı // Azərbaycan arxeologiyası, 2018, № 2, s.23-52.
13. Азербайджан на Шелковом пути. Под редакции академика Ш.М.Мустафаева. Баку: "Təhsil", 2020, 384 c.
14. Алиев И.Г. Очерк истории Атрапотены. Баку:Азернешр, 1989, 160 с.
15. Амиров Ш.Н. Месопотамско-кавказские связи IV-III тыс. до н.э. в свете климатических флуктуации // Краткие сообщения Института археологии РАН. Москва, 2014,вып. 233. с. 3-17.
16. Амирханов Х.А. Исследование памятников олдована на Северо-Восточном Кавказе. Москва: Изд-во «Таус», 2007, 52 с.
17. Артамонов М.И. Очерк древней истории Хазар. Ленинград, Соцэкгиз, 1936, 136 с.
18. Атаев Г.Д., Ахундов Т.И. Этнокультурные контакты населения Северо-Восточного Кавказа со степными племенами в конце ранней и в эпоху средней бронзы // История, археология и этнология Кавказа, 2018, №4 (3), с. 82-94
19. Бабаев И.А. Города Кавказской Албании в IV в. до н.э. – III в. н.э. Баку: Элм, 1990, 236 с.
20. Велиев С.С. Древний, древний Азербайджан. Баку: Гянджлик, 1983.- 148 стр.
21. Гаджиев М.Г. Поселения горного Дагестана эпохи ранней бронзы // Древние и средневековые поселения Дагестана. Махачкала,1983, 23-40.
22. Гаджиев М.Г. Раннеземледельческая культура Северо-Восточного Кавказа. Эпоха энеолита и ранней бронзы. Москва: Наука, 1991, 274 с.
23. Гаджиев, М. С.; Бакушев, М. А.; Борисов, А. В.; Рябогина, Н. Е. О миграционных и демографических процессах на территории Дагестана в албано-сарматский и раннесредневековый периоды //: Stratum Plus Journal . 2020, Issue 4, с. 309-324
24. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев.Баку,Элм,1991, 552 с.
25. Гмыря Л.Б. Погребальный обряд Паласа-сыртского могильника (этносоциальная интерпретация)//Этнокультурные процессы в древнем Дагестане.Махачкала, 1987, с.72-89.
26. Гмыря Л.Б. Страна гуннов у Каспийских ворот. Махачкала, Даг.книж.изд-во,1996,286 с.
27. Гошгарлы Г.О. «Поликонфессиональность» древнего Азербайджана по данным археологии // Milli Azərbaycan Tarixi Mezeyi – 2014. Bakı: "Ziya", 2014, с. 244-262

*28. Гошгарлы Г.О. Типология погребельных памятников античного периода на территории Азербайджана. Баку: Элм, 2012, -248 с.*
*29. Гусейнов М.М. Древний палеолит Азербайджана. Баку: Текнур, 2010, 247 с.*
*30. Джафаров Г.Ф. Связи Азербайджана смо странами Передней Азии в эпоху поздней бронзы и раннего-железа. Баку: Элм, 1984, 108 с.*
*31. Джафаров Ю.Р. Гунны и Азербайджан. Баку, Азернешр,1993, 107с.*
*32. Достиев Т.М. Этнокультурные процессы в Северо-Восточной Албании в раннем средневековье // Вестник Бакинского Университета, 2013, №2, с. 56-62*
*33. Зейналов А.А., Зейналова Л.А. Миграции человека в раннем палеолите и ареал распространения Куручайской культуры // Палеолитическая стоянка Азых в Азербайджане и миграционные процессы. Сб. материал. науч. конф. Баку, 2018 , с. 85-100*
*34. Каганкатваци М. История Агван. Перев. с арм. К.Патканова. Санкт-Петербург, 1861, 376 с.*
*35. Кириченко Д.А. Палеоантропология Азербайджана (VII в.до н.э.- V в.н.э.), Баку: Apostrof-A, 2020, 208 с.*
*36. Клавдий Птолемей. Руководство по географии (отрывки). //Античная география. Москва, 1953, с. 286-323.*
*37. Кудрявцев А.А. Древний Дербенд. Москва: Наука, 1982, 176 с.*
*38. Махмудов Ф.Р. Культура Юго-Восточного Азербайджана в эпоху бронзы и раннего железа. Баку: «Nafta-Press», 2008, 216 с.*
*39. Меликов Р. Племя каспиев по античным и древневосточным источникам // Журнал «Проблемы истории, филологии, культуры». – Вып. XIII, Москва-Магнитогорск, 2003. – с. 217–229.*
*40. Меликов Р. Этническая картина Азербайджана в эпоху Ахеменидов (VI-IV вв. до н. э.). Баку, Нурлан, 2003, 198 с.*
*41. Мусаев Д.Л. Серкертепе – поселение эпохи ранней бронзы. Баку: "Nafta-Press", 2006, 173 с.*
*42. Прокопий Кесарийский. Война с готами, Москва, Изд-во АН СССР, 1950, 514 с.*
*43. Трифонов В.А. Западные пределы распространения майкопской культуры // Известия Самарского научного центра РАН, 2014, №3, с. 276-284.*
*44. Халилов Дж.А. Материальная культура Кавказской Албании. Баку: Элм, 1985, 277 с.*
*45. Халилов Дж.А, Кошкарлы К.О., Аразова Р.Б. Археологические памятники Северо-Восточного Азербайджана. Баку, Элм,1991, 214 с.*
*46. Халилов М. Антропоморфные каменные изваяния Карабаха.// Azərbaycan arxeologiyası, 2004, № 1-4, с. 100-104.*
*47. Халилов М.Дж. Протоскифы и их потомки в Карабахе // "Irs-Наследие". Москва, 2005, № 2-3, с. 14-17.*
*48. Халилов М.Дж. Христианские памятники Албании (Азербайджан) IV-X вв. // Регии Центральной Азии и Азербайджана. Том IV. Христианство. Ташкент-Самарканд: МИЦАИ, 2018, с. 157-227.*

**UOT 94 (479.24); 930:314**

# ÇUXUR-SƏƏD ƏHALİSİNİN SAY DİNAMİKASI, YERLƏŞMƏSİ, ETNİK VƏ DİNİ TƏRKİBİ

**Bəymirzə Şabiyev**
*BDU, Tarix fakültəsi, dosent*
*azerbaycantarixi@yandex.ru*

*Çuxur-Səəd bəylərbəyliyi əhalisinin say dinamikası, etnik və dini tərkibi, yerləşməsinin araşdırılması bölgə tarixinin mühüm və mürəkkəb problemlərindən biridir. Problemin mürəkkəbliyi ilk növbədə bu məsələlərlə bağlı Səfəvi dövrünə aid yerli qaynaqlardakı məlumatların demək olar ki, olmaması ilə bağlıdır. Bu boşluğu qismən də olsa Osmanlı qaynaqları və səyyah gündəliklərində əksini tapmış məlumatlar tamamlayır. XVI əsrin 90-cı və XVIII əsrin 20-ci illərində Osmanlı dövlətinin hakimiyyəti altında olmuş Çuxur-Səəd bəylərbəyliyi ərazisində Osmanlı məmurları tərəfindən həyata keçirilmiş siyahıyaalma materialları bu baxımdan çox böyük elmi əhəmiyyətə malikdir. Bəhs olunan dövrlərdə Osmanlı məmurlarının Çuxur-Səəd və ya İrəvan bəylərbəyliyi üzrə tərtib etdikləri iki müfəssəl, dörd icmal və iki sicil dəftərləri bölgənin inzibati-ərazi quruluşu, əhalisinin sayı, yerləşməsi, dini və etnik tərkibi, məşğuliyyəti, gəlir mənbələri, toponimikasını öyrənmək baxımından zəngin məlumatlara malikdir. Bu dəftərlər içərisində 1590 və 1728-ci il tarixli müfəssəl dəftərləri xüsusilə diqqətə layiqdir.*

***Açar sözlər:*** *İrəvan, Çuxur-Səəd, dinamika, Səfəvi*

## *THE DYNAMICS, RESETTLEMENT AND ETHNIC-RELIGIOUS CONTENT OF POPULATION OF CHUKHUR-SAAD*

*The paper deals with the population dynamics, ethnic and religious composition, location of the population of Chukhur-Saad beylerbeyi is one of the important and complex problems in the history of the region. The complexity of the problem is primarily because there is almost no information on these issues in local sources of the Safavid period. This gap is filled, albeit partially, by Ottoman sources and information contained in traveler's diaries. The census materials carried out by Ottoman officials in the territory of Chukhur-Saad beylerbeyi, which was under the rule of the Ottoman state in the 90s of the 16th century and the 20s of the 18th century, are of great scientific importance in this regard. Two detailed, four summaries and two notebooks compiled by Ottoman officials on Chukhur-Saad or Iravan beylerbeyi in the mentioned periods provide rich information in terms of studying the administrative-territorial structure, population, location, religious and ethnic composition, occupation, sources of income, toponymy of the region. has. Of these, the detailed books of 1590 and 1728 are particularly noteworthy.*

***Keywords:*** *Erivan, Chukhur-Saad, dynamics, Safavid*

**Giriş:** Çuxur-Səəd bəylərbəyliyi və ümumiyyətlə İrəvan bölgəsinin əhalisinin say dinamikası, etnik və dini tərkibi, yerləşməsinin araşdırılması bölgə tarixinin mühüm və mürəkkəb problemlərindən biridir. Problemin mürəkkəbliyi ilk növbədə bu məsələlərlə bağlı Səfəvi dövrünə aid yerli qaynaqlardakı məlumatların demək olar ki, olmaması ilə bağlıdır. Bu boşluğu

qismən də olsa, Osmanlı qaynaqları və səyyah gündəliklərində əksini tapmış məlumatlar tamamlayır. XVI əsrin 90-cı və XVIII əsrin 20-ci illərində Osmanlı dövlətinin hakimiyyəti altında olmuş Çuxur-Səəd bəylərbəyliyi ərazisində Osmanlı məmurları tərəfindən həyata keçirilmiş siyahıyaalma materialları bu baxımdan çox böyük elmi əhəmiyyətə malikdir. Bəhs olunan dövrlərdə Osmanlı məmurlarının Çuxur-Səəd və ya İrəvan bəylərbəyliyi üzrə tərtib etdikləri iki müfəssəl, dörd icmal və iki sicil dəftərləri bölgənin inzibati-ərazi quruluşu, əhalisinin sayı, yerləşməsi, dini və etnik tərkibi, məşğuliyyəti, gəlir mənbələri, toponimikasını öyrənmək baxımından zəngin məlumatlara malikdir. Bu dəftərlər içərisində 1590 və 1728-ci il tarixli müfəssəl dəftərləri xüsusilə diqqətə layiqdir.

**İrəvan əyalətinin inzibati bölgüsü:** 1590-cı il tarixli müfəssəl dəftərə görə, İrəvan əyaləti 10 nahiyəsi (İrəvan, Karbi, Vedi, Aralıq, Talin, Ərmus, Abnik, Abaran, Karni, Şərəbxana) olan İrəvan livasından, 16 nahiyəsi (Məvaziyi-Xatun, Dərəşəm, Dərəşahbuz, Bazarçayı, Mülki-Arslanlı, Qarabağ, Şərur, Ağcaqala, Ordubad, Azadciran, Şorlut, Dərənürgüt, Zar, Zəbil, Əlincə, Sisyan) və bir qəzası (Naxçıvan) olan Naxçıvan livasından ibarət olmuşdur [1, 8-9]. 1728-ci il tarixli İrəvan əyalətinin müfəssəl dəftərinə görə isə, əyalət İrəvan şəhəri, Qırxbulaq, Karbi, Maku, Xınzirək, Karni, Vedi, Dərəçiçək, Abaran, Göyçə, Məzrə, Sürməli, İqdır, Aralıq, Şərur, Sədərək, Zərzəmin nahiyələri və Şuragəl livası, Naxçıvan sancağı isə Naxçıvan şəhəri, Naxçıvan, Əlincə, Sair - Mərazi, Dərəşahbuz, Mülki-Arslan, Məvaziyi-Xatun, Qarabağ, Qışlağat, Dərəşam, Azadciran, Şorlut, Dərənürgüt, Dərələyəz və Sisyan nahiyələrindən ibarət olmuşdur [1, 9]. Göründüyü kimi, 1590 - cı illə müqayisədə, 1728-ci ildə Osmanlı məmurları İrəvan əyalətinin inzibati quruluşunda bəzi dəyişikliklər etmişdilər. 1590-cı il tarixli İrəvan əyalətinin müfəssəl dəftəri əsasında aparılmış hesablamalara görə, əyalətdə qeydə alınmış 9.164 vergi ödəyicisinin 8.654 nəfəri evli, 510 nəfəri isə subay kişilərdən ibarət olmuşdur [1, 11-12]. Tarixşünaslıqda qəbul edilmiş qaydaya əsasən, bir ailənin 5 nəfərdən ibarət olduğu nəzərə alınarsa, həmin dövrdə hesablamalara görə İrəvan əyalətində 43.780 nəfərin yaşaması məlum olur. 1590-cı il tarixli İrəvan əyalətinin müfəssəl dəftərində qeydə alınan əhalinin 59,1%-ni xristianlar (26.949 nəfər), 40,9%-ni isə müsəlmanlar (16.831 nəfər) təşkil etmişdir. Bölgə əhalisinin dini tərkibi demək olar ki, əhalinin etnik tərkibi ilə üst-üstə düşür. Onu da qeyd etmək lazımdır ki, bölgədə qeydə alınan xristian əhalinin bir qismini qaraçılar, bir qismini isə zorakı qriqoryanlaşma və ermənilәşməyə məruz qalmış albanlar təşkil etmişlər. Bölgənin müsəlman əhalisinin mütləq əksəriyyəti Azərbaycan türkləri, az bir hissəsi isə kürdlərdən ibarət olmuşdur.

**İrəvan bölgəsinini əhalisinini say dinamikası:** Onu da qeyd etmək lazımdır ki, 1590-cı il tarixli dəftərdə əksini tapmış statistik rəqəmlər Çuxur-Səəd əhalisinin sayı ilə bağlı gerçək durumu heç də tam əks etdirmir. Belə ki, 1579-cu ildə Abaran nahiyəsində yaşayan 3.000 ailənin Osmanlı ərazisinə

köçürülməsi, həmçinin Osmanlı ordusunun Şərabxana nahiyəsindən 20 minə qədər əhalini əsir aparmaları qaynaqlardan məlumdur. Digər tərəfdən, bölgənin şiə-müsəlman əhalisinin böyük bir hissəsi Osmanlı hakimiyyətini qəbul etməyərək kütləvi şəkildə öz yaşayış yerlərini tərk edərək Səfəvi dövlətinin digər ərazilərinə köçmüşdülər. 1590-cı il tarixli İrəvan əyalətinin müfəssəl dəftərinə görə, İrəvan nahiyəsində qeydə alınan 89 kənddən 54-nün, Karbi nahiyəsində 64-dən 32-nin, Karni nahiyəsində 41-dən 27-nin, Vedi nahiyəsində 52-dən 44-nün, Aralıq nahiyəsində 30-dan 27-nin, Talin nahiyəsində 15-dən 12-nin, Ərmavi nahiyəsində 22-dən 20-nin əhalisi, Abnik nahiyəsinin Çələbi Abaran nahiyəsinin 46, Şərabxana nahiyəsinin 15 kəndinin əhalisinin hamısı Osmanlı hakimiyyətini qəbul etməyərək, öz doğma yurd-yerlərini tərk etmişdilər. 1590-cı il İrəvan əyalətinin müfəssəl dəftərinə görə, Naxçıvan sancağında da vəziyyət acınacaqlı idi. Belə ki, bu dövrdə Naxçıvan sancağında qeydə alınan 393 yaşayış məntəqəsindən 269-nun əhalisi öz yaşayış yerlərini tərk etmişdilər. Sancağın Bazarçayı, Zar, Zəbil, Şərabxana nahiyələrinin bütün əhalisi köçmüş, Mülki-Arslanlı nahiyəsinin 7 kəndindən 6-nın, Ağcaqala nahiyəsinin 64 kəndindən 60-nın, Sisyan nahiyəsinin 34 kəndindən 28-nin, Məvaziyi-Xatun nahiyəsinin 20 kəndindən 8-nin, Qarabağ nahiyəsinin 8 kəndindən 5-nin, Dərəşahbuz nahiyəsinin 30 kəndindən 22-nin, Əlincə nahiyəsinin 42 kəndindən 25-nin əhalisi öz yurd yerlərini tərk etmişdilər [2,13]. Öz doğma yurd yerlərini tərk edən əhalinin təbii ki, hamısı bölgənin türk-müsəlman əhalisi olmuşdur. 1590-cı il tarixli müfəssəl dəftərə görə, İrəvan əyalətində qeydə alınan 9.164 vergi mükəlləfiyyəti daşıyan əhalinin 6.037 nəfəri Naxçıvan sancağının payına düşür ki, onların da 49,1%-ni müsəlmanlar, 50,9%-ni qeyri-müsəlmanlar təşkil etmişdir [2, 12-13].

1590-cı il "İrəvan əyalətinin müfəssəl dəftəri" bölgə əhalisinin yerləşməsi baxımından da əhəmiyyət doğurur. Mənbənin məlumatına görə, həmin dövrdə bölgədə 3 şəhər tipli yaşayış məntəqəsi - İrəvan, Naxçıvan və Ordubad şəhərləri qeydə alınmışdır. Mənbənin materialları əsasında tərtib etdiyimiz aşağıdakı cədvəllər bəhs olunan dövrdə bölgənin şəhər əhalisi haqqında müəyyən təsəvvür yaratmağa imkan verir.

**Cədvəl 1**

**İrəvan şəhəri-1590-cı il**

| **Məhəllələr** | **Evli** | **Subay** | **Gəlmə** | **Müsəlman** | **Qeyri-müsəlman** |
|---|---|---|---|---|---|
| Mardiros | 87 | 2 | ---- | ---- | 89 |
| Mirzə | 42 | 3 | 2 | ---- | 47 |
| Civali | 47 | ---- | 3 | ---- | 50 |
| Börkçüohan | 53 | ---- | 1 | ---- | 54 |
| Dərə köy | 39 | ---- | 1 | ---- | 40 |
| Kiçik Kaykı | 94 | ---- | ---- | ---- | 94 |
| Nəfsi Rəvan | 29 | ---- | ---- | 29 | ---- |
| **Cəmi:** | 391 | 5 | 7 | 29 | 374 |

**Mənbə:** [1, 10]

Mənbənin məlumatından aydın olur ki, XVI əsrin 90-cı illərində İrəvan şəhərinin Rəvan özü istisna olmaqla, 6 məhəlləsinin hamısında qeydə alınanlar qeyri-müsəlmanlar olmuş, yalnız Nefsi Rəvanda 29 müsəlman ailəsi siyahıya alınmışdır. Aydın məsələdir ki, Osmanlı işğalı zamanı İrəvan əyalətinin nahiyələrində olduğu kimi, İrəvan şəhərinin şiə-müsəlman əhalisi də şəhəri kütləvi şəkildə tərk etmişdir. Şəhərin məhəllələrinin bəzilərinin adının erməni mənşəli olması isə onunla bağlıdır ki, Osmanlı məmurları bəzi məhəllələri həmin məhəllədə qeydə düşən ilk şəxsin adı ilə adlandırmışlar. Şəhərdə qeydə alınan 374 qeyri-müsəlmanın 5-i subay, 7-si gəlmə olmaqla cəmi 1.850 nəfərə, müsəlmanların sayı isə 145 nəfərə bərabər olmuşdur. Bu isə şəhər əhalisinin 93%-nin qeyri-müsəlman, 7%-nin müsəlman olması deməkdir. Maraqlıdır ki, türk tarixçisi H. Babacan həmin mənbə əsasında apardığı hesablamalarda İrəvan şəhərində qeyri-müsəlman əhalisinin sayının 1.873 nəfər olduğunu göstərmişdir [3, 12].

**Cədvəl 2**

**Naxçıvan şəhəri-1590-cı il**

| Şəhərin məhəllələri | Evli | Subay | Gəlmə | Müsəlman | Qeyri-müsəlman |
|---|---|---|---|---|---|
| Qazi Cahan və ya Xoca Mirihan | 71 | 1 | ---- | 72 | ---- |
| Seyid Hüseyn | 101 | 21 | ---- | 122 | ----- |
| Molla Əhmədi | 71 | 16 | ---- | 87 | ----- |
| Mirzə bəy və ya Came küçəsi | 26 | 6 | ---- | 32 | ----- |
| Sahib küçəsi | 11 | 3 | ---- | 14 | ----- |
| Günbad və ya Türkmanlar | 23 | 7 | ---- | 30 | ----- |
| Yuxarı küçə | 83 | 16 | ---- | 99 | ----- |
| Xoca bəy küçəsi | 111 | 14 | ---- | 125 | ----- |
| Hoza Meri küçəsi | 65 | 11 | ---- | 76 | ----- |
| Tez Xapab | 10 | 2 | ----- | 12 | ----- |
| Kökə Nover və ya Yuxarı küçə | 21 | 3 | ---- | 24 | ----- |
| Qala küçə | 11 | 2 | ---- | 13 | ----- |
| Qeyri-müsəlman məhəlləsi | 116 | 26 | ---- | ---- | 142 |
| **Cəmi** | 720 | 128 | ---- | 706 | 142 |

**Mənbə:** [2, 12-13]

Hesablamalar göstərir ki, 1590-cı ildə Naxçıvan şəhərində 720 ailəli, 128 nəfər isə subay qeydə alınmışdır. Bunlardan 604 nəfəri ailəli,102 nəfəri subay müsəlman, 116 nəfəri ailəli, 26 nəfəri isə subay qeyri-müsəlman olmuşdur. Şəhərdə müsəlmanların cəmi sayı 3.122-yə, qeyri-müsəlmanların sayı isə cəmi 206 nəfərə bərabər olmuşdur.

**Cədvəl 3**

**Ordubad şəhəri – 1590 - cı il**

| Şəhərin məhəllələri | Evli | Subay | Gəlmə | Müsəlman | Qeyri-müsəlman |
|---|---|---|---|---|---|
| Minğıs | 53 | 10 | ---- | 63 | ---- |
| Kurdatel və ya Meydan | 54 | 3 | ---- | 57 | ---- |

| | | | | | |
|---|---|---|---|---|---|
| Amberas | 81 | 1 | ---- | 82 | ---- |
| Su Şehri məhəlləsi | 44 | ---- | ---- | 44 | ---- |
| Ordubad məscidi məhəlləsi | 3 | ---- | ---- | 3 | ---- |
| Erməni məhəlləsi | 30 | ---- | 2 | 17 | 13 |
| **Cəmi** | 265 | 14 | 2 | 266 | 13 |

**Mənbə:** [2, 12-13]

Cədvəldən göründüyü kimi, 1590-cı ildə Ordubad şəhərinin altı məhəlləsində qeydə alınmış 281 vergi ödəyicisinin 267 nəfəri ailəli, 14 nəfəri isə subay olmuşdur. 281 nəfər vergi ödəyicisinin (1.322 nəfərin) 1.274 nəfəri müsəlman, 55 nəfəri isə qeyri-müsəlmanlardan ibarət olmuşdu.

Beləliklə, 1590-cı il "İrəvan əyalətinin müfəssəl dəftəri"nə əsasən əyalətdə qeydə alınan 43.780 nəfərin 6.507 nəfəri şəhərlərdə, 37.273 nəfəri isə kənd tipli yaşayış məntəqələrində məskunlaşmışdılar.

**Bölgə haqqında səyyah məlumatları:** Osmanlı statistik məlumatları ilə yanaşı, XVI-XVII əsr səyyah gündəliklərində də Çuxur-Səəd bəylərbəyliyi və Naxçıvan əhalisi haqqında bəzi məlumatlara təsadüf olunur. XVI əsrə aid səyyah gündəliklərində bu səpgili məlumatlara nadir hallarda, XVII əsr səyyahətnamələrində isə, bir qədər çox rast gəlmək mümkündür. XVI əsrə aid səyyah gündəliklərində bölgənin yalnız Culfa şəhərinin əhalisi haqqında bəzi faktlar öz əksini tapmışdır. S. V. Ter-Avetisyanın qeyd etdiyinə görə, 1581-ci ildə Culfada olmuş ingilis taciri Nyüberi şəhərdə evlərin sayının 3000, əhalisinin sayının isə 15-20.000, 10 il sonra şəhərdə olmuş digər ingilis tacir və səyyahı Kortvart isə 2000 ev, 10 min nəfər əhalinin olduğunu qeyd etmişdir [4, 74; 5,231]. Çuxur-Səəd bəylərbəyliyi əhalisi haqqında daha geniş məlumatlara türk səyyahı Ö. Çələbinin səyyahətnaməsində rast gəlmək mümkündür. Ö. Çələbi daha çox bölgənin qəsəbə tipli yaşayış məskənləri və şəhərlərinin əhalisinin sayı haqqında məlumat vermişdir. Maraqlıdır ki, Ö. Çələbi Rəvan torpağında yerləşən Qərşı qalasını 1000 nəfər dizçökəni, 7 minarəli camisi, 3 hamamı, kiçik bazarları, çoxlu bağ-bağçası olan şəhər kimi qeyd etmişdir [6, 6-7; 7, 39-40]. Ö. Çələbinin İrəvan vilayətində adını çəkdiyi Qərşı qalası haqqında dövrün digər qaynaqlarında məlumatlara rast gəlinmir. Osmanlı səyyahı Çuxur-Səəd ərazisində 1000 ev, 7 cami, 300-ə yaxın dükan və bazarlara malik kələntərlik olan Masır qəsəbəsi, 1000 evə malik Sidirği (Sədərək) qəsəbəsini də kiçik bir şəhər kimi qeydə almışdır [6, 8-10; 7, 40-42]. Ö. Çələbi Böyük Qarabağlar şəhərinin Naxçıvan ərazisində ayrıca sultanlıq olduğunu qeyd edərək yazır ki, bu şəhərdə mehmandarımızın dediyinə görə, 10.000-ə qədər bağlı-bağçalı ev, 70 mehrab var ki, 40-ı minarəli məsciddir. Orada karvansaray, hamam, çarşu çoxdur [6, 10]. Səyyahın məlumatından belə çıxır ki, XVII əsrin ortalarında Qarabağlar şəhərinin əhalisinin sayı 50.000 nəfərə qədər olmuşdur. Naxçıvan haqqında məlumat verən Ö. Çələbi yazır ki, şəhərdə 10200 örtülü böyük torpaq ev, 70 cümə məscidi, 40 məscid, 20 mehmanxana, 7 gözəl hamam, təqribən 1000

dükan vardır [6, 8-12]. Səyyahın məlumatına əsasən, Naxçıvan şəhərinin əhalisinin sayı təqribən 51.000-ə bərabər olmuşdur. Maraqlıdır ki, Ö. Çələbidən bir qədər sonra bölgədə səfərdə olmuş J. B. Tavernye və J. Şarden Naxçıvan şəhəri haqqındakı məlumatları türk səyyahın dedikləri ilə heç də üst-üstə düşmür. Naxçıvanı kifayət qədər böyük şəhər adlandıran J. B. Tavernye yazır ki, şəhər Sultan Murad tərəfindən tamamilə dağıdılmışdır. Səyyahın məlumatına görə, şəhərdə bir neçə məscid binasının qalıqları müşahidə olunur [8, 56]. J.B.Tavernye Naxçıvan şəhərinin dağıdılmasının səbəbləri içərisində Səfəvi-Osmanlı müharibələrinə diqqəti çəkərək yazır ki, Osmanlı qoşunları o yerlərdən keçərkən ərzaq ələ keçirə bilməsin, aclıqdan tələf olsun deyə Böyük Şah Abbas İrəvanla Təbriz arasındakı bütün abadlıqları dağıtdırmışdı [8, 55- 56]. J. B. Tavernyedən az sonra, XVII əsrin 70-ci illərində bölgədə səfərdə olmuş J. Şardenin qeydləri də bu məlumatları təsdiq edir. Jan Şarden Naxçıvanın böyük dağıdılmış şəhər olduğunu vurğulayaraq yazır ki, şəhər yavaş-yavaş bərpa edilərək məskunlaşdırılır. Hazırda yalnız şəhərin mərkəzi hissəsi bərpa edilmişdir və təqribən 2000 ev vardır [9, II c, 1811; 10,116-117]. R. Hüseynov J. Şardenin Naxçıvan şəhərinin əhalisinin sayı ilə bağlı məlumatlarına şübhə ilə yanaşaraq, XVII əsrin sonlarında, Səfəvi ərazisində iqtisadi tənəzzül dövründə Naxçıvanda 2000 ev olmasını göstərmişdir [11, 105]. Fikrimizcə, Naxçıvan əhalisi haqqında Ö. Çələbinin məlumatlarına nisbətən J. Şarden və J. B.Tavernyenin məlumatları reallıqlara daha çox uyğundur. Belə ki, 1603-1612-ci illər Səfəvi-Osmanlı müharibəsi zamanı əhalisi kütləvi şəkildə köçürülmüş, yaşayış binaları isə yandırılaraq dağıdılmış, 1634-1635-ci illərdə yenidən hərbi-əməliyyatlar meydanına çevrilmiş Naxçıvanın qısa müddət ərzində bərpa edilərək, 50 min əhalisi olan şəhərə çevrilməsi inandırıcı deyildir.

XVI-XVII əsrlərdə Naxçıvan ərazisində olan Ordubad, Culfa, Əylis, Azadciran kimi kiçik şəhərlər və yaxud qəsəbə tipli şəhərlər olsa da, onların əhalisinin sayı haqqında səyyah gündəliklərində nadir hallarda məlumatlara təsadüf olunur. Dövrün bəzi qaynaqlarında bu şəhərlər qəsəbə, qərye kimi qeyd olunsalar da, Şah I Təhmasibin 1544, 1555-ci il, Şah Məhəmməd Xudabəndənin 1585/86-cı il tarixli fərmanlarında Ordubad, Azadciran və Əylisdə darğa vəzifəsinin olmasının əksini tapması onların şəhər tipli yaşayış məntəqəsi olmasını deməyə əsas verir [12, sənəd 12, 14, 22]. Məlum olduğu kimi, Səfəvilər dövründə darğa təsisatı yalnız şəhərlər və ya qəsəbə tipli yaşayış məntəqələrində yaradılırdı. XVI əsrin 80-90-cı illərində Culfa şəhərində 2000-3000 ev (10-15000) olduğu halda [4, 74; 5, 231], XVII əsrdə onun əhalisinin sayı kəskin şəkildə azalmış və Culfa şəhər tipli yaşayış məntəqəsi kimi əhəmiyyətini itirmişdi. Tavernyenin yazdığına görə, əvvəllər gözəl bir şəhər olan Culfa Araz sahilində iki dağ arasına sığınmış bir kənddir, köçürmədən sonra bir neçə erməni ailəsi geri qayıtmış və kəndin şimal-qərb hissəsindı məskunlaşmışdılar, digər hissələrdə isə heç bir şey yoxdur [8, 86]. XVII əsrin 70 ci illərində J. Şarden yazır ki, əvvəllər Culfada 4000 ev (20000

əhali) olmuşdur, indi xarabalıqlara əsasən demək olar ki, bunun yarısı qədər (2000 ev) ola bilərdi. Səyyahın məlumatına görə, hazırda Culfada hamısı ermənilərdən ibarət olan 30 ailə yaşayır [13, 66]. Culfanın tənəzzülündən sonra Əylisin inkişafında yeni bir mərhələ başlamışdı [10, 23]. Tavernye Əylisi böyük kənd adlandırsa da [8, 58], XVII əsrin II yarısında Əylis rəsmi olaraq şəhər statusuna malik idi. Belə ki, qaynaqların məlumatına əsasən, Əylisdə kələntər fəaliyyət göstərirdi [14, 114].

XVII əsrdə Naxçıvan ərazisində qeydə alınan şəhər tipli yaşayış məskənlərindən biri də Azad, Azadçiran və ya Əsədabad, Astabad adı ilə qaynaqlarda göstərilən yaşayış məntəqəsi olmuşdur. Əsədabadın Araz çayından bir livr məsafədə yerləşdiyini qeyd edən Tavernye onun kiçik, lakin gözəl şəhər olmasını, dörd karvansarasının olduğunu və marena istehsalı ilə məşhurlaşdığını vurğulamışdır [15, 62-63; 8, 86-87]. Çox təəssüflər olsun ki, dövrün qaynaqlarında Əylis və Azadçiran şəhərlərinin əhalisinin sayı haqqında məlumatlara rast gəlinmir. Maraqlıdır ki, Ö.Çələbi 1647-ci il tarixli "Səyahətnamə"sində Naxçıvan mahalında ayrıca xanlıq olan Çors şəhəri haqqında məlumat verərək yazır ki, orada 2000-lik ordu ilə yanaşı qazı, 12 imam eşqinə 12 zabit, qala divarlarından kənarda yeni salınmış 7000 ev, 11 cümə məscidi, 7 karvansara, 200 dükan vardır [6, 48]. Təəssüflər olsun ki, Ö. Çələbinin qeyd etdiyi bu şəhər haqqında dövrün digər mənbələrində heç bir məlumat yoxdur.

Ö.Çələbinin Çorsdan İrəvan istiqamətində hərəkət edərkən qeydə aldığı 500 evli Milli Rəvan, 300 evli Qafqac, 1000 evli, Cümə məscidi, karvansara, hamam və kiçik üstüörtülü bazarı olan Əfşarlı kəndləri haqqında da digər mənbələrdə məlumatlara təsadüf edilmir [6, 48-49]. Ö. Çələbinin məlumatına görə, Çuxur-Səəd bəylərbəyliyinin tərkibində olan Maku şəhərində isə qala divarları daxilində 700 ev (3500 nəfər) olmuşdur [6, 159, 122].

Səyyah gündəliklərində Çuxur-Səəd bəylərbəyliyinin mərkəzi olan İrəvan şəhərinin əhalisi haqqında da müəyyən məlumatlar əksini tapmışdır. Ö. Çələbinin yazdığına görə, üç möhkəm dəmir qapısı olan İrəvan şəhərində 3000-ə qədər qala gözətçisi, 3000 minlik xan ordusu, 7000 əyalət əsgəri, 2600 üstüörtülü torpaq ev vardır [6, 54]. Səyyahın məlumatından belə çıxır ki, XVII əsrin ortalarında hərbçilər (13000) ilə birlikdə şəhər əhalisinin sayı 26000 nəfərə qədər olmuşdur. Ö. Çələbinin məlumatlarından belə çıxır ki, 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftər"ində əksini tapmış 1995 nəfərlə müqayisədə XVII əsrin ortalarında İrəvan şəhərində mülki əhalinin sayı 6,5 dəfə artaraq 13000 nəfərə çatmışdı. J.Şardenin XVII əsrin 70-ci illərinə aid olan məlumatlarında İrəvan böyük şəhər kimi göstərilsə də, orada heç bir gözəl binanın olmaması vurğulanır, qala divarları daxilində cəmi 800 ev, yəni təqribən 4000 nəfər əhali, əlavə olaraq 2000 nəfər də qala mühafizəçisinin olması göstərilmişdir [13, 21]. Çox ehtimal ki, Ö.Çələbi və J.Şardenin İrəvan şəhərinin əhalisinin sayı haqqındakı məlumatlarındakı fərqlər onunla bağlıdır ki, J.Şarden yalnız qala divarları daxilindəki evlərin sayını, Ö.Çələbi isə həm qala divarları daxilindəki, həm də qala divarlarından kənar-

da yerləşən evlərin sayını nəzərdə tutmuşdur. Belə ki, XVII əsrin 30-cu illərindən sonra İrəvan istiqamətində Səfəvi-Osmanlı müharibələri olmadığından, İrəvan şəhərinin əhalisinin sayının XVII əsrin 70-ci illərində azalması inandırıcı deyildir.

Çuxur-Səəd bəylərbəyliyi əhalisinin sayı, etnik, dini tərkibi və yerləşməsi haqqında növbəti Osmanlı statistik məlumatları XVIII əsrin 20-ci illərinə aiddir. Bu baxımdan 1728-ci il tarixli “İrəvan əyalətinin müfəssəl dəftəri” və 1727-ci il tarixli “Naxçıvan sancağının müfəssəl dəftəri” xüsusilə mühüm elmi əhəmiyyətə malikdir.

1728-ci il tarixli “İrəvan əyalətinin müfəssəl dəftəri” əsasında aparılmış hesablamalara görə, əyalət üzrə qeydə alınmış 15.095 nəfərin 14.122 nəfərini (93,5%) evlilər, 473 nəfərini isə (6,3%) subaylar təşkil etmişdir. Əyalətdə yaşayan 71.583 nəfərdən 43.784 nəfəri (61,2%) türk-müsəlmanlardan, 27.799 nəfəri isə (38.8%) xristianlardan ibarət olmuşdur [1, 18]. Bütövlükdə əyalətdə qeydə alınan əhalinin 59.791 nəfəri İrəvan əyalətinin, 11.792 nəfəri isə Naxçıvan sancağının payına düşmüşdür. Naxçıvan sancağında qeydə alınmış 11.792 nəfərin 51,5%-ni müsəlmanlar, 48,5%-ni isə xristianlar təşkil etmişdir [2, 13]. Qeyd olunan dəftərlər əsasında tərtib olunmuş cədvəllər əyalətin şəhərlərində əhalinin sayı, etnik və dini tərkibini əyani şəkildə nümayiş etdirir.

**Cədvəl 4**

**İrəvan şəhəri:1728-ci il**

| İrəvan şəhərinin məhəllələri | Evli müsəlman | Subay müsəlman | Evli xristian | Subay Xristian |
|---|---|---|---|---|
| Köhnə şəhər | 428 | ---- | 224 | 9 |
| Dəmirbulaq | | ----- | | |
| Dərəkəndi | | ----- | | |
| Təpəbaşı | | ----- | | |
| **Cəmi:** | 428 | ----- | 224 | 9 |

**Mənbə:** [1, 18]

Göründüyü kimi, XVIII əsrin 20- ci illərində 4 məhəllədən ibarət olan İrəvan şəhərində qeydə alınmış 652 evli və 9 subay vergi daşıyıcısının 2140 nəfəri müsəlman, 1129 nəfəri isə xristianlardan ibarət olmuşdur. Şəhərdə yaşayan 3269 nəfərin 63,5%-ni müsəlmanlar, 36,5%-ni isə xristianlar təşkil etmişdir. Onu da qeyd etmək lazımdır ki, həmin dövrdə İrəvan şəhərində qeydə alınan 1129 nəfər xristian əhalinin hamısının erməni kimi qəbul edilməsi də düzgün deyildir. Belə ki, XVIII əsrə aid bəzi erməni qaynaqlarında həmin dövrdə İrəvan şəhərində 100 xristian qaraçı ailəsinin (500 nəfər) yaşadığı göstərilmişdir [16, 21-23. 17, 12]. Belə olduqda, 1728- ci ildə İrəvan şəhərində qeydə alınan 1129 xristianın yalnız 629 nəfərinin erməni mənşəli olması məlum olur. Xristian qaraçılar XVIII əsrin sonu-XIX əsrin əvvəllərində də orada yaşamaqda davam edirdilər [18, 370; 19, 544, 632]. Beləliklə, hesablamalar göstərir ki, 1728-ci ildə İrəvan əyalətində qeydə alınan 59.791 nəfərin

3269 nəfəri şəhərdə, 56.522 nəfəri isə eyni adlı əyalətin kəndlərində məskunlaşmışdılar.

**Cədvəl 5**

**Naxçıvan şəhəri-1727-ci il**

| Naxçıvan şəhərinin məhəllələri | Siyahı üzrə müsəlman ailə | Mətn üzrə müsəlman ailə | Qeyri-müsəlman ailə |
|---|---|---|---|
| Yuxarı məhəllə | 322 | 400 | ----- |
| Aşağı məhəllə | 307 | 394 | 78 |
| **Cəmi:** | 629 | 794 | 78 |

**Mənbə:** [2, 13]

**Naxçıvan əhalisinin say dinamikası:** 1590-cı illə müqayisədə 1727-ci ildə Naxçıvan şəhərində məhəllələrin sayı azalaraq ikiyə enmişdi. Apardığımız araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, Osmanlı məmurları əhalinin sayını hesablayarkən müəyyən səhvlərə yol vermişlər. Belə ki, Yuxarı məhəllədə ailələrin sayı 322, Aşağı məhəllədə isə 307 göstərildiyi halda mətndə adları keçən vergi ödəyicilərinin sayı hesablanarkən Yuxarı məhəllədə 400, Aşağı məhəllədə isə 394 vergi ödəyicisinin olması müəyyən edilmişdir. Beləliklə, 1727-ci il tarixli "Naxçıvan sancağının müfəssəl dəftəri"nə görə, həmin dövrdə Naxçıvan şəhərində siyahı üzrə 707, mətn üzrə isə 872 ailə qeydə alınmışdır. Şəhərdə siyahı üzrə qeydə alınan 707 ailənin (3535 nəfərin) 629-u (3145 nəfəri) müsəlman, 78-i (390 nəfəri) qeyri-müsəlman, mətn üzrə müəyyən edilmiş 872 ailənin (4360 nəfərin) 794-ü (3970 nəfəri) müsəlman, 78-i isə (390 nəfəri) qeyri-müsəlmanlardan ibarət olmuşdur [2, 37-50]. Araşdırmalar göstərir ki, 1590-cı illə müqayisədə 1727-ci ildə Naxçıvan şəhəri əhalisinin say dinamikası, etnik və dini tərkibində elə də ciddi bir dəyişiklik baş verməmişdir. 1590-cı ildə şəhər kimi qeydə alınan Ordubad, 1727-ci il tarixli "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə qəsəbə tipli yaşayış məskəni kimi qeyd olunmuşdur [2, 222].

**Cədvəl 6**

**Ordubad qəsəbəsi: 1727-ci il**

| Ordubad qəsəbəsinin məhəllələri | Siyahı üzrə müsəlman ailə | Siyahı üzrə müsəlman subay | Mətn üzrə müsəlman ailə | Mətn üzrə müsəlman subay | Qeyri-müsəlman |
|---|---|---|---|---|---|
| Qəsəbənin özü | 56 | 21 | 77 | 21 | ---- |
| Anbaros məhəlləsi | 171 | 69 | 171 | 72 | ---- |
| Məngis məhəlləsi | 59 | 46 | 105 | 48 | ---- |
| İştərənğə məhəlləsi | 31 | 15 | 46 | 14 | ---- |
| Sərşəhər məhəlləsi | 114 | 74 | 188 | 73 | ---- |
| **Cəmi:** | 431 | 225 | 587 | 228 | ----- |

**Mənbə:** [2, 222]

1590-cı illə müqayisədə 1724-ci ildə Ordubad qəsəbəsində də məhəllələrin sayı azalaraq altıdan beşə enmişdir. 1727-ci ildə Naxçıvan şəhərində olduğu kimi Osmanlı məmurları Ordubad qəsəbəsində də ailə və subayların sayını hesablayarkən müəyyən yanlışlıqlara yol vermişlər. Hesablamalar nəticəsində müəyyən edilmişdir ki, qəsəbənin özündə siyahı üzrə 56 ailə, 21 subay qeyd edildiyi halda mətn üzrə 77 ailə, 21 subay, Anbaros məhəlləsində siyahı üzrə 171 ailə, 69 subay, mətn üzrə 171 ailə, 72 subay, Məngis məhəlləsində siyahı üzrə 59 ailə, 46 subay, mətn üzrə 105 ailə, 48 subay, İstərənğə məhəlləsində siyahı üzrə 31 ailə, 15 subay, mətn üzrə 46 ailə, 14 subay, Sərşəhər məhəlləsində siyahı üzrə 114 ailə, 74 subay, mətn üzrə isə 188 ailə, 73 subay olmuşdur [2, 222-238]. 1590-cı ildə Ordubadda 13 qeyri-müsəlman ailə qeydə alındığı halda, 1727-ci ildə qəsəbədə qeyri-müsəlmanlar qeydə alınmamışdılar. 1590-cı ildə Ordubad şəhərində 267 ailə, 14 subay qeydə alınmışdısa, 1727-ci ildə qəsəbədə siyahı üzrə 431 ailə, 225 subay, mətn üzrə isə 587 ailə, 228 subay siyahıya alınmışdır. Hesablamalar göstərir ki, 1590-cı ildə Ordubad şəhərində 1349 nəfər əhali qeydə alınmışdır ki, onun 1284-ü müsəlman , 65-i qeyri-müsəlman olmuşdur. 1727-ci ildə isə Ordubad qəsəbəsində siyahı üzrə 2380, mətn üzrə isə 3163 nəfər yaşamışdır ki, onların da hamısı müsəlmanlardan ibarət olmuşdur. Beləliklə, 1590-cı illə müqayisədə 1727-ci ildə Ordubad şəhərinin əhalisinin sayının təqribən 2,5 dəfə artması müşahidə olunmuşdur.

1727-ci il tarixli "Naxçıvan sancağının müfəssəl dəftəri" əsasında tərtib etdiyimiz cədvəl bütövlükdə Naxçıvan sancağı əhalisinin sayı, yerləşməsi, etnik və dini tərkibi haqqında əyani təsəvvür yaradır.

**Cədvəl 7**

**Naxçıvan sancağı**

| Nahiyələr | Şəhərlərin sayı | Kəndlərin sayı | Boş kənd lər | Məskun kəndlər | Siyahı üzrə | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Şəhərdə müsəlman | Şəhərdə qeyri-müsəlman | Kənddə evli müsəlman | Kənddə subay müsəlman | Kənddə qeyri-müsəlman |
| Naxçıvan | 1 | 13 | 1 | 12 | 629 | 78 | 30 | 6 | 30 |
| Əlincə | --- | 28 | 2 | 26 | ---- | ---- | 399 | 73 | 468 |
| Sair Məvazi | --- | 16 | 1 | 15 | ---- | ---- | 118 | 10 | 21 |
| Dərəşahbuz | ---- | 21 | 10 | 11 | ---- | ---- | 31 | 3 | 114 |
| Mülki Arslan | ---- | 9 | --- | 9 | ---- | ---- | 257 | 21 | 357 |
| Məvaziyi Xatun | ---- | 9 | 3 | 6 | ---- | ---- | 7 | 1 | 33 |
| Qarabağ | ---- | 15 | 6 | 9 | ---- | ---- | 151 | 24 | 72 |
| Qışlağat | ---- | 21 | 4 | 17 | ---- | ---- | 525 | 195 | 1662 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Dərə Şam | ---- | 4 | ---- | 4 | ---- | ---- | ---- | ---- | 258 |
| Azadciran | ---- | 39 | 7 | 32 | ---- | ---- | 718 | 335 | 1932 |
| Şorlut | ---- | 5 | ---- | 5 | ---- | ---- | 59 | 26 | 50 |
| Dərənürgüt | ---- | 5 | ---- | 5 | ---- | ---- | ---- | ---- | 55 |
| Sisyan | ---- | 42 | 7 | 35 | ---- | ---- | 88 | 14 | 81 |
| Dərələyəz | ---- | 102 | 27 | 75 | ---- | ---- | 224 | 43 | 202 |
| **Yekun** | 1 | 329 | 68 | 261 | 629 | 78 | 2607 | 751 | 5335 |

**Mənbə:** [2, 222-238]

**Cədvəl 8**

| **Nahiyələr** | **Mətn üzrə** | | | | |
|---|---|---|---|---|---|
| | **Şəhərdə müsəlman** | **Şəhərdə qeyri-müsəlman** | **Kənddə müsəlman evli** | **Kənddə subay müsəlman** | **Kənddə qeyri-müsəlman** |
| Naxçıvan | 794 | 78 | 37 | 6 | 30 |
| Əlincə | --- | --- | 501 | 51 | 468 |
| Sair Məvazi | --- | --- | 115 | 11 | 21 |
| Dərəşahbuz | --- | --- | 37 | 2 | 114 |
| Mülki Arslan | --- | --- | 270 | 16 | 357 |
| Məvaziyi xatun | --- | --- | 7 | 1 | 33 |
| Qarabağ | --- | --- | 148 | 28 | 72 |
| Qışlağat | --- | --- | 518 | 173 | 1662 |
| Dərə Şam | --- | --- | --- | --- | 258 |
| Azadciran | --- | --- | 726 | 330 | 1932 |
| Şorlut | --- | --- | 59 | 26 | 50 |
| Dərənürgüt | --- | --- | --- | --- | 55 |
| Sisyan | --- | --- | 85 | 14 | 81 |
| Dərələyəz | --- | --- | 224 | 45 | 202 |
| **Yekun** | 794 | 78 | 2727 | 703 | 5335 |

**Mənbə:** [2, 222-238]

Mülki-Arslan nahiyəsində qeydə alınan 357 qeyri-müsəlmanın 81-in frank (firəng) olması göstərilmişdir. Cədvəldən göründüyü kimi, 1727-ci ildə Naxçıvan sancağında bir şəhər (Ordubad Azadciran nahiyəsində qəsəbə kimi göstərilmişdir-B.Ş.), 329 kənd tipli yaşayış məntəqəsi qeydə alınmışdır. Bu kəndlərin 68-də yaşayış qeydə alınmamışdır. Həmin kəndlərin əhalisi görünür Osmanlı hakimiyyətini qəbul etməyərək öz yaşayış yerlərini kütləvi şəkildə tərk etmişdilər. Naxçıvan şəhəri istisna olmaqla, sancağın kəndlərində (Ordubad qəsəbəsi də daxil olmaqla) siyahı üzrə 2607 ailəli, 751 subay müsəlman, mətn üzrə isə 2727 ailəli, 703 subay müsəlman, 5335 qeyri-müsəlman qeydə alınmışdır. Maraqlıdır ki, Osmanlı məmurları ailəli və subay müsəlmanları bir-birindən ayırdıqları halda, qeyri-müsəlman əhalini bu kriteriya əsasında fərqləndirməmişlər. Məhz buna görə də, dəftərdə qeydə alınan müsəlmanların sayı dəqiq bəlli olduğu halda (siyahı üzrə 16.931, mətn üzrə 18.308 nəfər), qeyri-müsəlmanların sayını dəqiq müəyyənləşdirmək mümkün deyildir. Sancaqda qeydə alınan 5335 qeyri-müsəlmanın hamısını şərti olaraq ailəli hesab etsək, onda onların sayı 26.675-ə bərabər olur.

1728-ci il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"nə görə Sədərək nahiyəsində qeydə alınan 24 kəndin 5-də yaşayış olmamış, yaşayış olan 19 kənddə isə 204 ailə, Şərur nahiyəsində qeydə alınan 72 kənddən 16-da yaşayış olmamış, yaşayış olan 56 kənddə isə 1837 ailə yaşamışdır [2, 311-367]. Bu nahiyələrdə yaşayan 2041 ailəni də Naxçıvan sancağında siyahıya alınmış müsəlman əhalinin üzərinə gəldikdə (2041 x 5 = 10205), bölgədə müsəlman əhalinin sayı siyahı üzrə 27.136, mətn üzrə isə 28.513 nəfərə bərabər olur. Naxçıvan sancağının əhalisinin sayına görə ən böyük kəndləri Azadciran nahiyəsinə daxil olan Yuxarı Əylis (693 ailə, 15 subay) [2, 212-215] və Aşağı Əylis kəndləri (249 ailə) [2, 715-716] olmuşdur.

Sədərək və Şərur nahiyələri də daxil olmaqla, 1727-1728-ci illərdə Naxçıvan sancağında qeydə alınmış 425 kəndin 89-nun əhalisi öz yaşayış məntəqələrini tərk etmişdilər. Beləliklə, XVI əsrin 90-cı və XVIII əsrin 20-ci illəri istisna olmaqla Çuxur-Səəd bəylərbəyliyinin əhalisi ilə bağlı dövrümüzə statistik məlumatlar gəlib çıxmamışdır. Bölgənin şəhər əhalisinin sayı ilə bağlı səyyah gündəliklərində əksini tapmış məlumatlar təxmini xarakter daşıyır, bəzi hallarda isə bir-biri ilə ziddiyyət təşkil edir.

**Nəticə:** Qeyd olunan Osmanlı statistik məlumatları isə bölgə əhalisinin gerçək durumunu tam dolğunluğu ilə əks etdirmir. Belə ki, Çuxur-Səədin şiə-müsəlman əhalisi Osmanlı hakimiyyətini qəbul etməyərək yaşayış yerlərini kütləvi şəkildə tərk etdiyindən dəftərlərdə qeydə alınan kəndlərin mühüm bir qismində yaşayış olmamışdır. Yaşayış yerlərini tərk etməyənlər isə əsasən qeyri-müsəlmanlar, xristianlar olmuşdur. Bununla belə, Osmanlı dəftərlərinin təhlili göstərir ki, Çuxur-Səəd əhalisinin əksəriyyətini müsəlman-türklər təşkil etmişdir. XVI-XVIII əsrlərdə müəyyən fasilələrlə davam etmiş Səfəvi-Osmanlı müharibələri, tərəflərin sərhəd boyunca yerləşmiş məntəqələrə qarətçi yürüşləri, həmçinin müxtəlif xarakterli təbii fəlakətlər də Çuxur-Səəd ərazisində əhalinin demoqrafik durumuna ağır təsir göstərmişdi.

***Ədəbiyyat siyahısı:***

1. *İrəvan əyalətinin icmal dəftəri.(Araşdırma,tərcümə,qeyd və əlavələrin müəllifləri Z. Bünyadov, H. Məmmədov (Qaramanlı) Bakı, Elm, 1996,184 s.*
2. *Naxçıvan sancağının müfəssəl dəftəri. Araşdırma, qeyd və şərhlərin müəllifi: H. Məmmədov, tərcümə edən: Z.Bünyadov, H. Məmmədov. Bakı, Elm, 2001, 374 s.*
3. *Babacan H. 1590 (H.999) tarihli tahrir defterine gore Revan kazası. Yüksek lisans tezi.Samsun, 19Rihtim 153 s.*
4. *Тер-Аветисян С. В. Город Джуга. Материалы по истории торговых сношений джульфинских купцов XV-XVII вв. Тбилиси, Из-во Груз.флиал АН ССР, 241 с.*
5. *Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, Şərq-Qərb, 2007, 344 s+ 8 s (illustrasiya)*
6. *Evliya Çələbi. Səyahətnamə.(türk dilindən işləyəni və şərhlərin müəllifi S. M. Onullahidir) . Bakı, Azərnəşr, 1997, 92 s.*
7. *Rihtim M. Evliya Çələbi Səyahətnaməsində Azərbaycan, Bakı, Qafqaz Universiteti nəşriyyatı, 2012, 296 s.*
8. *Tavernier J. B. Tavernier Seyahetnamesi. Hazırlayan: Ali Berktay, çev.Teoman*

*Tunçdoğan, İstanbul, Kitap Yayınları, 2010, 343 s.*

9. *Şarden. Səfərname-ye Şarden.Tərcome-ye Eğbal Yəğmai, c.I-V.Tehran, h.1372-1374.*
10. *Гейдаров М. Х. Города и городское ремесло Азербайджана XIII-XVII веков. Ремесло и ремесленные центры. Баку, Из-во,»Элм»,1982, 280 с.*
11. *Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). Bakı,"Elm" nəşriyyatı, 1977,157 s.*
12. *Персидские документы Матенадарана. I, Указы. — Вып. I. (XV-XVI вв).Составил А.Д.Папазян.Ереван, Из-во АН.Арм.ССР.1956, 315 с.*
13. *Şarden Jan. Səyahətnamə. Fransız dilindən tərcümə edən Vaqif Aslanlı. Bakı, Elm, 1994,96 s.*
14. *Закария Акулийский. Дневник. Ереван: Арм Фан лит-ра,1939,159 с.*
15. *Jan Battist Tavernye. Səfərname-ye Tavernye.Tərcüme-ye Əbuturab Nuri, İsfahan, h.1336.*
16. *Абраам Ереванци. История войн 1721-1736 гг.Ереван: Арморана,1939,93 с.*
17. *Армянская анонимная хроника. 1722-1736 гг. Пер. с турец. З. М. Буниятова Баку, Элм, 1988, 64 с.*
18. *Симеон Ереванци. Джамбр. памятная книга, зерцало и сборник всех обстоятельств св. престола Эчмиадзина и окрестных монастырей. Перевод С. Малхасянца. Под. ред.и с предисловием П.Т. Артюнян. М., Из-во Восточной литературы, 1958,399 с.*
19. *Шопен И. Исторический памятник состояния Армянской области въ эпоху ея присоединения къ Российской Империи. В типографии Императорской Академии Наук. Санктпетербургъ. 1852,1232 с.*

**UOT 94 (479.24)**

# XIV ƏSRİN II YARISINDA NAXÇIVAN UĞRUNDA SİYASİ MÜBARİZƏ

**Zəhra İslamova**
*BDU, Tarix fakültəsi, t.f.d.*
*zahraislamova@bsu.edu.az*

*Cənubi Qafqazın mühüm siyasi və iqtisadi mərkəzi olan Naxçıvan strateji mövqe baxımından orta əsrlər dövründə mühüm əhəmiyyətə malik olmuşdur. Naxçıvanın şərqdən qərbə, şimaldan cənuba və əks yöndə uzanan ticarət yollarının üzərində yerləşməsi, Trabzon, Bursa, Aralıq dənizi, Qara dəniz istiqamətində gedən karvan yollarının məhz Naxçıvandan keçməsi bu ərazinin iqtisadi gücünü və əhəmiyyətini daha da artırırdı. Cənubi Qafqazda hakimiyyətə gələn hər bir sülalə ilk olaraq Naxçıvanı nəzər-diqqətində saxlayır, öz siyasətini iqtisadi sahələrin müdafiəsi üzərində formalaşdırırdı. Hakim sülalələrin siyasi tarixlərinə diqqət etsək, açıq şəkildə daima bu torpaqların müdafiəsinə xüsusi qayğı göstərdiklərini və digər ərazilərə nisbətdə Naxçıvana daha çox diqqət yetirildiyini görürük. İqtisadi və ticarət əhəmiyyəti kəsb edən Naxçıvan siyasi cəhətdən də mühüm rol oynayırdı, belə ki bu bölgəni ələ keçirmiş hökmdar bölgəni, hətta deyərdik ki, bütün Cənubi Qafqazı nəzarətdə saxlaya bilir, həm şimala, həm cənuba, həm şərqə, həm də qərbə rahat gediş-gəliş etməklə nəzarətdə saxlaya, kəşfiyyat məlumatları toplaya və qoşun yeridə bilirdi. Təbii sərvətlərlə zəngin Naxçıvan torpaqları hər bir hücum üçün zəmin idi. Xarici müdaxilələr zamanı zəngin təbii sərvətlər iqtisadiyyatın və siyasətin əsas yönləndirici rolunu oynayırdı. Tədqiqat zamanı orta əsrlər dövründə Azərbaycanda hakimiyyəti ələ keçirmiş sülalələrin Naxçıvan uğrunda mübarizəsinin siyasi və iqtisadi cəhətdən maraqlarını müəyyən etməyə çalışmışıq. İlkin mənbələrdə əks olunan bu məlumatlar müasir dövrlə də ayaqlaşmış olur. Bugün də Naxçıvan ərazisi Azərbaycan dövlətinin xarici və daxili siyasətində prioritet mövqe tutur. Bir məsələni də qeyd edək: erməni xislətini unutmamalıyıq, onların qədim türk yurdunda özlərinə dövlət yaratdıqları bəs etmir, daha da uzaq getmək istəyərək yeni torpaq iddiaları qaldırırlar. Bu əsassız uydurmalara ilkin mənbələr əsasında əldə edilmiş məlumat və sübutlar ola bilər ki, araşdırma zamanı qarşımıza qoyduğumuz əsas məqsədlərdən biri məhz dövrün mənbələri əsasında Naxçıvan və ətraf bölgələrin siyasi, iqtisadi və mədəni tarixini öyrənmək idi.*

***Açar sözlər:*** *Naxçıvan, cəlairilər, baharlılar, teymurilər, XIV əsrin II yarısı, ilkin mənbələr*

## *POLITICAL STRUGGLE FOR NAKHCHIVAN IN THE SECOND HALF OF THE XIV CENTURY*

*Nakhchivan has been an important part of the region since ancient times and was distinguished by its special focus. Any dynasty that came to power in the South Caucasus first of all paid attention to Nakhchivan, always paying special attention to the protection of these lands. Nakhchivan, which had both economic and commercial importance, played an important political role, since the ruler who seized the region was able to control the region and move freely to the north, south, east and west. Thus, it cannot be denied that the region is also political in nature. In the course of the investigation, on the basis of primary sources, the struggle of the dynasties that seized power in Azerbaijan for Nakhchivan was investigated. We consider the study of the history of the region one of the important tasks facing the science of history today, in order to prevent unfounded claims to land and the fabrications of our hated neighbors against us in our time. Of course, a number of studies*

*have been carried out in this direction. The first step in the field of research can be considered "Historical sketch of the city of Nakhchivan: the Middle Ages" by the outstanding Soviet historian Rauf Mamedov. Research on this topic was carried out in the following periods. After gaining independence, interest in studying the history of the regions, especially Nakhchivan, increased, and at the same time, the acquisition of new sources opened up wide opportunities in these areas. Analyzing "Ahsanut Tavarikh" of Hasan bey Rumlu and "Kitabi Diyarbakriya" of Abu Bakr Tehran, Nakhchivan shows its strategic importance and intense political struggle for the region. The works of Turkish authors were widely used in the study for the purpose of comparative analysis. All this played an irreplaceable role in the article that shed light on the real history of the region.*

***Keywords:*** *Nakhchivan, Jalairids, Bakharly, Teymurids, II half of the XIV century, I half of the XV century.*

**Giriş:** Naxçıvan bölgəsi Azərbaycan dövlətçiliyinin və tarixinin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Bu problemə diqqət sovet dövründən başlayıbdır. Görkəmli Azərbaycan tarixçisi Rauf Məmmədov ilk olaraq Naxçıvanın tarixinin öyrənilməsinə başlamış və ilkin mənbələr əsasında 1977-ci ildə "Naxçıvan şəhərinin tarixi oçerki: orta əsrlər dövrü" əsərini çap etdirmiş və hesab edirik ki, bu əsər tədqiqat mövzusu sahəsində ilk addım hesab edilə bilər. Mövzu ilə bağlı sonrakı dövrlərdə də tədqiqat işləri aparılmışdı. Müstəqillik qazandıqdan sonra bölgələrin, xüsusilə Naxçıvan tarixinin araşdırılmasına maraq daha da artmışdı. Müasir dövrdə beynəlxalq əlaqələrin genişliyi, dünya kitabxanaları və elektron resursların imkanları hər bir tarixçiyə şərait yaradır ki, daha geniş və dərin şəkildə nəzərdə tutulan mövzunu araşdırsın. Həsən bəy Rumlunun "Əhsənüt Təvarix" və Əbu Bəkr Tehraninin "Kitabi Diyarbəkriyyə" kimi mənbələrdə və digər əsərlərdə Naxçıvan və ətraf bölgələrin siyasi, iqtisadi və mədəni tarixi, buranın strateji əhəmiyyəti və XIV əsrin II yarısında bölgə uğrunda aparılan gərgin siyasi mübarizə əks olunmuşdu. Tədqiqat zamanı müqayisəli təhlil etmək və obyektiv şəkildə araşdırma aparmaq məqsədilə türk müəlliflərinin əsərlərindən geniş istifadə olunub. Bütün bunlar məqalədə bölgənin gerçək tarixinin işıqlandırılması üçün əvəzedilməz rol oynayıb.

**Naxçıvan bölgəsi Cəlairilər dövründə:** 1459-cu ildə Hülakülər sülaləsini taxtdan salaraq hakimiyyəti ələ alan Cəlairilər sülaləsi Çingiz xan nəslindən idilər və bu səbəbdən onların hakimiyyəti Şərqdə tam qanuni hesab edilərək digər hakimlər tərəfindən tanındı. Tez bir zamanda Cəlairilər sülaləsi tərəfindən Azərbaycanın Kürdən cənubdakı torpaqları, eləcə də Naxçıvan ələ keçirildi və öz hakimiyyətlərini burada bərqərar etdilər. 1368-ci ildə Şirvan ələ keçirildikdən sonra Azərbaycan uğrunda Qızıl Orda, ardınca Əmir Teymur və onun sülalə üzvləri ilə siyasi mübarizə başladı. XIV əsrin ikinci yarısında bölgədə siyasi hegemonluq uğrunda gərgin mübarizə getdiyi dövrdə Cəlairilər Naxçıvana xüsusi diqqət ayırırdılar.

Naxçıvanın coğrafi mövqeyi, iqtisadi-ticarət nöqtəsi kimi ətraf ərazilərdə mühüm mərkəz rolunu oynaması şəhərin əhəmiyyətini hakim sülalə üçün daha da artırır və vacib edirdi. Eldənizlər sülaləsi dövründə Naxçıvan

paytaxt və siyasi mərkəz statusunu daşıyırdı, lakin Cəlairilər dövründə şəhər bu nüfuzunu itirsə də, hakim sülalənin dövlət xəzinəsini Əlincədə saxlaması, eyni zamanda, bölgəyə giriş-çıxış yollarında Sürməri, Taqmar və Fakna kimi müdafiə qalalarının olması, yeni mühafizə xətlərinin salınması şəhərin hakim sülalə üçün mühüm əhəmiyyət kəsb etdiyini göstərir [8]. Dövrün ilkin mənbəsi olan F.Xəvafinin əsərini dərindən tədqiq etmiş tarixçi Ü.İbrahimova hesab edir ki, Cəlairilər dövləti Naxçıvan qalalarının məhz strateji əhəmiyyətini nəzərə almış, Əlincə qalasını bərpa edərək möhkəmləndirmiş və bunun nəticəsində də Naxçıvanda əvvəlki dövrlərdə olan qaynar şəhər həyatı öz axarına düşməyə başlamışdı [6; 95-96]. R.Məmmədov qeyd edir ki, "Naxçıvanın əlverişli coğrafi mövqeyi, zəngin təbii sərvətləri və əsrlər boyu ölkənin həyatında oynadığı mühüm rol onun yenidən dirçəlməsi üçün şərait yaratmışdı" [10, 84]. İlkin mənbələr əsasında Naxçıvanın XIV əsrin II yarısı dövrünün tarixinin araşdırılması belə bir nəticəyə gəlməyə imkan verir ki, Naxçıvan Cəlairilər üçün etibarlı siyasi mərkəz rolunu oynayırdı və hakim sülalə üçün mühüm əhəmiyyət kəsb edirdi.

Bu məsələni "Əhsənüt-təvarix"də şərh edilən bir söhbəti göstərməklə sübut edək: Sultan Əhməd Cəlairi Təbrizə daxil olarkən şəhər hakimi Qazi İzzəddin onun hüzuruna gəldi. Bu zaman sultan qazidən soruşur: "Nə üçün Əlincə qalasını Mirzə Ömərin sözü ilə dağıtdın?", Qazi cavabında "Düşmənlər Azərbaycan bölgələrini işğal edərkən həmin istehkamın onların sığınacağı olmasını istəmədim, indi ölkə sizin idarəçiliyinizə keçdi və əmr edərsizsə iki günə qalanı bərpa edərəm" cavabını verdi. Sultan Əhmədin əmri ilə Əlincə qalası bərpa edildi (Əhsənüt təvarix 58). Gördüyümüz kimi, Təbrizə daxil olan kimi Sultan Əhməd Cəlairin ilk sorğusu və bərpa əmri Naxçıvanda yerləşən Əlincə qalası ilə bağlı olmuşdu. Bu bir daha Əlincə və Naxçıvan bölgəsinin hakimiyyətə gələn hər bir sülalə üçün nə qədər vacib olduğunu göstərir. Cəlairilər özləri də hakimiyyətə gələrkən elxanilər ilə mübarizədə bəzən sığınmaq və daha çox qüvvə toplamaq məqsədilə məhz Naxçıvan və Əlincə qalasını seçmələri təsadüfi deyildi.

**Naxçıvan bölgəsi Qaraqoyunlu bəyliyi dövründə**: Azərbaycanda hakimiyyətdə olan hər bir sülalə kimliyindən və hərbi-siyasi gücündən asılı olmayaraq Naxçıvan və onun ətraf bölgələrini daim diqqət mərkəzində saxlayırdı. Anadolu ərazisində yerləşən bir sıra oğuz tayfa birlikləri öz siyasi kurslarında Naxçıvana xüsusi yer ayırırdılar. Anadolunun ən güclü siyasi qüvvələrindən biri hesab edilən Qaraqoyunlu tayfa birliyi Naxçıvan bölgəsinə maraqlı idilər. Cəlairilər hakimiyyətlərini bərqərar edərkən Qaraqoyunlu siyasi birliyinin rəhbəri Qara Mənsurun oğlu Bayram Xoca (1351-1380) 1374-cü ildə Cəlairi Sultan Üveysin siyasi hakimiyyətini qəbul etmişdi. Ərçişdə Cəlairilərin hakimiyyətini təmsil etmək şərtilə buraya hakim təyin edilmişdi. Cəlairi Sultan Üveysin hökmranlığını qəbul etsə də, Bayram Xoca müstəqil hakim kimi davranır və ətraf bölgələrdə kifayət qədər nüfuza və hörmətə malik olmuşdu. Cəlairi Sultan Üveysin ölümündən sonra Mosul, Xoy və Naxçıvanı öz siyasi

təsiri altına salmış Bayram Xoca tez bir zamanda müstəqillik əldə etmək və dövlətçiliyinin əsasını qoymağa cəhd göstərmişdi. Bununla da əslində Naxçıvan Cəlairi sülaləsinin təsir dairəsindən və hökmranlığından çıxmışdı. Tarixdə baş vermiş müəyyən hadisələr vardı ki, bu olaylar bəzən dövranın gedişatını dəyişmişdi. Tarixi dəyişdirəcək hadisələrdən biri Qaraqoyunlu siyasi birliyinin rəhbəri Bayram Xocanın qəfl ölümü oldu. Bayram Xocanın 1380-ci ildə qəfl ölümündən sonra Qaraqoyunlu tayfa ittifaqının rəhbərliyinə qardaşı Qara Dursun xanın oğlu Qara Məhəmməd (1380-1389) keçmişdi. Onun dövründə Qaraqoyunlu siyasi birliyinin əsas məqsədi əldə edilmiş olan torpaqlarda, ələlxüsus Naxçıvanda möhkəmlənmək idi. Belə ki, Naxçıvanın strateji əhəmiyyəti və Kiçik Asiyaya girişin məhz bu bölgədən keçməsini nəzərə alaraq qaraqoyunlular bu yola xüsusi diqqət ayırırdılar.

Qara Məhəmmədin dövründə Azərbaycan Qızıl Orda və Əmir Teymurun qoşunlarının hücumlarına məruz qalmışdı. Qızıl Orda hökmdarı Toxtamışın 1382-ci ildə hücumu zamanı Naxçıvanın ələ keçirilərək qarət edilməsi bölgəyə və şəhərdə dəhşətli dağıntılara səbəb olmuşdu. Qızıl Orda hökmdarı Toxtamış xan Azərbaycanı işğal etməklə öz dövlətinə birləşdirmək istəsə də, Əmir Teymurun gəlişini eşidərək Toxtamış Dərbənddən şimala çəkilməyi qərara almışdı. Qaraqoyunlu siyasi birliyinin başçısı Qara Məhəmməd Azərbaycandakı bu siyasi vəziyyətdən istifadə edərək Naxçıvan bölgəsini yenidən ələ keçirmişdi. Lakin, Əmir Teymurun 1386-cı ildə Azərbaycana ilk səfəri və Qarabağa gəlməsi qaraqoyunluları bir qədər təşvişə saldı. Belə ki, Əmir Teymurun növbəti hücum hədəfi osmanlılara qarşı yönəlmiş və Naxçıvan yolu ilə Şərqi Anadolu nəzərdə tutulmuşdu. Əmir Teymur burada Aydın, Uinik və Ərzurum şəhərlərini özünə tabe edə bilsə də, Qara Məhəmmədin qüvvələrini məğlub edə bilməmişdi. Əslində, Fransız şərqşünas və tədqiqatçı Jan-Pol Runun qeyd etdiyi kimi, bu dövrdə Teymurun Anadoluda hərəkətinin qarşısını məhz qaraqoyunlu türkmənlərinin baş qaldırması olmuşdu [13; 341]. Bütün qüvvələrini səfərbər edən qaraqoyunlular Çapaqçur döyüşündə Teymuri şahzadəsi Miranşahın rəhbərliyi altında olan teymuri qüvvələrini məğlub etdilər. Bu qalibiyyətdən istifadə edən qaraqoyunlular Van və ətraf bölgələri özünə tabe etmiş, hətta Təbrizədək əraziləri, Naxçıvan da daxil olmaqla Azərbaycanın böyük hissəsini özlərinə tabe etmişdilər. Cəlairi nümayəndəsi Qazi İmadəddin Əlincə qalasına Şeyx Üveys tərəfindən hakim olaraq təyin edilmiş, Əmir Teymur tərəfindən qala alındıqdan sonra da öz müdrikliyinə görə burada teymurilərin siyasi asılılığını qəbul etməklə iqtidarda qalmışdı [5; 66]. Əslində, Əmir Teymurun Azərbaycandakı siyasəti Qaraqoyunlu siyasi birliyinin bölgə üzrə siyasətinə və planlarına uyğun gəlmirdi, hətta deyərdim ki, toqquşurdu. Qara Yusifin baharlı siyasi birliyinin başçısı kimi Van ətrafında möhkəmlənməsi və Naxçıvan uğrunda siyasi mübarizədə cəlairilərlə yanaşı, qızıl ordalılar və teymurilər ilə mübarizə aparmalı oldu.

1405-ci ildə Əmir Teymurun ölümündən sonra Azərbaycanda siyasi hakimiyyət uğrunda mübarizə daha da kəskinləşdi. Naxçıvanın strateji əhəmiyyəti Qara Yusifi bütün qüvvələrini bu istiqamətdə cəmləməyə məcbur etmişdi.

1406-cı ildə Miranşah oğlu Əbu Bəkr ilə birgə hərbi qüvvələrini bərpa edərək Təbrizdən Naxçıvana doğru irəlilədi, lakin bu dəfə Araz yaxınlığında baş vermiş döyüşdə məğlubiyyətə uğrayaraq Təbriz, oradan Sultaniyyəyə geri çəkilmişdilər. Teymuri Əbu Bəkrə qarşı ilk qələbəsini qazanan Qara Yusifin siyasi nüfuzu bundan sonra daha da artmış, ətrafdakı hərbi-siyasi qüvvələr qaraqoyunluların ətrafına toplaşmağa başlamışdılar. Naxçıvan bölgəsində öz hakimiyyətini bərqərar edən Qara Yusif tez bir zamanda mühüm strateji əhəmiyyət kəsb edən Əlincə qalasına hücum etsə də, qalanın alınmazlığı və möhkəm qala qurğuları vasitəsilə təmin edilmiş müdafiə bu işi hərbi cəhətdən tamamlamağa imkan vermir. Lakin qala hakimi Qazi İmadəddindən narazı olan Əlincə əhalisi üsyan qaldıraraq Qara Yusifə tabe olduqlarını bildirmiş və Qara Yusifdən oğlu Mirzə İsgəndərin buraya hakim təyin edilməsini istəmişdilər [9; 76]. Bununla da qaraqoyunlular Naxçıvan və ətraf bölgələrin, eləcə də uzun müddət hakimiyyətlərindən kənar qalan Əlincə qalasının tam hakiminə çevrilmişdilər.

Qaraqoyunlular üçün növbəti hədəf Təbrizin ələ keçirilərək Azərbaycan taxtına yiyələnmək idi. Bunun qarşısını almaq məqsədilə teymuri Mirzə Əbubəkr Sərdrud adlı yerdə qaraqoyunlu hərbi qüvvələri ilə üz-üzə gəlsə də, yenidən məğlub olur və teymurilər Azərbaycanı tərk edirlər. Teymuri şahzadələri olan Miranşahın oğlu Xəlil Sultan və Şahruhun Mərkəzi Asiya, Mavərəünnəhr, Xorasan uğrunda mübarizəsi, hakimiyyətə gəlmək üçün çəkişməsi, onların Cənubi Qafqazdan tam çıxmasına və Azərbaycan üçün mübarizədən müvəqqəti də olsa, əl çəkməsinə səbəb oldu. Əslində, Azərbaycan uğrunda mübarizədə Sərdrud döyüşü qaraqoyunlu hərbi və siyasi gücünün, bölgədəki nüfuzunun göstəricisi idi. Teymurilərin Azərbaycandan uzaqlaşması qaraqoyunlulara öz dövlətlərini yaratmağa imkan verdi və cəlairiləri Şənbi-Qazan döyüşündə məğlub edib hakim qüvvəyə çevrilən qaraqoyunlular siyasi cəhətdən getdikcə möhkəmlənməyə başladılar. Sultan Əhməd Cəlairinin məğlub olmasından sonra Qara Yusif Azərbaycanın oğlu Pirbudağa, Ərəb İraqının isə böyük oğlu Şah Məhəmmədə verilməsi haqqında sultan Cəlairidən yarlıq aldı. Beləliklə, Naxçıvan da daxil olmaqla Azərbaycan Pirbudağın idarəçiliyinə verildi.

**Nəticə:** XIV əsrin son onilliklərində Azərbaycanda gedən siyasi mübarizə nəticəsində Cəlairilər sülaləsi Naxçıvan üzərində öz hökmranlıqlarını itirdilər. Mühüm strateji əhəmiyyət kəsb edən Naxçıvanın Baharlı sülaləsinin əlinə keçməsi və XV əsrin I yarısı ərzində bu bölgənin baharlılar ilə teymurilər arasında mübarizə meydanına və hərbi əməliyyatlara məruz qaldığını ilkin mənbələr əsasında izləyə bildik.

***Ədəbiyyat siyahısı:***

1. *Aka İsmail. İranda Türkmen hakimiyyeti: Karakoyunlular devri. Ankara: Türk Tarih Kurumu, 2001. 102 seh.*
2. *Azərbaycan tarixi. Yeddi clilddə. III cild (XIII-XVIII əsrlər). Bakı, Elm, 2007. 592 səh.*
3. *Babayev Səfərəli. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Bakı: Elm, 1999, 298 səh // Naxçıvan səyahətnamələrdə // http://web2.anl.az:81/read/page.php?bibid=17426&pno=103 10.06.2021*

4. Ebu Bekr-i Tehrani. Kitab-i Diyarbekriyye. Ankara: Türktarih kurumu, 2014. 418 s.
5. Hasan-i Rumlu. Ahsenüt-tevarih. Çevirən Mürsel Öztürk. 2.baskı. Ankara: Türk Tarih Kurumu, 2020. Səh 652.
6. İbrahimova Ü. Azərbaycan tarixi "Mücməli Fəsihi"də. Monoqrafiya. Bakı: Mütərcim, 2018. 256 səh.
7. Karakoyunlular (Başlangıçtan Cihan-Şaha kadar). I cilt. Dr. Faruk Sümer. Ankara: Türk Tarih kurumu, 1984. 169 seh.
8. Kəlbizadə Elnur. XIV əsr tarixçisi Həmdullah Qəzvininin bəhs etdiyi dörd Naxçıvan qalası haqqında. Şərq qapısı qəzeti: 10.01.2014 http://www.serqqapisi.az/index.php/humanitar/m-d-niyy-t/3130-khiv-aesr-tarikhdzhisi-haemdullah-zhaezvininin-baehs-etdiyi-doerd-nakhdzh-van-zhalas-hazhzh-nda.html 10.06.2021
9. Mehmet Fatih Bekirhan. Doğunun beyleri Kara Koyunlular. Ankara, Berikan yayınevi, 2017, 231 seh.
10. Məmmədov Rauf. Naxçıvan şəhərinin tarixi oçerki: orta əsrlər dövrü. Bakı, Elm, 1977, 156 səh.
11. Ruy Gonzales de Clavijo. Timur devrinde Kadisten Semerkanta seyahat. İstanbul, Cagaloğlu, 2016, 252 seh.
12. Studies in Caucasian history by V. Minorski. London: Taylor's foreign press, 1953, 203 pp/ https://archive.org/details/Minorsky 1953Studies Caucasian History/page/n155/mode/2up/ 10.06.2021
13. Şabiyev B.Ş. Azərbaycan Səfəvi dövlətinin irəvan vilayəti. Bakı, Avropa, 201, 456 səh.
14. Uzunçarşılı İsmail Hakkı. Anadolu beylikleri ve Akkoyunlu, karakoyunlu devletleri. Ankara: Türk Tarih Kurumu, 2019, 297 seh.
15. Roux Jean Paul. Orta Asiya Tarih və uyğarlık. İstanbul, Kabalcı Yayıncılık, İstanbul, 2014, 495 seh.

**UOT 94 (479.24)**

# NADİR XANIN AZƏRBAYCAN UĞRUNDA RUSİYA İLƏ MÜBARİZƏSİ

**Zəhra İslamova**
*BDU, Tarix fakültəsi, t.f.d.*
*zahraislamova@bsu.edu.az*
**Ulduz Paşayeva**
*BDU, Tarix fakültəsi, böyük elmi işçi*
*star.miri@mail.ru*

*Məqalədə Səfəvilər sülaləsi dövründə Azərbaycandakı siyasi vəziyyət təhlil olunmuşdu, habelə Əfşarlar sülaləsi dövründə Azərbaycanın beynəlxalq vəziyyəti araşdırılmış, hakim sülalənin Azərbaycan uğrunda mübarizəsi və qonşu dövlətlərlə, ilk növbədə Rusiya ilə münasibətləri təhlil edilmişdir. Eyni zamanda, ilkin mənbələr əsasında Rusiyanın bölgədəki iqtisadi maraqları öyrənilmişdir.*

***Açar sözlər**: Nadir xan, XVIII əsr, Rusiya, diplomatik danışıqlar, sülh müqavilələri*

## NADIR KHAN'S FIGHT WITH RUSSIA FOR AZERBAIJAN

*The article deals with the political situation in Azerbaijan during the Safavid period. It was studied the international situation of Azerbaijan during the Avsharids period, the international situation in Azerbaijan, its role in the history of Azerbaijan and its relations with neighboring states, especially with Russia. On the basis of primary sources, Russia's-economicol interests in the region were studied,too*

***Keywords:** Nadir xan, XVIII century, Russia, diplomatic negotiations, peace treaties*

**Giriş:** Azərbaycanın ən mürəkkəb dövrlərindən biri hesab edilən XVIII əsrin I yarısı Səfəvilərin tənəzzülü, süqutu və tarix səhnəsindən gedişi ilə səciyyələnir. Səfəvilər sülaləsini Moğollar dövründən Azərbaycana köç etmiş Əfşarlar sülaləsi əvəz etdi. XVIII əsrin 30-cu illərinin ortalarında Əfşar tayfasının qırxlı boyundan olan Nadir şah hakimiyyətə gəldi (1736) və Mərkəzi Azərbaycan olmaq şərtilə Səfəvilər imperiyasının keçmiş hüdudları çərçivəsində yeni bir sülalə və dövlətin hökmranlığı başlandı. Azərbaycan siyasi, iqtisadi, sosial və mədəni cəhətdən öz inkişafının yeni tarixi mərhələsinə qədəm qoydu. Bu dövrün ilkin mənbələr əsasında öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

**Mövzunun tarixşünaslığı:** Azərbaycan tarix elminin və tarixşünaslığının banisi A.Bakıxanov "Gülüstani-İrəm" əsərində ən qədim zamanlardan 1813-cü ilədək olan tariximizi 5 mərhələyə bölmüş və əsərinin dördüncü fəslini tam olaraq Nadirin hakimiyyəti illərinə həsr etmişdir [1]. Tədqiqat zamanı müqayisəli təhlillər aparmaq məqsədilə Kembric Universitetinin professoru Lorens Lokkartın "Nadir şah" əsərindən istifadə

edilmişdir [4]. Nadirin həyatının ilkin dönəmlərinin öyrənilməsi məqsədilə ser Con Malkolmun "İran tarixi" əsərinə müraciət etmişik [5]. Nadir xan dövründə bağlanmış müqavilələri və rus diplomatlarının hesabat və raportlarını araşdırmaq üçün V.A.Ulyanitskinin "Rusiyanın konsulluqları XVIII əsrdə" adlı əsəri [8], polyak səyyahı Y.Kruşinskinin səyahətnaməsində Nadirə dair hissələr tədqiqata cəlb edilmişdir [3]. Bundan başqa müasir dövrdə Nadir haqqında yazılmış bir sıra əsərlər araşdırılmışdı. Qızılbaş Səfəvi sülaləsinin sonuncu hökmdarlarının – Şah Sultan Hüseynin və Şah II Təhmasibin dövrü xalq üsyanları və qonşu dövlətlərin – Osmanlıların və Rusiyanın Azərbaycan torpaqlarının işğal etməsi ilə nəticələnmişdi.

**Nadirin şahlığa qədərki həyatı** haqqında qısa məlumat verməyi məqsədəuyğun hesab edirik. Nadir şah Əfşarın bəzi mənbələrdə 1688-ci ildə, bəzilərində isə 1689-cu ilin noyabr ayında anadan olması qeyd olunmuşdur. O, Xorasan vilayətinin Dərgəz mahalının Dəstgird kəndində köçəri maldarlıqla məşğul olan bir ailədə dünyaya gəlmişdir. Müəlliflər bu məşhur sərkərdənin hələ uşaq yaşlarından diribaş, hazırcavab, fərasətli və bacarıqlı olmasını qeyd edirlər. Nadirin bacarığından və qoçaqlığından bəhs edən İran tarixçisi M.M.Kazım yazır: «Elə ki, bir yaşına çatdı üç yaşlı kimi görünürdü və həmçinin günbəgün o gözəl pöhrə çəmənlikdə ... iftixarla yaşamağa ... başladı. Elə ki, on yaşa çatdı ata süvar olub şir, pələng və qaban şikarına getdi» [10, s.186].

Nadirin uşaqlıq və gənclik dövründə Səfəvilər dövləti dərin iqtisadi böhran keçirirdi. İqtisadi tənəzzül ölkəni siyasi cəhətdən də sarsıtmışdı. Məhz buna görə dövlətin bir çox yerlərində olduğu kimi, Azərbaycanda da yerli hakimlər çox zaman mərkəzi hakimiyyətlə hesablaşmadan nəzarətləri altında olan vilayətləri idarə edir, paytaxtdan gələn əmr və fərmanlara laqeyd yanaşır və hətta toplanılan vergiləri mənimsəyərək xəzinəyə təhvil verməkdən imtina edirdilər. Belə ki, «şah və onun əyanları rüşvətxor olduqlarından onları (vəzifəli şəxsləri) tez-tez dəyişirdilər və bir il ərzində eyni şəhərə iki və ya üç hakim təyin edirdilər ki, bunlar da bir-birinin ardınca ora yollanırdılar. Hakimliyi pulla almış bu kəslər gələn kimi hər cür ədaləti və xalqın hüquqlarını bir kənara ataraq tabeliklərində olanları soyur və qarət edirdilər» [11, s.55].

Feodal istismarının güclənməsi geniş xalq kütlələrinin şiddətli müqavimətinə səbəb olur və Səfəvi dövlətinin bir çox yerlərində həm sinfi mübarizə, həm də azadlıq mübarizəsi güclənirdi. Belə bir vaxtda başda şah Sultan Hüseyn olmaqla hakimiyyətin yuxarı dairələrinin idarəçilikdə səriştəsizliyi, qətiyyətsizliyi və səhlənkarlığı dövlətin süqutunu sürətləndirirdi. «... Fikirləşirəm ki, bu hakimiyyət əgər digər şahla dəyişdirilməsə, sonunda, iflasa yaxınlaşır, təkcə düşmənlərindən deyil, öz qiyamçılarından da müdafiə oluna bilmir və qiyam olmayan az yer qalıb...» [10, s.56].

Uşaq yaşlarında atasını itirən, Nadirqulunu uşaqlıq illərində Dəstgird kəndinə hücum edən özbəklər, qardaşı İbrahim və anası ilə birgə əsir aparırlar. Onlar bir müddət əsirlikdə qalırlar. Anasının vəfatından sonra qardaşı ilə əsirlikdən qaça bilən Nadir Əbivərdə qayıdıb Baba Əlibəyin

dəstəsinə qoşulur. Tezliklə Baba Əlibəyin böyük qızı ilə evlənir. 1723-cü ildə Baba Əlibəyin ölümündən sonra onun bütün qoşunu Nadirin ixtiyarına keçir. Səfəvilər dövlətinin uçuruma yuvarlandığı bir vaxtda silahlı dəstəyə başçılıq edən Nadir Əfşar, şiələrin müqəddəs şəhəri olan Məşhədi Məlik Mahmud Sistanlının əlindən almaq üçün sonuncu ilə mübarizəyə başladı. Elə bu dövrdə Səfəvilər dövləti dərin böhran keçirir, onun ərazisi əfqanlar, osmanlılar və ruslar tərəfindən işğal edilir. Şah Sultan Hüseyn bu zaman öz sarayı ilə birlikdə əfqan Mir Mahmuda təslim olub, taxt-tacı ona bağışlamışdı. İsfahanın mühasirəsi zamanı şəhəri tərk etməyə müvəffəq olan Sultan Hüseynin oğlu Təhmasib Mirzə Xəzər sahilindəki Astrabada qaçaraq atasının təslim olmasından sonra özünü şah elan edir (1722-1732). Güclü ordunun və sərkərdəlik məharətinin olmaması üzündən heç bir uğur əldə edə bilməyən II Şah Təhmasib tezliklə Astarabad hakimi Fətəli xan Qacarın timsalında güclü müttəfiq tapır və çox keçmədən onun nüfuzu altına düşür. Belə bir şəraitdə öz yaxasını sonuncunun əlindən qurtarmağa can atan Təhmasib Nadir Əfşar tərəfindən təklif edilən köməkdən yararlanmağı qərara alır. Altı minlik dəstə ilə II Şah Təhmasibin qulluğuna girən Nadir, şahdan etimad əlaməti olaraq Təhmasibqulu xan adını alır. 1726-cı ilin sentyabrında baş verən bu hadisədən bir ay sonra, artıq şahın tam etimadını qazanan Təhmasibqulu xan II Şah Təhmasib tərəfindən Fətəli xan Qacarı öldürtməyə, 1728-ci ilin əvvəli üçün isə II Şah Təhmasibi öz iradəsinə tabe etməyə nail olur.

**Nadir xanın Azərbaycan torpaqlarını geri qaytarması uğrunda mübarizəsi:** Bu dövrdə Nadirin ən böyük xidmətlərindən biri 1729-cu ilin dekabrında əfqanları ölkədən qovması, İsfahanı azad etməsi olur. O, II Şah Təhmasibi öz qanuni taxtına bərpa etdikdən sonra osmanlılardan tutduqları əraziləri boşaltmağı tələb edir. Osmanlılar tələbi rədd edir, odur ki, Nadir Əfşar osmanlılara qarşı fəal hərbi əməliyyatlara başlayır. Lakin əfqanların Xorasana hücumları ilə əlaqədar Nadirin Xorasana getməsindən istifadə edən II Şah Təhmasib öz şəxsi nüfuzunu qaldırmaqdan ötrü osmanlılara qarşı müharibəni davam etdirir və məğlub olaraq Arazdan şimaldakı Azərbaycan torpaqlarının osmanlılara verilməsi barədə 1732-ci il yanvarın 16-da Kirmanşah müqaviləsini imzalayır. Müqaviləyə görə Gəncə, İrəvan, Şamaxı və Şirvan osmanlılara, Kirmanşah, Təbriz, Ərdəbil və Həmədan Səfəvilərə verilir. Xorasandan geri qayıdan Nadir II Şah Təhmasibi əyyaşlıqda, səriştəsizlikdə və osmanlılarla rüsvayçı sülh bağlamaqda günahlandırıb, Əfqanıstanda və Xorasanda işləri nizama saldıqdan sonra geri qayıdan Nadir 1732-ci il avqustun 22-də II Təhmasibi hakimiyyətdən kənarlaşdırıb, onun 8 aylıq oğlunu Şah III Abbas adı ilə taxta çıxartdı, özünü isə onun qəyyumu – naibi elan etdi. Bununla da Nadir Əfşar hakimiyyəti tamamilə öz əlinə almış oldu. Bundan sonra Nadir ilk növbədə 1732-ci ildə bağlanmış Kirmanşah müqaviləsini ləğv etdi və 1723-cü ildən sonra osmanlılar tərəfindən tutulan torpaqların geri qaytarılmasını tələb etdi. Sultanın rədd cavabı müharibəyə səbəb oldu. 1733-cü ildə Bağdad yaxınlığında rəqibini darmadağın etməyə,

son nəticədə isə 1733-cü il dekabrın 19-da osmanlılarla sülh müqaviləsi imzalamağa müvəffəq oldu. Bağdad sülhünün şərtlərinə görə, osmanlılar son 10 ildə işğal etdikləri torpaqları geri qaytarmalı idilər. Lakin Osmanlı dövləti müqavilənin bu şərtinə qismən əməl etdi. Bundan sonra Nadir xan Rusiyadan da Xəzər sahili vilayətlərin geri qaytarılmasını tələb etdi.

Nadir hələ II Şah Təhmasibin xidmətində ikən Səfəvilər imperiyasını əvvəlki hüdudları çərçivəsində bərpa etməyi, ələlxüsus Azərbaycanı geri qaytarmağı əsas vəzifələrdən biri hesab edir, qonşu dövlətlərlə diplomatik danışıqlara girməyə, eyni zamanda lazım gələrsə, hərbi yolla qarşısına qoyduğu məqsədə nail olmağa çalışırdı. Qonşu dövlətlər, xüsusilə Osmanlı dövləti və Rusiya Azərbaycanın strateji coğrafi mövqeyini və təbii sərvətlərini nəzərə alaraq ölkə uğrunda mübarizəyə başlayır. Bu ölüm-dirim mübarizəsində Nadir eyni zamanda bir neçə qüvvə ilə, o cümlədən bu dövrdə işğalçı siyasət yürüdən Osmanlı və Rusiya ilə mubarizə aparmalı idi.

**XVIII əsrdə Rusiyanın xarici siyasəti**nin əsas istiqamətlərindən biri Cənubi Qafqazın, xüsusilə Xəzərin Azərbaycan sahillərinin ələ keçirilməsi idi. Çar I Pyotr (1689-1725) 1721-ci ildə İsveçlə 21 il davam etmiş Şimal müharibəsini qələbə ilə başa vurduqdan sonra 1722-ci ildə Xəzərsahili vilayətlərə hərbi yürüşə başlayır və onun əsas məqsədi Cənubi Qafqazda Rusiya imperiyasının təsir dairəsini genişləndirmək, Hindistan və Asiyadan Avropaya gedən ticarət yolunu bərpa etmək, rus tacirlərinin təhlükəsizliyini təmin etmək idi. Səfəvilərlə imzalanmış Peterburq (1723) və Osmanlılarla bağlanan İstanbul (1724) müqavilələri əsasında Xəzərsahili vilayətlərin rus qoşunları tərəfindən işğalı rəsmiləşdirildi. Pyotrdan sonra hakimiyyətə gələn I Yekaterina (1725-1727) və İmperator II Pyotr Alekseyeviç (1727-1730) dövründə Rusiyanın Cənubi Qafqaz siyasəti ancaq əldə edilmiş torpaqların qorunub saxlanmasına yönəlmişdi. A.Bakıxanovun "Gülüstani-İrəm" əsərində verdiyi məlumata görə, I Yekaterina taxta çıxdıqdan sonra I Pyotrun xarici siyasət xəttini davam etdirmiş, Osmanlılar və Səfəvilər ilə ittifaqı bərpa etmişdi. Xəzərsahili vilayətləri əldə saxlamaq məqsədilə Rusiya Qafqazda xüsusi qoşun hissələri saxlayırdı. Həmin dövrdə Səfəvilər artıq tənəzzülə uğramaqda idi. A.Bakıxanov qeyd edirdi ki, "bu iğtişaş dövründə, əfqanlar İranın paytaxtını, İraq, Fars və Xorasanı, Osmanlılar isə, Azərbaycanın yarısını, Ermənistan və Gürcüstanı ələ keçirmişdilər; ruslar Kaspi sahilindəki vilayətləri tutmuşdular, ləzgilər də Şirvanda asayişi və yolların əmin-amanlığını pozmuşdular... bir çox dərvişlər bədbəxt şah Hüseynin övladı olaraq özlərini qələmə verir, öz ətrafına tərəfdaş yığaraq keçmiş imperiyanın müxtəlif yerlərində qiyam və həyəcanlar yaradırdılar, bu narahatlıqlar dövründə kiçik də olsa gücə, qabiliyyətə və nüfuza malik olan hər bir kəs müstəqil hərəkət edərək dövləti yağmalaya bilərdi" [1, 137]. Məhz Azərbaycanın mürəkkəb siyasi dönəmində Nadir Təhmasibqulu xan adı ilə Səfəvi sarayında əvvəlcə qorçubaşı, daha sonra ordu komandanı kimi fəaliyyət göstərir və yüksək nailiyyətlər əldə edə bilir. Belə ki, o əfqanların ölkədən

qovulması və Səfəvi imperiyasının əvvəlki sərhədləri daxilində mövcudluğunu təmin etmək uğrunda kəskin mübarizə aparırdı. Lakin Nadir "həmişə olduğu kimi, ehtiyatlı siyasət yürüdür, öz qoşunlarının qızğınlığının qarşısını alırdı" [4, 57]. Nəticədə əfqanlar 1730-cu ildə tamamilə Səfəvi ərazisindən qovuldular. 1730-cu ilin avqustunda Nadir hətta Təbrizi də ələ keçirə bilmiş və xarici müdaxiləyə son qoymuşdu. Nadir xanın bu uğurları həm Osmanlı dövlətində, həm də Peterburqda böyük həyəcana və narahatlığa səbəb olmuşdu. Osmanlı dövlətində patron Xəlilin rəhbərliyi ilə etiraz hərəkatı hakimiyyət dəyişikliyi və "Lalə dövrünün" sona çatması ilə nəticələnmişdi. Rusiyaya gəlincə isə II Pyotrun ölümü və hakimiyyətə Romanovlar sülaləsinin yeni üzvünün gəlişi Rusiyanın cənub siyasətində müvəqqəti durğunluq yaratmışdı.

Anna İvanovna (1693-1740) hakimiyyətə gələrkən (1730) əslində əmisi Pyotrun siyasətini davam etdirməyi düşünürdü. Lakin beynəlxalq siyasi proseslər, Britaniyanın siyasi təzyiqləri, Rusiyanın daxili vəziyyəti bu məqsədin uğurla həyata keçirilməsinə imkan vermədi. Əfqanların ölkədən qovulması və Osmanlı ilə yaxınlaşma Rusiya diplomatlarını narahat edir və siyasi danışıqların zəruriliyi gündəmə gəlir. Rusiya üçün Xəzərsahili vilayətləri əldə saxlamaq böyük maliyyə vəsaiti və hərbi qüvvə tələb edirdi. Onu da qeyd edək ki, Nadir xan tərəfindən işğal edilmiş torpaqların geri qaytarılmasında beynəlxalq siyasi vəziyyət heç də az rol oynamamışdı. Nadirin tarix səhnəsinə gəlişi bölgədə tarixi gedişatı dəyişmişdi. İngiltərənin Kembric Universitetinin professoru Lorens Lokkart "Bəşəriyyət üçün belə qırmanclar Çingiz xan, Teymurləng və Nadir şah olub" deyə qeyd edir [4, 5].

Ümumiyyətlə, Nadirin Rusiyaya və Rusiyanın Nadirə olan münasibəti fərqli və deyərdik ki, qarşılıqlı olaraq ehtiyatlı idi. Nadir Əfşariyyənin zənginliyini göstərmək və iqtisadiyyatın inkişaf etdiyini nümayiş etdirmək üçün Hindistandan gətirilmiş ləl-cəvahiratı, qızıl bəzək əşyalarını sərhəd bölgələrinə paylamışdı. Nadir şah öz işğal planlarından geri çəkilmək fikrində olmasa da, müvəqqəti olaraq Rusiya ilə müttəfiqlik etməyə məcbur idi. Osmanlıya qarşı müharibəyə hazırlaşan Rusiya ancaq Nadirin onunla ittifaqda olduğuna əmin olandan sonra hərbi əməliyyatlara başlayır. L.Lokkart bu barədə yazır: "Rusiya, nəhayət, müharibəni başlamaq qərarına gələndə əmin idi ki, Nadir separat sülh bağlanmasına yol verməyəcək" [4, 184]. Nadirin əsas diqqətinin qərbə deyil, şərqə yönəldiyini nəzərə alaraq onun Rusiyanın Türküstan və Buxaranı işğal etməklə cənub-şərq sərhədlərini genişləndirmək planlarını pozmaq, eyni zamanda Türküstan xanı İlbars xanın tez-tez Xorasana yürüşlərinin qarşısını almaq üçün Mərkəzi Asiyaya yürüş etməsini anlamaq olur. Onu da qeyd edək ki, Osmanlıya qarşı birləşməklərinə və müttəfiq olmalarına baxmayaraq Nadirin şərq işğalları Rusiya ilə Əfşarlar dövlətinin münasibətlərini son dərəcə gərginləşdirir. Bu dövrdə Peterburqda hakimiyyətdə dəyişiklik olmuş, II Pyotr heç bir vəsiyyətnamə və varis qoymadan qızdırmadan vəfat etmişdi. Bununla da Romanovların kişi xətti ilə nəsli kəsilmiş, qadın xətti ilə Pyotrun qardaşı qızı Anna İvanovna hakimiy-

yətə gəlmişdi. Bu dövrdə Xəzərsahili vilayətlərin əldə saxlanması beynəlxalq aləmdə gedən siyasi proseslərin mürəkkəbliyi ilə əlaqədar mümkünsüz bir vəziyyətə düşür. Belə ki, Nadirin rəhbərliyi altında güclənən Əfşarların siyasəti Səfəvilər imperiyasının əvvəlki qudrətinin bərpasına yönəlmişdi və bu istiqamətdə kifayət qədər uğur əldə edilmişdi. Eyni zamanda, Rusiyanın xarici siyasətini Avropa istiqamətində kökləməsi cənuba olan marağı bir qədər azaltmışdı. Kifayət qədər maliyyə və hərbi qüvvənin olmaması da Peterburqun Azərbaycanı və Xəzərsahili vilayətləri tərk etməsinə səbəb olmuşdu. "Anna İvanovna Gilanda yerləşən Rusiya dəstələrində qızdırmadan və vəbadan baş vermiş ölümün çoxluğundan narahat olub" [4,100] danışıqlara başlamağı qərara aldı. 1731-ci il danışıqları Rusiya diplomatiyasının müəyyən mənada uğuru hesab edilə bilər. 1732-ci ilin yanvarın 16-da Osmanlı dövləti ilə Səfəvilər arasında imzalanan Kirmanşah müqaviləsi Rusiyanın ciddi narahatlığına səbəb olmuşdu və Türkiyənin Azərbaycanın cənubunda möhkəmlənməsindən ehtiyat edən Rusiya 1732-ci il yanvarın 21-də Səfəvilərlə Rəşt müqaviləsini imzalayır və özünün Xəzərsahili vilayətlərdəki təsirini qoruyub saxlamaqa nail olur. Nadir ilə siyasi diplomatik danışıqları rus diplomatları V.Levaşov və R.Şafirov aparmışdı. Müqaviləyə görə, Rusiyanın əsas şərti digər bir dövlətin bölgəyə daxil olmasını əngəlləmək, rus diplomatik nümayəndəliklərinin azad fəaliyyətinə şərait yaratmaq idi. Maraqlıdır ki, səkkiz maddədən ibarət olan Rəşt müqaviləsinin dörd bəndi ticarətə dair idi. A.Bakıxanov bu müqavilə haqqında yazır: "Rusiyanın bu barışıqda əsas əldə etdiyi uğur İran ilə dostluğu təzələmək və Osmanlıları Şirvan və Gürcüstandan uzaqlaşdırmaq idi" [1, 17]. Müqaviləyə görə rus tacirləri Azərbaycanda gömrüksüz ticarət etmək hüququ əldə edirdilər. 1735-ci il martın 21-də Rusiya ilə Səfəvilər arasında imzalanmış Gəncə müqaviləsinin şərtlərinə görə ruslar 6 ay ərzində Azərbaycanın Xəzərsahili vilayətlərini tərk etməli idilər. Bu müqavilənin hazırlanmasında əvəzedilməz rol oynamış knyaz S.Qolitsın 1729-cu ildə Peterburqda xüsusi vəzifə olan Məxfi məsləhətçi təyin edilir. Daha sonra çar hökuməti qarşısında göstərdiyi xidmətlərə görə knyaz Sergey Qolitsın Qafqaza rəsmi nümayəndə olaraq göndərilir. Onun əsas vəzifəsi Cənubi Qafqazda gedən siyasi prosesləri nəzarətdə saxlamaq və Rusiyanın mənafeyinə uyğun olaraq hərəkət etmək idi. Yeddi maddədən ibarət Gəncə müqaviləsinin yalnız bir bəndi ticarətə və rus tacirlərinin müdafiəsinə yönəlsə də, 1735-ci ildə diplomatın mərkəzə yazmış olduğu bir neçə raportun hər birində siyasi məsələlərdən deyil, iqtisadi və ticari məsələlərə dair məlumatlar verilmişdir [8, 300]. Bu müqavilə və hesabatlar Rusiyanın bu dövrdə Azərbaycanda ancaq iqtisadi maraqlarının olduğunu bir daha sübut edir. Lakin Rusiya burada da öz siyasi maraqlarından irəli gələrək əsas şərt kimi osmanlıların bu ərazilərə buraxılmamasını tələb edirdi. Hətta ticarət məsələlərində də bu prinsip əsas götürülürdü. Qolitsının verdiyi məlumatda qeyd edilir ki, "gömrüksüz ticarət hüququnun ancaq rus mənşəli tacirlərə aid olduğu bildirilməli və Şah hökuməti bunu gözləməlidir" [8, 301]. Hərbi və

siyasi cəhətdən əraziləri mənimsəyə bilməyən Rusiya ancaq ticarət imtiyazları əldə etməklə kifayətlənməli oldu. Belə ki, 1733-cü ildə Bağdad yaxınlığında Osmanlı qoşunlarının Nadir xan tərəfindən darmadağın edilməsindən sonra Xəzərsahili vilayətlərin əhalisi ruslara qarşı üsyan qaldırmışdı [1, 136]. Bu məsələ artıq Rusiyanın siyasi cəhətdən bölgədə öz mövqelərini itirdiyini göstərirdi. Lakin Rusiyanın Nadir ilə müttəfiqliyi heç də o demək deyildi ki, Rusiya özünün Xəzərsahili vilayətlərdəki iqtisadi və siyasi maraqlarından əl çəkmişdir. Beləliklə, İmperatriça Anna İvanovna dövründə Xəzərsahili vilayətlər faktiki olaraq Səfəvilərə geri qaytarıldı. Həmən ilin sonlarında son Türk əsgərləri Azərbaycan ərazilərini tərk etdilər.

**Nadir xanın şəxsiyyəti**: Ser Con Malkolmun qeyd etdiyi kimi, "Nadirin dünyaya gəlişinin qanunauyğun olması, hərəkət və davranışının qabalığı, kobud rəftarı gəncliyinin nəticəsi idi" [5, 3]. Lakin Nadir xanın cəsarəti, şücaəti onu xalq arasında hörmətli etmiş və ona olan inam günügündən artmışdı. Nadir xanın Səfəvi torpaqlarında əhali arasında mövqeyinin möhkəmlənməsini görən Rusiya yaxşı başa düşürdü ki, Nadir kimi şəxsiyyət qarşısına qoyduğu məqsədə nail olacaq, hətta yeni hədəflər müəyyən edərək daha böyük uğurlar əldə edəcəkdir. Bu səbəbdən ona nəzarət etmək məqsədilə Rusiya dövləti öz nümayəndəsi knyaz Sergey Qolitsını Nadirin düşərgəsinə göndərir və ona Nadir xanı bütün səfərlərində müşayiət etmək tapşırılır. Qolitsin Nadirin Dağıstan səfərində daim onun yanında olub, şahın hücumları, hərbi qələbələri, siyasi uğurları haqqında Peterburqa məlumatlar göndərirdi. Lakin onun bu məlumatları həddindən artıq şişirdilmiş məlumatlar idi. Belə ki, Qolitsin qeyd edirdi ki, Qazıqumıxda bəzi kəndlər Nadirə qısa müddətli müqavimət göstərmişdilər. Lakin XVIII əsr sənədləri Dağıstan hakimlərinin, hətta Surxay xanın və Usmi xanın könüllü olaraq itaətə gəlməsi haqqında məlumat verir [9]. Bir-birinin ardınca Dağıstan ərazilərinin Nadirə tabe olması Rusiya hakim dairələrini bərk narahat edirdi. Nadirin əsas planı bundan ibarət idi ki, Qızılyar, Kabarda və Kubanı tutmaqla Krıma yol açsın və Rusiyanın cənuba doğru hərəkətinin qarşısını alsın. Nadir xanın bu istəyi haqqında məlumatlar Peterburqa – çar sarayına çatmışdı. Əlbəttə ki, Rusiya hökuməti bunun qarşısını almaq üçün cənub sərhədlərini möhkəmləndirir, buradakı hərbi hissələrin sayını artırırdı. Ser Con Malkolmun Nadirin Dağıstan səfəri haqqında məlumatları sırasında belə bir qeydi var: "ruslar Nadirin onların sərhədlərini keçmək qorxusundan irəli gələrək hazırlıqlara hələ Həştərxanda başlamışdılar" [5, 42]. Məhz bu hazırlıqlar Nadirin nəzərdə tutulan plandan geri çəkilməsinə səbəb olmuşdu. Nadir vaxt qazanmaq və gələcəkdə Rusiyanın hücumlarının qarşısını almaq məqsədilə güclü hərbidəniz qüvvələrinə malik olma zərurətini yaxşı başa düşürdü. O, Xəzər dənizinin hər iki sahilində hücum və müdafiə qabiliyyətinə malik hərbi dəniz donanması yaratmadan Cənubi Qafqazda və Türküstanda özünü arxayın hesab edə bilməzdi. Şah Rusiya dövlətinin dəniz vasitəsilə Ənzəliyə və Gilana qoşun cıxara bilmək ehtimalını, Xəzərdəki dəniz daşımalarının yalnız

Rusiyanın əlində olduğunu nəzərə alaraq bunun Əfşarlar üçün heç də uyğun olmadığını anlayırdı. Nadir şah seçildikdən sonra güclü hərbi-dəniz donanması yaratmaq istəyir, bu istiqamətdə konkret addımlar atır, hədəflər müəyyən edirdi. "Nadir Kromvel və digər böyük sərkərdələr kimi özünə həddən artıq inanmaqdan başqa, öz başçılarına da hüdudsuz inam aşılamağı bacarırdı" [4, 65]. Nadir şahın Xəzər dənizində hərbi-dəniz donanması yaratmaq planları Rusiya mənafeləri ilə toqquşurdu, lakin buna baxmayaraq Nadir şah 1743-cü ildə ingilis Con Eltonun rəhbərliyi ilə Lahicanda gəmi-qayırma müəssisəsinin tikilməsi üçün əmr vermişdi.

Nadirin hakimiyyəti dövründə Xəzər dənizində ilk hərbi gəmi üzməyə başlayır. Lakin Nadir şahın ölümü və bir neçə ildən sonra 1751-ci ildə Con Eltonun öldürülməsi bu işi yarımçıq qoyur. Göründüyü kimi, Nadir şahın dövründə Rusiya ilə münasibətlər gərgin olsa da, Rusiya onun sərkərdəlik məharətini bilərək açıq döyüşlərdən çəkinirdi. Eyni zamanda, Rusiyanın Avropa istiqamətindəki siyasi məsələlərə başının qarışması öz rolunu oynamışdı. İstər Anna İvanovna, istərsə də Yelizaveta Petrovna (1741-1761) dövründə Cənubi Qafqaz, əsas etibarilə də Azərbaycan xüsusi diqqət mərkəzində olsa da, bu istiqamətdə elə bir ciddi hərbi əməliyyatlar və hücumlar qeydə alınmamışdı. Əksinə, məhz Nadir şah Rusiyanı Azərbaycandan, ümumilikdə Cənubi Qafqazdan uzaqlaşdıra bilmişdi.

Nadir şahın Azərbaycan tarixində rolu ayrı-ayrı müəlliflər tərəfindən müxtəlif cür qiymətləndirilmişdir. Onun bir sərkərdə kimi Azərbaycan torpaqlarını xarici işğalçılardan azad etməsi, əlbəttə, müsbət və danılmaz faktdır. Eyni zamanda Azərbaycanın vahid bir inzibati vilayətdə birləşdirilərək qardaşı İbrahim Mirzənin idarəçiliyinə verilməsi ölkəmizin həm siyasi, həm də iqtisadi cəhətdən birləşməsinə səbəb olmuşdu. Nadir şahın Səfəvilər imperiyasının əvvəlki qüdrətini bərpa etmək istəyi, Azərbaycanın imperiyanın özəyi olaraq xüsusi diqqət mərkəzində saxlaması inzibati idarəetmədə özünü daha çox biruzə verirdi. Səfəvi şahları dövründə Azərbaycanın inzibati vahidinə İrəvan, Şirvan və Gürcüstan daxil idi. Bunu polyak səyyahı J.T.Kruşinski təsdiq edərək Səfəvilər dövlətinə daxil olan 12 məmləkət arasında "ərazisinə İrəvan, Şirvan və Gürcüstan da daxil olan Azərbaycan"ın adını qeyd etmişdir [3, 19].

**Nəticə.** Azərbaycanın Əfşarlar imperiyası hüdudlarında siyasi və beynəlxalq durumunun dəyərləndirilməsi zamanı Nadir şahın Azərbaycana olan münasibəti əsas faktor olaraq qəbul edilməlidir. Məhz onun böyük xidmətidir ki, Azərbaycan torpaqları həm Osmanlılardan, həm də Rusiya işğalçılarından azad olunmuş, Türk Əfşarlar imperiyası hüdudlarında, vahid inzibati idarəçiliyə cəlb olunmuşdur. Beləliklə, Rusiyanın Azərbaycan uğrunda mübarizəsində məğlubiyyəti Nadirin misilsiz sərkərdəlik qabiliyyətinin və siyasi düşüncəsinin nəticəsi idi.

***Ədəbiyyat siyahısı:***

1. *Bakıxanov A. Gülüstan-i İrəm. Bakı: Elm, 1991, 256 s.*
2. *Ədalət Tahirzadə. Nadir şah Əfşar. (Tərcümeyi-hal oçerki). 2-ci nəşr. Bakı."Çıraq" nəşriyyatı, 2005, 40 s.*
3. *Kruşinski Y.T. Xristian səyyahın tarixi. Farscadan tərcümə edən Ş.Fərzəliyev. Bakı: Azərnəşr, 1993, 105 s.*
4. *Lokkart L. Nadir şah. Ruscadan tərcümə edən Nəriman Əbdülrəhmanlı. Bakı: Qanun nəşriyyatı, 2013, 552 s.*
5. *Sir John Malcolm. History of Persia, from the most early period to the present time. A new edition, revised, in two volumes.Vol II, London : John Murray, Albemarle-street, 1829, Pp.589*
6. *Süleymanov M. Nadir şah. Tehran, 2010, 741 s.*
7. *Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1830 гг. в 3-х томах. I т. СПб, 1869, 620 стр.*
8. *Ульяницкий В.А. Русскія консульства за границею въ XVIII вѣкъ. Москва: Типография Г.Лисснера и А.Гешеля, часть I. 1899, 1552 стр.*
9. *К истории борьбы дагестанцев против Надир-шаха // http://www.vostlit.info/ Texts/Dokumenty/Kavkaz/XVIII/1720-1740/Borba_dag_Nadir_sah/pred.htm*
10. *Mərvi Məhəmməd Kazım. «Aləm Ara-ye-Naderi». Tehran, III cilddə, I cild, 256 səh.*
11. *Cahangir Hüseyn Əfşar. Azərbaycan Nadir Əfşar dövləti (Nadir şahın 325 və Əfşar dövlətinin 280 illiyinə həsr edilir). Bakı, 2014, 256 səh.*

***Rəyçi: Səidə Əli qızı***
*BDU, Tarix fakültəsi, dosent*

**UOT 94 (479.24); 930:314**

## İRƏVAN BÖLGƏSİNDƏ İNZİBATİ-ƏRAZİ DƏYİŞİKLİKLƏRİ VƏ ƏHALİNİN ETNİK TƏRKİBİNƏ DAİR (XVIII-XIX ƏSRİN I YARISI)

**İlham Məmmədov**
*BDU, Tarix fakültəsi, elmi işçi*
*mammadov-1965@mail.ru*
**Yeganə Abdullayeva**
*BDU, Tarix fakültəsi, böyük laborant*

*Məqalə İrəvan bölgəsində XVIII-XIX əsrin I yarısı ərzində baş verən inzibati-ərazi və demoqrafik dəyişikliklərinə həsr edilmişdir. İrəvan xanlığının Azərbaycanın tarixi və siyasi coğrafiyasına aid olub, ən qədim zamanlardan məskunlaşma bölgəsi kimi tanınır. Azərbaycan türkləri bu bölgənin avtoxton əhalisi hesab edilir və ölkəmizin bölgələrində yaşayan digər azərbaycanlılarla sosial-iqtisadi, siyasi, mədəni əlaqələr ilə sıx bağlıdır. Azərbaycan xalqının formalaşmasında yaxından iştirak etmiş hürrilər, kimmerlər, iskitlər, saklar, hunlar və digər çoxsaylı oğuz və qıpçaq türkləri məhz bu regionda, xüsusilə Göyçə gölü ətrafındakı torpaqlarda yaşamış və özlərindən sonra zəngin tarixi-mədəni iz qoymuşlar [8, s.1]. XVIII əsrin I rübündə Azərbaycanın Rusiya, Osmanlı və digər imperialist Avropa dövlətlərinin rəqabət meydanına çevrilməsi, sonda sərhəddə yerləşən İrəvan əyalətinin Osmanlı idarəçiliyinə keçməsi bölgədə Səfəvilərdən qalma mövcud inzibati dəyişikliklərə səbəb oldu. Kəskin dəyişikliklər olmasa da, Əfşarlar dövründə İrəvan bölgəsi Azərbaycan bəylərbəyiliyinə daxil edilmiş və XVIII əsrin II yarısında müstəqil surətdə İrəvan xanlığı mövcud olmuşdu. XIX əsrin ilk onilliklərində bölgə Rusiya ilə Qacarlar arasında hərb meydanına çevrildi. 1828-ci il fevralın 10-da Rusiya İmperiyası ilə Qacarlar sülaləsi arasında bağlanmış Türkmənçay müqaviləsinin şərtlərinə əsasən İrəvan xanlığının ərazisi Rusiya İmperiyasının tərkibinə daxil edildi. Çar I Nikolayın 21 mart 1828-ci il tarixli fərmanı ilə İrəvan və Naxçıvan xanlıqları ləğv edildi, əvəzində Azərbaycanın tarixi və qədim torpaqlarında "Erməni vilayəti" adlı yeni inzibati bölgü yaradıldı. Çar Rusiyasının özünə etnik dayaq yaratmaq və Osmanlı ilə Azərbaycan xanlıqları arasında sədd çəkmək məqsədilə süni şəkildə yaratdığı adı çəkilən inzibati vahidə 1828-ci ildən başlayaraq erməniləri köçürməyə başladılar. Nəticədə İrəvan bölgəsinə köçürülən ermənilərin sayı sürətlə artmış, azərbaycanlıların sayı isə kəskin surətdə azalmışdır, ərazinin etnik tərkibində dəyişikliklər açıq şəkildə özünü göstərməyə başlamışdı. Belə ki, İrəvan xanlığının ərazisinə qeyri-türklərin köçürülməsi prosesi ilə ermənilər tərəfindən azərbaycanlıların tarixi-etnik torpaqlarından sıxışdırılıb çıxarılması prosesi paralel olaraq həyata keçirilmişdir.*

***Açar sözlər:*** *İrəvan xanlığı, inzibati-ərazi bölgü, mahallar, əhali, etnik tərkib, köçürmə siyasəti*

### *ON ADMINISTRATIVE-TERRITORIAL CHANGES AND ETHNIC COMPOSITION OF THE POPULATION IN THE IRAVAN REGION (IN THE XVIII AND THE FIRST HALF OF XIX CENTURIES)*

*The article delas with the administrative-territorial and demographic changes in the Iravan region during the XVIII- the first half of the XIX centuries. The province of Iravan belongs to the historical and political geography of Azerbaijan and has been known as a settlement since ancient times. Azerbaijani Turks are considered to be the indigenous*

*population of this region and are closely connected with socio-economic, political and cultural ties with other Azerbaijanis living regions of our country. In the first quarter of the 18th century, Azerbaijan became a competitive arena for Russia, Ottoman and other imperialist European states, and eventually the border province of Iravan came under Ottoman rule. Although there were no drastic changes, during the Afshar period, the Iravan region was included in the Azerbaijani principality, and in the second half of the 18th century, the Iravan khanate existed independently. In the first decades of the 19th century, the region became a battleground between Russia and the Gajars. According to the terms of the Turkmenchay Treaty signed between the Russian Empire and the Gajar dynasty on February 10, 1828, the territory of the Iravan Khanate was included in the Russian Empire. By the decree of Tsar Nicholas I dated March 21, 1828, the Iravan and Nakhchivan khanates were abolished, and a new administrative division called "Armenian province" was established in the historical and ancient lands of Azerbaijan. Beginning in 1828, Armenians began to resettle in the so-called administrative unit created by Tsarist Russia in order to create ethnic support and build a barrier between the Ottoman empire and Azerbaijani khanates. As a result, the number of Armenians resettled in the Yerevan region increased rapidly, the number of Azerbaijanis decreased sharply, and changes in the ethnic composition of the area began to manifest themselves. Thus, the process of resettlement of non-Turks in the territory of the Iravan Khanate and the expulsion of Azerbaijanis from the historical and ethnic lands by Armenians were carried out in parallel.*

***Keywords:*** *Iravan khanate, administrative-territorial division, districts, population, ethnic composition, resettlement policy*

**Giriş:** Azərbaycan tarixinin ən mürəkkəb dövrlərindən biri olan XVIII əsr - XIX əsrin ilk yarısı Çar Rusiyasının Cənubi Qafqazda siyasi maraqlarının və işğal siyasətinin həyata keçirtdiyi və Osmanlı ilə bölgədə nüfuz dairələri uğrunda mübarizə apardığı bir dövr hesab edilir. Rusiya ilə Osmanlı arasında sərhəddə yerləşən İrəvan bölgəsi siyasi iqtisadi cəhətdən mühüm mərkəz hesab edilirdi. Hər iki tərəf bu bölgədə yaratdığı təsir dairəsini daha da genişləndirməyə və burada möhkəmlənməyə çalışırdı. 1768-1774-cü illərdə II Yekaterinanın xüsusi tapşırığı ilə Qafqazın öyrənilməsi məqsədilə Azərbaycanın qərb bölgələrinə səyahət etmiş İ.A.Qildenştedt yazır ki, İrəvan mahalı Pəmbəklə qonşu olub, əhalisi tərəkəmə (türkmən), tatarlardır ibarət olmuşdur [11, s.170]. Fransız diplomatı C.Otter İrəvan şəhərinin coğrafi uzunluqlarını göstərərkən demişdir: "türk torpağı olan Rəvan Çuxur-Səəd vilayətində yerləşir və Zəngi çayı ilə sərhədlənir" [4, s. 290]. İrəvan əyalətinin xarici diplomat tərəfindən türk torpağı adlandırılması və Rəvan kimi qeyd edilməsi bu yerlərin yerli əhalisinin məhz Azərbaycan türklərinin olduğunu bir daha sübut edir. J.P.Turnefort qeyd edirdi: "oval formalı İrəvan qalasında səkkiz mindən çox müsəlman vardı, ermənilər isə gecə yatmağa buraya gəlirlər" [7, s.142]. Həm say baxımından Azərbaycan türklərinin üstün olmasını, həm də məskun əhalinin məhz azərbaycanlılar olduğunu sübut edən fransız səyyahın bu qeydinə əsasən, ermənilər şəhərdən kənarda olub, gecəni təhlükəsiz ərazidə keçirtmək üçün qalaya gəldiklərini göstərirdi.

**Azərbaycanın iki dövlət arasında bölüşdürülməsi:** XVIII əsrin ilk rübündə Cənubi Qafqazın Səfəvi-Osmanlı-Rusiya imperiyaları arasında

rəqabət və hərb meydanına çevrilməsi, nəhayətində ölkənin Rusiya-Osmanlı arasında 1724-cü il İstanbul müqaviləsinə əsasən bölüşdürülməsinə gətirib çıxartdı. Bu dövrdə Çar Rusiyasının müstəmləkə siyasətinin tətbiq edilməsi Azərbaycanda inzibati dəyişikliklərin və əhalinin etnik tərkibində kəskin fərqlərin yaradılması ilə izlənilirdi. Müqavilədən dərhal sonra Çar I Pyotrun xristian əhalinin, yəni ermənilərin Rusiyanın hakimiyyəti altına keçmiş Xəzərsahili vilayətlərə köçürülməsinə dair fərman versə də, Pyotrun ölümü bu prosesin dayanmasına və bir əsr sonra daha intensiv şəkildə həyata keçməsinə səbəb oldu. Qeyd etdiyimiz 1724-cü il İstanbul müqaviləsinə əsasən, tədqiqat obyektimiz olan Azərbaycanın qərb bölgələri, əsasən də İrəvan Osmanlının hakimiyyəti altına düşür. Müqavilənin III maddəsində deyilir: "Bütün Şərqi Gürcüstan və Azərbaycan ərazisinin böyük bir hissəsi, Təbriz, Mərənd, Marağa, Urmiya, Çoros, Salmas, Tiflis, Gəncə-Qarabağ, Naxçıvan, Rəvan, Bərdə, Həmadan, Qum və Kirmanşah torpaqları Osmanlının tərkibinə verilir" [3].

**Azərbaycanda Osmanlı idarəçiliyi dövrü:** 1735-ci ilin sentyabrına qədər Osmanlı üsul-idarəsi qeyd olunan bölgələrdə hökmran olmuşdu. Bildiyimiz kimi, Osmanlılar tabe etdikləri ərazilərdə tez bir zamanda qeydiyyat aparır və tabe edilmiş bölgə imperiya qayda-qanunlarına uyğunlaşdırılırdı. "Ələ keçirdikləri bölgələri mərkəzləşmiş qaydada idarə etmək məqsədi ilə osmanlılar buraların ölkənin ictimai-siyasi və sosial-iqtisadi sisteminə inteqrasiyası ilə ciddi məşğul olmağa başlayırlar. Siyasi sabitliyi və asayişi təmin etmək, hücumlardan qorunmaq üçün osmanlılar ilk növbədə qalalarda silahlı qüvvələri yerləşdirir, onlara maaş kimi veriləcək vəsaitin mənbələrini müəyyən edirdilər. Bu tədbirdən sonra ələ keçirilən bölgələr əyalətlərə bölünür, onların ərazi-inzibati bölgüsü aparılır, yerli idarə aparatı formalaşdırılırdı [2, s.5]. Bunu əsas götürərək Osmanlı hakim dairələri 1728-ci ildə tabe edilmiş ərazilərdə siyahıyaalmalar aparmış və Azərbaycanın qərb bölgələrinə dair "İrəvan əyalətinin icmal dəftəri" tərtib edilmişdi [2].

"İcmal dəftəri"ndən əldə etdiyimiz materiallar İrəvan əyalətinin XVIII əsrin ilk qərinəsində sosial-iqtisadi, deçoqrafik vəziyyəti, ərazi-inzibati quruluşu, toponimikası, siyasi-hərbi vəziyyətinə dair əsas məsələlərinin işıqlandırılmasında xüsusi çəkisi vardır. Ümumiyyətlə, Azərbaycanın XVIII əsrin ilk rübünə dair tarixinin öyrənilməsində bu qaynağın yeri əvəzedilməzdir. Belə ki, İrəvan xanlığının inzibati quruluşu, mahalları, kəndləri, sosial quruluşu, əhalisi və s. haqqında "İrəvan əyalətinin icmal dəftəri"ndən kifayət qədər material toplamaq mümkündür. Bu "dəftər"ə görə, İrəvan əyalətinin aşağıdakı inzibati-ərazi vahidləri olmuşdu: İrəvan şəhəri, Qırxbulaq, Körpü, Maku, Xinzirək, Gərni, Vedi, Dərəçiçək, Abaran, Göyçə, Məzrə, Sürməli, İğdır, Aralıq, Şərur, Sədərək, Zərzəmin nahiyələri və Şörəyel livası. "İcmal dəftər"də İrəvan bölgəsinin nahiyələrinə və livasına daxil olan kəndlərin sayı da göstərilmişdi. Bu siyahıyaalmaya görə, İrəvan bölgəsində 1.512 kənd qeydə alınmışdı ki, bu kəndlərdən 1.423 - ü əhali yaşayan abad,

89-u isə boş kənd olaraq qeydə alınmışdı.

"İrəvan əyalətinin icmal dəftəri"ndəki demoqrafik materialları nəzərə alaraq bu qaynağı XVIII yüzilliyin birinci qərinəsinə aid ilkin mənbə kimi qəbul etmək olar. Həmin qaynaqda, məskunlaşmış şəhər və kəndlərin əhalisinin say və etnik tərkibi göstərilmişdi. Statistik məlumata görə, İrəvan əyalətinə daxil olan 17 nahiyə və livada əhalinin 43.784 nəfərini (61,2 %) Azərbaycan türkləri, 27.799 nəfərini (38,8%) isə xristianlar təşkil etmişdi. Şəhər əhalisi isə bütün əyalət əhalisinin 4,7%-i təşkil etmişdi. Onlardan 428-i Azərbaycan türkü, 224-ü xristian ailəsi, 9 nəfər isə subay xristian olmuşdu. Hər ailə 5 nəfərdən hesablansa, İrəvan şəhər əhalisi 3.269 nəfər edir. Beləliklə, şəhər əhalisini ümumi hesaba daxil etsək bu diyarın bütün əyalətində təxminən 74.852 nəfər qeydə alınmışdı [5, s.392]. Bununla, ilkin mənbə əsasında İrəvan əyalətinin əhalisinin əsasını Azərbaycan türkləri təşkil etdiyini açıq şəkildə görürük.

1728-ci ildə osmanlılar siyahıyaalma keçirərkən qərb bölgəmiz olan Naxçıvan sancağının ərazi-inzibati quruluşu aşağıdakı kimi idi: Naxçıvan sancağı — Naxçıvan şəhəri, Naxçıvan, Əlincə, Sair Məvazi, Dərəşahbuz, Mülki-Arslan, Məvaziyi-Xatun, Qarabağ, Qışlağat Dərəşam, Azadciran, Şorlut, Dərənürgüt, Dərələyəz və Sisyan nahiyələri [8, s.24].

Gördüyümüz kimi, 1728 - 1735-ci illər ərzində İrəvan əyalətində Osmanlı idarəçiliyi dövründə buranın hərbi əməliyyatlar meydanına çevrilməsinə baxmayaraq əhalinin sayında müəyyən fərqlər izlənilsə də, bölgənin etnik tərkibində və inzibati quruluşunda kəskin dəyişikliklər olmamış, Səfəvi idarəçiliyində nisbi dəyişiklik edilmişdi. 1736 - 1747-ci illər ərzində Azərbaycan Əfşarlar imperiyasına, İrəvan isə Azərbaycan bəylərbəyliyinə daxil edilmişdi.

**İrəvan bölgəsi xanlıq dövründə:** Xanlıq dövrünə dair yerli mənbələrin azlığı bölgənin bu dövrdə inzibati quruluşunun və demoqrafiyasının öyrənilməsində çətinlik yaradır. Rus işğalından sonra bölgənin öyrənilməsi, bölgəyə göndərilən səyyah, diplomat və tədqiqatçılar tərəfindən əyalətin təsvir edilməsi, siyahıyaalmanın aparılması başlanır. Əldə edilmiş materialların təhlili imkan verir ki, XVIII - XIX əsrin ilk onilliklərində bölgədə gedən inzibati və demoqrafik dəyişiklikləri izləyək.

1747 - ci ildə Əfşarlar imperiyasının süqutu ilə Azərbaycanda bir sıra dövlət qurumları – xanlıqlar yarandı. Onlardan qərb bölgələrini əhatə edən İrəvan və Naxçıvan xanlıqlarının adını çəkə bilərik. İrəvan xanlığının mahalları haqqında Rusiya tarixçi demoqrafı İ.Şopenin əsəri bizə daha dolğun məlumat verir. Onun "Rusiyaya birləşdirmək dövründə Erməni vilayətinin tarixi abidəsinin vəziyyəti" adlı əsərində göstərilirdi ki, son İrəvan xanı Hüseynqulu xanın (1806 - 1827) dövründə İrəvan xanlığının 15 mahalı olmuşdur. İ.Şopen yazırdı: "xanlıq böyük hissəsi axar çaylarla sərhədlənən, inzibati bölgü təşkil edən bir şəhər, 15 mahal və dairəyə bölünürdü". Bu mahallar əsasən Araz çayının hər iki sahilində qərarlaşmışdı. Bir şəhər və 13

mahal Arazın sol sahilində, mahallardan yalnız ikisi - Dərəkənd-Parçenis və Sürməli mahalları Araz çayının sağ sahilində yerləşmişdi. Mahallar çaylar və bu çaylardan çəkilmiş süni arxlar vasitəsilə bir-birindən ayrılırdı. Beləliklə, İ.Şopenin qeyd etdiyi İrəvan xanlığının mahalları aşağıdakılardır: Qırxbulaq; Zəngibasar; Gərnibasar; Vedibasar; Şərur; Sürməli; Dərəkənd - Parçenis; Göyçə; Səədli; Talın; Seyidli - Ağsaqqallı; Sərdarabad; Körpübasar; Abaran; Dərəçiçək. Qeyd edilən bu mahallarda 831 kənd qeydə alınmışdı [5, s.300-304].

İnzibati ərazi vahidlərinin təsviri İ.Şopen tərəfindən 1829-1832-ci illərdə aparılsa da, burada əvvəlki dövrlərə dair materiallar da toplanmışdı. Bir sıra qaranlıq tarixi məsələlərin açılmasında bu qaynağın rolu əvəzsizdir. Burada İrəvan xanlığında mövcud mahallarının sayı göstərilməklə bərabər, onların sərhədləri də təsvir edilmişdir.

Rusiya işğalına qədər İrəvan xanlığının (1747-1828-ci illər) inzibati-ərazi vahidlərini, onların ərazisini, kəndlərinin sayını nəzərdən keçirək. İrəvan bölgəsinin ən böyük mahalı olan Göyçə mahalı Göyçə gölünün bütün ətraf ərazilərini, Göyçə vadisini əhatə edirdi. Bu mahal şimaldan Şəmşəddil sultanlığı, Gəncə xanlığı, şimal-qərbdən Dərəçiçək mahalı, cənubdan Naxçıvan xanlığı, şərqdən Qarabağ xanlığı, qərbdən isə Qırxbulaq, Gərnibasar və Vedibasar mahalları ilə həmsərhəd idi. Göyçə mahalı 126 kənddən ibarət olmuşdu. Lakin sonuncu Rusiya-Qacar müharibəsi nəticəsində 67 kənd dağıdılmış, hətta bu kəndlərdən 37-nin adı belə tamamilə unudulmuşdu. Mahalın yalnız 59 kəndində əhali qeydə alınmışdı. Qeyd etmək lazımdır ki, müharibələr dövründə ən çox zərbələrdən biri Göyçə mahalına dəymişdi. İ.Şopen yazırdı ki, keçən yüzillik ərzində hərbi əməliyyatlar nəticəsində mahal tamamilə boş qalmışdı. Dağıdılan kəndlərin adı bir neçə dəfə unudulmuş, sonradan yeni adlarla əvəzlənmişdi. Boş qalmış kəndləri doldurmaq üçün 1814-cü ildə Hüseynqulu xan qarapapaqları buraya köçürmüşdü [2, s. 446].

Siyahıyaalmanın nəticəsinə görə, Göyçə mahalında ümumilikdə 59 kənd mövcud olmuşdur: Bığlı Hüseyn, Zeynalağalı, Rəhmankənd, Ağqala, Əyrivəng, Qızılcıq (Abulkəndi), Noradüz, Qışlaq, Kəvər, Qul Əli, Kosa Məmməd, Paşakəndi, Dəli Qardaş, Küzəcik, Başkənd, Heyranıs, Hətəmxan, Vəli Ağalı, Təzəkənd, Dəlikdaş, Gölkəndi, Aşağı Adyaman, Yuxarı Adyaman, Əbdül Ağalı, Gözəldərə, Ağqıraq, Aşağı Qaranlıq, Yuxarı Qaranlıq, Zolağac, Kolanlıqırılan, Alçalı, Qarasaqqal qışlağı, Yarpızlı, Zağalı, Qızılbulaq, Qırxbulaq, Qanlı Allahverdi, Basarkeçər, Qoşabulaq, Aşağı Keyti (Salman kəndi), Baş Keyti, Ellicə, Daşkənd, Daş Keyti, Tatlı Qışlağı, Zərzibil, Zod, Ağyoxuş, Əyricə, Böyük Məzrə, Kiçik Məzrə, Kəsəmən, Şişqaya, Cil, Ardanış, Adatəpə, Şor Əli, Ağbulaq, Toxluca [10, s.515]. İrəvan xanlığının ərazisi əvvəllər inzibati cəhətdən 12 mahala bölünmüşdü. Sonralar Hüseynqulu xan Qacar daha 3 yeni mahal yaradaraq mahalların sayını 15-ə çatdırdı. Xanlıq mahallara bölünərkən xanlıq ərazisindəki suvarma sistemindən bütün mahalların istifadə edə bilməsi nəzərə alınmışdı. Bu da xanlıq

ərazisində kənd təsərrüfatının inkişafı üçün həlledici əhəmiyyətə malik idi.

Osmanlı dövləti və Qacarlar ilə sərhəddə yerləşən İrəvan xanlığının ələ keçirilməsi Rusiya imperiyasının işğalçılıq planlarının mühüm tərkib hissəsi idi. 1804-1813-cü illərdə Azərbaycan torpaqlarının işğalı uğrunda gedən Birinci Rusiya - Qacar müharibəsi zamanı İrəvan xanlığı iki dəfə (2 iyul-3 sentyabr 1804-cü il; 3 oktyabr - 30 noyabr 1808-ci il) Rusiya qoşunlarının güclü hücumlarına məruz qaldı. Bütün bunlara baxmayaraq, Birinci Rusiya-Qacar müharibəsi zamanı Rusiya imperiyası İrəvan və Naxçıvan xanlıqlarını işğal edə bilmədi. Adı çəkilən xanlıqlar formal müstəqil olsalar da, Rusiyanın və Qacarların, o cümlədən Osmanlının bölgədə təzyiqləri getdikcə artırdı.

İrəvan xanlığı işğal olunduqdan sonra 1827-ci il oktyabrın 6-da baş komandan, ermənipərəst Paskeviçin əmri ilə burada Müvəqqəti İdarəçilik yaradıldı. Onun tərkibi üç nəfərdən ibarət idi. Müvəqqəti İdarəçiliyin sədri general Krasovski, İrəvan qalasının komendantı isə podpolkovnik Borodin təyin edildi. Erməni katolikosu Nerses bu Müvəqqəti İdarəçiliyin üzvü təyin olundu. General Paskeviç tərəfindən verilən 19 maddədən ibarət təlimat isə Müvəqqəti İdarəçiliyin fəaliyyəti üçün başlıca baza rolunu oynamalı idi. Rusiya generalının əlində olan bu "hökumət" xanlıq idarə orqanlarına bir o qədər də təsir göstərmədi. Lakin Rusiya çarının 1828-ci il martın 21-də verdiyi fərmana görə, keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində yeni bir süni qurum-"Erməni vilayəti" yaradıldı.

İrəvan şəhəri kameral siyahıyaalma keçirən rus tarixçi - statistiki İvan Şopen ətraflı məlumat vermişdir. Mahalların təşkili zamanı suvarma sistemlərinin mövcudluğu, kəndlərin çay hövzələrinə yaxınlığı əsas meyar kimi götürülürdü. Məsələn, Zəngibasar mahalına Zəngi çayının suyundan istifadə edən kəndlər daxil edilmişdi. Dərəçiçək mahalı şimaldan Pəmbək əyaləti, cənubdan Qırxbulaq mahalı, qərbdən Abaran mahalı və şərqdən Göyçə mahalı arasında yerləşirdi. Mahalda mövcud olmuş 53 kənddən 16-sı rus işğalı nəticəsində dağıdılmışdı. Dərəçiçək mahalının ərazisi indiki Kotayk vilayətinin keçmiş Hrazdan (Axta) rayonunun ərazisinə uyğun gəlirdi. Göycə mahalı şimaldan Şəmşəddil sultanlığı, Gəncə xanlığı, şimali-qərbdən Dərəçiçək mahalı, cənubdan Naxçıvan xanlığı, şərqdən Qarabag xanlığı, qərbdən Qırxbulaq, Gərnibasar və cənub-qərbdən Vedibasar mahalları ilə həmsərhəd idi. Ərazicə ən böyük olan Göycə mahalı Göycə gölü hövzəsini tam əhatə edirdi. Tarixi qaynaqlar göstərir ki, xanlığın əhalisinin əsasını qaraqoyunlu, ağqoyunlu və qızılbaş tayfa birliklərinə daxil olan bayat, əfşar, səədli, baharlı, bayandur, qacar, şamlı, rumlu, ustaclı, təkəli, ayrımlı, muğanlı və s. kimi tayfalar təşkil etmişlər. Demək, İrəvan xanlığının əhalisinin etnik tərkibi oğuz-türk boylarından ibarət olmuşdur [9, s.44-45].

**İrəvan xanlığının inzibati-ərazi bölgüsü:** İrəvan xanlığının Rusiya qoşunları tərəfindən 1827-ci ildə işğalı ərəfəsində xanlığın inzibati-ərazi bölgüsü 15 mahaldan və xanlıqdan yarıasılı Şörəyel sultanlığından ibarət olmuşdur:

**Cədvəl 1**

**İrəvan xanlığının inzibati-ərazi bölgüsü**

| Sıra sayı | Mahallar | Kəndlərin sayı | Müharibələr nəticəsində dağıdılan kəndlərin sayı |
|---|---|---|---|
| 1. | Qırxbulaq | 48 | 26 |
| 2. | Zəngibasar | 33 | 7 |
| 3. | Gərnibasar | 95 | 43 |
| 4. | Vedibasar | 54 | 33 |
| 5. | Şərur | 61 | 11 |
| 6. | Sürməli | 78 | 28 |
| 7. | Dərəkənd-Parçeniş | 88 | 8 |
| 8. | Sərdarabad | 30 | 8 |
| 9. | Səədli | 14 | 5 |
| 10. | Talın | 47 | 27 |
| 11. | Seyidli –Ağsaqqallı | 20 | - |
| 12. | Körpübasar | 49 | 9 |
| 13. | Abaran | 61 | 22 |
| 14. | Dərəçiçək | 53 | 16 |
| 15. | Göyçə | 126 | 67 |
| | **Cəmi:** | 857 | 310 |

**Mənbə:** [5, s.300-308]

İ.Şopenin kitabında diqqəti cəlb edən cəhətlərdən biri vilayətə daxil olan torpaqların Rusiya işğalı dövrünə və ilk illərə aid statistik məlumatların yer almasıdır. Onun ermənilərin bu torpaqlara köçürülməsi haqqında məlumatları, həmin ərazilərin zor gücünə erməniləşdirilməsi siyasətinin tərkib hissəsi olduğunu sübut edir.

**Cədvəl 2**

**İrəvan xanlığının əhalisi 1832-ci il (nəfərlə)**

| Sıra sayı | Mahallar | Müsəlmanlar (azərbaycanlılar) | 1827-ci ilə qədər məskunlaşdırılan ermənilər | 1828-ci ildən sonra İrandan köçürülən ermənilər | 1828-ci ildən sonra Osmanlı imperiyasından köçürülən ermənilər |
|---|---|---|---|---|---|
| 1. | İrəvan | 7331 | 2369 | 1715 | 48 |
| 2. | Qırxbulaq | 383 | 1396 | 1043 | 231 |
| 3. | Zəngibasar | 5413 | 603 | 2360 | - |
| 4. | Gərnibasar | 4176 | 145 | 5359 | - |
| 5. | Vedibasar | 3449 | 15 | 1069 | - |
| 6. | Şərur | 6510 | - | 1757 | - |
| 7. | Sürməli | 4832 | 5892 | 1459 | 1342 |
| 8. | Dərəkənd-Parçeniş | 3267 | 5 | - | - |
| 9. | Səədli | 1004 | - | - | - |
| 10. | Talın | 420 | 416 | - | 1144 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 11. | Seyidli-Ağsaqqallı | 1754 | 28 | - | - |
| 12. | Sərdarabad | 1837 | 3214 | 356 | 21 |
| 13. | Körpübasar | 2592 | 5290 | 2897 | 176 |
| 14. | Abaran | - | 58 | 2018 | 6857 |
| 15. | Dərəçiçək | 1300 | 552 | 3535 | 3263 |
| 16. | Göyçə | 5607 | 90 | - | 8557 |
| | **Cəmi:** | 49875 | 20073 | 23568 | 21639 |

**Mənbə:** [13, s.643-648]

1826-1828-ci illər Rusiya - Qacarlar İranı müharibəsi başa çatdıqdan sonra, Türkmənçay müqaviləsinə (1828) əsasən, Azərbaycanın iki xanlığı — İrəvan xanlığı və Naxçıvan xanlığı Rusiya imperiyasına qatıldı. Bu tarixi fakt 1828 - ci il Türkmənçay müqaviləsinin bütün mətnində və məzmununda da öz əksini tapmışdır. Konkret olaraq müqavilənin 3 - cü maddəsində İrəvan xanlığının və Naxçıvan xanlığının Rusiya imperiyasına ilhaq olunduğu qeyd edilir [8, s.10-14].

1828 - ci il fevralın 10 - da Təbriz yaxınlığında Türkmənçay kəndində Rusiya ilə Qacar dövləti arasında 16 maddədən ibarət müqavilə imzalandı. Bu müqavilənin üçüncü bəndinə əsasən, Azərbaycanın İrəvan və Naxçıvan xanlıqları Rusiyanın ixtiyarına keçirdi. Beləliklə, Azərbaycanın ən uzunömürlü xanlıqlarından biri olan İrəvan xanlığı Rusiya imperiyası tərəfindən işğal olundu. Azərbaycanın ayrı-ayrı kiçik feodal qurumlarına parçalanması, onların bir-birinə qarşı olan torpaq iddiaları, baş verən ara müharibələri, xarici müdaxilələr xanlıqların, o cümlədən, İrəvan xanlığının zəifləməsinə gətirib çıxarmışdı. İrəvan xanlığı uzun müddət müstəqilliyini xarici müdaxilədən qoruyub saxlaya bilmişdi. Lakin hərbi cəhətdən daha güclü olan və dövrün müasir silahlarına malik Rusiya İrəvan xanlığını işğal etmiş və Naxçıvan xanlığının ərazisində Rusiya imperiyasının tərkibinə daxil olan "Erməni vilayəti" yaratmışdır. Nəticədə, Osmanlı imperiyası və Qacar dövləti ilə sərhəddə bufer zona yaradan Rusiya Azərbaycanın bu qədim ərazisini xristianlaşdırmağa - erməniləşdirməyə başlamışdı. Bununla da, ermənilər çoxdan arzu etdikləri məqsədə - Rusiyanın köməyi ilə Azərbaycan ərazisində dövlət yaratmaq istəyinin birinci mərhələsinə nail oldular [2, s.28].

**İrəvan xanlığı əhalisinin say dinamikası və etnik tərkibi:** 1829-1832-ci illərdə həyata keçirilmiş kameral siyahıyaalınmanın təhlilindən belə nəticəyə gəlmək olar ki, Rusiya Qacar müharibələrindən əvvəl İrəvan xanlığının əhalisi təxminən 22.964 ailə və yaxud 134.646 nəfərdən ibarət olmuşdu. Bunlardan 1.6438 Azərbaycan türk ailəsi (99.609 nəfər), 3.452 erməni ailəsi (19.878 nəfər), 2.984 kürd ailəsi (14.902 nəfər), 60 qaraçı ailəsi (257 nəfər) idi [5, s.400].

1833-cü il iyunun 23-də "Erməni vilayəti"nin inzibati quruluşu qanunu qəbul edildi. Bu qanuna əsasən, İrəvan qəzası dörd dairəyə bölündü: İrəvan, Şərur, Sürməli və Sərdarabad. Dairələrin rəisi vəzifəsinə rus məmurları təyin

edildi. İrəvan dairəsinə Göyçə, Dərəçiçək, Qırxbulaq mahalının ərazisi, Şərur dairəsinə isə Vedibasar, Zəngibasar və Gərnibasar mahalları daxil idi [10].

1840-cı il aprelin 10-da keçirilən inzibati-ərazi islahatı nəticəsində “Erməni vilayəti” qəza kimi Gürcüstan-İmeretiya quberniyasının tərkibinə daxil edildi. Lakin 1849-cu il iyunun 9-da çarın fərmanı ilə İrəvan daha geniş və birbaşa mərkəzə tabe olan inzibati-ərazi quruluşu olan quberniyaya çevrildi [5, s.281-282]. Bu fərmana görə, İrəvan, Yeni Bəyazid, Naxçıvan, Ordubad və Aleksandropol qəzalarından ibarət İrəvan quberniyası təşkil edilir [6, s.13].

İnzibati dəyişikliklər bölgənin əhalisinin sayına və etnik tərkibinə əsaslı surətdə təsir göstərirdi. Ermənilərin keçmiş İrəvan xanlığının ərazisində köçürülüb gətirilməsinədək Göyçə mahalında azərbaycanlıların sayı 5.607 nəfər (999 ailə) ermənilər isə 90 nəfər (15 ailə) olmuşdur. 1828-1830-cu ildə bu mahala Türkiyənin Bitlis, Ələşkert, Muş, Sasun və Bəyazid vilayətlərindən 8.557 erməni (1.485 ailə) köçürülmüşdür. Mahalda əhalinin ümumi sayı 14.254 nəfərə (2.499 ailə) çatmışdır. Bununla da Göyçə mahalında ermənilərin sayının xüsusi çəkisi 1,5%-dən 60,7%-ə yüksəlmişdir. 1893-1894-cü illərdə Türkiyədə baş verən erməni iğtişaşlarının nəticəsində Türkiyədən və İrandan gələn erməni mühacirləri Basarkeçər rayonunda məskunlaşmışdı. N.N.Şavrov yazır: 1828-1829-cu illər müharibəsi qurtardıqdan sonra iki il ərzində rusiya Zaqafqaziyaya 40.000 iranlı, 84.600 türkiyəli erməni köçürərək onları Yelizavetpol və İrəvan quberniyasının ən yaxşı torpaqlarında yerləşdirdi. Bu yerlərdə erməni əhalisi yox dərəcəsində idi. Yelizavetpol quberniyasının dağlıq hissəsində (Dağlıq Qarabağ) və Göyçə (Sevan) gölünün sahilləri bu ermənilərlə məskunlaşmışdır. Nəzərə almaq lazımdır ki, rəsmən köçürülmüş 124.000 ermənidən başqa buraya qeyri-rəsmi olaraq çoxlu erməni də köçmüşdür, beləliklə köçürülənlərin ümumi sayı 200.000 nəfərdən çox idi [12, s.52].

**Cədvəl 3**

**İrəvan xanlığının əhalisinin milli tərkibi**

| **Sıra sayı** | **Xanlığın ərazisi** | **Müsəlmanlar** | | **Ermənilər** | | **Müsəlman** | **Erməni** |
|---|---|---|---|---|---|---|---|
| | | **Ailə** | **Nəfər** | **Ailə** | **Nəfər** | **%-lə** | **%-lə** |
| | **İrəvan şəhəri üzrə cəmi:** | 1807 | 7331 | 567 | 2369 | 75,6 | 24,4 |
| 1. | Qırxbulaq | 81 | 383 | 262 | 1396 | 22,0 | 78,0 |
| 2. | Zəngibasar | 910 | 5413 | 133 | 603 | 90,0 | 10,0 |
| 3. | Gərnibasar | 753 | 4176 | 34 | 145 | 97,0 | 3,0 |
| 4. | Vedibasar | 574 | 3449 | 2 | 15 | 99,6 | 0,4 |
| 5. | Şərur | 1305 | 6010 | - | - | 100 | 0 |
| 6. | Sürməli | 709 | 4832 | 935 | 5892 | 46,0 | 54,0 |
| 7. | Dərəkənd-Parçeniş | 589 | 3267 | 1 | 5 | 99,9 | 0,1 |
| 8. | Səədli | 160 | 1004 | - | - | 100 | 0 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 9. | Talın | 91 | 420 | 74 | 416 | 57,0 | 49,0 |
| 10. | Seyidli-Ağsaqqallı | 311 | 1754 | 6 | 28 | 99,0 | 1,0 |
| 11. | Sərdarabad | 276 | 1837 | 469 | 3214 | 37,0 | 63,0 |
| 12. | Körpübasar | 400 | 2592 | 897 | 5290 | 33,0 | 67,0 |
| 13. | Abaran | - | - | 11 | 58 | 0 | 100 |
| 14. | Dərəçiçək | 234 | 1300 | 92 | 552 | 71,0 | 29,0 |
| 15. | Göyçə | 999 | 5607 | 15 | 90 | 99,0 | 1,0 |
| | **Mahallar üzrə cəmi:** | 7392 | 42044 | 3498 | 20073 | 71,40 | 28,60 |

**Mənbə:** [13, s.543-600]

Göyçə mahalı üzrə 59 kənddə yaşayan azərbaycanlı ailələrin sayı 999, onlardan 3.164-ü kişi, 2.443-ü qadın, yəni cəmi 5.607 nəfər, ermənilərin sayı isə 15 nəfər, onlardan 52-i kişi, 38-i qadın, yəni 90 nəfər qeydə alınmışdır [5, s.299-301].

İ.Şopenin apardığı siyahıyaalmanın nəticələrinə görə, 1828 - 1829-cu illər Rusiya – Türkiyə müharibəsindən sonra "Erməni vilayəti"nə Türkiyədən 21.666 nəfər (3.682 ailə) erməni, 324 nəfər (67 ailə) yezidi kürd köçürülmüşdür. Köçürülən ermənilər əsasən keçmiş İrəvan xanlığının Qırxbulaq, Sürməli, Talın, Körpübasar Abaran, Dərəçiçək və Göyçə mahallarının 129 kəndində yerləşdirildi. Qeyd olunmalıdır ki, Şimali Azərbaycana məxsus olan Şörəyel Lori-Pəmbək bölgələri 1801-1805-ci illərdə Gürcüstana birləşdirildiyindən, "Erməni vilayəti"nə daxil edilməmiş və Gürcüstanın tərkibində qalmışdı. 1829-cu ilədək (yəni Rusiya - Türkiyə müharibəsindən sonra ermənilərin rəsmi surətdə köçürülməsinə qədər) Şörəyel - Pəmbək distansiyasına 1.536 erməni ailəsi (5.425 nəfər kişi cinsi) köçürülmüşdü. Sonra isə Türkiyədən 3.148 ailə (10.575 nəfər kişi cinsi) köçürüldü. 1832-ci ilin sonu, 1833-cü ilin əvvəlində Türkiyədən Zalqayaya köçürülən ermənilərdən 182 ailə (674 nəfər kişi cinsi) yenidən Şörəyel-Pəmbək distansiyasına gətirildi. Köçürülənlər arasında 169 nəfər yunan və 963 nəfər erməni katoliki də var idi. Smirnova görə isə, Türkmənçay və Ədirnə müqavilələrinin onlara verdiyi hüquqdan yararlanan 267 ermənilər İrandan 90 min nəfər, Türkiyədən isə təxminən 75 min nəfərədək köçürülərək Azərbaycan ərazisində məskunlaşdırıldı [8, s.266].

İ.Şopenin məlumatlarına görə, işğal ərəfəsində İrəvan xanlığında 49.875 nəfər müsəlman, 324 nəfər kürd, 20.073 nəfər isə erməni yaşayırdı. İrəvan xanlığında yaşayan müsəlman (azərbaycanlı) əhalinin sayını dəqiq müəyyən etmək üçün bu faktı da nəzərə almaq lazımdır. İrəvan xanlığında mövcud olan 521 kənddən 153-də müsəlman (azərbaycanlı) əhalinin yaşadığı qeydə alınmamışdır. Şübhəsiz ki, bu kəndlərin azərbaycanlı əhalisi ya hərbi əməliyyatlar zamanı həlak olmuş, ya da Rusiya işğalından sonra xanlığı tərk etməyə məcbur olmuşdu. Əgər bu kəndlərin hər birində orta hesabla 25 ailənin və hər bir ailənin minimum 5 nəfərdən ibarət olduğunu nəzərə alsaq, onda həmin kəndlərdə ən azı 19.125 nəfərin yaşadığını ehtimal etmək olar. Onun digər

məlumatına görə, "İrəvan xanlığında 521 yaşayış məskəni və 310 tərk edilmiş kənd var idi". Əgər bu kəndlərin hər birində orta hesabla 25 ailə və hər bir ailədə minimum 5 nəfərin olduğunu nəzərə alsaq, onda hər kənddə 125 nəfərin yaşadığını və tərk edilmiş 310 kəndin Azərbaycanlı əhalisini də nəzərə alsaq, təqribən 3.750 nəfərin yaşamış olduğunu qeyd etmək olar. Beləliklə, İrəvan xanlığının Rusiya tərəfindən işğalı ərəfəsində bu diyarın müsəlman - türk əhalisinin sayı azı 107.750 nəfər olmuşdur. Rusiya işğalı ərəfəsində erməni əhalisinin sayı isə ümumi əhali sayının 18%-ə qədərini təşkil etmişdi [8, s.44].

**Nəticə:** Mənbələrin təhlili göstərir ki, bəhs etdiyimiz dövr ərzində İrəvan bölgəsinin sərhədləri siyasi-hərbi vəziyyətlə əlaqədar olaraq ciddi dəyişikliklərə uğramışdı. Bu, əsasən mərkəzi hakimiyyətin apardığı inzibati-ərazi dəyişikliyi və qonşu dövlətlərin işğalçı siyasətinin nəticəsində baş vermişdi. XVIII əsrin ilk yarısında Osmanlı idarəçiliyi dövründə kəskin inzibati dəyişikliklər olmasa da, lakin müəyyən yerdəyişmələr olmuşdu. Əfşarlar imperiyası dövründə Azərbaycan bəylərbəyliyinə daxil olan İrəvan əyaləti Nadir şahın ölümündən sonra müstəqil xanlığa çevrilmişdi. Siyasi coğrafi mövqeyi İrəvan xanlarının daima müdafiədə olmağa məcbur edirdi. Belə ki, Cənubi Qafqazda XVIII əsrdən başlayaraq Rusiyanın siyasi və hərbi fəaliyyətinin genişlənməsi, eləcə də Osmanlının bölgənin nüfuz dairəsi olaraq itirmək istəməməsi İrəvan bölgəsinin rəqabət və hərb meydanına çevrilməsinə səbəb olmuşdu. XIX əsrin ilk onilliklərində Rusiya - Qacar müharibələri bölgənin demoqrafiyasına öz təsirini göstərmişdir. Burada kəndlərin çoxu boşalmış, əhalisi qaçqın düşmüş və yaxud dağlara çəkilərək ağır vəziyyətdə yaşamışlar. Bütün bunlara baxmayaraq bölgənin iqtisadi potensialı sonrakı dövrdə burada əhalinin sayının artmasına imkan vermişdi.

***Ədəbiyyat siyahısı:***


1. *Göyçə mahalı haqqında məlumat. // https://goyce.az/news.php?id=45; https://iravan.preslib.az /sheherin_ehalisi.html*
2. *İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Z.Bünyadov və t.e.n. Məmmədov N (Qaramanlı). Bakı, "Elm", 1996, 184 səh.*
3. *Mahmudov Yaqub Mikayıl oğlu, Şükürov Kərim Kərəm oğlu. Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi: dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları: I cild, Bakı,2009, 512 səh.*
4. *Jean Otter. Voyage en Turquie et en Perse. Avec un Relation des expeditions de Tahmas Kouli-Khan. T.I. Paris, 1748, p.415.*
5. *Qarayev E. Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu – XIX yüzilliyin ortalarında). Bakı, Mütərcim, 2016, 544 səh. // http://elibrary.bsu.edu.az/files/books_79/N_21.pdf*
6. *Qeybullayev Q. Qədim türklər və ermənistan. Bakı, Azərnəşr, 1992, 140 səh.*
7. *M. Pitton de Tournefort. Relation d'un Voyage du Levant, fait par ordre du Roi Contenent. L'Histoire Ancienne & Moderne de plusieurs Mes de l'Archipel, de Constantinople, des Côtes de la Mer Noire, de l'Arménie, de la Géorgie, des Frontières de Perse & de l'Asie Mineure. T.II, Amsterdam, Aux dépens de la Compagnie, 1717, pp. 208.*
8. *Mahmudov Y. İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi (1747-1828). Bakı, "A.A. Bakıxanov adına Tarix İnstitutu", 2010, 463 səh.*

9. *Nazim Mustafa. İrəvan şəhəri. Bakı, "Red N Line" MMC, 2020, 292 səh.-*
10. *Nəsibov Lütfiyar. Göyçə: Sədənağac-Güney. Bakı, "Apostrof-A" MMC, 2019, 696 səh.- https://www.ebooks.az/view/bnqlfsn5.pdf*
11. *Гильденштедт И.А. Путешествие по Кавказу в 1770-1773 гг. Перевод Т.К.Шафрановский, Спб: Петербургское Востоковедение, 2002, 512 с.*
12. *Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье, предстоящая распродажа* Мугани *инородцам. Санкт-Петербург, 1911*
13. *Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи. СПб., 1852, с.543-546.*

**_Rəyçi: Zəhra İslamova_**
*BDU, Tarix fakültəsi, t.f.d.*

**UOT 94 (479.24); 930:314**

# XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİNDƏ İNZİBATİ DƏYİŞİKLİKLƏR VƏ ƏHALİNİN SAY TƏRKİBİ

**Mehman Abdullayev**
*BDU, Tarix fakültəsi, dosent*
*dos.mehman.abdullayev@gmail.com*

*XVIII əsrin sonu-XIX əsrin əvvəllərində bölgədə Rusiyanın hərbi cəhətdən fəallaşması və Azərbaycan xanları üçün əsas təhlükə mənbəyinə çevrilməsi Cənubi Qafqazda daxili və beynəlxalq siyasi vəziyyəti mürəkkəbləşdirirdi. Daxili və xarici siyasəti antitürk və antimüsəlman olan Rusiyadan fərqli olaraq bölgə uğrunda mübarizə aparan Osmanlı və Qacar dövlətləri etnik, dil və din baxımından Azərbaycan üçün doğma idi. Rusiya bütün Cənubi Qafqazı, o cümlədən Azərbaycanı ələ keçirmək, Osmanlı və Qacar dövlətlərini bölgədən tamamilə sıxışdırıb çıxartmaq istəyirdi. 1801-ci ildə Azərbaycan torpaqlarının işğalına başlayan Rusiya xalqımızın ciddi müqaviməti ilə qarşılaşdı. Gəncəni ələ keçirən rus ordusunun Azərbaycanın içərilərinə doğru irəliləməsi 1804-cü ilin iyun ayında Qacar dövlətinin Rusiyaya müharibə elan etməsinə səbəb oldu. 1804-1813-cü illər Rusiya-Qacar müharibəsinin gedişində Çar Rusiyası Azərbaycanın açarı hesab etdiyi Qarabağa xüsusi əhəmiyyət verirdi. Rusiyanın hərbi-siyasi və diplomatik təzyiqlərinin güclənməsi qarşısında və "Gəncə faciəsi"nin təsiri ilə İbrahimxəlil xan 1805-ci ilin mayında general Sisianovun Kürəkçay yaxınlığındakı düşərgəsinə gəlməyə məcbur oldu.*

*XVIII əsrin II yarısı – XIX əsrin ilk onilliklərində Rusiyanın Cənubi Qafqazda apardığı müstəmləkə siyasətinin nəticəsi olaraq Azərbaycan xanlıqları işğal edildi. İnzibati cəhətdən dəyişikliyə məruz qalan Azərbaycanın tarixi ərazi bölgüsü dəyişdirilmişdi. Ümumimperiya inzibati ərazi bölgüsünə uyğunlaşdırma kimi təqdim edilən bu siyasət əslində müstəmləkə siyasətinin bir hissəsi idi. Azərbaycanın parçalama siyasəti xristian – erməni əhalinin torpaqlarımıza köçürmək yolu ilə daha da dərinləşlmiş, müstəmləkə rejimi kəskin şəkildə aparılmışdı. XIX əsr boyu əhalinin statistik göstəriciləri demoqrafik dəyişikliyin, erməni əhalisinin ilbəil köçürülmələr hesabına artdığını, Azərbaycan türk-müsəlman əhalinin sıxışdırıldığını bir daha sübut edir.*

***Açar sözlər*: *Qarabağ xanlığı, Kürəkçay müqaviləsi, Yelizavetpol quberniyası, "Müsəlman əyalətləri hərbi dairə" rəisliyi, demoqrafiya, əhalinin etnik tərkibi.***

## *ADMINISTRATIVE CHANGES AND NUMBER OF POPULATION IN THE KARABAKH REGION OF AZERBAIJAN- AT THE BEGINNING İN THE XIX-XX CENTURIES*

*At the end of the 18th and the beginning of the 19th centuries, Russia's military activism in the region and this turning a major threat to the Azerbaijani khans complicated the domestic and international political situation in the South Caucasus. Unlike Russia, whose domestic and foreign policies were anti-Turkish and anti-Muslim, the Ottoman and Gajar states fighting for the region were ethnically, linguistically, and religiously native to Azerbaijan. Russia wanted to seize the entire South Caucasus, including Azerbaijan, and completely oust the Ottoman and Gajar states from the region. Russia, which began the occupation of Azerbaijani lands in 1801, met with serious resistance from our people. The*

*advance of the Russian army into Azerbaijan, which captured Ganja, led the Gajar state to declare war on Russia in June 1804. During the Russo-Gajar war of 1804-1813, Tsarist Russia paid special attention to Karabakh, which it considered the key to Azerbaijan. In the face of growing Russian military-political and diplomatic pressure and the impact of the Ganja tragedy, Ibrahimkhalil khan was forced to visit General Sisianov's camp near Kurakchay in May 1805.*

*In the second half of the 18$^{th}$ century - in the first decades of the 19$^{th}$ century, because of Russia's colonial policy in the South Caucasus, the Azerbaijani khanates were occupied. The historical territorial division of Azerbaijan, which was subject to administrative changes, was changed. Presented as an adaptation to the all-imperial administrative division, this policy was in fact part of the colonial policy. Azerbaijan's policy of disintegration was deepened by the resettlement of the Christian-Armenian population in our lands, and the colonial regime was sharply pursued. The population statistics during the 19$^{th}$ century prove once again that demographic changes, the Armenian population has been growing year by year due to resettlement, and the Turkish-Muslim population in Azerbaijan has been displaced.*

***Keywords:*** *Karabakh khanate, Kurakchay agreement, Yelizavetpol province, presidency of "Muslim provinces military district", demography, ethnic composition of the population.*

**Giriş:** XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Azərbaycanın daxili və beynəlxalq vəziyyəti çox mürəkkəb idi. Çünki bölgədə Rusiya hərbi cəhətdən fəallaşmış və əsas təhlükə mənbəyinə çevrilmişdi. Daxili və xarici siyasəti antitürk və antimüsəlman olan Rusiyadan fərqli olaraq bölgə uğrunda mübarizə aparan Osmanlı və Qacar dövlətləri etnik, dil və din baxımından Azərbaycan üçün doğma idi. Rusiya bütün Cənubi Qafqazı, o cümlədən Azərbaycanı ələ keçirmək, Osmanlı və Qacar dövlətlərini bölgədən tamamilə sıxışdırıb çıxartmaq istəyirdi. 1801-ci ildə Azərbaycan torpaqlarının işğalına başlayan Rusiya xalqımızın ciddi müqaviməti ilə qarşılaşdı. Cavad xan işğalçılara qəhrəmanlıqla müqavimət göstərsə də, Gəncəni düşmən hücumundan xilas etmək mümkün olmadı. 1804-cü ildə ruslar Gəncə şəhərini ələ keçirərək burada böyük bir qətliam törətdilər. Bununla bağlı olaraq tarixçimiz Mir Mehdi Xəzani yazırdı: "Bu cür qala almaq və bütövlükdə qətliam olunmaq Çingiz xan və Teymurləng zamanından sonra bu vilayətlərdə görünməmişdir" [1, s. 178].

**Rusiyanın Qafqazda işğalçılıq planları:** Gəncəni ələ keçirən rus ordusunun Azərbaycanın içərilərinə doğru irəliləməsi 1804-cü ilin iyun ayında Qacar dövlətinin Rusiyaya müharibə elan etməsinə səbəb oldu. 1804-1813-cü illər Rusiya - Qacar müharibəsinin gedişində Çar Rusiyası Azərbaycanın açarı hesab etdiyi Qarabağa xüsusi əhəmiyyət verirdi. Qafqazdakı rus qoşunlarının komandanı general Sisianov ilk növbədə məhz bu xanlığı tabe etməyin yollarını axtarır, bütün vasitələrlə İbrahimxəlil xanın Qacar dövlətinin tərəfində Rusiyaya qarşı vuruşmasına qətiyyən yol vermək istəmirdi. Tez-tez xana məktublar göndərir, diplomatik etiket normalarına zidd şəkildə hədə-qorxu gəlir, ondan hökmən Rusiyanın himayəsinə girməyi tələb edirdi. İbrahimxəlil xan isə Rusiya - Qacar savaşında ikincinin məğlub olacağına ümid edərək diplomatik vasitələrlə vaxtı uzadır və bununla bağlı qəti qərarını bildirmirdi [2, s. 701-702].

Rusiyanın hərbi-siyasi və diplomatik təzyiqlərinin güclənməsi qarşısında və “Gəncə faciəsi”nin təsiri ilə İbrahimxəlil xan 1805-ci ilin mayında general Sisianovun Kürəkçay yaxınlığındakı düşərgəsinə gəlməyə məcbur oldu.

1805-ci il mayın 14-də Qarabağ xanı ilə Rus imperatoru arasında Kürəkçay traktatı imzalandı. Traktatı Rusiyanın imperatoru adından Qafqaz qoşunlarının baş komandanı Sisianov və Qarabağ xanı İbrahimxəlil xan imzaladı. Traktat və ya müqavilə adlandırılmasına baxmayaraq mahiyyətcə təslimçilik aktı olan bu sənəd Qarabağın faciəli taleyinin başlanğıcını qoydu. 11 maddədən ibarət «Andlı öhdəlik» adlanan bu traktat ilə Qarabağ xanlığı Rusiya himayəsinə qəbul edildi. Rusiya ilə Azərbaycanın münasibətlərinə dair mühüm sənədlərdən biri sayılan bu sənəd təkcə Qarabağın deyil, bütünlükdə Azərbaycanın taleyində mühüm rol oynadı. Bu traktatın şərtlərinə görə, Qarabağ xanlığı Rus imperiyasının vassalı, Rusiya çarına görə digər xarici dövlətlərlə münasibət saxlamaq hüququndan məhrum olurdu.

Xanlıqlara verilən imtiyazlar 1805-ci ildən 1826-cı ilə kimi davam etdi. Bu dönəmdən sonra yuxarıda sadalanan güzəştlər də ləğv edildi: Şəkidə 1819-cu ildə, Şamaxıda 1820-ci ildə, Qarabağda 1822-ci ildə, Lənkəranda 1826-cı ildə xanlıq sistemi ləğv edildi, komendant idarəetmə sistemi yaradıldı.

**Qarabağın inzibati quruluşu:** 1806-1812-ci illərdə Qarabağ xanlığından 2.628 ailə (hər ailə orta hesabla 5-6 nəfərdən ibarətdir, 13-15 min nəfər) qaçmış, 2.217 ailə isə bəylərə və Qacarlara qoşularaq Arazdan cənuba köçmüşdü. Nəticədə, Qarabağ bölgəsi əhalisinin dörddə birindən çoxunu itirmişdi.

Qarabağ bəylərinin Rusiyaya düşmən olduğu bir şəraitdə həmin fərmanla 10 kənd, 2 elat və Şuşa şəhərində 57 mülkün ruslara sədaqətli Mədətovun daimi və nəsli mülkiyyətinə keçməsi təmin olundu [3, s. 725-726, 837-840]. Yermolov - Mədətov cütlüyü Mehdiqulu xanı hakimiyyətdən uzaqlaşdırmaq üçün xana qarşı müxtəlif təxribatlar hazırladılar. 1822-ci ildə xanın və ailə üzvlərinin əmlaklarını siyahıya almağa başladılar. Onun bir neçə yaxın adamını həbs etdilər. Qardaşı oğluna sui - qəsd olundu. Heç bir əsas olmadan xan Rusiyaya “xəyanətdə” günahlandırıldı. Çıxılmaz vəziyyətə düşən Mehdiqulu xan qaçaraq Qacar dövlətinə sığınmağa məcbur oldu [4, s. 458].

Beləliklə, “əbədi müddətə” bağlanan Kürəkçay müqaviləsi Rusiya tərəfindən kobud şəkildə pozuldu və 1822-ci ildə Qarabağ xanlığı ləğv edilərək Rusiyanın əyalətinə çevrildi.

Qarabağ əyaləti rus zabiti olan komendant tərəfindən idarə olunmağa başladı. Qarabağ əyaləti müsəlmanların yaşadığı digər Şəki, Şamaxı və Lənkəran bölgələri ilə eyni inzibati ərazi vahidinə daxil edilərək, 1840-cı ilin sonuna kimi “Müsəlman əyalətləri hərbi dairə” rəisi tərəfindən idarə olunmuşdu. Qarabağın inzibati ərazi bölgüsündə sonrakı dövrdə baş vermiş dəyişikliklər aşağıdakı kimi olmuşdur: Qarabağ bölgəsi 1840-cı il inzibati islahatı əsasında yaradılan Şuşa qəzasının tərkibinə daxil edilmişdi. Həmin qəza digər

Azərbaycan torpaqları ilə birlikdə Xəzər (Kaspi) vilayətinin tərkibinə daxil edilmiş, 1846-cı ildən Şamaxı, 1859-cu ildən Bakı, 1868-ci ildən isə Yelizavetpol quberniyasının tərkibində olmuşdu. 1868-1918-ci illərdə Yelizavetpol quberniyasının tərkibində olan Qarabağ ərazisi Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir qəzalarından ibarət idi [5, s. 38].

**Qarabağın əhalisinin say tərkibi:** 1823-cü ilə aid kameral siyahıyaalmaya əsasən Qarabağ bölgəsində aparılan hesablamalara görə, əhalinin sayı Qarabağ əyalətində 18.563 ailə, o cümlədən Şuşa şəhərində 1.462 ailə yaşayırdı, 52 kənddən ibarət olan 5 xristian məlikliyində 1.559 kəndli ailəsi qeydə alınmışdı [6, v. 1-226]. Xristian kəndli ailələri əyalətin əhalisinin 8,4% - ni təşkil edirdi. Qeyd etmək lazımdır ki, siyahıyaalma zamanı rus məmurları xristian albanları da "erməni" kimi qeydə almışdılar. Həmçinin, 1805-ci ildən 1823-cü ilədək Qarabağa Qacar dövlətindən çoxlu sayda erməni ailəsi köçürülüb - yerləşdirilmişdi. Türkmənçay müqaviləsindən sonra ermənilərin kütləvi şəkildə Qarabağa köçürülməsi prosesi baş vermiş, 1828-ci ildə ildə üç ay yarım ərzində Qacar dövlətindən Azərbaycan ərazisinə köçürülən 41.245 nəfər erməninin çox böyük hissəsi Qarabağda məskunlaşdırılmışdı. Rus müəllifi N.N.Şavrovun yazdığına görə, Cənubi Qafqaza köçürülən ermənilərin böyük hissəsi Yelizavetpolun dağlıq hissəsində, yəni Qarabağda və Göyçə gölü sahilindəki torpaqlarda yerləşdirilmişdi. 1832-ci ilə aid statistik materiallara əsasən Qarabağ əyalətində 20.516 ailə yaşayırdı. Bu ailələrin böyük hissəsi, yəni 13.965-i sənəddə "tatar" kimi qeyd olunan azərbaycanlılardan, 6.491.-.i isə ermənilərdən ibarət idi [7, s. 267]. Qaraçı və nestoryan kimi qeydə alınan 90 ailəni çıxdıqdan sonra yerdə qalan əhalinin etnik tərkibində çoxluq azərbaycanlılara məxsus idi. Yəni əyalətin əhalisinin 68% - ni azərbaycanlılar, 31,6 % - ni isə ermənilər təşkil edirdi. 4 il ərzində bölgədə belə bir demoqrafik partlayış köçürmə əməliyyatları hesabına baş vermişdir. Qarabağ əyalətində ermənilərin xüsusi çəkisi 8,4 % - dən, 31,6 % - ə çataraq 4 dəfəyədək artmışdı. 1886 - cı il məlumatına görə, tək bir Şuşa qəzasında azərbaycanlı və erməni əhalisinin nisbəti 41,5 % və 58,2% olaraq ermənilərin xeyrinə dəyişmişdi. 1897-ci ildə Rusiya imperiyasında keçirilən Ümumrusiya siyahıyaalma materiallarının təhlili əsasında Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarından ibarət olan Qarabağ bölgəsində əhalinin say və etnik tərkibində dəyişikliklər olmuşdur [8, s. 78]:

Belə ki, 1897-ci il siyahıyaalma materiallarına görə, bütövlükdə Yelizavetpol quberniyasında yaşayan 878.415 nəfər (480.012 kişi, 398.403 qadın) əhalinin 416.638 nəfəri (224.425 kişi, 192.213 qadın) və yaxud 47,4% - i Qarabağ bölgəsini əhatə edən 4 qəzanın payına düşürdü. Qarabağ bölgəsində əhalinin daha böyük hissəsi Şuşa qəzasında yaşayırdı. Bu qəzada qeydə alınan 138.771 nəfər əhalinin 63.001 nəfərini və yaxud 45% - ni azərbaycanlılar, 73.904 nəfərini və yaxud 53% - ini ermənilər təşkil edirdi. Şuşa şəhəri üzrə azərbaycanlı və erməni əhalinin say nisbəti 42% və 55% olmuşdur. Bu fakt Qacar və Osmanlı dövlətlərindən köçürülən erməni əhalisinin bölgə üzrə daha

çox Şuşa qəzasında yerləşdirildiyini göstərir. Zəngəzur qəzasında yaşayan 137.871 nəfər əhalinin 53% - ni azərbaycanlılar, 46% - ni ermənilər, Cavanşir qəzasında qeydə alınan 72.719 nəfər əhalinin daha böyük hissəsini 73% - ni azərbaycanlılar, 27% - ni isə ermənilər təşkil edirdi. Azərbaycanlıların çoxluq təşkil etdiyi digər bir bölgədə Cəbrayıl qəzasında siyahıya alınan 67.277 nəfərin 49.599 nəfərini, yaxud 74% - ni azərbaycanlılar, 15.752 nəfərini, yaxud 23% - ni isə ermənilər təşkil edirdi. Apardığımız hesablamalara görə, Qarabağ bölgəsi üzrə 1897 - ci ildə siyahıya alınan 416.638 nəfər əhalinin 238.500 nəfəri və yaxud 57 % - ni azərbaycanlılar, 178.847 nəfərini və ya 41% - ni isə ermənilər təşkil edirdi. Təhlillər göstərir ki, rus hökümətinin yeritdiyi siyasət nəticəsində Şuşa qəzasında və şəhərində xristian erməni əhalisinin say üstünlüyü təmin olunsa da, bütövlükdə Qarabağ bölgəsində azərbaycanlı əhali öz say üstünlüyünü saxlaya bilmişdi. Maraqlıdır ki, 1897 - ci il siyahıyaalma materiallarında ən kiçik etnik qrupları belə qeydə alan rus höküməti əvvəlki siyahıyaalmalarda albanları qəsdən "erməni" kimi qeyd etdiyinə görə, cədvəllərdə alban etnosunun adının qeyd olunduğu qrafalar boş buraxılmışdır [9]. Lakin alban nəslindən olan udinlərin sayı dəqiq şəkildə göstərilmişdir. 1897 - ci ildə Yelizavetpol quberniyasında 7.040 nəfər udinin yaşadığı siyahıyaalma sənədlərində qeyd olunmuşdur [10, s. 6].

Qeyd etmək lazımdır ki, 1897 - ci il siyahıyaalma materiallarında bölgənin bütün azərbaycanlı əhalisi dəqiq şəkildə qeydə alınmamışdır. Siyahıyaalınma düzgün aparılsa idi, heç şübhəsiz Qarabağ bölgəsində azərbaycanlı əhalinin sayı siyahıyaalmada göstərildiyindən daha çox olardı. Məhəmməd Baharlının yazdığına görə, sayım aparılarkən yerli müsəlman əhalinin bir hissəsinin yaylaqlarda olmasından istifadə edən rus məmurları qəsdən bu məsələyə diqqət yetirməmiş, çoxlu sayda maldar əhali siyahıyaalma sənədlərinə daxil edilməmişdir. Eyni zamanda rus məmurları özləri qəsdən guya bu siyahıyaalınmanın qoşun toplamaq, vergi və rüsumları artırmaq məqsədi ilə aparıldığı haqqında müsəlman əhali içərisində şayiələr yayaraq azərbaycanlıların qeydiyyatdan yayınmaları üçün özləri şərait yaradırdılar [11, s. 14].

1912-ci ildə Qarabağ bölgəsində qeydə alınan 529.330 nəfər əhalinin 299.489 nəfərini, yaxud 55,4% - ni azərbaycanlılar, 229.841 nəfərini və yaxud 42,5% - ni ermənilər təşkil edirdi. 1897 - ci il statistik məlumatları ilə müqayisə etdikdə, bölgədə azərbaycanlı əhalinin say nisbəti əvvəlki 57% - dən bir qədər azalaraq 55,4% - ə düşmüşdü. Erməni əhalinin xüsusi çəkisi isə 41% - dən artaraq, 42,5% - ə çatmışdı. 1914-cü il statistik məlumatlarına görə isə, Qarabağ bölgəsində əhalinin sayı artaraq 567.189 nəfərə çatmışdı [12]. Keçən iki il ərzində bölgənin azərbaycanlı və erməni əhalisinin xüsusi çəkisində o qədər də böyük dəyişiklik baş verməmişdi. Belə ki, azərbaycanlı əhalinin sayı 299.489 nəfərdən artaraq 324.013 nəfərə, erməni əhalisinin sayı isə 229.841 nəfərdən 243.176 nəfərə çatmışdı. Azərbaycanlı və erməni əhalisinin xüsusi çəkisi 55,8% və 41,8% nisbətində olmuşdur.

**Nəticə:** XVIII əsrin II yarısı – XIX əsrin ilk onilliklərində Rusiyanın Cənubi Qafqazda apardığı siyasi fəaliyyətin nəticəsi olaraq Qarabağ xanlığı işğal edilmişdi. İnzibati cəhətdən dəyişikliyə məruz qalan Azərbaycanın tarixi ərazi bölgüsü dəyişdirilmiş, ümumimperiya inzibati ərazi bölgüsünə uyğunlaşdırma kimi təqdim edilən bu siyasət əslində müstəmləkə siyasətinin bir hissəsi idi. Azərbaycanın parçalama siyasəti xristian – erməni əhalinin torpaqlarımıza köçürmək üsulu ilə daha da dərinləşdirilmiş, müstəmləkə rejimi daha kəskin şəkildə aparılmışdı. XIX əsr boyu əhalinin statistik göstəriciləri demoqrafik dəyişikliyin, erməni əhalisinin ilbəil köçürülmələr hesabına artdığını, Azərbaycan türk-müsəlman əhalinin sıxışdırıldığını bir daha sübut edir.

***Ədəbiyyat siyahısı*:**

1. *Mir Mehdi Xəzani. Kitabi-Tarixi-Qarabağ. Qarabağnamələr, ikinci kitab. Baki,Şərq-Qərb, 2006, 288 s.*
2. Акты, собранные Кавказской Археографической Комиссией*; Тип. Главного Управления Наместника Кавказского, Тифлис, 1868, том 2, док. 1917г. стр 696; док. 1933*
3. *Описание Карабагской провинции, составленное в 1823 году по распоряжению главноуправлявшего в Грузии Ермолова, Тифлис, Типография управления наместника Кавказского 1866, с. 19: Акты, собранные Кавказской Археографической Комиссией. под ред. А. Берже. том 2, Тифлис, Типография Главного Управления наместника Кавказского, 1868, том 6.частъ. 1, dok 1079, 1080, 1081; dok. 1267-1279.*
4. *Акты, собранные Кавказской Археографической Комиссией. под ред. А.Берже. Тифлис, Типография Главного Управления наместника Кавказского, 1868, том 7, док. 406. с. 458.*
5. *Azərbaycan tarixi. Yeddi clilddə, IV cild, Bakı, Elm 2000,s. 197; Azərbaycan tarixi: sənədlər və nəşrlər üzrə. Z. M. Bünyadovun redaktəsi ilə. Bakı, Elm, 1990*
6. *Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi, fond 24, siyahı 1, iş 141, vərəq 1-226*
7. *Обозрение российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях: произведенное и изданное по высочайшему соизволению. -СПб. :Тип. Департамента внеш. торговли, 1836, ч. 3, стр. 267*
8. *Первая Всеобщая перепись населения Российской империи. 1897г. / под ред. [и с предисл.] Н.А.Тройницкого, [Санкт-Петербург]: издание Центрального статистического комитета Министерства внутренних дел, 13: Елизаветполская губерния, 1904*
9. *Первая Всеобщая перепись населения Российской Империи 1897 г. Под ред. Н. А. Тройницкого. т. II. Общий свод по Империи результатов разработки данных Первой Всеобщей переписи населения, произведенной 28 января 1897 года. С. -Петербург, 1905 г. Таблица XIII. Распределение населения по родному языку.*
10. *Первая Всеобщая перепись населения Российской Империи 1897 г. , Населенъе городов по переписи 28-го января-1897 года, С. - Петербург,Товарещества «Печатия С. П. Яковлева,1897*
11. *Vəliyev H. (Baharlı) Azərbaycan (fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk) Bakı, «Azərbaycan» nəşriyyatı, 1993, 208 s.*
12. *Кавказский календарь. Тифлис, Гл. упр. Кавказ. наместника, 1845-1916 на 1917 год: 72-й год: с приложением карт Кавказа, Азиатской Турции и Персии /под ред. Н. П. Стельмащука. 1916 г. разд. паг, 1 карт, стр. 367*

**UOT 94 (479.24); 930:314**

# XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ DƏRBƏND ƏHALİSİNİN MƏŞĞULİYYƏTİ (ƏKİNÇİLİK VƏ HEYVANDARLIQ)

**Asəf Hacıyev**
*BDU,Tarix fakültəsi, t.f. d.,a.e.i.*
*asafhajiyev@rambler.ru*

*Məqalədə XIX-XX əsrin əvvəllərində Dərbənd əhalisinin əsas məşğuliyyəti olan əkinçilik və heyvandarlıq sahəsi araşdırılır. Nəticədə həmin dövrdə Dərbənddə əkinçiliklə məşğul olan əhalinin daha çox taxıl məhsullarından buğda və arpa, eyni zamanda gəlirli sahə olan marena istehsalına üstünlük verdikləri məlum olur. XIX-XX əsrin əvvəllərində Dərbənd əhalisinin məşğul olduğu digər təsərrüfat sahələrindən biri də heyvandarlıq olmuşdur. Məqalədə əhalinin daha çox at, ulaq, iri buynuzlu mal - qara və davar saxladıqları göstərilir və bu məqalədə müxtəlif illər üzrə statistik rəqəmlərlə qeyd edilir. Məqalədə həmçinin Dərbəndin Rusiya tərəfindən işğalından sonrakı dövrdə maldarlığın təsərrüfatın aparıcı sahələrindən birinə çevrildiyi aydınlaşır.*
***Açar sözlər:*** *Dərbənd, əkinçilik, üzümçülük, taxılçılıq, heyvandarlıq*

## ECONOMIC OCCUPATION (FARMING AND LIVESTOCK OF THE POPULATION OF DERBENT) AT THE END OF XIX - BEGINNING OF XX CENTURIES

*Present article is dedicated to the economic occupation (agriculture and cattle-breeding) of the population of Derbent at the end of the XIX century and the beginning of the XX century is investigated. As a result of the study, it became clear that the population of Derbent at that time preferred to grow cereal crops-barley, wheat, rubia tinctorum. At the end of XIX - beginning of XX centuries one of economic and economic activities of Derbent inhabitants was livestock breeding. The article also shows that the population was engaged in cattle breeding, kept horses, goats, and cattle sheep, all of which were recorded in the statistics. Livestock breeding became one of the leading branches of the economy during the accession of Derbent to the Russian Empire.*
***Keywords:*** *Derbent, agriculture, cattle-breeding, livestock breeding, cereal crops*

**Giriş.** XVIII-XIX əsrin ortalarında Azərbaycanın digər bölgələri kimi, Dərbənd şəhəri əhalisinin də əsas məşğuliyyəti təsərrüfatın ənənəvi sahələrindən sayılan əkinçilik, üzümçülük, bağçılıq, bostançılıq, heyvandarlıq, balıqçılıq, ticarət və sənətkarlığın müxtəlif növlərindən ibarət idi. XVIII əsrin sonu - XIX əsrin əvvəllərində Dərbənd şəhərində olmuş səyyahların gündəlikləri bunu bir daha sübut edir. F.F.Simonoviçin 1796 - cı ilə aid olan məlumatlarında Dərbəndin zəngin taxılçılıq bölgəsi olması, əhalinin buğda, arpa becərməsi, bağçılıq, bostançılıqla məşğul olması göstərilir. Müəllif Dərbənddə yüksək keyfiyyətli üzüm, nar, gavalı, alma, armud, yemiş, qarpız yetişdirilməsi, əhalinin həmçinin zəfəran, ipək, qoz, marena istehsal etməsi haqqında məlumat vermişdir [2, 143]. 1804 - cü ildə Dərbənddə olmuş A.İ.Axverdovun

yazdığına əsasən, əhali az miqdarda taxılçılıq, zəfəran və ipəkçiliklə məşğul olur və Dərbəndin üzüm bağlarından istehsal edilən məhsuldan ermənilər şərab düzəldirdilər. Müəllifə görə, Dərbənd əhalisinin məşğuliyyət sahələrindən biri də ticarət olmuşdur [2, 219]. N.F.Rtişşevin 1813 - cü il tarixli hesabatında Dərbənd əhalisinin üzümçülük, şərabçılıq, taxılçılıq və sənətkarlıqla məşğul olması qeyd olunur. Hesabatda göstərilir ki, əhali daha çox üzümçülüklə məşğul olduğu üçün, taxılçılıqla məşğul olmağa yer çatışmır [2, 249]. M.K.Kovalevski və İ.F.Blaramberq də Dərbənd əhalisinin ipəkçilik, pambıqçılıq, üzümçülük, balıqçılıqla yanaşı, zəfəran və marena istehsalı ilə məşğul olmalarını qeyd edirlər [2, 311]. Dərbənd xanlığını təsvir edən rus qafqazşünası S.Bronevski də əhalinin əkinçilik, pambıqçılıq, zəfəran, ipəkçilik, yabanı marena və üzümçülüklə məşğul olmasını göstərmişdir [1,339-340]. Bu məqalədə isə təsərrüfatın əkinçilik və heyvandarlıq sahəsini araşdıracağıq.

**XIX-XX əsrin əvvəllərində Dərbənd əhalisinin məşğuliyyəti:** Dərbəndin Rusiya tərəfindən işğalından sonra da əhalinin məşğuliyyət növlərindən biri əkinçilik olaraq qalırdı. Əhali taxıl məhsullarından daha çox buğda və arpa istehsalına üstünlük verirdi. Bununla yanaşı, əhali Dərbənddə məhdud miqdarda mərci, noxud, çəltik, qarğıdalı istehsalı ilə də məşğul olurdu. Ümumiyyətlə, XIX-XX əsrin əvvəllərində Dərbənddə taxılçılıq geniş inkişaf tapmışdı və bu bir sıra səbəblərlə bağlı idi. İlk növbədə onu qeyd etmək lazımdır ki, Dərbəndin torpaq fondunun, xüsusilə də əkinə yararlı torpaq fondunun az olması taxılçılığın inkişafında əsas əngəllərdən biri olmuşdur. Hesablamalara görə, meşələr, kolluqlar, biçənək və otlaqlar da daxil olmaqla Dərbəndin torpaq fondu təqribən 6300 - 6400 desyatin arasında təxmin edilirdi və Dərbənddə adam başına təxminən 0,52 desyatin (1 desyatin - 1,0925 ha) torpaq sahəsi düşürdü [5, 1].

Digər tərəfdən, XIX əsrin 30 - cu illərindən etibarən daha çox gəlir verən marena istehsalının genişlənməsi ilə əlaqədar olaraq, əvvəllər taxıl əkilən ərazilərin bir hissəsi marena plantasiyalarına çevrilirdi. XIX əsrin 70 - ci illərində marena istehsalının tənəzzülündən sonra isə Dərbənd əhalisi daha gəlirli sahə olan üzümçülüyə, meyvə - tərəvəz istehsalına meyilli olduğu üçün taxılçılığa maraq azalmışdı. Bütün bunlara baxmayaraq, Dərbənd əhalisinin müəyyən qismi XIX - XX əsrin əvvəllərində buğda, arpa, bəzi dövrlərdə isə hətta kartof istehsalı ilə məşğul olurdu. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, XIX əsrin 90 - cı illərinə qədər ayrı - ayrı illər üzrə Dərbənddə buğda, arpa və kartof istehsalının həcmi haqqında dəqiq statistik məlumatlar əldə etmək mümkün olmamışdır. 1832 - ci ilin rəsmi məlumatlarına görə, Dərbənddə 1000 çetvert buğda, 500 çetvert arpa əkilmiş (1 çetvert uzunluq vahidi olaraq- 17,78 sm - ə, təxminən 18 sm - ə bərabərdir. A.H.) və nəticədə 8000 çetvert buğda, 4000 çetvert (1 çetvert çəki vahidi olaraq - 12 puda bərabərdir. 1 pud isə 16,38 kq-dır. A.H.) arpa məhsulu əldə edilmişdi [4,32]. A.N. Kajlayevin hesablamalarına əsasən, Dərbənddə hər il orta hesabla 2000 çetvert taxıl əkilir, 9-11 min desyatin məhsul yığılırdı [4,38]. Təbii ki, istehsal edilən taxıl

məhsulları Dərbənd əhalisinin tələbatını tam ödəmirdi. Buna görə də, Quba qəzasından və başqa yerlərdən hər il təxminən 9 min rubl dəyərində taxıl məhsulları alınırdı [4,32].

XIX əsrin 90 - cı illərindən - XX əsrin əvvəllərinə qədər Dağıstan vilayəti qubernatorunun illik hesabatlarına əlavələr kimi nəşr olunan icmal materiallarında Dərbənddə buğda, arpa və kartof istehsalının miqdarı haqqında dəqiq statistik materiallar öz əksini tapmışdır. Doğrudur həmin icmal materiallarında əkilmiş buğda, arpa və kartof sahələrinin ölçüsü göstərilməsə də, əkilmiş və yığılmış məhsulun miqdarı dəqiq verilmişdir.

1891 - 1915 - ci illər üzrə qubernator icmalları əsasında tərtib etdiyimiz cədvəldə bəhs edilən dövrdə Dərbənddə əkilmiş və istehsal edilmiş buğda, arpa və kartof məhsullarının mıqdarı haqqında ətraflı təsəvvür yaradır. Müxtəlif illər üzrə statistik rəqəmlər arasındakı fərqlər yolxucu xəstəliklər və mövsümün əlverişsizliyi ilə bağlı olmuşdur.

**Cədvəl 1**

**Dərbənddə əkilmiş və yığılmış kənd təsərrüfatı məhsullarının miqdarı**

| İllər | Əkilmişdir, çertvertlə | | | Yığılmışdır, çertvertlə | | |
|---|---|---|---|---|---|---|
| | buğda | arpa | kartof | buğda | arpa | kartof |
| 1891 | 1725 | 375 | - | 5125 | 1850 | - |
| 1892 | 1005 | 134 | 64 | 3015 | 246 | 158 |
| 1893 | 715 | 130 | 250 | 3575 | 980 | 550 |
| 1894 | 429 | 129 | 264 | 2143 | 771 | 564 |
| 1895 | 825 | 260 | 175 | 4225 | 1560 | 380 |
| 1896 | 799 | 268 | 255 | 3995 | 1608 | 380 |
| 1897 | 800 | 300 | 200 | 500 | 180 | 110 |
| 1899 | 410 | 180 | 80 | 1230 | 540 | 800 |
| 1900 | 1500 | 1000 | 160 | 4500 | 4000 | 800 |
| 1901 | 975 | 610 | 100 | 6450 | 4270 | 950 |
| 1902 | 1355 | 940 | 155 | 7620 | 5335 | 1750 |
| 1903 | 4200 | 600 | - | 33660 | 5000 | - |
| 1904 | 4320 | 650 | - | 35400 | 5400 | - |
| 1905 | 4100 | 700 | - | 30000 | 4200 | - |
| 1906 | 4500 | 1000 | - | 24000 | 5000 | - |
| 1907 | 5400 | 1500 | - | 27000 | 7500 | - |
| 1908 | 2000 | 1600 | - | 8000 | 6400 | - |
| 1909 | 2500 | 1710 | 640 | 15750 | 10600 | 2900 |
| 1911 | 1210 | 1500 | 200 | 9610 | 9000 | 1500 |
| 1912 | 1215 | 1515 | 285 | 9650 | 9020 | 1670 |
| 1915 | 2500 | 1500 | 350 | 20000 | 12000 | 1400 |

**Mənbə:** [5]

Statistik məlumatlar göstərir ki, Dərbənddə rekord səviyyədə buğda istehsalı 1904 - cü ildə, arpa və kartof istehsalı isə 1909 - cu ildə qeydə alınmışdır. 1897 - ci il taxıl və kartof istehsalı sahəsində ən acınacaqlı il olmuşdu. Belə ki, əhali heç əkdiyi məhsul qədər taxıl və kartof əldə edə bilməmişdir.

Dərbənd əhalisinin məşğul olduğu təsərrüfat sahələrindən biri də heyvandarlıq olmuşdur. Rusiya işğalından sonrakı dövrdə Dərbənddə maldarlıq təsərrüfatının aparıcı sahələrindən hesab edilirdi. Otlaqlar və biçənək sahələrinin azlığı maldarlığın geniş inkişafına imkan vermirdi. Bununla belə, əhali az miqdarda olsa da at, ulaq, iri buynuzlu mal - qara və davar saxlamaqla məşğul olurdular. Dərbəndin qeyri - müsəlman əhalisi arasında məhdud miqdarda olsa da donuzçuluq mövcud idi. XIX əsrin 80 – 90 - cı illərində Dərbənddə mal-qaranın sayı haqqında konkret statistik məlumatlar əldə etmək mümkün olmamışdır. A.N. Kajlayevin hesablamalarına görə, 1850 - ci ildə Dərbənddə 1318 baş iri buynuzlu mal - qara, 477 baş at, 320 baş ulaq var idi [4,38]. Rusiya işğalından sonra atçılıq təsərrüfatının inkişafına xüsusi diqqət verilirdi. Bu məqsədlə Qafqazın müxtəlif bölgələrində at zavodları fəaliyyətə başlamışdı. 1855 - ci ildə təkcə Dərbənd quberniyasında 60 at zavodunun olması [3, 34] haqqında məlumat olsa da, onun neçəsinin Dərbənd şəhərində yerləşməsi bəlli deyildir. Umumiyyətlə, Dərbənd öz əhalisinin heyvandarlıq məhsulları ilə təmin edə bilmədiyi üçün digər bölgələrdən, xüsusilə də Şamaxı və İrəvan quberniyalarından bura iri və xırda buynuzlu mal-qara gətirilirdi.

1886 - cı il ailə siyahyaalmalarında Dərbənddə mövcud olan iri və xırda buynuzlu mal - qaranın sayı və onların şəhər əhalisi arasında etnik prinsip üzrə bölüşdürülməsi haqqında maraqlı məlumat verilmişdir. Həmin məlumata görə, 1886 - cı ildə Dərbənddə 226 baş camış, 194 baş kəl, 382 baş inək, 445 baş at və qatır, 283 baş ulaq, 500 baş qoyun, 10 baş keçi, 5 baş donuz qeydə alınmışdı [6,125]. 226 baş camışın 3-ü rüslara, 7 - si ermənilərə, 216-sı azərbaycanlılara, 194 baş kəlin 23 - ü ruslara, 171 - i azərbaycanlılara, 382 baş inəyin 33 - ü ruslara, 8 - i ermənilərə, 50 - si yəhudilərə, 291 - i azərbaycanlılara, 445 baş at və qatırın 6 - sı ruslara, 29 - u ermənilərə, 23 - ü yəhudilərə, 387 - si azərbaycanlılara, 283 daş ulağın 5 - i ermənilərə, 33 - ü yəhudilərə, 245 - i azərbaycanlılara, qoyun və keçilərin hamısı azərbaycanlılara, 5 baş donuzun 3 - ü ruslara, 2 - si almanlara məxsus olmuşdur [6, 125]. Statistika göstərir ki, Dərbənd əhalisinin heyvandarlıqla məşğul olan hissəsinin mütləq əksəriyyətini azərbaycanlılar təşkil edirdi. XIX əsrin 90 - cı illəri - XX əsrin əvvəllərinə aid qubernator icmalları əsasında tərtib etdiyimiz cədvəldə Dərbənddə heyvandarlığın səviyyəsini statistik rəqəmlərlə əks etdirir.

**Cədvəl 2**

**Dərbənddə heyvandarlığın vəziyyətinə dair**

| **Heyvan darlığın növü** | **İllər** | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **1892** | **1896** | **1897** | **1902** | **1903** | **1904** | **1905** | **1906** | **1907** | **1908** | **1909** | **1911** |
| At | 590 | 583 | 575 | 70 | 750 | 810 | 700 | 320 | 585 | 625 | 760 | 790 |
| Ulaq | 284 | 215 | 209 | 264 | 300 | 96 | 135 | 122 | 530 | 584 | 739 | 350 |
| Qatır | 4 | 7 | 5 | 11 | 5 | 9 | 27 | 9 | 5 | 10 | 18 | 15 |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Camış və İnək | 487 | 835 | 841 | 756 | 840 | 427 | 448 | 750 | 984 | 1028 | 4090 | 970 |
| Kəl | 164 | 137 | 110 | 336 | 250 | 61 | 81 | 82 | 364 | 407 | 511 | 457 |
| Qoyun | 395 | 255 | 205 | 297 | 157 | 132 | 6976 | 867 | 2550 | 3070 | 3585 | 2000 |
| Keçi | - | - | - | 119 | 50 | 15 | 1070 | 24 | 300 | 372 | 52 | 370 |
| Donuz | - | - | 60 | 45 | 140 | 18 | 24 | 35 | 45 | 38 | 439 | 70 |
| **Cəmi** | 1924 | 2032 | 2005 | 1898 | 2492 | 1568 | 9461 | 2209 | 5363 | 6134 | 10194 | 5022 |

**Mənbə:** [5]

Dərbənddə mal-qaranın rekord səviyyəsi 1905 - ci ildə qeydə alınmış və onlar 9.461 başa çatmışdı. Hesablamalara görə, 1905 - ci ildə Dərbənddə adambaşına düşən bütün növlərdən olan mal - qaranın sayı təqribən 0,4 başa bərabər olmuşdur. Digər illər üzrə bu göstərici adambaşına 0,1 - 0,3 arasında təxmin edilirdi.

**Nəticə:** Beləliklə məlumatlar göstərir ki, XIX əsrdə olduğu kimi, XX əsrin əvvəllərində də heyvandarlıq Dərbənd əhalisinin aparıcı təsərrüfat sahəsinə çevrilə bilməmişdi.

***Ədəbiyyat siyahısı:***

1. *Броневский С.М. Новейшие географические и исторические известия о Кавказе. Собрания и пополненные С.Броневским. Москва, Типогр. С.Селиванского, 1823, 465 с.*
2. *История, география и этнография Дагестана XVIII-XIX вв. Архивные мат. под ред. М.О.Косвена и Х.М.Хашаева. Москва: Изд. Вост. Лит., 1958, 372 с.*
3. *История Дагестана. В 4-х тт., т.II. XIX- нач. XX в. Москва: Гл. ред. Вост. лит., 1968, 368 с.*
4. *Кажлаев А.Н. Возникновение и экономическое развитие Дербента. Махачкала: Даг. кн. изд., 1972, 164 с.*
5. *Обзоры о состоянии Дагестанской области за 1892 год (Приложения к всеподданнейшим отчетам по гражданскому и военно-народному управлениям). Темир-Хан-Шура, 1893.*
6. *Свод статических данных извлеченных из посемейных списков населения Закавказья. Дагестанская область. Тифлис, 1890.*

**UOT 94 (479.24); 930:314**

# XIX ƏSRİN I YARISINDA GƏNCƏNİN TARİXİ DEMOQRAFİK XÜSUSİYYƏTLƏRİ

**Günay Aşurova**
*BDU, Tarix fakültəsi, elmi işçi*
*elgun041@gmail.com*

*Demoqrafik proseslərin öyrənilməsi müasir dövrün gündəmdə olan ən əhəmiyyətli məsələlərindən birini təşkil etdiyinə görə, bu sahələrin tədqiqinə maraq durmadan artır. Xüsusilə Azərbaycanın XIX əsr əhalisnin məskunlaşma tarixinin araşdırılması elmi tədqiqatda vacib istiqamətlərdən biri hesab edilir. Xanlıq dövrü və XIX əsr Rusiya işğalı dövründə Gəncə əhalisinin məskunlaşmasına dair proseslərin bütün istiqamətlərdə dinamikasının obyektiv və subyektiv səbəblərini dərk etməyə ehtiyac vardı. XIX əsrin I yarısında Gəncə əhalisinin məskunlaşmasını şərtləndirən demoqrafik proseslərə təsir edən amillərin rolunun müəyyənləşdirilməsi məqalənin əsas mahiyyəti hesab edilir.*

***Açar sözlər:*** *Rus-İran müharibəsi, Gəncə, əhalinin yerdəyişməsi, köçürmə siyasəti, demoqrafik dinamika*

## *DEMOGRAFİC FEATURES OF YOUTH İN THE FİRST HALF OF XIX CENTURY*

*As the study of demographic processes is one of the most important issues on the agenda of our time, there is a growing interest in the study of these areas. In particular, the study of the history of the settlement of the population of Azerbaijan in the XIX century is considered one of the important directions in scientific research. There was a need to understand the objective and subjective reasons for the dynamics of the processes of settlement of the population of Ganja in all directions during the khanate period and the Russian occupation in the XIX century. The main essence of the article is to determine the role of factors influencing the demographic processes that led to the settlement of the population of Ganja in the first half of the XIX century.*

***Keywords:*** *Russian-Iranian war, Ganja, population displacement, resettlement policy, count dynamics*

**Giriş.** XIX əsrin əvvəllərində Avropada Fransanın hegemonluğu digər regionlarda hakim dövlətlərin hərəkətliliyinə səbəb olmuşdur. Hələ XVIII əsrin əvvəllərində I Pyotr Qafqazla bağlı işğalçılıq planlarını həyata keçirmək üçün aktiv fəaliyyətə başlasa da, lakin bu planın tam həyata keçməsi üçün, XIX əsrin əvvəllərində əlverişli şərait yaranmışdır. Xüsusilə Azərbaycan torpaqlarında feodal pərakəndəliyinin hökm sürməsi, vahid dövlətin olmaması, xarici qüvvələrin işğalçılıq siyasəti üçün şərait yaradırdı.

**XIX əsrin I yarısında Gəncədə baş verən tarixi-demoqrafik vəziyyət:** 1804 - 1813 - cü illər və 1826 – 1828 - ci illər arasında baş verən Rusiya - Qacarlar İranı müharibəsində əsas zərər çəkənlər döyüşlərin baş verdiyi ərazilərin yerli əhalisi olmuşdur. Bu müharibələr Azərbaycanın demoqrafik vəziyyətinə çox ciddi təsir göstərmişdir. Hərbi əməliyyatların

getdiyi bölgələrin əhalisi müharibənin gətirdiyi dağıntılar və burada yaranmış qeyri-sabit vəziyyət səbəbindən doğma yurdlarını tərk etməyə məcbur qalmışdırlar. Azərbaycanın cənub hissəsinə köçmüşdülər. I və II Rusiya - Qacarlar İranı müharibələrində ən çox zərər çəkən ərazilərdən biri də Gəncə əhalisi olmuşdur. Hər iki müharibədə ən ağır döyüşlərin bu regionda baş verməsi, əhalinin həyatına daha çox təsir etmişdir.

Bu köçürmə siyasəti və digər xanlıqlarla baş verən müharibələrin nəticəsində olmuşdu. Əhalinin müxtəlifliyinin digər bir səbəbi, ətrafında xristian dövlətin olması, o cümlədən ticarət mərkəzi kimi Cənubi Qafqazda başlıca şəhərlərdən biri hesab edilməsi idi. Qeyd etməliyik ki, bəzən təbii fəlakətlər də insanların yerdəyişməsinə səbəb olmuşdur. Bununla bərabər, Gəncədə şəhərləşmə prosesi, digər ərazilərdən daha surətli və təsirli formada gedirdi. Bu ərazidə olan sənətkar və tacir sinfinin xarici ölkələrlə olan çox ciddi əlaqələri, Gəncənin əhəmiyyətini daha da artırırdı. Təbii ki, bu da əhalinin burda cəmləşməsi və sürətlə artımına səbəb olurdu. Lakin XIX əsrin I yarısında, baş vermiş müharibələrin mərkəzində Gəncə şəhəri olması, şəhər həyatına və əhalinin say dinamikasına böyük təsir etmişdi. Hətta 1804 - cü ilin yanvarında Gəncə şəhər qalasının ruslar tərəfindən işğalından sonra bəzi müəlliflər burda kütləvi qırğınların olduğunu öz əsərlərində qeyd etmişdilər. Məsələn, Mirzə Camal Cavanşır öz əsərində Gəncə hadisələri ilə bağlı "ümumi qırğın" anlayışını işlətmişdir.

Rusiya tarixçısı A. Kaspari öz əsərində gəncəlilərin ölüm - dirim savaşından yayınmadıqlarını bildirir: "Xanın ölümü duyulunca Gəncə qüvvələrinin mənəviyyatı sarsıldı, beləliklə, savaş ruslar tərəfindən qazanılmış oldu. Döyüş şəhər içinə keçirildi. Gəncəlilər şəhəri ev - ev müdafiə edirdilər. Buna görə də çox ağır tələfat verdilər." Burdan da göründüyü kimi Gəncə şəhərinə ən ağır zərbə ruslar tərəfindən işğal zamanı vurulmuşdur [2,104].

1804 - cü ilin yanvarında ruslar Gəncə şəhərini işğal etdikdən sonra, bu ərazilərə ermənilərin köçürülməsi prosesi sürətlənmişdi. 1804 - cü ildə Yelizavetpol qəzasına 105 erməni ailəsi, 1805 - ci ildə isə 1.300 erməni köçürülmüşdür. Təbii ki, Gəncə işğal edildikdən sonra, şəhəri tərk edən müsəlman - türk əhalinin yerinə, Rusiya xristian əhalini köçürərək, həm etnik, həm də iqtisadi dayaqlarını artırmışdı. Bildiyimiz kimi, 1828 - ci il Türkmənçay və 1829 - cu il Ədirnə müqavilələrindən sonra, Qacar dövlətinin Azərbaycan vilayətindən 40 min, Osmanlı ərazisindən isə 84 min nəfərdən çox erməni əhalisi Şimali Azərbaycana köçürülmüşdü. Gəncədə yaşayan etnik ermənilərlə, Qarabağ və İrəvana köçürülmüş ermənilər arasında əlaqələndirmənin aparılması məsələsini çar Rusiyası öz diqqət mərkəzində saxlayırdı.

Rus tarixçisi N.Şavrov ermənilərin köçürülməsi ilə bağlı öz əsərində qeyd etmişdi. "Hazırda Cənubi Qafqazda yaşayan 1 milyon 300 min nəfər ermənінin 1 milyondan çox diyarın yerli əhalisinə məxsus deyil və bizim tərəfimizdən buraya köçürülmüşdür" [1,18].

Ermənilər səkkiz əsrdən - çox əvvəlcə Səlcuq, sonra Osmanlı hökmranlığını məmnuniyyətlə qəbul etmiş, idarə sistemindən razı olmuşdurlar. Öz dinlərinə qarşı hər hansı bir təzyiq olmamış, hətta bu dövlətlərdə vacib vəzifələrə kimi çatmışdılar. Ona görə də deyə bilər ki, çarizm onları türk torpaqlarından, başqa bir türk torpaqlarına köçürəndə, ermənilər bu siyasətə ciddi müqavimət göstərməmişlər. Təbii ki, bütün bu hadisələr, Gəncə əhalisinin say dinamikasına təsirlər etmişdir, lakin ermənilərin və digər xristian əhalinin bura köçürülməsinə baxmayaraq, müsəlman əhali yenə də, dominantlıq edirdi. Gəncədə yaşayan erməni əhalisinin böyük əksəriyyəti tacir sinifi idi.

Ümumiyyətlə Gəncə xanlığı dövründə inzibati ərazi qurluşuna nəzər salsaq aydın olar ki, işğaldan sonra Gəncə xanlığına aid olan mahalların sayı azalmışdır. Bu birbaşa çarizmin maraqlarına xidmət edən hadisələrdən biri olmuşdur. Təbii ki bu da əhalinin sayının azalmasına gətirib çıxartmışdır.

Araşdırmalar nəticəsində hələ xanlıqdan əvvəlki dövr “Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri”ndə Gəncə xanlığının sərhədləri çərçivəsinə düşən təxmini ərazilərdə 1727 - ci ildə 12 mahal: Gəncəbasar, Sunqurabad, Böyük Kürəkbasan, Kiçik Kürəkbasan, Danqı, Qaraqaya, Türkənlər, Yuxarı Zəyəm, Aşağı Zəyəm, Şəmkürbasan, Xılxına mahalları qeydə alınmışdır [5].

Gəncə xanlığının Rusiya tərəfindən işğal edilməsindən sonra aparılmış kameral təsvir sənədləri XIX əsrin əvvəllərində xanlığın inzibati və əhali bölgüsü haqqında dəqiq təsəvvür yaradır.

1804-cu il mart ayının 2 - nə olan kameral təsvirin məlumatlarına əsasən Yelizavetpol dairəsi ərazisində 2.517 ailə qeydə alınmışdır. 1807 - ci ilin fevralında keçirilmiş Yelizavetpol dairəsinin kameral təsviri zamanı isə dairədə 2.025 ailənin yaşadığı müəyyən edilmişdir [5].

1817 - ci ildə Yelizavetpol dairəsində keçirilmiş kameral təsvir sənədlərində bu dairədə beş mahalın: Gəncə, Kürəkbasan, Şamxor, Samux və Ayrım mahallarının olması göstərilmişdir. Həmin kameral təsvir materiallarının araşdırılması nəticəsində Yelizavetpol qəzasında 17.901 nəfərin yaşadığı müəyyən edilmişdir. Təbii ki, biz bu əhali artımının səbəblərini araşdırdıqda vacib faktların ortaya çıxdığını görürük. Bildiyimiz kimi, 1813 - cü ildə Gülüstan sülh müqaviləsindən sonra pərakəndə hala düşmüş Gəncə əhalisinin geri qaytarılması ilə bağlı çarizm vacib addımlar atdı. Gəncə şəhəri və ətrafındakı mahalların, dağıdılmış təsərrüfatının bərpası və o cümlədən ticarət məntəqələrinin bərpası çox sürətlə getmişdir. Qeyd etdiyimiz kimi Rusiya - Qacarlar İranı müharibələri dövründə Gəncə əhalisinin böyük bir qismi Azərbaycanın cənubuna köç etmişlər. Bu da vergi verən əhalinin sayının azalması demək idi. Çarizmin Gülüstan sülhündən sonra, Gəncə əhalisinin geri qaytarılması ilə bağlı tədbirlər aparılmışdır - əhalini geri qaytarmaq, vergi verən əhalinin sayını artırmaq və iqtisadi siyasəti təmin etmək onların əsas məqsədlərindən biri olmuşdur. Təbii ki, digər üsullardan biri də qeyri - müsəlman xalqların bölgəyə köçürülməsi bu siyasətin tərkib hissələrindən ibarət olmuşdur. Yelizavetpol quberniyası əhalisinin sayı 1817 - ci il siyahıyaalınması zamanı demək olar ki, iki dəfə artmışdı.

**Nəticə.** 1804 - cü ilə nisbətən 1807 və 1808 - ci illərdə Yelizavetpol əhalisinin sayının kəskin şəkildə azalması birinci Rus – Qacarlar İranı müharibəsinin başlanması ilə bağlı olmuşdur. Gülüstan sülh müqaviləsinin bağlanmasından sonra öz doğma yurdlarını məcburən tərk etmiş əhalinin geri qayıtması nəticəsində Yelizavetpol qəzasında əhalinin sayı 1817 - ci il siyahıyaalınması zamanı iki dəfə artmışdı. Baş vermiş bu artım ermənilərin Yelizavetpol qəzasına köçürülməsinin nəticəsi idi. Onu da qeyd etmək olar ki, ermənilərin köçürülmə prosesi XIX əsrin 40 - 50-ci illərinə qədər davamlı xarakter almışdır. Rusiya - Qacarlar İranı müharibələri başa çatdıqdan sonra təsərrüfat həyatında baş verən dirçəliş, vaxtı ilə burdan köçüb gedənlərin bir hissəsinin yenidən geri qayıtması ilə bağlı əhalinin sayı xeyli artmışdır. 1833 - cü ildə Yelizavetpol qəzasında keçirilmiş kameral təsvir materiallarına əsasən qəzada 5.424 ailənin yaşadığı qeyd edilmişdir [5].

Ümumiyyətlə XIX əsrin I yarısında Gəncə əhalisinin say dinamikasında baş verən dəyişikliklər yuxarıda da qeyd etdiyimiz kimi, siyasi, sosial və iqtisadi səbəblərdən olmuşdur.

***Ədəbiyyat siyahısı:***

1. *Cavadov Q. XIX əsrdə Azərbaycanın etnik xərtəsinə dair // Elturan jurnalı, 1994, №1-2, s.17-21*
2. *Əhmədov F. Gəncənin tarixi yaddaşı. El jurnal, 1994 , s.4-5*
3. *Quliyeva N.M, Həsənov E.L Gəncənin sənətkarlıq məhəllələri XIX əsrin sonu- XX əsrin əvvəllərində, Bakı Univeristetin Xəbərləri, №3, 2013, s.103-107.*
4. *Veysəlova V. XIX-XX əsrin əvvəllərində Gəncəbasar bölgəsində maarif və elm. http://www.geostrategiya.az/news.php?id=27*
5. *XIX əsrin əvvəllərində Qarabağ və Gəncə xanlıqlarının inzibati vahidləri və əhalisi. http://www.goyce.az/news.php?id=860*

***Rəyçi: Asəf Hacıyev***
*BDU, Tarix fakültəsi, t.f.d.*

UOT 94 (479.24); 930:314

# ŞAMAXI BÖLGƏSİNİN İNZİBATİ - ƏRAZİ QURULUŞU VƏ ƏHALİSİNİN SAY DİNAMİKASI (XIX ƏSRİN II YARISI)

**Ulduz Paşayeva**
*BDU, Tarix fakültəsi,böyük elmi işçi*
*star.miri@mail.ru*

*XIX əsrdə Azərbaycanın siyasi xəritəsində mühüm yer tutmuş və tarixi Şirvan ərazisində meydana gələn xanlıqlardan biri də Şamaxı xanlığı olmuşdur. Şamaxı xanlığının ərazisinin və əhalisinin say tərkibinin şəhərlər, mahallar, kəndlər üzrə bölgüsü statistik məlumatlara əsaslanaraq araşdırılmış və təhlil edilmişdir.*
***Açar sözlər**: Şamaxı, quberniya, şəhər, qəza, say tərkibi, statistik göstəricilər*

## *THE ADMINISTRATIVE -TERRITORIAL STRUCTURE AND POPULATION DYNAMICS OF SHAMAKHI REGION ( SECOND HALF OF XIX CENTURY)*

*Shamakhi khanate was one of the khanates , which took an important place on the political map of Azerbaijan in the XIX century and was appeared in the historical territory of Shirvan. The distribution of population and the territory of Shamakhi Khanate was studied and analyzed on the basis of statistical data by cities, districts, villages.*
***Keywords:** Shamakhi, province, city, county, distribution of population, statistical indicators*

**Giriş.** Şamaxı Azərbaycanın ən qədim şəhərlərindən biridir. "Şamaxı" sözünün etimologiyası haqqında müəyyən fikirlər vardır. Şamaxının adını ilk dəfə çəkən yunan alimi Klavdius Ptolomey (II əsr) olmuşdur. Onun "Coğrafi təlimnamə" adlı əsərində yerin adı "Samaxeya" və ya "Kemaxeya" kimi göstərilir. Ərəb mənbələrində "əş - Şəmaxiyyə" kimi qeyd edilən "Şamaxı" sözünün mənası haqqında müxtəlif mülahizələr mövcuddur. "Şamaxı" sözünün mənası barədə A.A.Bakıxanov yazırdı: Şamaxı şəhəri "Kamaxı" və ya "Ksemaxı" olmuşdur. İran alimi Məhəmməd Moinin "Fərhəngi - farsi" adlı izahlı lüğətində isə qeyd etmişdi ki, "Şamaxı – yəni Şəmaxa, yaxud Şəmaxiyyə" Qafqaziyyədə sabiqdə Şirvanşahların əyalət mərkəzi olmuşdur. Lakin şəhərin adının tayfa adı ilə bağlı olması haqqında fikir daha inandırıcıdır [1, s. 206-207].

**Şamaxıda baş verən zəlzələlər barədə.** Mənbələrdən məlum olur ki, ən güclü Şamaxı zəlzələsi 1192 - ci ilə təsadüf edir. Sonradan 1667, 1669, 1845, 1859, 1872 və 1902 - ci illər zəlzələlərinin təsiri nəticəsində Şamaxı şəhəri tamamilə yerlə yeksan olmuş və minlərlə insan təlafatına gətirib çıxartmışdır. Mənbələrə görə Şamaxı şəhəri və ətraf kəndlərdə on minlərlə insan həlak olmuş (1667 - ci ildə 80.000 nəfərdən artıq, 1859 - cu ildə 100 nəfərdən artıq, 1902 - ci ildə 2.000 nəfərdən artıq), evlər dağılmış, torpaq sürüşmələri baş

vermiş, yer səthində uzun və enli çatlar yaranmışdır. Dağıdıcı zəlzələlərdən sonra xeyli sayda afterşoklar baş vermişdir. Bu zəlzələlərin törətdiyi dağıntılar nəticəsində əhali başqa yerlərə köçürülmüş və Şamaxı bərpa olunduqdan sonra əksəriyyəti şəhər, mahal və obalarına qayıtmışdır [2, s.325-328].

Bu qədər dağıntı və zorakı köçürmələrə baxmayaraq, Şamaxı şəhəri xanlıqlar dövründə sənətkarlıq mərkəzi kimi öz əvvəlki şöhrətini qoruyub saxlaya bilmişdi.

XVIII əsrin sonlarında Azərbaycanda olmuş S.Bronevski yazırdı ki, “ticarət və sənətin qədim ruhu Şamaxıda hələ tamamilə sönməmişdi” [6] .

**Şamaxı bölgəsinin tarixinə baxış:** Şirvanda baş verən hadisələr çar Rusiyasının Xəzər dənizi hövzəsinə olan işğalçı siyasətini artırmışdı. Rusiya imperatorunun şərq siyasətində Şimal-Şərqi Azərbaycan mühüm əhəmiyyət kəsb edirdi. Hətta Şirvan üsyanından əvvəl Peterburqda qarşıda duran yürüş barədə tərtib olunmuş sənədlərdə bu yürüş "Şamaxı ekspedisiyası" adlandırılırdı. Şirvan üsyanı qələbə çaldıqdan sonra I Pyotr həm yürüşün adını, həm də istiqamətini dəyişdirməli oldu [3, s.353; 24].

Onu da qeyd edək ki, Azərbaycanın Arazdan Şimalda yerləşən xanlıqlarının çar Rusiyası tərəfindən işğal olunmasından sonra Şamaxı xanlığı tarixi ədəbiyyatda “Şirvan” xanlığı da adlandırılmışdır.

Lakin Q. Butkovun 1869 - cu ildə Sankt–Peterburqda nəşr olunan “Qafqazın yeni tarixinin materiallarına dair**:** 1722 - ci ildən 1803 - cü ilə qədər“ əsərində göstərmişdir ki, Şirvan əslində Şamaxı xanlığıdır [4, s.130].

Xanlıqlar dövründə Şamaxı şəhəri xanlığın mərkəzi kimi yenə də iqtisadi və siyasi əhəmiyyətini saxlamışdı. XVIII əsrin əvvəllərində Şamaxıda olmuş ingilis səyyahı Con Bel şəhəri dağ döşündə amfiteatr şəklində tikilmiş şəhər kimi xatırlayırdı. Lakin Şamaxı şəhəri Nadir şah Əfşar tərəfindən 1734 - cü ildə dağıdıldığı üçün əhalinin Yeni Şamaxıya köçürülməsi ilə əlaqədar Şamaxının adı tarixi ədəbiyyatlarda Köhnə Şamaxı kimi tanınırdı. XVIII əsrin 70 - ci illərində Şamaxıda 1000 - ə yaxın evdə 5 - 6 min adam yaşayırdı. Şəhərlər inzibati cəhətdən məhəllələrə bölünürdü. 1771 - ci ildə S.Qmelinin verdiyi məlumata görə, Köhnə Şamaxı doqquz məhəlləyə bölünürdü: Yuxarı qala, Sarıtorpaq, Qala bazar, Yəhudi, İmam, Meydan, Şahpəri, Qala dibi, Nar ağacı məhəllələri. Xanlığın paytaxtı kimi özünün çiçəklənmə dövrünü yaşayan Köhnə Şamaxı sənətkarlıq mərkəzi olmaqla yanaşı, həm də böyük ticarət mərkəzi idi. 1768 - ci ildə Şamaxı xanlığı qubalı Fətəli xan tərəfindən tabe edilərkən, Fətəli xan Dərbənd, Quba və Salyandan Köhnə Şamaxıya 1000 ailə köçürür. 1789 - cu ildə Qubalı Fətəli xanın ölümündən sonra, Şamaxı xanlığında hakimiyyət uğrunda daxili çəkişmələr baş verir. 1792 - ci ildə həmin mübarizədə Mustafa xan qalib gəlir. Mustafa xan mərkəz kimi Köhnə Şamaxını yox, Yeni Şamaxını seçir. Lakin əsrin sonunda bütün əhali Köhnə Şamaxıya qayıdır [5].

1805 - ci ilin noyabrında P.D.Sisianovun (gürcü əsilli rus generalı, Rusiyanın Qafqazdakı qoşunlarının baş komandanı - 1754-1806) Bakıya

hücumu nəticəsində Şirvan xanlığı Rusiyanın tabeçiliyinə keçirilir. 1813 - cü ilin oktyabrın 12 - də Rusiya və Qacarlar İranı arasında "Gülüstan" Sülh müqaviləsi bağlanır. Gülüstan müqaviləsinin şərtlərinə görə (11 maddədən ibarət olan) Azərbaycanın tarixi torpaqları iki dövlət - Rusiya və Qacarlar İranı arasında bölüşdürüldü. Gəncə, Qarabağ, Şəki, Şirvan, Quba, Bakı, Talış xanlıqları, eləcə də Şərqi Gürcüstan və Dağıstan Rusiyanın tabeliyinə keçdi [6, s.208-219].

S.Bronevski yazdığı əsərdə Şirvanın hansı qəza və mülklərə bölündüyünü də qeyd etmişdir: Gerblərə görə Şirvan aşağıdakı qəzaları özündə birləşdirir: Dərbənd, Müşkür, Niyazabad, Şabran, Rustau, Şeşpər, Beş Barmaq, Şamaxı, Qəbələ, Ağdaş, Bakı, Salyan, Cavad. Hazırda Şirvan aşağıdakı mülklərə bölünür: Quba xanlığı, Bakı xanlığı, Salyan dairəsi, Şamaxı xanlığı, Şəki xanlığı [6, s.351].

XIX əsrin əvvəllərində baş vermiş hərbi - siyasi hadisələrin nəticəsi olaraq Qarabağ xanlığı ərazisindən Şirvan əyalətinə 1.500 ailə köçərək Şamaxı quberniyasının Qoşun mahalında 8 yeni kənd salmışdılar [21, s.40]. Belə ki, "Qarabağ əyalətinin təsviri"ndə Hacılı kəndinin əhalisinin bütünlükdə Şirvana qaçması haqqında məlumat verilmişdir [20, s.64].

Şamaxı bölgəsi daim çar Rusiyasının diqqət mərkəzində olub. Azərbaycanda ən iri xanlıqlarından birinin - Şamaxı xanlığının tabe edilməsi çar Rusiyası üçün bütün Şimali Azərbaycanın ələ keçirilməsində mühüm əhəmiyyətə malik idi. Şamaxı xanlığı digər xanlıqlar arasında mərkəzi mövqe tuturdu, böyük iqtisadi, siyasi və hərbi - strateji əhəmiyyətə malik idi [7, s.24].

Hələ 1820 - ci ildə xanlıq ləğv edilərkən Şirvanın 17 mahalı vardı: 1. Xançoban; 2. Qoşun; 3. Hauz; 4. Qəbiristan; 5. Muğan; 6. Nəvahi; 7. Qəssan; 8. Qarasubasar; 9. Lahıc; 10. Qarabağlar; 11. Sərdərin; 12. Rudbar; 13. Xazayurd; 14. Elat; 15. Bölükət; 16. Əkərət; 17. Salyan.

Şirvan əyalətinin təsviri Şamaxı xanlığının əhali tarixini öyrənmək üçün əhəmiyyətli qaynaqdır. 1820-ci ildə Şamaxı xanlığında 17 mahal, 328 kənd olmuşdur. Burada vergi ödəyən sosial qrupların sayi 8.604 ailə, vergi ödəməyənlərin sayı isə 2.672 ailə göstərilir. Mahallarda cəmi 11.276 ailə olarsa, onda xanlıqda 13.276 ailənin yaşadığı məlum olur. Burada statistikaya əsaslanaraq hər bir ailəni orta hesabla 6 nəfərdən hesablasaq belə məlum olur ki, 1820 - ci ildə Şamaxı xanlığında 79.656 nəfər yaşayıb. 1831 - ci il kameral təsvirinə görə Şirvan əyalətində 22.922 ev və ya ailə hesablanmışdı. Şirvan əyaləti inzibati ərazi baxımından Şamaxı xanlığının hüdudlarına uyğun gəldiyindən əyalətdə qeydə alınmış 22.922 ailənin hər birinin orta hesabla 6 nəfər olduğunu götürsək əyalətdə ümumi əhalinin 137.532 nəfər olduğunu görərik [8, s.53].

XIX əsrin əvvəlində Azərbaycan torpaqları yenidən öz sərhədlərini genişləndirməyə çalışan Rusiya imperiyasının hədəfinə çevrildi. I Pyotr (1672-1725) və II Yekaterinanın (1729-1796) yolunu davam etdirən I Aleksandr (1777-1825) Rusiyanın cənub sərhədlərini Kür və Araz çaylarınadək çatdır-

mağa qərarlaşdırmışdır. İranın Cənubi Qafqazda öz mövqeyini itirməsi, Türkiyənin getdikcə zəifləməsi, Azərbaycanın ayrı - ayrılıqda zəif olan xanlıqlara parçalanması Rusiyanı buna sövq edən əsas amillərdən idi. Qısa müddət ərzində Qafqaz idarəsi təşkil etmiş Rusiya aparılacaq hərbi əməliyyatlar üçün xeyli vəsait, çoxsaylı nizami qoşun və hərbi texnikanı bu idarənin sərəncamına verdi. Gürcüstanın Rusiyaya birləşdirilməsi aktı, sonra isə Gürcüstana qonşu hakimlərin Rusiya təəbəsinə cəlb edilməsi haqqında I Aleksandrın fərmanı Azərbaycan torpaqlarının işğalının əsasını qoydu. Beləliklə, öz işğalçılıq məqsədlərini həyata keçirməyə başlayan Rusiya Azərbaycan xanlıqlarını məcburən müharibəyə sürüklədi [9, s.95].

**Şamaxı bölgəsinin inzibati-ərazi quruluşu və əhalisinin say dinamikası**. XIX əsrin əvvəllərində Şimali Azərbaycanda doqquz şəhər var idi: Şamaxı, Bakı, Yelizavetpol (Gəncə), Nuxa, Şuşa, Quba, Lənkəran, Naxçıvan və Ordubad. Şamaxı bu şəhərlərdən ən böyüyü idi. Bununla belə Şamaxı xanlığı ləğv olunanadək şəhər ikinci dərəcəli rol oynayırdı, xanın əsas iqamətgahı Fitdağ qalası idi.

1821 - ci ildə rus hakimiyyət orqanları tərəfindən Şamaxının bərpa edilməsi planı işlənib hazırlandı. 1824 - cü ildə isə köhnə şəhərin yerində yeni şəhər tikildi. Fitdağ qalasının iqamətgah rolunun ləğv edilməsi ilə həmin ildə Şamaxı rəsmi olaraq Şirvan əyalətinin, 1840 - cı ildən 1846 - cı ilədək Xəzər vilayətinin, 1846 - cı ildən 1859 - cu ilədək Şamaxı quberniyasının mərkəzi oldu. Şəhərin bərpa edilməsi ilə onun əhalisi də artmağa başladı [7, s.96].

Cənubi Qafqaz, eləcə də Azərbaycanı işğal etmiş Rusiya imperiyasının apardığı inzibati islahatlar nəticəsində burada fərqli idarəçilik sistemləri birbirini əvəz etmişdir. 1859 - cu il zəlzələsinədək Şamaxı bu inzibati idarə sistemlərinin əsas mərkəzi rolunu oynamışdır.

Şamaxı "Zaqafqaziya diyarının idarəçiliyi üçün təsisat" adlı qanuna (1840, 10 aprel) əsasən Şirvan əyaləti və Salyan torpaqları əsasında yaradılmış və 1841 - 1846 illərdə Kaspi vilayətinin tərkibində olmuşdur. 1841 - ci ilin yanvar ayının 1 - də təsis edilmiş Kaspi vilayətinə (mərkəzi Şamaxı şəhəri olmaqla) Şimali Azərbaycan torpaqlarının böyük hissəsi - (Şamaxı (keçmiş Şirvan vilayəti), Şuşa (Qarabağ əyaləti), Nuxa (Şəki əyaləti), Lənkəran (Talış əyaləti), Bakı (Bakı əyaləti), Dərbənd (Dərbənd, Tabasaran və Qaraqaytaq əyalətləri) və Quba (Samur dairəsi ilə birlikdə Quba əyaləti) qəzaları daxil idi. Kaspi vilayəti 1846 - cı ilə qədər mövcud olmuş, 14 dekabr 1846 - cı ildə ləğv edilərək əvəzinə quberniya idarəçilik sistemi tətbiq edilmişdir. Yeni yaradılan inzibati - idarə təsisatları Şamaxı, Dərbənd quberniyaları idi. 1846 - cı il 14 dekabr tarixli əsasnaməyə görə həmçinin, Azərbaycan ərazisində olan bəzi qəzaların adları da dəyişdirildi. Belə ki, Şirvan qəzasının adı dəyişdirilərək Şamaxı qəzası, Şəki qəzası Nuxa qəzası, Qarabağ qəzası Şuşa qəzası, Talış qəzası Lənkəran qəzası adlandırıldı [10, s.108-117].

1851 - ci ildə Rusiyada əhalinin sayının müəyyənləşdirilməsi üçün həyata keçirilmiş kameral təsvirə əsasən, inzibati cəhətdən Bakı, Şamaxı,

Lənkəran, Nuxa və Şuşa qəzalarını əhatə edən Şamaxı quberniyasının əhalisi 319.923 nəfəri kişi, 283.083 nəfəri isə qadın olmaqla 603.006 nəfər təşkil edirdi [11, s.154].

Lakin 1859 - cu il zəlzələsi şəhərin quberniya mərkəzi kimi sürətli inkişafını dayandıran əsas hadisə olur. Dekabrın 6 - da Rusiya imperatoru II Aleksandrın Qafqaz canişinin təqdimatına əsasən verdiyi fərmana görə, quberniya şəhəri olan Şamaxıda tez-tez zəlzələlərin baş verdiyini, Şamaxı quberniya idarələrinin bu şəhərdə saxlanılmasının əlverişli olmadığını nəzərə alaraq, bütün quberniya idarələri Şamaxı şəhərindən Bakı şəhərinə köçürülür, Bakı quberniya şəhəri dərəcəsinə yüksəldilir, quberniyanın adı yeni mərkəzinin adı ilə Bakı quberniyası adlandırılır. Şamaxı şəhəri isə Şamaxı qəzasının qəza şəhəri elan olunur [16]. Beləliklə, tamamilə dağılmış Şamaxının mərkəz statusunu itirməsi onun sürətli inkişafını dayandırır, quberniyanın yeni mərkəzi elan edilən Bakının isə yüksəlişinin təməli qoyulur [12].

Onu da qeyd edək ki, 1840 - cı ilin inzibati - məhkəmə islahatı Azərbaycan şəhərlərinin idarəçiliyində əsaslı dəyişikliklər yaratmadı. Şəhər təsərrüfatı əvvəlki kimi yenə də polisin sərəncamında qalırdı. Böyük şəhərlər olan Şamaxı və Gəncədə qalabəyindən, iki xüsusi pristavdan, dörd məhəllə nəzarətçisindən və 16 polisdən ibarət xüsusi şəhər polisi təsis edilmişdi [7, s.97]. 1847 - ci ildə Tiflisdə nəşr olunmuş “Qafqaz təqvimi” jurnalında Şamaxı quberniyasının inzibati idarə sistemi və idarə üzvlərinin geniş siyahısı verilmişdir [13, s.21-22].

Həmçinin bu jurnalda göstərilən məlumata əsasən Şamaxı şəhərində hər iki cins daxil olmaqla 20.149 nəfər əhali qeydə alınmışdır. Onlardan 10.351 nəfəri kişi, 9.798 - i isə qadın olmuşdur. Bəylərdən, ruhanilərdən, tacirlərdən və sənətkarlardan ibarət olan şəhər əhalisinin 16.250 nəfəri müsəlmanlardan ibarət idi. Şamaxının quberniya mərkəzi olması burada əhalinin sosial, etnik tərkibinə təsir göstərdiyi kimi, dini tərkibinə də təsir göstərmişdir. Təsadüfi deyil ki, şəhər əhalisinin 2.450 nəfəri erməni qriqoryan, 200 nəfəri katolik, 25 nəfəri lüteran, 25 nəfəri yəhudi, 300 nəfər isə rus təriqətçiləri - duxoborlar, malakanlar və digər etiqada aid idilər [14, s.94].

Başqa bir mənbəyə əsasən 1850 - ci ildə Şamaxı quberniyası 5 şəhərdən, 1 qəsəbədən, 20 bölgədən və 1 pristavlıqdan ibarət olmuşdur. Bölgələr mahallara, mahallar isə oba və minbaşılıqlara bölünmüşdü [16]. Quberniya üzrə 1.679 kənd, 126.307 ev, 405.056 nəfər əhali qeydə alınmışdı (bax: cədvəl 1).

**Cədvəl 1**

**1850-ci ildə Şamaxı quberniyasının bölgələri və mahalları**

| Quberniyanın bölgələri və mahalları | Evlərin sayı | Əhalinin sayı (nəfərlə) | Kəndlərin sayı |
|---|---|---|---|
| **Qəbristanlıq bölgəsi**<br>Qəbristan mahalı; Elat mahalı; Navahi mahalı | 220 | 27356 | 6 |
| **Bərgüşad bölgəsi** | 8683 | 33187 | 92 |

| | | | |
|---|---|---|---|
| Sərdərin mahalı; Qarasubasar mahalı; Bölükət mahalı | | | |
| **Xançoban bölgəsi**<br>Xançoban mahalına həmçinin Elat mahalının bir hissəsi daxil edilib | 4889 | 29507 | 76 |
| **Qoşun bölgəsi**<br>Qoşun mahalı; Houz mahalı | 5088 | 24196 | 93 |
| **Lahıc bölgəsi**<br>Həsən mahalı; Xazayurt mahalı;Lahıc mahalı | 1122 | 31418 | 51 |
| **Qəbələ bölgəsi**<br>Qəbələ mahalı; Qutqaşın mahalı | 4555 | 24837 | 64 |
| **Xaçmaz bölgəsi**<br>Xaçmaz mahalı | 4459 | 29006 | 44 |
| **Nuxa bölgəsi**<br>Göynük mahalı; Şəki mahalı | 5131 | 29732 | 55 |
| **Ərəş bölgəsi**<br>Ağdaş mahalı; Ərəş mahalı | 4269 | 24082 | 92 |
| **Zəngəzur bölgəsi**<br>**Qaraçöplü, Pışan, Zəngəzur, Sisian və Tatev** olmaqla 5 minbaşılığa bölünmüşdür. | 5423 | 34124 | 134 |
| **Çiləbürt bölgəsi**<br>**Xaçın, Talış və Kolanı** olmaqla 3 minbaşılığa bölünmüşdür. | 1674 | 16129 | 73 |
| **Kəbərli (Kəbirli) bölgəsi**<br>Otuziki mahalı; Dəmirçihəsənli mahalı; Kəbərli mahalı | 3259 | 23947 | 88 |
| **Mustafaxanlı pristavlığı**<br>Cavad xan Mustafa xan oğlunun və Ağa xan Mustafa xan oğlunun əraziləri. | 1049 | 7421 | 41 |
| **Vərəndin bölgəsi**<br>Vərəndin mahalı | 8223 | 36231 | 227 |
| **Cavanşir bölgəsi**<br>Cavanşir mahalı;İyirmidörd mahalı | 50135 | 20523 | 184 |
| **Lənkəran bölgəsi**<br>Lənkəran mahalı; Astara mahalı; Züvənd mahalı | 2903 | 3970 | 89 |
| **Ərkivan bölgəsi**<br>Ərkivan mahalı | 2716 | 8026 | 50 |
| **Sepidac bölgəsi**<br>Cüməbazar mahalı; Drıq mahalı; Məringül mahalı; Sepidac mahalı; Alar mahalı | 3037 | 7421 | 123 |
| **Salyan bölgəsi**<br>Salyan mahalı; Rudbar mahalı | 2634 | 10321 | 36 |
| **Muğan bölgəsi**<br>Muğan mahalı | 597 | 3060 | 20 |
| **Maştağa bölgəsi**<br>Maştağa mahalı | 6241 | 33528 | 41 |
| **Şamaxı bölgələri üzrə evlərin, kəndlərin və əhalinin ümumi sayı** | 126.307 | 405.056 | 1.679 |

**Mənbə:** [16; 18, s.119-123]

Qafqaz təqviminin məlumatına görə, 1850 - ci ildə Şamaxı quberniyasına daxil olan şəhərlərdə ümumi əhalinin 82.816 nəfərinin 19.733 nəfəri Şamaxı şəhərində qeydə alınmışdır.

Ümumiyyətlə 1000 nəfərdən çox əhalisi olan şəhərlərdən Bakı, Şamaxı, Şuşa, Nuxa qeydə alınmışdır.

**Cədvəl 2**

**1850-ci ildə Şamaxı quberniyasının inzibati-ərazi bölgüsü və əhalinin say tərkibi**

| Quberniyaların şəhərləri | Ev | əhalinin sayı (nəfərlə) |
|---|---|---|
| Şamaxı şəhəri | 3113 | 19.733 |
| Bakı şəhəri | 1840 | 8.378 |
| Şuşa şəhəri | 3040 | 15.194 |
| Nuxa şəhəri | 2646 | 17.941 |
| Lənkəran şəhəri | 833 | 3.970 |
| Salyan qəsəbəsi və ətrafı | 1125 | 17.600 |
| **Quberniya üzrə şəhərlərdə evlərin və əhalinin cəmi** | 12.597 ev | 82.816 |

**Mənbə:** [16; 17]

1868-ci ildə Şamaxı şəhərində 23.406 nəfər (12.573 kişi, 10.833 qadın), qəzada 82.465 nəfər (42.186 kişi, 40.279 qadın) əhali qeydə alınmışdır. Cədvəldən məlum olur ki, şəhərdən fərqli olaraq qəzada əhalinin sayı daha çox olmuşdur.

**Cədvəl 3**

**1868 –ci ildə quberniya, şəhər və qəzalar üzrə əhalinin say tərkibi**

| **Quberniya, şəhər və qəzalar** | **Əhali** | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | **Şəhərlərdə** | | | **Qəzalarda** | | | **Quberniyada** | | |
| **Bakı quberniyası** | **kişi** | **qadın** | **Hər iki cins** | **kişi** | **qadın** | **Hər iki cins** | **kişi** | **qadın** | **Hər iki cins** |
| **Qəzalar:** | | | | | | | | | |
| Bakı | 8634 | 6445 | 15079 | 20897 | 20607 | 41504 | 29531 | 27052 | 56583 |
| Şamaxı | 12573 | 10833 | 23406 | 42186 | 40279 | 82465 | 54759 | 51112 | 105871 |
| Lənkəran | 2263 | 2419 | 5082 | 43222 | 42506 | 85728 | 45885 | 44925 | 90810 |
| Göyçay | - | - | - | 28201 | 23100 | 51301 | 28201 | 23100 | 51301 |
| Cavad | 5339 | 5338 | 10677 | 18792 | 13887 | 32679 | 24131 | 19225 | 43356 |
| Quba | 6376 | 5301 | 11677 | 66436 | 60195 | 126631 | 72812 | 65496 | 138308 |
| **Cəmi:** | 35585 | 30336 | 65921 | 219734 | 200574 | 420308 | 255319 | 230910 | 486229 |

**Mənbə:** [17; 4, s.406-407]

1869 - cu il məlumatına əsasən Şamaxı şəhərində 4.972 ev, əhalinin sayı 25.087 nəfər idi (13.999 nəfər kişi, 11.088 nəfər qadın). Göyçay qəzasında 9.990 həyət, 50.053 nəfər əhali (onlardan 27.509 nəfəri kişi, 22.544 nəfəri isə qadın) yaşayırdı. Şamaxı qəzasında 10.854 həyət, 71.216 nəfər əhali (38.354 nəfəri kişi, 32.862 nəfəri qadın) siyahıya alınmışdı [16, s.100]. Əvvəlki illərlə müqayisədə Şamaxı şəhərində əhalinin sayının nisbətən aşağı olduğunu görürük.

1870 - ci ildə 179 məntəqədən ibarət olan Şamaxı qəzasında 1 şəhər, 7 poçt və teleqraf məntəqəsi, 157 kənd və 14 oba var idi. Qəzada 15.826 ev qeydə alınmışdır. Bu evlərdən 4.972 - si şəhərdə, 9.488 - si kəndlərdə, 1.359-u obalarda, 7 - si isə poçt və teleqraf məntəqələrində yerləşirdi. 1893 - cü ildə mərkəzi Şamaxı şəhəri olan qəza 3 bölgədən, 99 icmadan, 209 yaşayış məntəqəsindən, 14.088 evdən ibarət idi. Qəzada 51.789 nəfər kişi, 42.591 nəfər qadın olmaqla, cəmi 94.380 nəfər əhali yaşayırdı. Şəhər əhalisinin ümumi sayı 22.139 nəfərə çatmışdı [16].

XIX əsrin axırlarında şəhərdə 15 məhəllə olmuşdur: Ərəblər, Ərdəbilli, Dərə məhəllə, Cuhud məhəlləsi, İmamlı məhəlləsi, Qala Bazar, Kürd, Meydanlı, Sarı Torpaq, Talış, Ucarlı, Şeyx Zahirli, Şeyx Namaz, Şapirli və Yuxarı Qala. Hər məhəllə öz növbəsində müxtəlif küçə və dalanlara ayrılırdı.

**Cədvəl 4**

**1897 - ci il ilə 1886 - ci il əhali siyahıyaalmalarının müqayisəsi**

| Quberniya, şəhər və qəzalar | Əhalinin sayı | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 1886-cı il ailə siyahıyaalması | | | | 1897-ci il bir günlük siyahıyaalmaları | | | |
| | kişi | qadın | Hər iki cins | 100 kişiyə qadın | kişi | qadın | Hər iki cins | 100 kişiyə qadın |
| **Bakı quberniyası – cəmi** | 401257 | 311446 | 712703 | 78 | 437779 | 351880 | 789659 | 80 |
| **Şəhərlər** | | | | | | | | |
| Bakı | 54823 | 31788 | 86611 | 58 | 67148 | 45105 | 112253 | 67 |
| Quba | 7784 | 6133 | 13917 | 79 | 8113 | 7233 | 15346 | 89 |
| Lənkəran | 2261 | 1961 | 4222 | 87 | 4682 | 4086 | 8768 | 87 |
| Şamaxı | 13286 | 8853 | 22139 | 67 | 10456 | 9558 | 20008 | 91 |
| **Cəmi** | **78154** | **48735** | **126889** | **62** | **90393** | **65982** | **176375** | **73** |
| **Qəzalar** | | | | | | | | |
| Bakı | 29925 | 24876 | 54801 | 83 | 37272 | 28081 | 65353 | 75 |
| Göyçay | 41497 | 35147 | 76644 | 85 | 59507 | 50156 | 109663 | 84 |
| Cavad | 52113 | 42574 | 94687 | 82 | 48798 | 36267 | 85065 | 74 |
| Quba | 86724 | 73460 | 160184 | 85 | 88662 | 77507 | 166169 | 87 |
| Lənkəran | 61055 | 44063 | 105118 | 72 | 57050 | 46382 | 103432 | 81 |
| Şamaxı | 51789 | 42591 | 94380 | 82 | 56097 | 47505 | 103602 | 85 |
| **Cəmi** | **323103** | **262711** | **585814** | **81** | **347386** | **285898** | **633284** | **82** |

**Mənbə:** [18, s.24-25]

Beləliklə, illər üzrə Rusiya imperiyası Azərbaycanın ərazilərinin işğalından sonra Şamaxı şəhərinin inkişaf dinamikasını izləsək, onu inkişaf səviyyəsinə görə bir neçə mərhələyə bölmək olar: Şamaxının quberniya mərkəzinə çevrilməsinə qədərki dövrü, quberniya mərkəzi dövrü, qəza mərkəsi dövrü. Bu mərhələlər arasında tək yüksəliş dövrü quberniya mərkəzi statusu daşıdığı dövrdür. Ondan əvvəl və sonrakı dövrlərə aid rəqəmlər şəhərin ciddi durğunluq yaşadığını, bunun isə burada yaşayan əhalinin say dinamikasına da ciddi təsir etdiyini göstərir. Quberniya mərkəzi statusunu itirməsilə inkişafında da durğunluğun yarandığını qeyd edə bilərik.

Həmçinin müharibələrə, işğallara, dağıntılara və təbii fəlakətlərin törətdiyi itkilərə baxmayaraq Şamaxı şəhəri həmişə strateji məkan kimi qonşu dövlətlərin diqqət mərkəzində olmuşdu. Şamaxının ipək yolu üzərində yerləşməsi şəhərin iqtisadi inkişafı üçün əlverişli şərait yaratmış, baş verən güclü zəlzələlər, müharibələr Şamaxının iqtisadi inkişafına və əhalinin sayına təsirsiz keçməmişdir.

**Nəticə:** 1805 - ci ilin sonlarında müqavimət göstərən Şamaxı xanlığı daxili müstəqilliyi saxlanılmaqla Rusiya imperiyasının tərkibinə qatılır. 1820 - ci ildə çar Rusiyası Şamaxı xanlığını tamamilə ləğv edir. 1846 - cı ildə isə Şamaxı şəhəri quberniya mərkəzinə çevrilir. Onu da qeyd etmək lazımdır ki, XIX əsrdə bu bölgədə baş verən inzibati-ərazi dəyişiklikləri əhalinin say tərkibinə də ciddi təsir göstərmişdir.

Təsadüfi deyil ki, 1850 - ci ildən 1893 - cü ilədək Şamaxı şəhərinin əhali sayındakı fərq təxminən 2.000 nəfər idi. Həmin vaxt mərkəzi Şamaxı şəhəri olan eyni adlı qəzada 3 bölgə, 99 icma, 209 yaşayış məntəqəsi, 14.088 ev var idi. Qəzada 51.789 nəfər kişi, 42.591 nəfər qadın olmaqla, cəmi 94.380 nəfər əhali yaşayırdı ki, bunun da 22.139 nəfəri şəhər əhalisinin payına düşürdü [16]. 1886 - cı ildə Şamaxı bölgəsində əhalinin sayı 116.519 nəfər təşkil edirdisə, 1897 - ci ildə əhalinin say tərkibi 123.610 nəfər olmuşdur. 1897 - ci il ilə 1886 - ci il əhali siyahıyaalmalarının müqayisəsi nəticəsində belə məlum olur ki, əhalinin say tərkibi 7.091 nəfər artmışdır.

***Ədəbiyyat siyahısı:***

*1. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. İki cilddə, II cild, Şərq-Qərb nəşriyyatı, Bakı, 2007,304 səh.*
*2. Şamaxı ensiklopediyası. Bakı, 2015, 432 səh.*
*3. İbrahimov Kamil. Şamaxı şəhərinin tarixi. Bakı,"Şamaxı ensiklopediyası", 2015, 432 səh.*
*4. Бутков П. Материалы для новой истории Кавказа с 1722 по 1803 год. Часть вторая. Санкт- Петербург, 1869. Типография императорской Академии Наук, 602 стр.*
*5. Azərbaycan Milli Elmlər Akademiyası-http://tarixinstitutu.az/page /100/ shamakhi*
*6. Броневский С. Новейшие географические и исторические известия Кавказа. Москва, 1823, часть вторая. Типография С.Селивановского, 465 стр.*
*7. Azərbaycan tarixi. Yeddi cilddə. IV cild (XIX əsr). Bakı,"Elm" nəşriyyatı,2007,504 səh+48 səh. illüstrasiya.*
*8. İbişov Salman. Quba xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat). Bakı, "Bakı Universiteti Nəşriyyatı", 2004, 208 səh.*
*9. Umudlu Vidadi. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). Bakı, Elm, 2004, 183 s.*
*10. Piriyev Vaqif. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı,"Müəllim" nəşriyyatı, 2006, 150 səh.*
*11. О народонаселении России по губерниям и уездам: LXII. Шемахинская губерния // Девятая ревизия. Исследование о число жителей в России 1851 году Петра Кеппена. Санкт-Петербург: В Типографии Императорской Академии наук, 1857 год, 309 стр.- file:///C:/Users/HP/Downloads/devyataya_reviziya_ issledovanie_o_chisle_jitelei_v_rossii_v_1851_godu.pdf*
*12. Dəhşətli Şamaxı zəlzələləri- https://axar.az/news/layiheler/347364.html*
*13. Кавказский календарь на 1848 год. В типографии канцелярии наместника*

*Кавказского. Тифлис, 1847 год, 166 с.*
*14. Əsədova K. XVIII-XIX əsrlərdə Rusiya tarixşünaslığında Şirvan bölgəsinin etnoqrafik cəhətdən öyrənilməsi - http://agsunews.az/index.php*
*15. Списки населенных мест Российской империи. По Кавказскому краю. LXV. Бакинская губерния. Составлен главным редактором Комитета Н. Зейдлицем. По сведениям 1859 по 1864 год. В типографии главного управления наместника Кавказского, Тифлис, 1870 год, 103 с.*
*16. Əsədli B. Şamaxı quberniyası//https://zardob.blogspot.com/2020/07/shamaxi-quberniyasi.html*
*17. Кавказский календарь на 1850 год. Тифлис. В типографии канцелярии наместника Кавказского, 407 стр. Кавказский календарь 1870 год. Изданный Главным Управлением наместника Кавказского. Тифлис, 1869 г., 714 стр; Кавказский календарь 1878-1879 гг. на 1878 г., 597 стр;. на 1885-1886 год. 453 стр.; Кавказский календарь на 1900 год. Тифлис. Типография, М.Шарадзе, 1899, 1899-1900 год, 778 стр.*
*18. Fariz Xəlilli. S.Ə.Şirvani adına Şamaxı Tarix-diyarşünaslıq muzeyi. Bakı, 2009, 246 səh.*
*19. Первая Всеобщая перепись населения Российской империи 1897 года. (Губернские итоги). Т.Т.1-89. СПб.:1903-1905http://www.demoscope.ru /weekly /ssp /rus_ gub _97 .php ?reg=61; Под ред. Н. А. Тройницкого. - [СПб.], 1897 - 1905. [Вып. 1,2,5]: Население городов по переписи 28-го января 1897 года: по уездам. - 1897. - 30 с.; 42 с.; 48 с. - В подзаг. Сост. Центр. стат. ком. на основании местных подсчетных ведомостей.*
*20. Məmmədova A.Ə. Qarabağ xanlığının əhalisinin say dinamikası və etnik tərkibi (XVIII əsrin II yarısı-XIX əsrin I rübündə). Dünya azərbaycanlıları: tarix və müasirlik (Elmi-nəzəri toplu), VII buraxılış, Bakı, "Füyuzat" nəşriyyatı, 2020, 222 səh.*
*21. Hüseynov Yunis. Qarabağ. Bakı, "Afpoliqraf" nəşriyyatı, 2018, 336 səh.*
*22. Мильман А.Ш. Политический строй Азербайджана в XIX- начале XX веков. Баку: Азербайджанское Государственное Издательство, 1966, 320 стр.*
*23. Rusiya imperiyası dövrü - https://bakucity.preslib. az/az/page/L1hHK9Px2g)*
*24. AMEA A.Bakıxanov adına Tarix İnstitutunun Elmi əsərləri. cild 28. Bakı, 2009.- http://tarixinstitutu.az/page/100/shamakhi-*

***Rəyçi: Asəf Hacıyev***
*BDU,Tarix fakültəsi, t.f.d.*

**UOT 94 (479.24)**

# "QARABAĞ AZƏRBAYCANDIR" DAVASININ QƏHRƏMANLARINDAN BİRİ - XOSROV BƏY SULTANOV
***(tarixi yaddaş)***

**Səidə Əli qızı**
*BDU, Tarix fakültəsi, dosent*
*saidaalikizi@mail.ru*

*Məqalə Azərbaycanın II Qarabağ müharibəsi naticəsində (2020-ci il) 30 ilə yaxın bir müddət ərzində erməni işğalında olan Qarabağ torpaqlarının azad edilməsi kontekstində XX əsrin əvvəllərində Azərbaycanda milli - azadlıq hərəkatının fəal iştirakçılarından biri, ictimai - siyasi və dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin üzvü, 1919 – 1920 - ci illərdə Qarabağın general - qubernatoru olmuş Xosrov bəy Paşa bəy oğlu Sultanovun erməni millətçiliyi ilə apardığı qəhrəmanlıq mübarizəsinə həsr olunmuşdur.*

***Açar sözlər:*** *"Qarabağ Azərbaycandır!", milli qırğın, erməni millətçiliyi, general - qubernator, Əsgəran döyüşü, ərazi bütövlüyü, fikir və təkliflər, mühacirət.*

## *ONE OF THE HEROES OF THE «KARABAKH IS AZERBAIJAN! » ACTION KHOSROW BEG SULTANOV*

*The paper is dedicated to the heroic struggle against armenian nationalism of Khosrow beg Sultanov who was one of the active participants of the National Liberation Movement in the early 20th century, also social-political, statesman, member of ADR government and general of Qarabakh General-Gubernator (1919-1920 years) on the context of liberation of Karabakh land as result of the Second Karabakh War which occupied by armenians for almost 30 years.*

***Keywords:*** *"Karabakh is Azerbaijan!", national genoside, armenian nationalism, general-gubernator, The Asgharan Battle, territorial intergrity, thought an offers, migrations.*

*Tarix nədir? Elmdirmi, yoxsa həyatın özü?*
*Bu sualın cavabın mən də bilmirəm düzü.*
*Bəlkə də insanlığın həyat yolunun sözü?*
*Bəlkə də Yaradanın bizləri görən gözü?*

*Adını tarix qoyub, bəzən zaman dedilər,*
*Bəzən olmuş hekayə, bəzən məkan dedilər.*
*İnsanlıq tarixidir, məncə, başqa adı yox,*
*Tərifləri nə qədər olsa da müxtəlif, çox.*

*Tarix ibrət, tarix dərs, tarix qan yaddaşıdır,*
*Bəşəriyyət, kainat, insanlığın yaşıdır.*
*Tarix elə Vətəndir, Vətənlə tarix eyni,*
*Bunları ayrılıqda qavramaz insan beyni.*

*Keçmişdən bəhs etsə də, amma tarix canlıdır,*
*Bəzən çox dəliqanlı, bəzən də çox şanlıdır.*
*Unutmaq olmaz onu, tarix yaşamalıdır,*
*Tarix gələcək üçün bir yaşam amalıdır.*

*Uzun müddət tarixim qopmuşdu soy kökündən.*
*Heç qurtara bilmirdi bolşevizm yükündən.*
*İdeoloji basqı sındırmışdı belini,*
*Az qala kəsəcəkdi Vətən deyən dilini.*

*Tanrı gəldi köməyə, dağıtdı tifaqını,*
*Millətlərin məhbəsi Sovet İttifaqını.*
*Tarixim Vətənimtək müstəqillik qazandı,*
*Azad bir yola çıxdı, suverenlık qazandı.*

*Yasaqlar, qadağalar götürüldü aradan,*
*Sovetin bütün izi təmizləndi buradan.*
*Tarixin üzü döndü doğma Vətənə sarı,*
*Keçmişdəki səhvini təkrar etməyə barı.*

*Nəsillərə ibrət ol, dərs ol, gələcək üçün,*
*Düşmənə, saxtakara tərs ol, gələcək üçün.*
*Ədalətin sükanın heç vaxt vermə əlindən.*
*Obyektivlik meyarı düşməsin qələmindən.*
***Səidə Əli qızı***

**Giriş.** Azərbaycan xalqı həqiqətən də yenidən öz müstəqilliyini qazandıqdan sonra tariximizin üzü doğma Vətənə sarı döndü. Xalqımız, ziyalılarımız, tarixçilərimiz uzun illər ideoloji basqılara məruz qalan, uydurma və yalançı konsepsiyaların, saxtakarlıqların, təhriflərin əsirinə və qurbanına çevrilən tariximizə və tarix elmimizə sahib çıxdı. Ümummilli lider Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra onun həyata keçirdiyi Dövlətçilik və Azərbaycançılıq siyasətinin başlıca istiqamətlərindən biri də məhz Azərbaycan tarixinin, xalqımızın dövlətçilik tarixinin, milli - azadlıq hərəkatı tarixinin və bu hərəkatda iştirak etmiş tarixi şəxsiyyətlərimizin fəaliyyətinin və yaradıcılığının yenidən və dərindən, obyektiv şəkildə öyrənilməsi zərurətinin önə çəkilməsi olmuşdu. Bu gün möhtərəm Prezident İlham Əliyev də bu siyasəti uğurla davam etdirir.

**Tarix təkrar olunur**. Tarixini bilməyən xalq ölümə məhkumdur, çünki tarix ibrətdir, tarix həyat dərsidir, tarix millətin və dövlətin gələcək üçün siyasi yol xəritəsidir. Bunu 2020 - ci ilin payızında öz tarixi torpaqlarını erməni işğalçılarının tapdağından azad etmək uğrunda Azərbaycan xalqının

Respublikamızın Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin pəhbərliyi ilə apardığı II Qarabağ müharibəsi və əldə etdiyimiz misilsiz Zəfər də bir daha təsdiq etdi. Tarixinə söykənən xalq güclüdür, yenilməzdir!

XX əsrin 90 - cı illərinin əvvəllərində SSRİ - nin süqutu şəraitində sovet rəhbərliyi və erməni daşnakları tərəfindən ortaya atılmış "Dağlıq Qarabağ problemi" xalqımızın minlərlə qəhrəman oğullarının Qarabağ davasında şəhid olması, yaralanması, 1 milyondan artıq soydaşımızın doğma yurd - yuvasından qaçqın düşüb, görünməmiş əzab və məşəqqətlərə məruz qalması ilə nəticələnmişdi. 30 il davam edən işğal, bütün erməni fitnəkarlıqlarına, Qərb ölkələrinin və onların ikili siyasət həyata keçirən beynəlxalq təşkilatlarının antiazərbaycan siyasətinə baxmayaraq, xalqımızın və Prezidentimizin əzmi və qəhrəmanlığı sayəsində sona çatdı. Xalqımız II Qarabağ davasında tarixi Qarabağ torpaqlarını düşməndən azad etdi və Vətənimizin ərazi bütövlüyünü təmin etdi.

XIX əsrin əvvəllərindən başlayaraq Rusiya hakimiyyəti tərəfindən Cənubi Qafqazda və Azərbaycan torpaqlarında məskunlaşdırılan ermənilərin Qarabağa olan iddiaları bu gün, dünən deyil, yüz illərlə bundan öncə irəli sürülmüşdür. XIX əsrin sonları – XX əsrin əvvəllərində Osmanlı imperiyasının ərazilərindən Cənubi Qafqaza köç edən ermənilər və onların yaratdıqları millətçi – terrorçu partiyalar buranın türk - müsəlman əhalisinə qarşı müxtəlif fitnə - fəsadlar, qətliamlar, soyqırımlar törətməyə başlamışdılar. Rusiyanın hakim dairələrindən dəstək alan ermənilər sonrakı onilliklərdə də vaxtaşırı türk - müsəlmanlara, azərbaycanlılara qarşı qanlı qırğınlar həyata keçirirdilər.

1918 - ci ilin mart soyqırımından sonra da, Azərbaycan Xalq Cümhuriyyəti dövründə ermənilərin Qarabağda, İrəvan quberniyasının ərazisində, Naxçıvanda və digər yerlərdə azərbaycanlılara qarşı fitnə - fəsadları davam edirdi.

1918 - ci ilin yayında və payızında erməni daşnakı Andranik Cənubi və Şimali Azərbaycanda, Türkiyənin, Gürcüstanın bir çox yerlərində soyqırımlar və faciələr törətdikdən sonra öz qoşunlarını aşağı Zəngəzurda cəmləşdirmişdi. Bunda məqsəd Zəngəzurla Aran Qarabağı birləşdirmək, Stepan Şaumyanın planına uyğun olaraq Azərbaycan türklərini bir yolluq məhv etməklə dənizdən-dənizə böyük ermənistan yaratmaq idi. Bu plan çoxdan hazırlanmışdı və erməni kilsəsindən idarə edilirdi. Tarixən Qarabağ xanlığına, Gəncə, Təbriz bəylərbəyliyinə daxil olan Zəngəzur parçalanmışdı, Arazdan cənuba olan torpaqlar Tehrana tabe idi, yuxarı hissə isə iki - üç hissəyə bölünmüşdü və Yuxarı Zəngəzura Hacısamlı dərəsi adı verilmişdi. Yeri gəlmişkən deyək ki, Xosrov bəyin qardaşı Sultan bəy Hacısamlı sahəsinin bəyi idi. O bütün erməni vəhşiliklərinin bilavasitə şahidi olmuşdu [9, s. 52-53].

Cümhuriyyət hökuməti ermənilərin Azərbaycana qarşı bu mənfur planlarının qarşısını almaq üçün məcburiyyət qarşısında 1919 - cu ilin yanvarında Qarabağda müvəqqəti idarəçilik rejimi – Qarabağ General Qubernatorluğu,

həmin ilin fevralında isə Naxçıvan General Qubernatorluğu yaratmışdı. Qarabağ General Qubernatoru vəzifəsinə 1919 - cu il yanvarın 29 - da Xosrov bəy Sultanov təyin edilmişdi [2, s. 128-129]. 1918 - 1920 - ci illərdə ermənilərin Qarabağ iddiaları ilə mübarizə aparan, "Qarabağ Azərbaycandır!" davasının ən fəal qəhrəmanlarından biri olan Xosrov bəy Sultanov kimdir?

Xosrov bəy Sultanov 1879 - cu il may ayının 10 - da Zəngəzur mahalının Kürdhacı kəndində anadan olmuşdur. Gəncə gimnaziyasını bitirdikdən sonra təhsilini Novorossiysk (Odessa) universitetinin Tibb fakültəsində davam etdirmiş və 1903 - cü ildə oranın məzunu olmuşdur. Azərbaycana qayıtdıqdan sonra həkimlik edərək Zəngəzur və Qarabağda topladığı zəngin bitkilərdən hazırladığı dərmanlarla kəndlərə gedib xəstələri təmənnasız müalicə etmişdir. Vətənini dərindən sevən, onun tarixinə, ədəbiyyatına və mədəniyyətinə sonsuz məhəbbətlə yanaşan və bunları təbliğ edən Xosrov bəy Şuşadakı evlərindən birini "Şərq kitabxanası" adlandırmış, xalqının maariflənməsi üçün əlindən gələni etmiş, hətta quberniya işçilərinə Şərq xalqlarının tarixindən və mədəniyyətindən mühazirələr belə oxumuşdur [2 , s. 357].

X.Sultanov 1917 - ci ildə "Müsavat" partiyasına daxil olmuş, Rusiya Müəssislər Məclisinə deputat seçilmişdir. O həmçinin Zaqafqaziya Seyminin üzvü olmuşdur [yenə orada].

Xosrov bəyin həyatının və fəaliyyətinin ən məsuliyyətlı və məhsuldar dövrü 1918 – 1920 - ci illərdir. 1918 - ci ildə Zaqafqaziya Seymi buraxıldıqdan sonra Azəbaycanın müstəqilliyi məsələsi gündəmə gəldikdə X.Sultanov bü mübarizənin ən fəal və öndə gedən iştirakçılarından biri olub, mayın 27 - də yaradılan Milli Şuraya üzv seçilmiş, 1918 - ci il mayın 28 - də Azərbaycanın İstiqlalını elan edən Bəyannaməni imzalayan 26 nəfərdən biri olmuşdur. Elə həmin gün yaradılan I hökumət kabinəsində ona hərbi nazır vəzifəsi tapşırılmışdı.

1918 - ci ilin iyunundan Tiflisdə fəaliyyət göstərən Azərbaycan hökumətinin Gəncəyə köçməsi ilə bağlı ilkin hazırlıq işlərinin aparılması üçün Xosrov bəy Sultanov, Nəsib bəy Yusifbəyli və Rüstəm bəy Şəfibəyli ilə birlikdə, Gəncəyə gedərək lazımi tədbirləri həyata keçirmişdilər. X.Sultanov 1918 - ci il iyunun 17 - də artıq Gəncədə təşkil olunmuş II hökumət kabinəsində əkinçilik naziri kimi fəaliyyət göstərmişdir [2, s. 357].

Xosrov bəy 1918 - 1920-ci illərdə Qarabağın və Zəngəzurun daşnak-erməni quldur dəstələrindən təmizlənməsində qardaşı Sultan bəylə birlikdə müstəsna xidmət göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Ermənistanın daşnak hökumətinin 1918 - ci ilin yayından başlayaraq Zəngəzur bölgəsində azərbaycanlılara qarşı dövlət səviyyəsində həyata keçirdiyi soyqırım siyasətinin, Andranikin, Njdenin, Dronun quldur dəstələrinin Cavanşir, Cəbrayıl, Şuşa qəzalarında törətdiyi kütləvi soyqırımlarının, qətliamların, vəhşiliklərin, qarətlərin qarşısını almaq məqsədilə Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarını Gəncə

quberniyasından ayırıb, Müvəqqəti Qarabağ general - qubernatorluğu yaratmaq məcburiyyətində qalmışdı [yenə orada].

O zaman Bakıda olan ingilis qoşunlarının baş komandanı general Tomson 1919 - cu il yanvarın 15 - də Xosrov bəy Sultanovun Qarabağ general - qubernatoru təyin edilməsinə öz razılığını bildirmişdi.

Dövrə aid olan mənbələrin verdiyi məlumata görə, 1919 - cu il yanvarın 29 - da Azərbaycan hökumətinin keçirdiyi iclasda “Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarına general - qubernator təyin edilməsi haqqında DİN - nin məruzəsi dinlənilmiş və aşağıdakı qərarlar qəbul edilmişdi:

1. Xosrov bəy Sultanov general - qubernator təyin edilsin;

2. Nazirliyin 20 milyonluq fondundan general - qubernatorluğun ehtiyacları üçün 5 milyon manat ayrılsın” [10].

Azərbaycan hökuməti qeneral - qubernator X.Sultanovun qarşısında aşağıdakı vəzifələri qoymuşdu:

1.Erməni separatizmi ilə mübarizə və onun aradan qaldırılması;

2.Sabitliyin bərpası;

3.Yerli hakimiyyət strukturlarının yaradılması;

4.Qaçqınların öz daimi yaşayış yerlərinə qaytarılması və s.

Göründüyü kimi, bu çətin vəzifələrin həyata keçirilməsi o zamankı fövqəladə vəziyyətdə bir o qədər də asan deyildi. Odur ki, Xosrov bəy Qarabağ general - qubernatoru kimi vəzifəsinin icrasına başlarkən ilk əvvəl xalqa müraciət edərək başçılıq edəcəyi qurumun fəaliyyəti haqqında xalqa məlumat verir. Bu müraciət 1919 - cu ilin fevralın 11 - də “Azərbaycan” qəzetində dərc olunmuşdu və “Müvəqqəti general - qubernator X.Sultanovun Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzalarının əhalisinə müraciəti” adlanırdı. Müraciətdə deyilirdi: “Azərbaycan hökumətinin yanvar ayı qərarı ilə Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzaları xüsusi general - qubernatorluğa ayrılmışdır. Bu fövqəladə tədbirlər fövqəladə vəziyyətdən irəli gəlmişdir. Azərbaycanın təqribən yarısı onun ən yaxşı hissəsi – 4 qəza – artıq bir ilə yaxındır ki, anarxiya ucbatından dağılır. Şəxsi firavanlığı yüksək ideal sayan məsuliyyətsiz elementlərin rəhbərliyi altında olan bandalar diyarı viranə qoyur, kəndləri yandırır, əhalini qırır, on minlərlə yurdsuz - yuvasız qadın və uşaq qaçqın düşmüşdür, yuxarıda göstərilən elementlər milli ədavət yayırlar. Əhalidən ümumi siyasi vəziyyət gizlədilir. Bu şəxslər öz şəxsi mənafelərini güdür, öz cəhdlərini partiya ideya forması donuna salırlar.

Öz həyatını xalqa xidmətə sərf etmiş ictimai xadim kimi mən milli mənsubiyyətindən asılı olmayaraq hamıya eyni münasibət göstərməyi, ciddi ədalət və qanunçuluq mövqeyində dayanmağı hakimiyyətin borcu sayıram. Azərbaycanın müstəqilliyi, ərazi toxunulmazlığı, şəxsiyyətin ciddi məsuliyyəti və əmlak toxunulmazlığı – diyarın həyatı bu əsaslar üzərində qurulacaqdır” [3].

Müraciətin mətnindən də məlum olur ki, X.Sultanov öhdəsinə qoyulmuş vəzifənin icrasına başlarkən Qarabağda vəziyyət son dərəcə acınacaqlı

idi, milli münaqişələr, hərc - mərclik, ermənilər tərəfindən azərbaycanlıların qətliamı baş alıb gedirdi. Arxiv sənədlərinin verdiyi məlumata görə hələ təkcə 1917 - ci ildə Zəngəzur qəzasında 109, Qarabağda 117 kənd qismən dağıdılmış, Ümumazərbaycan üzrə isə (Lənkəran qəzası ıstisna edilməklə) 60 yaşayış məskəni tamamilə məhv edilmiş, 388-i qismən zərər çəkmiş, yandırılmış və viran qoyulmuş təsərrüfatların sayı 5.140 - a çatmışdı [4].

X.Sultanovun 1919 - cu ilin 15 - 17 fevral tarixlərində bölgənin qəza rəisləri və ictimai xadimləri ilə keçirdiyi müşavirədə qeyd olunmuşdu ki, indiyədək Zəngəzurda 166 kənd dağıdılmış, bu kəndlərin əhalisinin 30 faizi məhv edilmişdir. Müşavirə Andranikin quldur dəstələrinin Qarabağ bölgəsindən tamamilə və qətiyyətlə çıxarılması haqqında qərar qəbul etmişdi.

Bütün bunlardan xəbərdar olan erməni daşnakları ciddi narahatlıq keçirir və məhz Xosrov bəy Sultanovun general - qubernator təyin edilməsi isə onların xüsusi etirazına səbəb olur. İngilis generalı Tomsonun Qarabağ general - qubernatorluğunun yaradılması ilə əlaqədar 1919 - cu ilin martın sonu – aprelin əvvəllərində İrəvanda keçirdiyi müşavirədə ermənilər, xüsusilə də daşnak Xatisyan öz ciddi narazılıqlarını bildirmişdilər. General Tomson da onları sakitləşdirmək üçün məlumat vermişdi ki, X.Sultanov ingilis zabiti Mak - Mossenə tabe olacaqdır. Qeyd edək ki, hətta Ermənistan hökuməti həm general - qubernatorluğun yaradılmasına, həm də X.Sultanovun təyinatına açiq - aşkar ciddi surətdə etiraz etmişdi. O dövrdə Ermənistanın xarici işlər nazırı olan S.Tiqranyan, hələ general - qubernatorluq heç fəaliyyətə başlamamış, 1919 - cu ilin yanvarında Azərbaycan hökumətinə teleqram göndərərək, ərazi iddiaları irəli sürməklə yanaşı, X.Sultanovun təyinatına da etiraz etmişdi [10].

Buna cavab olaraq həmin dövrdə AXC - nin xarici işlər naziri vəzifəsini icra edən Adil xan Ziyadxan 1919 - cu il yanvarın 31 - də Ermənistan hökumətinə 178 saylı teleqram göndərib, Zəngəzur və digər bölgələrin Azərbaycanın tərkib hissəsi olduğunu xatırlatmış və həm də əsaslandırmışdı (yenə orada).

Xosrov bəy Sultanov 1919 - cu ilin fevralında Şuşaya gələn kimi Qarabağda daşnak Andranik başda olmaqla erməni quldur dəstələrilə amansız mübarizəyə başladı. Onun göstərişi ilə azərbaycanlı əhalini qorumaq üçün təhlükəli yerlərdə milli ordunun əsgərlərindən mühafizə dəstələri yaradıldı.

Həmin dövrdə, 1919 - cu ildə keçirilən Novruz bayramında erməni - daşnak hərbi dəstələri Qarabağa yeganə keçid olan Əsgəranı zəbt etmişdilər. Amma daşnak generalı Dronun hərbi dəstələri Xosrov bəyin başçılıq etdiyi Azərbaycan əsgərləri tərəfindən may ayının 30 - da darmadağın edilmiş, Xankəndi və Şuşa düşməndən azad edilmişdi.

Nəticədə erməni Milli Şurası üzvlərinin Azərbaycandan qovulmasına nail olundu. Ermənilər buna cavab olaraq Şuşada silahlı toqquşmalar törətsə də, iyunun 6 - da sülh əldə olunmuş, Şuşanın erməni əhalisi Xosrov bəyə üzrxahlıq məktubu yazaraq, erməni separatçılarının fitnəkarlığına görə həm ondan, həm də Şuşanın müsəlman camaatından üzr istədiklərini bildirmişdilər

[2, s. 357].

X.Sultanovun başçılığı ilə 1919 - cu ilin iyununda keçirilən növbəti hərbi əməliyyat nəticəsində Şuşaya gizli yolla silah daşıyan ermənilər və onların milli Şurasının üsvləri həbs edilərək, Qarabağ ərazisindən qovulmuşdu.

X.Sultanov 1920 - ci ilin aprel ayının sonlarına qədər davam edən general - qubernatorluğu dövründə Qarabağ uğrunda millətin davasına rəhbərlik etmiş, erməni quldurlarının bu bölgədən çıxarılması, əmin-amanlığın bərqərar olması üçün, sözün həqiqi mənasında böyük qəhrəmanlıqlar göstərmişdi.

Göründüyü kimi, cəmi 23 aylıq mövcudluğu dövründə Azərbaycan Xalq Cümhuriyyətinin daxılı və xarici siyasətində ən əsas məsələlərdən biri və bəlkə də birincisi ölkənin ərazi bütövlüyünün qorunması idi. Ərazi bütövlüyü ilə əlaqədar yaranan problemlərdən isə ən mürəkkəbi Dağlıq Qarabağla bağlı idi.

**Qarabağ məsələsinin həlli ilə bağlı Xosrov bəy Sultanovun təklifləri.** Ölkənin hərbi - diplomatik dairələrində həmin problemin həlli yolları və vasitələrinə dair müxtəlif qənaət və mövqelər ortaya çıxmışdı. Bunların arasında AXC - nin ilk hərbi naziri və Qarabağın general - qubernatoru olan Xosrov bəy Sultanovun mülahizə və təklifləri çox maraqlı və dəyərli olduğu üçün diqqətəlayiqdir. Həmin fikir və təkliflər Xosrov bəyin AXC hökumətinə "Qarabağda ingilis siyasəti ilə əlaqədar olaraq yaranmış vəziyyət və onun düzəldilməsi üçün zəruri tədbirlər" adlı məruzəsində, habelə Bakıdakı ingilis qoşunlarının komandanı, polkovnik Şatelvortla 1919 - cu il iyunun 25 - də Qarabağ məsələsinə dair apardığı müzakirələrdə səslənmişdi [8].

Xosrov bəyin təklifləri problemin ayrı - ayrı məqamlarını daha dərindən başa düşməyə imkan verir. Bu həm də XX əsrin sonlarında başlayan və Azərbaycanın 44 günlük II Qarabağ müharibəsində misilsiz qələbəsinə baxmayaraq hələ də davam edən Ermənistan - Azərbaycan münaqişəsinin reallıqları və perspektivləri baxımından ibrətamizdir. Odur ki, onları nəzərdən keçirməyi məqsədəuyğun hesab edirik.

Əvvəla bu təkliflərdə X.Sultanov Qarabağ General - qubernatorluğuna daxil olan bölgələrin, xüsusilə də Zəngəzurun Azərbaycan üçün geosiyasi önəmini dəyərləndirirdi. Onun fikrincə, Qarabağın itirilməsi Naxçıvan və Ordubadın, ümumiyyətlə isə bütün Azərbaycanın itirilməsi demək olardı. Bununla Bakı ilə Gəncə arasında möhkəmlənən ermənilər dövlətimizin mövcudluğunu təhlükə altına qoya bilərdilər.

Daha sonra Xosrov bəy Şatelvortla söhbətdən belə bir nəticəyə gəlmişdi ki, ingilislərin guya bizə münasibətdə qərəzsizlik və xeyirxahlıq göstərib Qarabağ məsələsində bitərəf mövqe tutmaları əslində problemin həllini yubatmış və sayıqlığımızı azaltmışdır. Belə hal isə Azərbaycan üçün əlverişsiz şərait yaratmış və ermənilərin xeyrinə olmuşdur, üstəlik də Şərurun,

Naxçıvanın və Qarsın ermənilərə verilməsi elan edilmişdir (bu bəndi oxuyanda istər - istəməz ATƏT və onun Qarabağ məsələsini həll etmək üçün yaratdığı Minsk qrupunun "fəaliyyəti" yada düşür).

General - qubernator ingilislərin Qarabağ məsələsində öz üzərlərinə götürdükləri öhdəliklərə əməl etməmələrini (xüsusilə də Zəngəzurda hakimiyyəti AXC-yə deyil, erməni Milli Şurasına verdiklərini) xüsusi vurğulayaraq, bu vəziyyətin ermənilərin daha da fəallaşmasına təkan verdiyini açıqlamışdı.

O yerli şəraitə yaxşı bələd olan bir adam kimi vəziyyətdən çıxış yolu olaraq təklif etdiyi, təcili həyata keçirilməli olan tədbirləri və onlar ləngidilərsə və ya qəbul edilməzsə nə olacağını da dilə gətirir və öz qənaətlərini bildirirdi. Onun fikrincə:

- Qarabağ - Zəngəzur məsələsinin həllində ingilislərin köməyindən qəti imtina edilməlidir, çünki onlar bu işdə bizə yalnız maneçilik törədirlər;
- Ermənilərə qarşı məcburedici tədbirlər görülməzsə, ermənilər Azərbaycan hökumətinə tabe olmayacaqlar;
- bu məsələni bir ay da həllsiz qoymaq əhalini hökumətin gücsüzlüyünə inandırmaq, müsəlman hissəsində anarxiyaya səbəb olmaq və bölgədən həmişəlik əlini üzmək deməkdir.

Xosrov bəy Sultanov təcili həyata keçirilməli olan tədbirləri də göstərirdi. Onun fikrincə təxirə salınmadan Zəngəzura hərbi hissələr yeridilməli və ermənilərin İrəvandan Azərbaycana hərəkətinin qarşısı alınmalıdır; Dağlıq Qarabağ ermənilərinə Azərbaycan hakimiyyətini altı günə tanımaq barədə ultimatum verilməlidir; bütün ermənilərə müsəlman rayonlarını tərk etmələri təklif olunmalıdır (Şuşa şəhəri üçün istisna ediləcəyi bildirilməklə); Azərbaycan hökumətini tanımayacaqları təqdirdə altıgünlük möhlət bitəndən sonra hərbi əməliyyatlara başlanılmalıdır. General - qubernator belə hesab edirdi ki, əgər bu təxirəsalınmaz tədbirlər görülməzsə, ermənilər Zəngəzurdan irəliləyib Dağlıq Qarabağdakı daşnak silahlı qüvvələri ilə birləşərək müsəlmanların yaşadıqları bölgələrdə anarxiya yaradarlar ki, bu da Qarabağın itirilməsi təhlükəsi deməkdir.

General - qubernator xülasə olaraq bildirirdi ki, ingilis siyasəti nəticəsində Qarabağ məsələsinin həlli ləngidilmiş, Zəngəzur və Qarabağ ermənilərinin Azərbaycan hakimiyyətini dinc yolla tanımaları təmin olunmamış, nəticədə bölgədə millətlərarası münasibətlər xeyli kəskinləşmişdir [Bax:8].

X.Sultanovun XX əsrin əvvəllərində irəli sürülmüş bu fikirləri və təklifləri ilə tanış olduqca bir daha əmin oluruq ki, tarix təkrar olunur. XX əsrin sonları – XXI əsrin əvvəllərində də Azərbaycan Qərb dövlətlərinin eyni ikiüzlü siyasəti, erməni qəsbkarlarının eyni fitnəkarlıqları və vəhşilikləri ilə üzləşmişdir və üzləşməkdə davam edir. Qarabağ məsələsi o zaman Azərbaycan Xalq Cümhuriyyəti üçün nə qədər vacib və necə böyük tarixi əhəmiyyət kəsb edirdisə, bu gün də eynilə və daha böyük əhəmiyyətə malikdir. Bəhs olunan hadisələrdən 100 ildən çox vaxt keçməsinə, II Qarabağ

müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında milli ordumuzun misilsiz qələbəsinə baxmayaraq erməni revanşizmi sönmək bilmir və baş alıb getməkdə davam edir.

1920 - ci ilin aprelində Azərbaycanın Rusiya bolşevikləri tərəfindən işğalından sonra X.Sultanov Türkiyəyə getmiş və çətin mühacirət həyatı yaşamışdır. Arxiv sənədlərindən məlum olur ki, Türkiyədəki Azərbaycan mühacirləri əsasən “Türk Ocaqları” MK - sı və onun başqanı, həm də Maarif naziri Həmdullah Cübhi Tanrıövərdən maliyyə dəstəyi alırdılar. Əhməd bəy Ağaoğlu Xosrov bəy Sultanova yazdığı məktubunda “Türk ocaqları”nın hər ay ona, “eləcə də Ə.Əmircanov və M.Ə.Rəsulzadəyə 75 lirə məbləğində pul verilməsi barədə qərar çıxardığını” göstərirdi [6, v. 597]. Sübhi Tanrıövərin X.Sultanova yazdığı məktubunda da X.Sultanova, Ə.Əmircanova və M.Rəsulzadəyə hər ay 75 lirə verilməsi faktı təsdiqlənir [6, v. 596].

1925 - ci ildən sonra ittihadçıların Parisdə yaradılması bəyan edilən Qafqaz Birliyinə daxıl olmaq haqqında qərar verməlıəri ilə Xosrov bəy Sultanovun timsalında partiyaya göstərilən yardım dayandırıldı. Onlar Türkiyənin maliyyə yardımını kəsməsində Əhməd bəy Ağaoğlunu günahlandırır və Əhməd bəyin özünün hər ay bolşeviklərdən guya 300 lirə aldığını iddia edirdilər [6, v. 40]. Ə.Ağaoğlu isə M.Rəsulzadəyə yazdığı minnətdarlıq məktubunda ittihadçılardan fərqli olaraq “onun türk aristokratiyasına xəyanət etməməsini alqışlayırdı” [yenə orada].

Xosrov bəy Sultanov mühacirətdə olduğu vaxt “İttihad” partiyasının liderlərindən biri kimi partiyanın xarici ölkələr bürosunu formalaşdırmağa və ittihadçıları bir təşkilat ətrafında birləşdirməyə çalışmışdır. O, 1926 - cı ildə Parisdən İrana gedərək burada İttihad partiyasının Təbriz və Tehran komitələrini yaratmışdı. Tehran Komitəsinə Aşur bəy İsabəyi, Təbriz Komitəsinə isə qardaşı İskəndər bəyi rəhbər təyin etmişdi [5, v. 31]. Mühacirətdəki İttihad liderlərindən olan X.Sultanovun, eləcə də Mir Yaqub Mehdiyevin göstərdikləri bütün cəhdlərə baxmayaraq bu partiyanın xarici ölkələr bürosunu yaratmaq mümkün olmadı [7, s.111].

**Nəticə.** Xosrov bəy Sultanov Azərbaycanın azadlığı uğrunda apardığı mübarizəni ömrünün sonunadək müxtəlf ölkələrdə - Türkiyədə, İranda, Fransada, Almaniyada. Polşada davam etdirmiş və 1943-cü ildə Türkiyədə vəfatına qədər, digər Azərbaycan mühacirləri kimi, çox çətin mühacirət həyatı yaşamağa məcbur olmuşdu.

***Ədəbiyyat siyahısı:***

*1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə, 1 cild, Bakı, 2004, 439 s.*
*2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə, II cild, Bakı, 2004, 469 s.*
*3. “Azərbaycan” qəzeti, 1919-cu il , 11 fevral.*
*4. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi, f. 28, siy. 1, iş 185, v.6; iş 186, v. 7-8; f. 970, siy. 1, iş 253, v. 10-11, 18-19.*
*5. Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi (ARDSPİHA), f.1. Mərkəzi Komitə, siy. 85, iş 656.*

*6. Yenə orada. f.1.Mərkəzi Komitə (MK), siy. 85, iş 462.*
*7. İbrahimli Xaləddin. Azərbaycan siyasi mühacirəti. Bakı, "Elm",1996, 304 s.*
*8. Musayev İ. Xosrov bəy Sultanov Qarabağ münaqişəsinin həlli haqqında. http://www.anl.az. qarabağ_1 (Müraciət tarixi 22 may 2021-ci il)*
*9. Nəbibəyli Ziyadxan. Sultan bəy və Xosrov bəy Sultanov qardaşları. Bakı,"Nurlar", 2011, 225 s.*
*10. Yaqublu Nəsiman. Qarabağın general - qubernatoru və ilk hərb naziri Xosrov bəy Sultanov. http.//scontent.fgyd6-1.fna/fbcdn.net (Müraciət tarixi 10 may 2021-ci il)*

**UOT 94 (479.24); 930:314**

# XX ƏSRİN İKİNCİ YARISI AZƏRBAYCAN TARİXÇİLƏRİNİN ORTA ƏSRLƏR DÖVRÜNƏ DAİR TƏDQİQAT ƏSƏRLƏRİNDƏ TARİXİ DEMOQRAFİYA MƏSƏLƏLƏRİ

**Aydın Məmmədov**
*BDU, Tarix fakültəsi, dosent*
*aydin.mmmdov.67@mail.ru*

*XX əsrin ikinci yarısı Azərbaycan tarixşünaslığında orta əsrlər dövrünə dair tədqiqat əsərlərinin məhdud sayda olmasını asanlıqla müşahidə edə bilərik. Bu bir tərəfdən sözügedən dövrün ictimai – siyasi şəraiti, məhdudiyyət və qadağaları ilə, digər tərəfdən isə, ideoloji tələbləri ilə sıx şəkildə bağlı olmuşdur. Həmin dövrdə ictimai elmlər üzərində sərt nəzarətin olması, başlicası isə hadisələrin sirf bolşevik ideologiyası prizmasından işıqlandırılması tələbi Vətən tariximizin elmi – obyektiv müstəvidə işıqlandırılmasına ciddi əngəllər törədirdi. Lakin mövcud çətinliklərə baxmayaraq, Azərbaycan tarixşünaslığında orta əsrlər dövrünə dair bir sıra qiymətli tədqiqat əsərləri işıq üzü görmüşdür. XX əsrin ikinci yarısında Z.Bünyadov, M.Şərifli, Ə.Əlizadə, C.İbrahimov, Y.Mahmudov və bir çox başqa tarixçilər orta əsrlər dövrünün müxtəlif mərhələlərinə dair sosial - siyasi hadisələrin, əhalinin məskunlaşmasına, təbii və mexaniki artımına, ümumiyyətlə, nəsil artımına təsirini elmi - obyektiv müstəvidə araşdırmağa və tarixi demoqrafik mühiti ətraflı təsvir etməyə nail olmuşdular.*

***Açar sözlər:*** *Azərbaycan tarixşünaslığı, əhali məksunlaşması, əhali artımı, orta əsrlər, tarixi demoqrafiya*

## ISSUES OF HISTORICAL DEMOGRAPHY IN THE RESEARCH WORKS OF AZERBAIJANI HISTORIANS ON MEDIEVAL PERIOD IN THE SECOND HALF OF XX CENTURY

*In the second half of XX century, we can easily observe the limited number of research works on the medieval period in Azerbaijani historiography. This was closely related to the socio-political conditions, restrictions and prohibitions of the period on the one hand, and the ideological demands on the other. At that time, the requirement of strict control over the social sciences, and most importantly, the coverage of events through the prism of a purely Bolshevik ideology, seriously hampered the scientific-objective coverage of the history of our country. In the second half of XX century, Z.Bunyadov, M.Sharifli, A.Alizade, J.Ibragimov, Y.Mahmudov and many other historians studied the influence of socio-political events of different stages of the Middle Ages on population settlement, natural and mechanical population growth on a scientific and objective plane, and also described in detail the historical and demographic environment.*

***Keywords:*** *Azerbaijani historiography, population settlement, population growth, the Middle Ages, historical demography.*

**Giriş.** Bəşər tarixinin hələ ilk mərhələlərində demoqrafik amillərinin rolunun öyrənilməsinə xüsusi diqqət yetirilmişdir. Belə ki, antik dövrün Platon və Aristotel kimi görkəmli filosofları, mütəfəkkirləri əhali artımı ilə təbii resurslar arasında optimal nisbətin müəyyən edilməsi, o cümlədən

dövlətin əhali artımı və məskunlaşması üzərində nəzarəti təmin etməsi və tənzimləməsi ideyası ilə çıxış etmişlər. Şərqdə də hələ e.ə.VI-III əsrlərdə əhali sıxlığının və məskunlaşmasının cəmiyyətin həyatına təsiri məsələləri artıq ictimai fikri narahat edirdi. Belə ki, qədim Çində Konfutsi kimi mütəfəkkirlər əhali artımı ilə əkinə yararlı mövcud torpaq sahəsi arasında balansı müəyyənləşdirməyə cəhd etmişlər. Konfutsi "ideal nisbətin" pozulmasının cəmiyyət həyatında arzuolunmaz problemlərə səbəb olacağını düşünərək "optimal əhali" ideyasını irəli sürmüşdür. O, əhalinin sıx məskunlaşdığı ərazilərdən az məskunlaşan ərazilərə köçürülməsini əhalinin sayının və bölgüsünün məqsədyönlü tənzimlənməsi sahəsində səmərəli dövlət tədbiri hesab etmişdir.

Orta əsrlər dövründə demoqrafik fikir daha da inkişaf etdi. Xüsusən, feodalizmin son inkişaf mərhələsində ayrı-ayrı Qərb filosof və mütəfəkkirləri belə qənaətə gəldilər ki, əhalinin artımının nəticələri cəmiyyət üçün əlverişsizdir. Onlar hesab edirdilər ki, əhalinin təkrar istehsalının sürəti yaşayış vasitələrinin kəmiyyət göstəricilərini xeyli üstələyir, bu isə sosial ədalətsizliyə və yoxsulluğa gətirib çıxarır. Orta əsrlər dövründə müsəlman Şərqində isə, əhali artımına tam fərqli prizmadan yanaşılırdı. Belə ki, əhali artımı ilə bağlı Qurani Kərimin Ənam surəsinin 151 - ci ayəsində söylənilən: "Ona heç nəyi şərik qoşmayın, valideynlərə yaxşılıq edin və yoxsulluq ucbatından uşaqlarınızı öldürməyin" müddəaya istinad edən Şərq mütəfəkkirləri uşaq artımını ailə modelinin əsas təməl prinsipi hesab edirdilər. Müsəlman Şərqinin demoqrafik düşüncə tərzində Yer üzərində insanın artması təbii sərvətlərin artıb - azalması ilə heç bir ziddiyyət təşkil etmir.

**Azərbaycan tarixşünaslığında erkən orta əsrlər dövrünə dair tarixi demoqrafik proseslər**. XX əsrin ikinci yarısı Azərbaycan tarixşünaslığında orta əsrlər dövrünə dair tədqiqat əsərlərindən danışarkən Azərbaycan tarixinin görkəmli tədqiqatçısı Ziya Bünyadovu (1923 - 1997) xatırlamamaq olmur. Belə ki, Z.Bünyadov 1965 - ci ildə nəşr olunan "Azərbaycan VII - IX əsrlərdə" adlı monoqrafiyasında sözügedən problemə dair yazır: "Azərbaycan əhalisinin türkləşməsi məsələsi, illər boyu davam etmiş bu prosesin başlanğıcının aydınlaşdırılması çox mürəkkəbdir və bu məsələ indiyədək həll edilməmişdir. Bəzi tədqiqatçıların etdiyi kimi, türkləşmənin XI - XII əsrlərdə baş verdiyini qəbul etmək səhv olardı. Türkləri Azərbaycan ərazisinə kənardan gəlmələrini hesab etmək də səhvdir, çünki onda, yerli böyük və çox yığcam türk tayfa təşəkküllərinin varlığına göz yumulur". Göründüyü kimi, digər tədqiqatçılardan fərqli olaraq Z.Bünyadov türklərin Azərbaycana kənardan gəlməsi fikri ilə nəinki barışmır, əksinə Vətənimizin tarixin ən qədim çağlarından türkdilli tayfaların məskunlaşdığı ərazi olmasını elmi baxımdan daha düzgün olması qənaətinə gəlir. Görkəmli alim fikrinə davam edərək: "Türkləşmə prosesi yalnız türk aborigenlərin cənubdan gələn oğuzlar və şimaldan gələn qıpçaqlarla qarışması nəticəsində, bunların

assimilyasiyasından sonra başlandı və getdikcə sürətlənib XI - XII əsrlərdə qurtararaq, Azərbaycan və Arran ərazisində müasir Azərbaycan xalqının təşəkkül tapması ilə nəticələndi" – deyə, yazmışdır [1, 171].

Z.Bünyadov da Azərbaycanda müxtəlif dillərdə danışan, çoxsaylı etnosların və xalqların məskunlaşmasını özünəməxsus bir xüsusiyyət kimi qeyd edir. Məhz bu xüsusiyyət: "Azərbaycan əhalisinin ərəbləşməsinə mane olmuşdur". Müəllif Qafqaz albanların ərəb xilafəti dövründəki vəziyyətindən bəhs edərkən: "Ola bilsin ki, Arran əhalisinin bir hissəsi (albanlar) çox tez ərəbləşməyə məruz qalıb ərəblərlə qaynayıb - qarışmış, sonralar isə səlcuq türkləri gəldikdən sonra ərəblərlə birlikdə türkləşməyə məruz qalmışlar." – deyə yazır [1, 170].

Sovet dönəmində Vətən tariximizin orta əsrlər tarixinə dair digər dövrləri də, o cümlədən IX - XII, XIII - XV əsrlərə dair tədqiqat işləri də məhdud sayda olmuşdur.

XX əsrin ikinci yarısında maraqlı elmi məqalələri ilə diqqəti cəlb edən tədqiqatçılardan biri Məmmədəli Şərifli (1909 - 1969) olmuşdur. Onun 1978 - ci ildə işıq üzü görən "IX əsrin ikinci yarısı - XI əsrlərdə Azərbaycan feodal dövlətləri" adlı monoqrafiyası ilkin ərəb və fars mənbələri əsasında tədqiq edilən və sözügedən dövrdə Azərbaycanın sosial - iqtisadi, ictimai - siyasi həyatını son dərəcə geniş və elmi - obyektiv surətdə işıqlandıran unikal əsərdir. Bu monoqrafiyada müəllifin diqqət yetirdiyi məsələlərdən biri də əhali demoqrafiyası məsələləsidir. Belə ki, M.Şərifli sözügedən əsərində ayrı-ayrı tayfaların Azərbaycanda məskunlaşması məsələsini mənbələr əsasında araşdırmağa cəhd göstərmişdir: "X əsrin məşhur tarixçisi Məsudi qeyd edir ki, hələ VI əsrdə Qafqaz dağlarında bir sıra istehkamların tikilməsi, səddlərin çəkilməsi, bununla əlaqədar olaraq bəzi tayfaların bu rayona köçürülməsi, buradakı xəzər, türk, sərir və s. tayfaların hücumlarından mühafizə etməkdən ibarət idi" [3, 34-35]. M.Şərifli dərhal həmin məlumatın ardınca məsələyə münasibətini bildirərək: Bu tayfaların əksəriyyəti çox qədimdən burada yaşayan yerli tayfalar idi" – deyə, yazır .

M.Şərifli, çoxsaylı türk tayfalarının Azərbaycana tarixən şimaldan gəldiyini və burada əvvəldən məskun olan türkdilli etnoslarla çox tez qaynayıb - qarışdığını həm etnik qohumluqla, həm də ərazinin coğrafi mövqeyi ilə izah edirdi: "X əsrdə Şirvan ərazisində müxtəlif tayfaların olmasının başlıca səbəbi bu ölkənin yaşayış üçün əlverişli olması, hərbi - strateji əhəmiyyətə malik olması, şimaldan cənuba və cənubdan şimala keçib gedən tayfaların burada məskən salması və sair bir sıra tarixi amillərlə izah edilməlidir". M.Şərifli elə bu səbəbdən də istər Qafqazda, istərsə də Azərbaycanda öz dilləri olan yüzlərlə etnosun məskunlaşmasını da bu səbəblə izah edir və fikrini əsaslandırmaq üçün ilkin mənbələrə müraciət edir: "Qafqaz dağlarında yaşayan tayfalar və onların dilləri haqqında ən dəqiqləşdirilmiş məlumatı İbn Hövqəl verir. O yazır ki, deyilənlərə görə Qafqaz dağlarında yaşayan əhali üç yüz altmış dildə danışır, mən əvvəllər

özüm bir çox şəhərləri görməyənə qədər bu şəhərlərin hər birində türk (Azərbaycan) və fars dillərindən başqa yerli dillərin mövcud olmasınadək bunu inkar edirdim" [3, 35-36].

M.Şərifli Azərbaycan xalqının təşəkkülü prosesində müxtəlif türkdilli və digər tayfaların fəal iştirak etdiyini, o cümlədən, bu hadisənin öz əksini yaşayış məskənlərində əks etdirdiyini də əminliklə söyləmişdir: "... Hələ X - XI əsrlərdən başlayaraq təşəkkül etməkdə olan Azərbaycan xalqının tərkibinə bu tayfaların əksəriyyəti qarışıb assimilyasiya etmişdir. Bunlardan bəziləri öz xüsusiyyətlərini və dilini zəmanəmizə qədər saxlamışdır. Məsələn, xəzərlər, albanlar, zıxlar, şəkinlər, dudainlər və başqa tayfaların yalnız adları və yaxud adları ilə bağlı şəhər, kənd, dağ və yer adları qalmışdır" [3, 36].

**Azərbaycan tarixşünaslığında inkişaf etmiş orta əsrlər dövrünə dair tarixi demoqrafik proseslər**. Vətən tariximizin XIII - XIV əsrlər dövrünün görkəmli tədqiqatçısı Ə.Əlizadənin 1956 - cı ildə nəşr olunan "XIII – XIV əsrlərdə Azərbaycanın ictimai - iqtisadi və siyasi tarixi" adlı son dərəcə maraqlı monoqrafiyası belə əsərlərdən biridir. Müəllif monqolların, onlardan sonra digər monqol sülalələrinin Azərbaycana dağıdıcı yürüşlərindən, o cümlədən yurdumuzda möhkəmlənərək burada siyasi nüfuz uğrunda bir - biriləri ilə apardıqları siyasi mübarizələrindən (xüsusən də Qızıl Orda ilə Hülakilər arasında Azərbaycanda möhkəmlənmək uğrundakı mübarizələrindən... A.B.) bəhs edərək, hərbi münaqişələrin bitib tükənməməsinin əhalinin sosial iqtisadi durumuna son dərəcə neqativ təsirindən bəhs edərək yazır: "Şimali Azərbaycan ərazisində hərbi əməliyyatların fasiləsiz olaraq davam etməsi səbəbindən Azərbaycan əhalisi hər iki tərəfdə müharibənin ağır yükünü çəkmək zorunda idi. Şəhərlər və kəndlər dağıdılaraq, viran qoyulur, əkin sahələri tapdağ edilərək sıradan çıxarılır, memarlıq abidələri yerlə yeksan edilirdi" [4, 329]. Müəllif haqlı olaraq fasiləsiz davam edən hərbi əməliyyatların bütün ağırlığının xalqın çiyinlərinə düşməsini və təbii ki, belə bir vəziyyətin onun sosial durumuna, həm də əhali artımına son dərəcə mənfi təsirini xüsusi olaraq vurğulayir: " Yerli əhali ya məhv edilir, ya da ki, başını götürüb ölkədən qaçırdı. Əhalinin bir qismi də dağlarda və meşələrdə gizlənirdi" [4, 329]. Müəllif obyektiv surətdə belə bir nəticəyə gəlir: "Bütün bunlar şəhər və kəndlərlərin var yoxdan çıxmasına, ticarətin tənəzzülünə və Şimali Azərbaycanın iqtisadiyyatının çökməsinə gətirib çıxardı" [4, 329].

Müəllif tarixi mənbələrə istinadən hətta Azərbaycan əhalisinin əkinçiliklə məşğul olmaqdan imtina etdiyini, o cümlədən heç yerdə öz təhlükəsizliklərini təmin edə bilməmələrinə görə çıxış yolunu özlərini öldürməkdə gördüklərini də xüsusi olaraq vurğulayır. Təbii ki, belə bir hal sözügedən dövrün əhali artımı ilə bağlı demoqrafik vəziyyətinin son dərəcə ağir olmasından xəbər verir.

Ümumiyyətlə Ə.Əlizadənin bu əsəri sözügedən dövrün siyasi hadisələrinin yurdumuzun sosial – iqtisadi durumuna, həyat səviyyəsinə və onunla sıx şəkildə bağlı olan demoqrafik proseslərə neqativ təsirini zəngin

faktoloji materiallarla elmi – obyektiv müstəvidə ən xırda təfərrüatları ilə son dərəcə geniş əks etdirdiyinə görə ona orta əsrləri tədqiq edən digər alimlərimiz də tez – tez müraciət etmişlər. Məsələn, C.İbrahimov yuxarıda adını çəkdiyimiz "XV əsr Azərbaycan ərazisində feodal dövlətləri" adlı əsərində Azərbaycan əhalisinin sosial – iqtisadi güzəranından bəhs edərkən Ə. Əlizadənin yuxarıda adı çəkilən əsərinə istinadən: "Əgər Azərbaycanın XIV əsrin sonu XV əsrin əvvəllərindəki siyasi durumuna nəzər salsaq, o zaman XIII – XIV əsrlərdə Azərbaycanda monqol ağalığı nəticəsində ölkə iqtisadiyyatının tənəzzülə uğradığını, şəhər və kənd əhalisinin ifrat dərəcədə dilənçi vəziyyətinə düşməsini ... mütləq qeyd etməliyik" - deyə, yazır [5, 19].

Azərbaycan tarixçisi Cəfər İbrahimovun 1962 - ci ildə işıq üzü görən "XV əsr Azərbaycan ərazisində feodal dövlətləri" adlı əsərində həmin dövrdə Vətən tarixşünaslığımızda orta əsrlərə dair tədqiqatların aparılmasına dair yazırdı: "Müasir tarixşünaslıqda Azərbaycanın XV əsr sosial - iqtisadi quruluşu İ.Petruşevskinin "XV əsr Azərbaycan dövlətləri" adlı əsəri istisna olunmaqla tədqiq olunmamışdır" [5, 17-18]. C.İbrahimov çoxsaylı tarixşünasliq və mənbəşünaslıq materiallarına istinad edərək siyasi hadisələrlə zəngin olan həmin dövrün sosial – siyasi mənzərəsini canlandıra bilmişdir. O, haqlı olaraq XIV əsrin 80 - ci illərində Əmir Teymurun Qızıl Orda xanı Toxtamışla Azərbaycanda möhkəmlənmək uğrunda apardığı qanlı mübarizənin yurdumuzun şəhər və kəndlərini, yollarını xaraba qoymasını, xalqımızın güzəranına, mexaniki – təbii artımına son dərəcə ağır təsir göstərdiyini xüsusi olaraq vurğulamışdır [5, 21]. Müəllif sözügedən əsərində tarixi demoqrafiya baxımından böyük əhəmiyyət kəsb edən sosial - iqtisadi inkişaf məsələlərinə toxunaraq yazır ki, həmin dövrün səyyah və tarixçilərinin verdiyi məlumatlara görə XV əsrdə Azərbaycanın iqtisadi inkişafı heç də hər yerində eyni səviyyədə olmamışdır [5, 53].

Müəllif 1475 - ci ildə Şirvanda olmuş Venesiyalı səyyah Ambroco Kontarininin məlumatlarına istinadən yazır: "Sözügedən dövrün səyyah və tarixçilərinin məlumatlarına görə Azərbaycanın şimal hissəsi, yəni Şirvan ölkənin digər əraziləri, vilayətləri ilə müqayisədə iqtisadi baxımdan daha çox inkişaf etmişdir. Ambroco Kontarini Azərbaycanın şimal və cənub ərazilərinin sosial-iqtisadi inkişafı arasındakı bu uyğunsuzluğu, yaxud kəskin fərqi XV əsr boyu, yəni Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin mövcud olduğu dövr ərzində bu iki dövlət arasındakı fasiləsiz surətdə davam edən dağıdıcı müharibələrdə görmüşdür. Müəllif haqlı olaraq dağıdıcı münasibətlərin misilsiz fəlakət, aclıq və qırğınlar gətirməsi baxımından Azərbaycanın cənub hissəsinin sosial - iqtisadi durumunu mənfi hal kimi qiymətləndirir. Azərbaycanın şimal hissəsinə gəlincə isə burada şəhərlərin, xüsusən Şamaxının yüksək inkişafını daha çox vurğulayır: "A.Kontarini Şamaxını varlı şəhər, Şirvanı isə məhsuldar və münbit torpaqlı diyar kimi qiymətləndirir. Kontarini Şirvanda Azərbaycanın cənub hissəsi ilə müqayisədə qiymətlərin, xüsusən də ərzaq məhsullarının qiymətlərinin çox aşağı olması da heyrətləndirmişdir" [5, 54].

Nəzərə alsaq ki, ticarət və sənətkarlığın mərkəzləri sayılan şəhərlərin inkişafı, qiymətlərin, xüsusən də ərzaq məhsullarının qiymətlərinin ucuzluğu əhalinin maddi rifahının əsas göstəricilərindəndir, onda bəhs olunan dövrdə Azərbaycanın şimal hissəsində əhalinin normal inkişaf dinamikası haqqında da fikir söyləyə bilərik. Çünki, ayrı - ayrı dövlətlər arasında fasiləsiz müharibələrin Azərbaycanı böyük bir hərb meydanına çevirdiyi dövrdə sosial - iqtisadi inkişafın yuxarıda sadalanan xüsusiyyətləri diqqət çəkməyə bilmir. C.İbrahimov özü məsələyə münasibət bildirərək yazır: "Tarixçilər Elxanilər dövlətinin süqutundan XV əsrin sonlarınadək 165 ilin keçdiyi və bu illər ərzində cəmi 75 ilin nisbətən sülh şəraitində keçməsində bəhs edirlər. Qalan 90 il fasiləsiz olaraq davam edən münasibətlərdən və çəkişmələrdən ibarət olmuşdur" [5].

Öz əsərlərində avropalı səyyahların məlumatlarına geniş yer ayıran görkəmli tədqiqatçı Yaqub Mahmudovun 1972 - ci ildə nəşr olunan "Öyrənilməmiş səhifələr" adlı kitabında Azərbaycan Ağqoyunlu dövlətinin yadellilərin təcavüzkarlığına qarşı mübarizəsini, müxtəlif ölkələrlə, o cümlədən Avropa ölkələri ilə qurduğu diplomatik əlaqələri geniş surətdə işıqlandırmışdır. Sözügedən kitabda Azərbaycanın ilk qadın diplomatı Sara xatun, dövrünün görkəmli sərkərdəsi Uzun Həsənin və digər dövlət xadimlərimizin fəaliyyəti, o cümlədən xalqımızın məişəti, adət - ənənələri və həyat tərzi haqqında maraqlı məlumatlar əks olunmuşdur. Məsələn, müəllif toy adətlərimizdən bəhs edərkən: "...O zaman hətta Azərbaycanda da, varlı ailələrin qız köçürərkən Venesiya güzgüsü verməsi dəb düşmüşdü" [2, 18]. Kitabda demoqrafik baxımdan maraq kəsb edən ailə quruculuğu, nikah məsələlərinə dair son dərəcə qiymətli olan bilgilər də öz əksini tapmışdır. Məlumatlardan məlum olur ki, azərbaycanlı ailəsi evinə, ocağına gəlin seçərkən onu ağıllı, xoşxasiyyətli olmasına xüsusi önəm vermişdir. Döyüşlərdən birində əsir düşmüş Trabzon imperatorunu Ağqoyunlu hökmdarı Uzun Həsənin yanına gətirdikdə ondan soruşmuşdu: "Hansı məbləğdə özümü satın ala bilərəm?" Uzun Həsən isə cavabında: "Arzu etdiyim adam əlimə düşmüşdür. Mən onu pulla qiymətləndirmirəm. Deyilənə görə, sizin Feodora adında ağıllı və xoşxasiyyət qızınız var. Onu mənə ərə verin" – demişdi. Trabzon imperatoru "biz xristian, siz isə bütpərəst olduğunuz halda mən bunu necə edə bilərəm?" – deyə etiraz etdikdə Uzun Həsən "bu məni narahat etmir" demişdi. Bundan sonra Feodora Ağqoyunlu sarayına göndərilmişdi [2, 26]. Bu fakt xalqımızın tarixən multikultural dəyərlərə hörmət göstərdiyini, irqindən, miliyyətindən və dinindən asılı olmayaraq bütün qadınlara ehtiramla yanaşdığını, analarımızın, qız - gəlinlərimizin ailənin saflıq və ucalıq rəmzi, toxunulmazlıq simvolu hesab edildiyini aşkar surətdə göstərir.

Y.Mahmudov sözügedən kitabında Uzun Həsənin hakimiyyəti dövründə Ağqoyunlu dövlətinin iqtisadi cəhətdən möhkəmlənməsini də, xüsusi olaraq qeyd etmişdir. Bununla bağlı müəllif yazır: "O, hakimiyyətə gələrkən Ağqoyunlu dövləti ərazicə geniş olsa da, iqtisadi və siyasi cəhətdən

o qədər də möhkəm deyildi. Tez-tez yadellilərin hücumuna və qarətinə məruz qalmış Ağqoyunlu dövləti ərazisində ümumi iqtisadi tərəqqi pozulmuşdu. Kənd təsərrüfatının inkişaf səviyyəsi xüsusilə aşağı idi" [2, 45]. Həqiqətən də, Uzun Həsənin həyata keçirdiyi islahatlara qədər, əhali çoxlu – 31 növ vergi verir və çoxsaylı mükəlləfiyyətlər daşıyırdılar. Təbii ki, bütün bunlar əhalinin təbii və mexaniki artımına mənfi təsir göstərirdi. Ölkədə siyasi sabitliyin olmaması, mərkəzi hakimiyyətə tabe olmaq istəməyən hərbçi əyanların getdikcə qüvvətlənməsi dövlət üçün olduqca təhlükəli idi. Ümumiyyətlə, siyasi sabitliyin olmaması bütün dövrlərdə əhalinin təkrar artımını əngəlləyən ciddi səbəblərdən biri olmuşdur. Tez - tez baş verən feodallararası çəkişmələr əhalinin ərzaq təminatına maneələr yaradır, uşaq ölümünün artması ilə nəticələnirdi. Təbii ki, bütün bunlar görkəmli və uzaqgörən dövlət xadimi Uzun Həsəni narahat etməyə bilməzdi. O, yaxşı başa düşürdü ki, güclü dövlət yaratmaq üçün, onun suverenliyini qoruyub saxlamaq, əhalinin sosial-iqtisadi güzəranını və maddi rifahını yüksəltmək lazımdır.

Y.Mahmudov yazır: "Uzun Həsən özündən əvvəlki Ağqoyunlu hakimlərindən fərqli olaraq oturaq əhaliyə arxalanmağın zəruri olduğunu anlayırdı. Buna görə də, o, Ağqoyunlu dövlətini iqtisadi və siyasi cəhətdən qüvvətləndirmək üçün sonralar "Həsən padşahın qanunları" adı ilə məşhurlaşan, hətta XVI əsrdə qüvvədə qalan "Qanunnamə" hazırlatdı. Bu "Qanunnamə"yə əsasən, kəndlilərdən alınacaq vergilər müəyyənləşdirildi və dəqiqləşdirildi, vergi sistemi nisbətən səhmana salındı. Vergi yığan məmurların özbaşınalığı azaldı". Nəticədə, əhalinin vəziyyəti xeyli yüngülləşdi: "Uzun Həsən qanunları ölkədə məhsuldar qüvvələri xeyli canlandırdı, kəndli və sənətkarlardan alınan vergilərin birbaşa xəzinəyə axması təmin olundu. Dövlət iqtisadi cəhətdən xeyli qüvvətləndi" [2, 46].

Ümumiyyətlə, Azərbaycan xalqının ailə quruculuğu ilə bağlı təfəkkür və düşüncə tərzində ailənin əxlaqi - mənəvi dəyərləri, prinsipləri həmişə böyük önəm kəsb edib. Sözügedən kitabda Y.Mahmudov xalqımızın məskunlaşdığı əraziləri də göstərmişdir: "...XV əsrin 60 – 70 - ci illərində Xorasandan Qaramana qədər, Kür çayından İran körfəzinə qədər yerləri əhatə edən Ağqoyunlu dövləti Yaxın və Orta Şərqdə böyük hərbi - siyasi qüvvə idi [2, 24].

**Azərbaycan tarixşünaslığında son orta əsrlər dövrünə dair tarixi demoqrafik proseslər.** Bu baxımdan Oqtay Əfəndiyevin (1926-2013) Səfəvi dövlətinin tarixinə dair yazdığı əsərlər də böyük maraq və əhəmiyyət kəsb edir. O.Əfəndiyevin 1961 - ci ildə nəşr edilən "XVI əsrin əvvəllərində Azərbaycan Səfəvi dövlətinin yaranması" adlı əsərində yazır: "İlk mənbələrdəki məlumatların qeyri - səlisliyi bizə sözügedən dövrdə zəhmətkeş kütlələrin və rəiyyətin vəziyyətini aydın şəkildə təsvir etmək imkanını yaratmır. ... Qeyd etmək lazımdır ki, I Şah İsmayıl mərkəzi dövlət yaratmaq işinin öhdəsindən gələ bilmədi" [7]. O. Əfəndiyev Səfəvilər dövlətində istər qızılbaş tayfa başçılarının mərkəzi hakimiyyətə tabe olmamalarını, istər fasiləsiz ara

müharibələrini, bir - biri ilə çəkişmələrini, istərsə də Osmanlı - Səfəvi müharibələrinin xalqın sosial - iqtisadi vəziyyətinin son dərəcə ağırlaşdırdığını faktoloji materiallar əsasında tədqiq etmişdir: ... xarici, qeyri - iqtisadi amillər də şəhərlərin yüksəlişi, yaxud tənəzzülü. Bəzən də sonrakı mövcudluğu üçün az əhəmiyyətə malik deyildi. Onların sırasında Səfəvi - Osmanlı müharibələrini (1514, 1533, 1578-1590), feodal çəkişmələrini, aclığı, epidemiyaları və s. göstərmək olar" [7].

Farsdilli mənbələrin gözəl bilicisi, görkəmli tədqiqatçı Əbülhəsən Rəhmaninin 1981 - ci ildə işıq üzü görən "Azərbaycan XVI əsrin sonu – XVII əsrdə (1590 - 1700-cü illər)" adlı monoqrafiyası xalqımızın XVI – XVII əsrlərdə sosial - iqtisadi durumuna və məhz bu zəmində tarixi demoqrafik vəziyyətini öyrənmək baxımından böyük əhəmiyyət kəsb edir. Belə ki, müəllif sözügedən monoqrafiyasında elmi dövriyyəyə daxil etdiyi çoxsaylı mənbələr və obyektiv - analitik təhlillər əsasında Azərbaycanın tədqiq etdiyi dövrə dair ictimai - siyasi, sosial - iqtisadi mənzərəsini, o cümlədən mədəni tarixini geniş surətdə əks etdirməyə nail olmuşdur. Tarixçi bir əsrdən çox davam edən Səfəvi - Osmanlı müharibəsinin ölkə iqtisadiyyatına vurduğu ziyanı, təəssüf ki, dağıdıcı döyüşlərin əsas səhnəsinə çevrilən Azərbaycan şəhərlərinin və əhalisinin məruz qaldığı acınacaqlı durumu konkret faktlar əsasında təsvir edə bilmişdir. Belə ki, müharibənin gedişində bir sıra iri Azərbaycan şəhərləri, vilayətləri yandırılaraq viran edildi. I Şah Abbas Azərbaycanın bir sıra vilayətlərinin əhalisini sürgün etdi, Təbriz, Naxçıvan, Gəncə və d. şəhərləri dağıdaraq xarabazara çevirdi.

Kütləvi şəkildə, məcburi miqrasiyaya məruz qalan əhali çox zaman yeni məskunlaşdığı ərazilərdə də təzyiqlər və bir çox çətinliklərlə üz - üzə qalırdılar. Mənbələrə müraciət edən müəllif bu barədə belə yazır: "XVI əsrin son onilliklərinin əvvəllərində İsfahanda yaşayan azərbaycanlı mühacirlərin vəziyyətini Cəlaləddin Məhəmməd Yezdi belə təsvir edir: "Təbrizlilərin çox pis, davranışları ilə əlaqədar onların kütləvi surətdə qətliamlarına dair fərman verildi. Lakin, əfv olunmaları ilə bağlı yalvarışlarından sonra onlara tacirlərin iştirakı olmadan dörd min tümən vermələri və məhz bu ödəncdən sonra öz yerlərini bilmələri tövsiyyə edildi [6, 46].

Ə.Rəhmaninin sözügedən monoqrafiyası bir növ tədqiq olunan zaman kəsiyi baxımından həmin əsərin sinxron davamı təəssüratını oyadır. Belə ki, Ə.Rəhmani adı çəkilən əsərində zəngin mənbəşünaslıq bazası əsasında bəhs olunan dövrdə Azərbaycanda cərəyan edən ictimai - siyasi hadisələrin fonunda əhalinin demoqrafik durumuna bilavasitə təsir göstərən həyat və məişətini təfərrüatı ilə əks edə bilmişdir. Belə ki, 100 ildən artıq davam edən Səfəvi - Osmanlı müharibələrindən bəhs edərkən müəllif Azərbaycanın düşmüş olduğu ağır iqtisadi - sosial vəziyyəti mənbənin dili ilə belə əks etdirmişdir. Müəllif yazır ki, müharibənin gətirdiyi fəsadlar nəticəsində başlanan aclıq I Şah Abbasın dövründə təkcə Azərbaycanı deyil, bütün Zaqafqaziyanı və İstanbul yaxınlığındakı ərazilərdən Təbrizədək, Bağdaddan Dəmirqapıyadək hər yeri

bürümüşdü.

Azərbaycan tarixçiləri öz əsərlərində tez-tez Azərbaycana təşrif buyuran Avropa səyyahlarının vətənimizə dair məlumatlarından da mənbə kimi faydalanmışlar. Belə ki, avropalı səyyahlar geostrateji məkanda yerləşən, zəngin təbii sərvətləri ilə həmişə diqqət çəkən Azərbaycan haqqında vacib və əhəmiyyətli qeydlər etmiş, son dərəcə maraqlı məlumatlar vermişlər.

**Nəticə.** Beləliklə, orta əsrlər dövründə Vətənimizə yadelli qoşunların basqınları, aramsız müharibələr ictimai həyatın bütün sferalarına, o cümlədən əhalinin inkişaf dinamikasına ciddi surətdə təsir göstərmişdir. Azərbaycan tarixşünaslığında orta əsrlər dövrünün demək olar ki, bütün mərhələlərində dağıdıcı amillər əkin sahələrinin və irriqasiya sistemlərinin sıradan çıxmasına, ərzaq resurslarının ciddi surətdə azalmasına, aclıq, qıtlıq, xəstəlik və epidemiyaların yayılmasına, bütün bunlar isə, öz növbəsində doğum - ölüm nisbətinin əhali azalması istiqamətində inkişafına səbəb olmuşdur. Lakin, orta əsrlər dövründə Azərbaycanda qüdrətli feodal dövlətlərinin mövcud olması, o cümlədən Vətənimizin son dərəcə mühüm geostrateji mövqedə yerləşməsi, əlverişli təbii - coğrafi amillərə, bol sərvətlərə malik olması əhali artımı ilə bağlı mənfi tendensiyanın qarşısını ala bilmişdir. Azərbaycanlıların tarixən ailəcanlı olması, ailədə uşaq doğumuna böyük önəm verməsi amili də bu işdə heç də az rol oynamamış, orta əslərdə əhalinin say dinamikasının sabit olmasına ciddi təsir göstərmişdir.

XX əsrin ikinci yarısında Azərbaycan tarixçiləri Vətənimizdə orta əsrlər dövründə məskunlaşma, nəsil artımı və s. bu kimi yuxarıda göstərilən proseslərin inkişaf dinamikasını əks etdirən sanballı monoqrafiyalar ərsəyə gətirməklə xalqımızın tarixi demoqrafik həyatını elmi - obyektiv müstəvidə tədqiq etməyə nail olmuşlar.

***Ədəbiyyat siyahısı:***


1. *Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, Azərnəşr, 1989, 336 s.*
2. *Mahmudov Y. Öyrənilməmiş səhifələr. Bakı, Gənclik, 1972, 97 s.*
3. *Şərifli M. IX əsrin ikinci yarısı - XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı, Elm, 1978, 343 s.*
4. *Ализаде А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку, АН СССР, 1956, 420 с.*
5. *Ибрагимов Дж. Феодальные государства на территории Азербайджана. Баку, АПИ, 1962, 111 с.*
6. *Рахмани А. Азербайджан в конце XVI и в XVII веке. Баку, Элм, 1981, 240 с.*
7. *Эфендиев О. Образование Азербайджанского государства Сефевидов в начале XVI века. Баку, АН АзССР, 1961, 207 с.*

**UOT 94 (479.24)**

# SSRİ-NİN SÜQUTU VƏ AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASI

**Anar İsgəndərov**
*BDU, Tarix fakültəsi, professor*
**Səidə Əli qızı**
*BDU, Tarix fakültəsi, dosent*
*tarixmenbe@mail.ru*

*Məqalədə XX əsrin 80 - ci illərinin sonu – 90 - cı illərin əvvəllərində SSRİ - nin iflası və onun səbəbləri, Dağlıq Qarabağ münaqişəsinin başlanması, Azərbaycan xalqının milli - azadlıq mübarizəsi və bu hadisələrin nəticəsi kimi 1991 - ci il oktyabrın 18 - də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycanın Dövlət Müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktı" nın qəbul edilməsindən bəhs olunmuşdur.*
***Açar sözlər:** SSRİ, süqut, mübarizə, milli - azadlıq, Qarabağ, münaqişə, Qanlı yanvar, müstəqillik*

## *THE COLLAPSE OF THE USSR AND THE RESTORATION OF AZERBAIJAN'S STATE INDEPENDENCE*

*The present article research the period of the collapsing USSR in the mid of 80 s, and in the early of 90 s years of XX century, its causes, along side with beginning of the Mountain ( Nagorno) Karabakh conflict, the struggle for national liberation of Azerbaijani people following result of these events. The adoption of the "Constitutional Act the Restoration of the Independence State of Azerbaijan Republic" on the 18 October 1991 was mentioned.*
***Keywords: USSR,** collapse, struggle, national liberation, conflict, Karabakh, Blood January, independence*

**Giriş:** XX əsrdə Azərbaycan iki dəfə öz dövlət müstəqilliyini elan etmişdir. 1918 – 1920 - ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, 23 aylıq mövcudluğu dövründə dövlət quruculuğu sahəsində əldə etdiyi çox böyük uğurlara baxmayaraq, sovet Rusiyasının işğalı nəticəsində varlığına son qoyuldu. 1991 - ci ildə yenidən müstəqilliyini əldə edən xalqımız 2021 - ci il oktyabrın 18 - də Azərbaycanın dövlət müstəqilliyinin 30 - cu ildönümünü qeyd etdi. Məlumdur ki, bu müstəqilliyi həm qazanmaq, həm də qoruyub saxlamaq bir o qədər də asan olmamışdır. Qısaca olaraq bu hadisələrin xronikasına diqqət yetirək.

**SSRİ-nin süqutu və səbəbləri.** XX əsrin 70 - ci illərinin II yarısından etibarən SSRİ-nin siyasi, iqtisadi, mənəvi-psixoloji böhranı göz qabağında idi. Sov.İKP MK-nın Baş katibi L.İ. Brejnevin 1982 - ci ildə ölümündən sonra hakimiyyətdə olan Y.V.Andropovun (1982 - 1984) və K.U.Çernenkonun (1984 - 1985) həyata keçirdiyi bir çox tədbirlər və

islahatlar gözlənilən nəticələri vermədi. Təkcə ölkə daxilində deyil, beynəlxalq aləmdə də SSRİ nüfuzdan düşür, ölkə daxilində müttəfiq respublikaların ayrılma meyllərinin artması müşahidə olunurdu. 1985 - ci ildə M.S.Qorbaçovun Sov.İKP MK - nın Baş katibi vəzifəsini tutması ilə ölkədə başlanan "yenidənqurma", "aşkarlıq" və "demokratikləşdirmə" prosesləri mövcud vəziyyəti daha da gərginləşdirdi. İstehsalın artım sürəti, əməyin məhsuldarlığı aşağı düşməkdə davam edir, siyasi həyatda kommunist ideologiyası açıq - aşkar iflasa uğrayırdı. Milli respublikalarda milli özünüdərkin təqib olunmasına, hüquqların tapdalanmasına, milli sərvətlərin mərkəz tərəfindən talan edilməsinə qarşı etirazlar səslənirdi. Hadisələrin gedişatı açıq - aşkar göstərirdi ki, ölkədə təkpartiyalı sistem, partiya amirliyi ləğv olunmadan, respublikaların suveren hüquqları təmin edilmədən iqtisadiyyatın dirçəlişi, xalqın maddi rifahının yüksəldilməsi mümkün olmayacaqdır.

SSRİ - nin iflasının bir sıra xarici səbəbləri də var idi. 80 - ci illərin ikinci yarısından etibarən Avropada, həmçinin Varşava Müqaviləsi Təşkilatına daxil olan ölkələrdə baş verən siyasi proseslər, Əfqanıstana sovet qoşunlarının yeridilməsi və s. böhranı daha da dərinləşdirmişdi.

Sovet rəhbərliyi bu proseslərin qarşısını almaq, xalqın diqqətini başlıca proseslərdən və problemlərdən yayındırmaq üçün özünün ənənəvi "parçala, hökm sür" siyasətini gündəmə gətirib, milli respublikalar arasında münaqişələri qızışdırır, ölkədə, xüsusilə də milli respublikalar arasında qanlı hadisələrin başlanmasına şərait yaradırdı.

**Dağlıq Qarabağ münaqişəsinin başlanması.** Bu vəziyyətdən istifadə edən erməni separatçıları artıq 1985 – 1986 - cı illərdən etibarən, M.S.Qorbaçovun xeyir - duası ilə, müxtəlif təşkilatlar yaradır, antiazərbaycan ruhlu təbliğat işlərini genişləndirir, Dağlıq Qarabağın Azərbaycandan qoparılması üçün bu vaxta qədər qeyri - leqal həyata keçirdikləri fəaliyyəti "aşkarlıq" şüarı altında gündəmə gətirirlər.

Sovet imperiyasını zəiflətməkdə və dağıtmaqda maraqlı olan Qərb dövlətləri də, öz imkanları daxilində, bu milli münaqişələri, o cümlədən qondarma "Dağlıq Qarabağ problemini" körükləyir və qızışdırırdılar.

M.S.Qorbaçovun yenidənqurma və aşkarlıq şüarları ilə ölkənin demokratikləşdirilməsi üçün göstərdiyi cəhdlər millətçi quvvələrin fəallaşmasına səbəb oldu. Cəmiyyətdə məqsədi bilinməyən müxtəlif ictimai qurumların yaradılmasına icazə verilməsi, bunların millətçi qüvvələrin yuvalarına çevrilməsi, azad informasiya şəraitinin yaradılması Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının irəli sürülməsi üçün əlverişli şərait yaratdı. Erməni millətçiləri məhz informasiya azadlığından istifadə edərək həm dünya, o cümlədən də Avropa və Rusiya ictimaiyyətinə saxta, yanlış və qərəzli məlumatlar ötürüb ölkədə və bölgədə gərgin bir münaqişə zonası yaratmağa müvəffəq oldular.

Sovet rəhbərliyi Ermənistanın Azərbaycana qarşı təcavüzünün qarşısını

almaq üçün zəruri olan tədbirləri görmədi və görmək istəmədi. Bunun nəticəsi isə o oldu ki, erməni silahlıları Dağlıq Qarabağda hərbi əməliyyatları genişləndirib 1988 – 1991 - ci illər ərzində 2559 toqquşma, 315 silahlı basqın, 1388 atəşə tutma halları törətdi, nəticədə 514 nəfər dinc sakin həlak oldu, 1.318 nəfər isə yaralandı [9, s.120-121].

1987 - ci ilin oktyabr ayında Yerevanda "Qarabağ komitəsi" deyilən təşkilat özünün ilk açıq mitinqini keçirdi və bundan sonra Dağlıq Qarabağ ermənilərinin Ermənistana birləşmək uğrunda "Miasum" (birləşmə) hərəkatı genişləndi. 1988 - ci ilin əvvəllərindən etibarən ermənilər DQMV - nın mərkəzi Xankəndində (Stepanakertdə) kütləvi mitinqlər, nümayişlər keçirməyə başladılar. Ardı - arası kəsilməyən bu çıxışların nəticəsində həm Qarabağda, həm də Ermənistan ərazisində Azərbaycan türklərinə qarşı təqiblər, qətliamlar, soyqırımlar, onların doğma yurd - yuvalarından kütləvi şəkildə deportasiya olunması başlandı. Həm Moskvanın, həm də Azərbaycanın partiya rəhbərliyinin bu hadisələrə susqunluqla yanaşması ermənilərin əl - qolunu daha da açdı. Onlar özləri süni şəkildə 1988 - ci ilin fevral ayının 28 - də Sumqayıtda "erməni talanları" təşkil edərək, bunu bütün dünyaya azərbaycanlılar tərəfindən ermənilərə qarşı törədilən soyqırım kimi təqdim etdilər.

Sumqayıt hadisələrindən sonra Ermənistanda qanlı antitürk hərəkatı daha da genişləndi. 1991 - ci il avqustun 8 - dək davam edən bu hərəkat dövründə 230 min nəfərə qədər azərbaycanlı Ermənistan ərazisindən qovuldu, 31 min ev, 165 kolxoz və sovxoz əmlakı, çox sayda mal - qara talandı. 225 nəfər öldürüldü, 1.154 nəfər yaralandı, yüzlərlə insan işgəncələrə məruz qaldı, müxtəlif əzaları kəsildi, gözləri çıxarıldı və s. [8].

Moskvanın Dağlıq Qarabağ məsələsində yeritdiyi açıq ermənipərəst siyasət, o zaman Azərbaycan KP MK - nın birinci katibi Ə.Vəzirov hakimiyyətinin acizliyi və mərkəzin antiazərbaycan siyasətinin yedəyində getməsi, xüsusən də ermənilərin nadir Topxana meşəsində sənaye obyekti tikintisinə başlaması xəbəri Azərbaycan xalqını ayağa qaldırdı. 1988 - ci il noyabrın 17 - dən Bakıda, Lenin meydanında (indiki Azadlıq meydanı) xalq hərəkatı başlandı. Noyabrın 19 - da Mərkəzin tabeliyində qalınca Dağlıq Qarabağ məsələsinin həll olunmayacağına əmin olan xalq Azadlıq meydanında, ilk dəfə olaraq, 1918 - 1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını qaldırdı. Hökumət nümayəndələri mitinqi dayandırmağı tələb etdikdə Azadlıq meydanında "Moskvanın fitnələrinə son qoyulsun!", "Suverenlik!", "Azadlıq!" şüarları səslənməyə başladı. Azadlıq hərəkatı yeni vüsət aldı. Dekabrın 4 - də gecə Bakıda yerləşən sovet hərbi hissələri hücuma keçib zor gücünə meydanı boşaltdılar. Xalq hərəkatının fəalları həbs olundular. Xalq hərəkatının birinci - kortəbii mərhələsinin zirvəsi olan Meydan hərəkatı göstərdi ki, mitinq və nümayişlərlə mövcud problemin həll olunması mümkün deyil. Moskvanın təyin etdiyi rəhbərlərin

əvəzinə xalqın özünün sevdiyi, seçdiyi lideri olmalıdır. Liderlə xalq birləşməlidir. Xalq Azərbaycanın üzləşdiyi taleyüklü problemləri həll etməyə qadir siyasətçi kimi ancaq Heydər Əliyevi görürdü. Lakin onun qarşısında yaradılan əngəllər 1990 - cı il 20 yanvar qırğınına aparan yolun da başlanğıcını qoydu. 1990 - cı il 20 yanvar qırğını bir daha xalqın başsız qaldığını göstərdi. Məhz belə bir ağır şəraitdə Heydər Əliyev Moskvanın Azərbaycana qarşı həyata keçirdiyi imperiya siyasətinə öz etiraz səsini qaldırdı. Bu, əslində, 1987 - ci ildən sonra Heydər Əliyevin ikinci dəfə böyük siyasətə qayıdışı demək idi. 1990 - cı il yanvarın 21 - də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək 20 Yanvar faciəsinə siyasi qiymət verdi, əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd siyasət yeridən mərkəzin və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi [3, s.2]. Moskvadakı 21 yanvar 1990 - cı il tarixli çıxışı ilə Heydər Əliyev Azərbaycan xalqının Qurtuluş mübarizəsinin önünə keçdi.

Heydər Əliyevin hələ XX yüzilliyin 70 - 80 - ci illərinin əvvəllərində Azərbaycan SSR KP MK - nın I katibi olarkən həyata keçirdiyi kompleks inkişaf proqramları nəticəsində Şimali Azərbaycanı o zaman dağılmağa başlamış böyük SSRİ məkanında qabaqcıl sənaye, kənd təsərrüfatı və mədəniyyət respublikasına çevirə bilmişdi. Bu, Heydər Əliyevin məqsədyönlü, qabaqcadan götür - qoy edilmiş, dərindən ölçülüb - biçilmiş və gələcəyə istiqamətlənmiş müdrik siyasətinin, dahiyanə uzaqgörənliyinin parlaq nəticəsi idi. Heydər Əliyevin özü demişkən: *"Azərbaycanın Sovet dövründə inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi - texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır"* [1, s.23]. Heydər Əliyev hələ o zaman müstəqil yaşadığımız bu günləri görürdü, doğma Vətənini bu günlər üçün hazırlayırdı. Böyük düha sahibi yeni Azərbaycanı – bugünkü Azərbaycanı hələ o vaxtdan qurmağa başlamışdı. Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə həyata keçirdiyi bütün bu əzəmətli quruculuq işlərinin çox böyük tarixi əhəmiyyəti bundan ibarət idi ki, xalqımızda milli qürur, milli mənlik şüuru oyandı, azadlıq, müstəqillik duyğuları baş qaldırdı. Bu, əslində XX yüzilliyin 70 - ci illərində Azərbaycan xalqının milli - azadlıq hərəkatının yeni mərhələyə - yüksəliş mərhələsinə daxil olması demək idi. Bu, Heydər Əliyevin xalqımızın istiqlal mübarizəsi tarixində misilsiz xidmətidir.

Qeyd etmək lazımdır ki, 1982 - ci ildən Azərbaycan xalqının oğlu, bütün Sovet İttifaqında görkəmli dövlət və siyasi xadim kimi böyük nüfuz qazanmış Heydər Əliyev SSRİ - nin ən yüksək dövlət və partiya vəzifələrindən birinə yüksəlmişdi. Hətta K.U.Çernenkonun ölümündən sonra Sov. İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi uğurlu fəaliyyəti sayəsində ölkənin qabaqcıl intellektual elitası, habelə siyasi xadimlərin, o cümlədən Siyasi Büro üzvlərinin bir çoxu onu

ciddi çətinliklər qarşısında qalmış SSRİ - ni ən yaxşı idarə edə biləcək və böhrandan çıxaracaq namizəd kimi qiymətləndirirdi. Lakin SSRİ - nin təcrübəli dövlət xadimi Andrey Qromıkonun qeyd etdiyi kimi, gözəl təşkilatçı, təmiz və abırlı adam olan Heydər Əliyevin Sov. İKP MK Baş katibi vəzifəsinə namizədliyi yalnız milli mənsubiyyətinə görə istisna edilmişdi. Heydər Əliyevin özünün də qeyd etdiyi kimi, *azərbaycanlılara, müsəlmanlara... ölkədə dördüncü, beşinci təbəqə kimi baxırdılar* [2, s.108].

Buna görə də, M.Qorbaçovun sonralar etiraf etdiyi kimi, Heydər Əliyev yenidənqurma prosesini, demokratikləşmə prosesini çox qızğınlıqla, ürəkdən bəyənməsinə, Siyasi Büronun fəal üzvü və son dərəcə ciddi rəhbər olmasına baxmayaraq, 1987 - ci ilin oktyabrında nəinki idarəçilikdən uzaqlaşdırıldı, hətta onu xalqın gözündən salmaq üçün böhtançı təbliğat kompaniyasına başlanıldı.

1989 - cu ilin yanvar ayında SSRİ Ali Sovetinin Rəyasət Heyəti "Azərbaycan SSR - nin Dağlıq Qarabağ Muxtar Vilayətində Xüsusi İdarə Üsulunun yaradılması haqqında" qərar qəbul etdi. Bu qərarla bütün vilayət faktiki olaraq Azərbaycandan qoparılmış oldu. Ermənipərəst Arkadi Volskinin rəhbərliyi ilə Xüsusi İdarə komitəsi yaradıldı. Bunun nəticəsi olaraq 1989 - cu ilin iyulunda 14.000 azərbaycanlı Xankəndindən (Stepanakertdən) qovuldu. Azərbaycan əhalisinin təkidli tələblərindən sonra 1989 - cu il noyabrın 28 - də XİK ləğv edildi. 1990 - cı ilin mayında DQMV - nın idarəçiliyi yenidən Azərbaycana qaytarıldı.

Azərbaycanlıların kütləvi surətdə Ermənistan SSR - nin ərazisindən və DQMV - dan qovulması xalq hərəkatının vüsətinə təkan verdi. 1989 - cu ilin iyununda Bakıda Azərbaycan Xalq Cəbhəsinin təsis konfransı keçirildi. Qeyd edək ki, ilk dövrlərdə bu təşkilatın geniş sosial bazası var idi. Azərbaycan xalqının azadlıq hərəkatı nəticəsində Azərbaycan Respublikasının Ali Soveti 1989 - cu il sentyabrın 23 - də "Azərbaycan SSR - nin suverenliyi haqqında" Konstitusiya Qanunu qəbul etdi.

1989 - cu il dekabrın 30 - da Gəncə şəhərinin tarixi adı bərpa edildi. Ondan bir gün sonra dekabrın 31 - də Azərbaycanla İran arasındakı sərhəd istehkamları dağıdıldı.

Ölkədəki bu gərginliklərin nəticəsində 1990 - cı il yanvarın 19 - da Naxçıvan MSSR - nin Ali Soveti Naxçıvanın SSRİ - nin tərkibindən çıxması haqqında qərar qəbul etdi.

Yanvarın 19 - dan 20 - nə keçən gecə Sovet ordusu Azərbaycana heç bir xəbərdarlıq etmədən, xaincəsinə Bakı şəhərinə qanlı hücum təşkil etdi. Tariximizə "Qanlı yanvar" adı ilə daxil olmuş bu faciə nəticəsində təkcə Bakı şəhəri və onun ətrafında 131 nəfər həlak olmuş, 744 nəfər yaralanmış, 400 nəfər isə həbs edilmişdi. Həmin hadisənin səhəri günü Moskvada yaşayan Ümummilli lider Heydər Əliyev Azərbaycanın Moskvadakı Daimi nümayəndəliyinə gedərək bu hadisənin əsl mahiyyətini – Azərbaycan xalqına qarşı qanlı təcavüz olduğunu dünya ictimaiyyətinə bəyan etmiş, bu qanlı cinayəti törədən sovet rəhbərliyini ifşa etmişdi.

Xalq Azərbaycanın üzləşdiyi taleyüklü problemləri həll etməyə qadir siyasətçi kimi ancaq Heydər Əliyevi görürdü. Lakin onun qarşısında yaradılan əngəllər 1990 - cı il 20 yanvar qırğınına aparan yolun da başlanğıcını qoydu. 1990 - cı il 20 yanvar qırğını bir daha xalqın başsız qaldığını göstərdi.

Azərbaycanda, Bakıda fövqəladə vəziyyət olmasına baxmayaraq, yanvarın 22-də xalq – yüz minlərlə insanı əhatə edən izdiham seli 20 yanvar şəhidləri ilə vidalaşdı. Paytaxt matəm libası geyinmişdi. Respublikada üç günlük matəm elan olunmuşdu. Azadlıq meydanında izdihamlı matəm mitinqi keçirildi. Mitinqdə və dəfn mərasimində milyona qədər insan iştirak edirdi. Bu, azadlıq, haqq, ədalət, demokratiya yolunda, Vətən torpağını – Dağlıq Qarabağı qoruyub saxlamaq naminə canlarından keçmiş şəhidlərin müqəddəs ruhuna ümumxalq ehtiramının, eyni zamanda, Moskvanın qanlı cinayətinə qarşı kəskin ümumxalq etirazının ifadəsi idi. Binaların, o cümlədən AKP MK binasının divarlarına yazılmış "Qorbaçov cəlladdır!", "Rədd olsun Sov. İKP!", "İşğalçılar, rədd olub gedin!" və b. ifadələr Azərbaycan xalqının işğal rejiminə qarşı ümumi əhval - ruhiyyəsini əks etdirirdi. Xalqa qarşı Mərkəzdən göstəriş alan sovet ordusunun qanlı cinayətləri isə hələ bitib - tükənmək bilmirdi. Gizlicə respublikadan qaçmış Ə.Vəzirovun yerinə Moskva yanvarın 24 - də Ayaz Mütəllibovu Azərbaycan KP MK - nın birinci katibi vəzifəsinə gətirdi [4, s.200]. M.Qorbaçov başda olmaqla imperiya rəhbərləri, onların yerli əlaltıları xalq hərəkatına qarşı əlbir mübarizəni davam etdirdilər. Bakıda fövqəladə vəziyyət, komendant saatı tətbiq edildi. Kütləvi həbslər həyata keçirildi. Lakin imperiya rəhbərliyi və onların yerli əlaltıları Azərbaycan xalqının iradəsini qıra bilmədi.

**Azərbaycanın Dövlət Müstəqilliyinin bərpası.** Xalqın bu ağır günlərində 1990 - cı il iyulun 20 - də Heydər Əliyev Moskvadan Azərbaycana qayıtdı. O, həm Azərbaycan SSR Ali Sovetinə, həm də Naxçıvan MSSR - nin Ali Sovetinə deputat seçildi. Onun təşəbbüsü ilə 1990 - cı ilin noyabr ayında Muxtar Respublikanın adından Sovet Sosialist sözləri götürüldü və Naxçıvan Ali Sovetinin adı dəyişdirilərək Ali Məclis adlandırıldı.

Xalqımızın demokratik qüvvələrinin tələbi ilə 1991 - ci il fevralın 5 - də Azərbaycan SSR - nin Ali Sovetinin sessiyası Azərbaycan SSR - nin adından "Sovet Sosialist" sözlərini çıxarıb, onun "Azərbaycan Respublikası" adlandırılması haqqında qərar qəbul etdi.

Azərbaycan Respublikası Ali Sovetinin 1991 - ci il 7 mart tarixli sessiyasında Heydər Əliyev, bütün qətiyyəti ilə, SSRİ - nin saxlanmasına münasibət bildirilməsi üçün təşkil olunması nəzərdə tutulan Ümumittifaq referendumunda iştirak etməyin əleyhinə çıxdı. *"Mən yeni İttifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin, heç bir şərt qoymadan, tam əleyhinəyəm... Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam... Azərbaycan tam müstəqil*

*dövlət kimi fəaliyyət göstərmək üçün bütün imkanlara malikdir* [5, s.5]. Heydər Əliyev eyni qətiyyətlə respublika rəhbərliyinin əməldə müstəqillik əleyhinə olduğunu, bunu iqtisadi çətinliklər, uydurma vətəndaş müharibəsi təhlükəsi kimi amillərlə əsaslandırmağa çalışdığını, Bakıda fövqəladə vəziyyəti ləğv etmək istəmədiyini və bütün bunların hakimiyyəti əldə saxlamaq niyyətindən irəli gəldiyini göstərdi. SSRİ - nin saxlanılmasına münasibət bildirmək üçün kommunistlər birləşib Azərbaycanın referendumda iştirakı barədə qərar qəbul etdilər. Ermənistanın boykot etdiyi bu referendumda Azərbaycanın iştirakı Moskvanın antiAzərbaycan mövqeyinə heç bir təsir göstərmədi.

Bu ibrətamiz tarixi faktdır ki, Heydər Əliyevin qətiyyəti və siyasi iradəsi ilə Naxçıvan MR - nın Ali Məclisi 1991 - ci il martın 14 - də SSRİ - nin saxlanılması barədə referendumda iştirak etməmək haqqında qərar qəbul etdi. Respublika iqtidarının bunu separatçılıq kimi qiymətləndirməsi, Muxtar Respublikaya təzyiqlər göstərməsi Heydər Əliyevi və onun arxasında duran Naxçıvan əhalisini yolundan döndərə bilmədi [2, s.119]. Azərbaycanın demokratik qüvvələri də referendumu boykot etdilər. On gün ərzində (qanunla iki ay olmalı idi!) tələm - tələsik hazırlıqdan sonra martın 17 - də keçirilmiş referendumun nəticələri saxtalaşdırıldı, guya səsvermədə iştirak edənlərin tam əksəriyyəti SSRİ - nin saxlanılmasına tərəfdar oldu. Bu, əslində, şanlı istiqlal mübarizəsinə qalxmış Azərbaycan xalqının tarixinə vurulmuş qara ləkə idi. 1991 - ci ilin avqustunda demokratik qüvvələrin birgə fəaliyyəti nəticəsində SSRİ - də dövlət çevrilişinin qarşısı alındı.

Azərbaycanda da irticaya tərəfdar olan qüvvələrə qarşı mübarizə gücləndi. Mitinqlərdə respublikada prezident seçkilərinin dayandırılması, parlamentin buraxılması, yeni parlament seçkiləri keçirilməsi, Kommunist Partiyası hakimiyyətinin, fövqəladə vəziyyətin ləğv edilməsi, DQMV - də Azərbaycanın suveren hüquqlarının təmin olunması üçün qəti tədbirlər görülməsi tələb edildi.

Xalqın tələbi ilə çağırılmış Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyası 1991 - ci il avqustun 30 - da Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi haqqında bəyanat – Azadlıq Bəyannaməsi qəbul etdi. Sessiyada Heydər Əliyevin bundan az əvvəl keçirilmiş referendumun nəticələrinin ləğv edilməsi, Azadlıq Bəyannaməsinin legitimliyini təmin etmək üçün yeni referendum keçirilməsi haqqında tələbi qulaqardına vuruldu. Heydər Əliyev sessiyadakı çıxışında deyirdi: "*Biz artıq sovet imperiyasının, Kommunist Partiyasının dağılmasının şahidiyik... Bizim respublikamızın, Azərbaycan xalqının vəziyyəti daha çətin, daha ağırdır. Bunun əsas səbəbi respublikada hökm sürən Azərbaycan Kommunist Partiyasının diktatura rejiminin mürtəce siyasəti və buraxdığı kobud, bağışlanılmaz səhvlərdir*". O bildirdi ki, Azərbaycan Kommunist Partiyası dərhal hakimiyyətdən getməlidir. Lakin respublika başçıları isə hələ də

gözləmə mövqeyi tutur, qətiyyətsizlik nümayiş etdirirdilər [2, s.123].

Naxçıvanda isə müstəqillik uğrunda mübarizə getdikcə dərinləşməkdə idi. Belə ki, Naxçıvan MR Ali Məclisi 1991 - ci il sentyabrın 3 - də dəfələrlə namizədliyini geri götürməsinə baxmayaraq, Heydər Əliyevi xalqın təkidli tələbi ilə Ali Məclisin sədri seçdi. Ali Məclisin 4 sentyabr tarixli qərarı ilə Naxçıvan ərazisində prezident seçkiləri dayandırıldı. Azərbaycan iqtidarı Naxçıvana ciddi təzyiqlər göstərməyə başladı. Bu məqsədlə Naxçıvana xüsusi qüvvələr göndərildi. Lakin Ali Məclisin sədri Heydər Əliyev yerli televiziya ilə bəyanat verib xəbərdarlıq etdi ki, Naxçıvana təzyiq üçün gələn qüvvələr buranı tərk etməlidirlər, əks təqdirdə bütün əhali ayağa qalxacaqdır. İqtidar geri çəkilməyə məcbur oldu. Sentyabrın 8-də keçirilən prezident seçkilərində iqtidar xalq arasında böyük nüfuza malik olan Heydər Əliyevin prezident seçilə biləcəyindən təşvişə düşüb qanuna yaş senzi və son beş ildə Azərbaycanda yaşamaq haqqında yeni maddə daxil etdi. Xalq bu məhdudiyyətlərin ləğv olunmasını tələb edir, çoxsaylı mitinqlər keçirirdi. Nəticədə Prezident seçkiləri Naxçıvan MR ərazisində keçirilmədi. 8 sentyabr seçkilərinin nəticələrinə görə A.Mütəllibov yenidən respublikanın prezidenti elan olundu. Sentyabrın 14 - də, artıq, tamamilə iflasa uğramış Azərbaycan Kommunist Partiyası XXXIII fövqəladə qurultayını çağırıb özünü buraxılmış elan etdi.

1991 - ci il oktyabrın 18 - də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında yekdilliklə Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi.

1991 - ci il oktyabrın 18 - də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olunarkən Şimali Azərbaycan artıq müstəqil bir dövlət kimi yaşamağa tamamilə hazır idi. Heydər Əliyev yeni, müstəqil Azərbaycanı qurduğu illərdə tariximizin yuxarıda bəhs etdiyimiz dövrünü yada salaraq deyirdi: *"Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get - gedə daha dərindən inteqrasiya olunması hələ 1970 - 1985 - ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır"* [1, s.23].

1991 - ci il dekabrın 8 - də 3 dövlətin - RSFSR-nin, Belorusiya SSR - nin və Ukrayna SSR - nin prezidentləri Minsk şəhərinin Viskuli mehmanxanasında Müstəqil Dövlətlər Birliyinin yaradılması haqqında müqavilə imzalayıb, Beynəlxalq münasibətlərin subyekti kimi SSRİ - nin varlığına son qoyulduğunu elan etdilər. Dekabrın 25 - də M.S.Qorbaçov SSRİ prezidenti vəzifəsindən istefa verdi, 1991 - ci il dekabrın 29 - da isə Azərbaycanda ümumxalq səsverməsi keçirildi. Referendum bülleteninə bir sual yazılmışdı: *"Siz "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında" Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi Konstitusiya Aktına tərəfdarsınızmı*?"[6]. Azərbaycan xalqı yekdilliklə respublikanın dövlət müstəqilliyinə tərəfdar çıxdı.

1991 - ci il dekabrın 31 - də Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə "31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü" kimi təsis edildi.

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onların birliyinin və həmrəyliyinin təmin olunmasında bunun çox böyük əhəmiyyəti olmuşdur. Ulu öndər Heydər Əliyev dünya azərbaycanlılarının milli birliyinin və həmrəyliyinin təmin edilməsi, Azərbaycan dövləti və dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi zərurəti, o cümlədən, ana dilinin, milli - mənəvi dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi haqqında deyirdi: *"Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam!"*[7].

Müdrik rəhbərin bu kəlamları hər bir həmvətənimiz üçün milli qürur rəmzinə çevrilmişdir. Dahi şəxsiyyətin dünya azərbaycanlılarının həmrəyliyinin, birliyinin təmin edilməsi ilə bağlı ideyaları bu gün də aktualdır. Bu, xüsusilə özunu 44 gün davam etmiş II Qarabağ müharibəsində əyani şəkildə nümayiş etdirdi.

1992 - ci ilin mayında Milli Məclis tərəfindən Azərbaycan Respublikasının Dövlət himni, az sonra üçrəngli bayraq, içində alov olan səkkiz guşəli ulduz təsvirli dövlət gerbi təsdiq edildi.

**Nəticə:** Beləliklə, Azərbaycan xalqı XX əsrin sonlarında yenidən özünün dövlət müstəqilliyini elan etmək imkanı qazandı. Azərbaycan Respublikasının dövlət müstəqilliyi elan edildi. Lakin xalq müstəqil dövlətini qurmaq, möhkəmləndirmək, müdafiə etmək və inkişaf etdirmək üçün ağır sınaqlarla, çətinliklərlə üzləşməli oldu. Lakin Ümümmilli lider Heydər Əliyevin və onun siyasət məktəbinin yetirməsi və ardıcıl davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hakimiyyəti dövründə onun yeritdiyi ardıcıl Azərbaycançılıq və Dövlətçilik siyasəti nəticəsində həm ölkə daxilində, həm də beynəlxalq münasibətlərdə yaranmış bu ağlasığmaz çətinliklərin öhdəsindən gəlməyə nail olunmuş, Azərbaycan Respublikası həm müstəqilliyini qoruyub saxlamış, həm də Respublika daxilində ictimai - siyasi sabitlik yaranmışdı. Bütün bunların nəticəsi idi ki, 2020 - ci ilin payızında 30 il düşmən tapdağı altında olan Qarabağ torpaqlarını erməni işgalından azad etmək mümkün oldu. Azərbaycan xalqı Dünya dövlətləri birliyinə özünü Vətəninə, torpaqlarına və tarixinə ləyaqətlə sahib çıxmağa qadir olan bir xalq kimi tanıtdı və təsdiq etdi.

***Ədəbiyyat siyahısı:***

1. *Əliyev H.Ə. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Bakı: XXI-Yeni Nəşrlər Evi, 2001, 29 s.*
2. *Azərbaycan Respublikasının tarixi (1991-2003). 1-ci cild. Heydər Əliyev dövrü. Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016, 704 səh.*
3. *21 yanvar 1990-cı il, Moskva, Heydər Əliyev: "Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır". "Azərbaycan" qəz, 2010, 20 yanvar, s. 2.*

4. 1988-1991-ci illərdə Azərbaycanda ictimai-siyasi vəziyyət. Bakı Universitetinin xəbərləri: Humanitar elmlər seriyası, №4, 2015, s.196-202
5. Heydər Əliyev dühası: dövlət quruculuğu kursu müasir reallıqlar kontekstində. Xalq qəzeti.-2016.-13 dekabr-№ 267, s.5
6. "Azərbaycan Respublikasının dövlət müstəqilliyi məsələsi üzrə Azərbaycan Respublikası referendumunun keçirilməsi haqqında" Azərbaycan Respublikası Ali Soveti qərarının yerinə yetirilməsi gedişi barəsində Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının qərarı. Bakı şəhəri, 5 dekabr 1991-ci il. № 4.
7. Hər bir azərbaycanlı üçün birlik, həmrəylik günü -https://mod.gov.az/az/pre/21204.html.
8. Republik.preslib.az. Müstəqil Azərbaycan. Dövlət müstəqilliyinin bərpası və qorunub saxlanılması. Müraciət tarixi 30 oktyabr 2021-ci il
9. Seyidova S. Ermənistanın Azərbaycana qarşı təcavüzü və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində beynəlxalq təşkilatların mövqeyi. Bakı, ADPU-nun mətbəəsi, 2014, 411 s.

**UOT 94 (479.24); 930:314**

## DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİNİN TƏZAHÜRÜ

**Səidə Quliyeva**
*BDU, Tarix fakültəsi, böyük elmi işçi, dosent*
*saidaquliyeva@bsu.edu.az*

*Azərbaycanlılar! Harada olursan ol, hansı ölkədə yaşayırsan yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən! [5]*

***Heydər Əliyev***
***Görkəmli dövlət xadimi***

*2021-ci il Azərbaycanın dövlət müstəqilliyinin bərpa etməsinin və Dünya azərbaycanlılarının həmrəylik gününün təsis edilməsinin 30 illik ildönümüdür. Müstəqillik illərində azərbaycanlıların həmrəyliyi xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması və diaspora fəaliyyətinin elmi baxımdan tədqiq etmək aktuallıq kəsb edir.*

*Tədqiqatın məqsədi Vətən müharibəsindən qalib çıxmış xalqın həmrəyliyi prosesini elmi baxımdan tədqiq etməkdir. Bu məqsədlə xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması, informasiya mübarizəsində iştirakı, Vətən müharibəsi dövründə azərbaycanlıların həmrəyliyi, Azərbaycan və Türkiyə icmalarının birgə diaspora fəaliyyəti araşdırılmışdır.*

***Açar sözlər:*** *tarixi demoqrafiya, dünya azərbaycanlıları, azərbaycanlıların həmrəyliyi, Vətən müharibəsi, informasiya mübarizəsi, erməni millətçiliyinə qarşı mübarizə*

### MANİFİSTATİON OF THE SOLİDARİTY OF WORLD AZERBAİJANİANS

*2021 is the 30th anniversary of the restoration of state independence of Azerbaijan and the establishment of the Day of Solidarity of World Azerbaijanis. The relevance of the topic is important from the point of view of the scientific study of the organization of Azerbaijanis living abroad and the activities of the diaspora, the solidarity of Azerbaijanis in the years of independence.*

*The purpose of the research is to scientifically study the process of solidarity of people who won the Patriotic War. For this purpose, the organization of Azerbaijanis living abroad, their participation in the information struggle, the solidarity of Azerbaijanis during the Patriotic War, the joint diaspora activities of the Azerbaijani and Turkish communities were studied.*

***Keywords:*** *historical demography, world Azerbaijanis, solidarity Azerbaijanis, Karabakh war, information war, The struggle against Armenian nationalism*

**Giriş.** Müstəqilliyin bərpasından sonra Azərbaycan tarix elmində elmi müstəviyə daxil olan mövzulardan biri əhali problemidir. Tarixi Azərbaycan torparlarından və müxtəlif səbəblərdən xarici ölkələrə köçmüş əhali tarixi demoqrafik tədqiqatlara cəlb edilir. Keçən 30 ildə tarixi Azərbaycan torpaqlarında miqrasiya prosesləri, mühacirlərin tarixi, mexaniki hərəkətin əhalinin

say dinamikasına təsiri müxtəlif dövrlər və istiqamətlər üzrə tədqiq edilərək müəyyən elmi yeniliklər əldə edilmişdir. Davamlı proseslərdən biri azərbaycanlıların yaşadıqları ölkələrdə inteqrasiya prosesi, ictimai-siyasi proseslərdə iştirakı, həmin ölkələrin Azərbaycanla əlaqələrinin inkişafında iştirakları, azərbaycanlıların həmrəylik, diaspora və lobbiçilik fəaliyyətidir.

Azərbaycanın 1991-ci ildə müstəqilliyini bərpa etməsi dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar tərəfindən böyük bir uğur, tarixi hadisə kimi qarşılanmışdır. Çünki fərqli dövrlərdə və müxtəlif hadisələr səbəbindən xaricə köçməyə məcbur olmuş insanların əksəriyyəti bir gün Azərbaycanın müstəqil olacağına inanmış, bu istiqamətdə fəaliyyət göstərməyə çalışmışlar. Müstəqil siyasi mərkəzin olması xaricdə yaşayan azərbaycanlılar üçün mənəvi, emosional, mədəni, siyasi, iqtisadi proseslər baxımından böyük təsir effekti yaratmışdır. Bu tarixdən başlayaq onlar milli mənafenin müdafiəsi, milli maraqların qorunması istiqamətində fəaliyyət məqsədilə təşkilatlanmağa daha böyük əhəmiyyət verməyə başlamışlar.

Tədqiqatda dünya azərbaycanlılarının həmrəylik gününün təsis edilməsindən keçən 30 illik müddətdə azərbaycanlıların həmrəyliyinin təzahür formalarına, həmrəyliyin həyata keçirilməsi istiqamətində baş verən proseslərə nəzər salınır, tarixi-demoqrafik baxımdan tədqiq edilir. Xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması, Türkiyə və Azərbaycan diasporunun birgə fəaliyyəti araşdırılır, Vətən müharibəsi dövründə azərbaycanlıların həmrəylik fəaliyyəti təhlil edilir.

**Xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması.** Müxtəlif siyasi-hərbi, iqtisadi səbəblərdən Azərbaycandan köç etmək məcburiyyətində qalan insanlar vətənlə əlaqələrini qorumağa çalışmış, burada baş verən hadisələri həyəcanla izləmişlər. Yaşadıqları ölkələrə uyğunlaşmağa çalışan azərbaycanlılar, eyni zamanda, öz milli adət-ənənələrini, milli mənsubiyyətlərini, əsrlərdən gələn mənəvi-əxlaqi dəyərlərini qorumuş, eyni ölkədə yaşayan həmvətənləri ilə əlaqələr yaratmışlar. Bu əlaqələr ilkin dövrlərdə milli bayramların və müxtəlif tarixi-milli əlamətdar günlərin qeyd edilməsi ilə aransa da, müəyyən vaxtdan sonra artıq təşkilatlanma prosesi başlamışdır. Birgə mədəni, kütləvi tədbirlərin təşkili, elmi konfranslar və digər tədbirlər təşkilatlanma üçün zəmin yaratmışdır. Məhz bu təşkilatlar zamanla diaspora fəaliyyətinin təşkilində ilk addımlar atmışlar. Bu gün dünyanın müxtəlif ölkələrində diasporumuzun mövcudluğu da məhz bu amillərlə bağlıdır.

Azərbaycanlıların yaşadıqları coğrafi ərazilərə nəzər salaq. Məlumdur ki, azərbaycanlıların tarixi vətənləri Qafqaz, İran, Şərqi Anadolu əraziləridir.

Bununla yanaşı, Azərbaycanın XIX əsrdə Rusiya imperiyasının, XX əsrin əvvələrində bolşeviklər tərəfindən işğalı ilə əlaqədar azərbaycanlıların Türkiyəyə köçləri baş vermişdir. Bu köçlər hərbi-siyasi hadisələrlə əlaqədar idisə, XX əsrin sonlarında və XXI əsrdə bu köçlər əsasən siyasi, hərbi, əmək, təhsil və ailə-nikah münasibətləri ilə əlaqədar olmuşdur. Türkiyəyə üz tutan azərbaycanlıların bir qısmi sonradan Hollandiya, Belçika, Danimarka, İsveçrə

və Almaniyaya köçmüş, həmin ölkələrdə yaşayan Türkiyə türkləri ilə yaxınlaşmışlar.

İrandan xaricdə miqrasiya edən azərbaycanlıların bir hissəsi “azərbaycanlı”, az bir hissəsi isə “türk” kimliyi ilə tanınırlar. Bu səbəbdən də, dünyada yaşayan azərbaycanlıların sayı barədə məlumatlar çox vaxt fərqli olmuşdur.

XX əsrin 90-cı illərində Sovet Azərbaycanından və ya 1991-ci ildə Azərbaycan respublikasından xaricə köçən əhali isə özünü əsasən “azərbaycanlı” kimliyi ilə tanıtmışdır. Əlbəttə ki, həmin dövrdə emiqrasiya edən ruslar, yəhudilər və digər millətlərin nümayəndələri öz milli kimlikləri ilə təqdim edilmişlər.

Miqrasiya istiqamətlərinə nəzər saldıqda məlum olur ki, XX əsrin ortalarından başlayaraq müxtəlif dövrlərdə İrandan, 1970-ci ildən etibarən Türkiyədən, 1991-ci ildən isə Azərbaycandan köç edən azərbaycanlılar əsasən Amerika qitəsində məskunlaşmışlar. “Azərbaycan - Türkiyə: bir millət, iki dövlət Vahid diaspor” kitabında göstərilir ki, azərbaycanlılar Amerika qitəsinin Şimal, Mərkəzi və Cənub hissəsində daha çox məskunlaşmışlar [8, s. 46]. Bu ölkələrdə azərbaycanlıların 2 və 3-cü nəsilinin yaşaması onların inteqrasiya prosesinə həm imkan yaradır, həm də sürətləndirir.

Azərbaycanlıların məskunlaşma coğrafiyası və say tərkibinə görə ikinci qitə Avropadır. Böyük Britaniya, Çexiya, Slovakiya, Polşa, Avstriya, Estoniya, Belarus, Rusiya, Ukrayna, Moldova və Fransadakı soydaşlarımız İrandan və Azərbaycan Respublikasından köçənlərdir [7; 8, s.46]. Azerbaijan.az portalında azərbaycanlıların həmçinin Almaniyada, Norveçdə, Danimarkada, İsveçdə, Macarıstanda, Fransada, İtaliyada, İspaniyada, Albaniyada, Finlandiyada, Portuqaliyada və digər Qərb ölkələrində yaşadıqları göstərilir.

Rusiyada yaşayan azərbaycanlılar əsasən sovet dövründə müxtəlif səbəblərdən miqrasiya edən azərbaycanlıların varisləri, müstəqillik dövründə əmək, nikah və digər səbəblərdən miqrasiya etmiş şəxslərdir. Ukrayna və Belarusda yaşayan azərbaycanlılar da demək olar ki, sovet dövründə köçən azərbaycanlıların varisləridir.

Azərbaycanlılar Asiya qitəsində əsasən Mərkəzi Asiya, Əfqanıstan, Pakistan, İordaniya, Suriya, İraq, Banqladeş, Hindistan, İndoneziya, Çin, Birləşmiş Ərəb Əmirlikləri, Oman, Səudiyyə Ərəbistanında, Afrika qitəsində isə əsasən Misir və Əlcəzairdə yaşayırlar [4, s.16-17; 7].

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra müxtəlif ölkələrdə açılan səfirliklərimiz azərbaycanlıların Vətənlə əlaqələrinin qurulması və təşkilatlanması prosesləri sürətləndirmişdi. Mövcud icmaların birləşməsi və ya əlaqələrinin koordinasiya olunması onların fəaliyyətlərinin təşkilində mühüm hadisədir. Bu proses Azərbaycan Respublikasının prezidentlərinin diqqət mərkəzində olmuş və bir-başa özlərinin iştirakı ilə baş vermişdir.

Dünya azərbaycanlılarının birliyinin yaradılması prosesi görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü və şəxsi iştirakı ilə baş verirdi. O,

1991-ci ildə Naxçıvan Ali Sovetinin sədri kimi bu tarixi hadisənin gələcək əhəmiyyətini önə sürmüş və onun təşəbbüsü ilə 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik günü kimi qeyd edilməsi barədə qərar qəbul edilmişdir. "*Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!*" [9] deyən Azərbaycan Respublikasının Prezidenti xarici ölkələrə səfərləri zamanı həmin ölkələrdə yaşayan azərbaycanlılarla görüşür, onların problemləri ilə maraqlanırdı. Prezidentin həmin görüşlərdə səsləndirilən fikirləri fəaliyyət proqramı və vəzifələrin müəyyən edilməsi üçün çox dəyərli idi. Xalqın birlik ideyası olan Azərbaycançılıq ideologiyasının təbliği və azərbaycanlıların 31 dekabrı bütün dünyada yüksək səviyyədə qeyd etməsi məhz Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə baş verirdi, həmrəyliyin formalaşması prosesinə dövlət marağını irəli sürürdü. Bu strateji siyasətin davamı olaraq, 2001-ci ildə dünya azərbaycanlarının ilk qurultayı keçirilmişdir. Həmin il həm də dünya azərbaycanlılarının həmrəylik gününün təsis edilməsinin 10 illik yubileyi qeyd edilirdi. I Qurultaydan sonra Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin təsis olunması dövlətin bu prosesi təşkil etməsində mühüm mərhələnin əsasını qoydu [4, s.19-39; 13; 22]. Azərbaycan Respublikasının Prezidentinin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə yaradılan Komitə əslində dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təmin edilməsində əsas struktur oldu. Bu dövrdən başlayaq xaricdə yaşayan azərbaycanlılarla əlaqədar və Komitənin fəaliyyətini təşkil etmək üçün qanunvericilik bazası yaradılmağa başlayır, bur sıra mühüm termin və anlayışlar dədqiqləşdirilir. 27 dekabr 2002-ci il tarixli "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən "Xaricdə yaşayan azərbaycanlılar" anlayışı Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan Azərbaycan Respublikasının vətəndaşlarına və onların övladlarına, əvvəllər Azərbaycan SSR-in və ya Azərbaycan Respublikasının vətəndaşları olmuş, lakin hazırda xarici dövlətlərdə məskunlaşan şəxslərə və onların övladlarına, bu kateqoriyaya aid olmayan, lakin etnik, dil, mədəniyyət və ya tarixi əlaqələr baxımından özünü Azərbaycana bağlı və ya azərbaycanlı hesab edənlərə aid edilir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin prezidentliyi dövründə diaspora təşkilatlarının yaranması başlamışdı və onların fəaliyyətinin inkişafı, həmçinin ciddi nəticələrin əldə edilməsi üçün zaman lazım idi. Bütün bu proseslər Heydər Əliyev ideyalarını uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövründə baş verdi. Prezident İlham Əliyev 31 dekabr tarixinin əhəmiyyətini yüksək qiymətləndirərək demişdir ki, *"Azərbaycan xalqının müstəqillik əldə etdiyi vaxtdan 31 dekabr bütün dünyada yaşayan soydaşlarımız tərəfindən hər il qeyd edilən ümummilli bayramdır. Onun əsas qayəsini Azərbaycan dövlətçiliyi, xalqımızın milli-mənəvi dəyərlərinə hörmət, Azərbaycan xalqına mənsubluq, Vətənə bağlılıq hissi və ideyaları təşkil edir"* [6].

Respublika tərəfindən görülən müəyyən işlərlə yanaşı xaricdəki reallıqlar bu sahədə qısa müddətdə nəticələr əldə etməyə imkan vermədi. Yəqin ki, məhz bu səbəblərdən 2008-ci ildə yeni reallıqlara uyğunlaşmaq və diaspora quruculuğu prosesini daha mütəşəkkil təşkil etmək məqsədilə qurumda islahatlar aparılır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2008-ci il 19 noyabr tarixli 54 saylı Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılır [21]. Müxtəlif ölkələrdə azərbaycanlıların konqreslərinin və toplantılarının keçirilməsi (17 aprel 2004-cü il, Berlin. Avropa Azərbaycanlıları Konqresinin təsis konfransı. Konfransda dünyanın 28 ölkəsində fəaliyyət göstərən 50-dən artıq diaspor təşkilatından 264 nümayəndə iştirak etmişdi; oktyabr 2004-cü il. Ümumrusiya Azərbaycan Konqresinin II Qurultayı; 2005-ci il, Dnepropetrovsk. Ukrayna Azərbaycanlıları Konqresinin İdarə Heyətinin toplantısı; aprel 2005-ci il, Toronto. Azərbaycan Təşkilatları Federasiyasının təsis konfransı; 18-19 dekabr 2008-ci il, Bakı. Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının toplantı v.s.), Türkiyə və digər türk dövlətləri ilə birlikdə müxtəlif diaspora birliklərinin təşkili (28 may 2004-cü il, İsgəndərun. Türkiyədə fəaliyyət göstərən 18 Azərbaycan icma və birliklərini özündə birləşdirən Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası təsis edilmişdir; yanvar 2013-cü il, Bakı. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv Dövlətlərin Diaspor Məsələlərinə Cavabdeh Dövlət Qurumlarının Rəhbərlərinin I Toplantısı; iyun 2013-cü il. Bakı. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin birinci forumu), bu tədbirlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və digər dövlətlərin prezidentlərinin iştirakı konkret nəticələrin əldə edilməsində mühüm əhəmiyyət kəsb etmiş, həmçinin görülən işlərin siyasi və tarixi əhəmiyyəti artmışdır.

Dünya Azərbaycanlılarının Qurultayları ənənəvi olaraq Bakı şəhərində keçirilir. I qurultaydan sonra dünya azərbaycanlılarının 4 qurultayı keçirilmişdir (16 mart 2006 - II Qurultay; 5-6 iyul 2011 - III Qurultay; 3-4 iyun 2016 - IV Qurultay). Bu qurultaylar diaspor quruculuğu işinə yeni təkan vermiş, Azərbaycan icmalarının vahid təşkilatda birləşməsi prosesinin artıq mütəşəkkil xarakter aldığını və bütün dünyanı əhatə etməkdə olduğunu göstərmiş, tarixi və ictimai proseslərdə iştirak üçün konkret vəzifələrin icrasında mühüm əhəmiyyət kəsb etmişdir. Sonuncu qurultayda nümayəndələr Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin hökumət rəhbərlərinə və parlamentlərinə müraciət etmişlər. 2008-ci ildə Bakıda keçirilən Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının toplantısında "Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası" qəbul olunmuşdur.

Bu illərdə problemlərin və maneələrin aradan qaldığılmasında təcrübə qazanılmışdır. Xaricdə yaşayan azərbaycanlıların təşkilat və icmalarının kordinasiya edilməsi üçün şuralar yaradıldı. Son illərdə 25 ölkəni əhatə edən 11 Əlaqələndirmə Şurası yaradılmışdır [15; 16]. Vətən müharibəsi dövründə

bu təşkilatlar əlaqəli şəkildə fəaliyyət göstərdilər. Onların Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi ilə birlikdə fəaliyyəti nəticəsində Azərbaycan maraqlarının təbliğində və qorunmasında ciddi nəticələr əldə edildi.

Keçən 30 illik zaman xaricdə yaşayan azərbaycanlıların "Vətən-mən" əlaqəsində və anlayışında keyfiyyət və mənəvi baxımdan keçdiyi yolu təhlil etmək dövlətin və xaricdə yaşayan azərbaycanlıların vəzifələrinin müəyyənləşdirilməsində mühüm əhəmiyyət daşıyır. Hələ də əsas problemlərdən biri müxtəlif səbəblərdən xaricə yaşayan azərbaycanlıların dövlət qurumları ilə maneəsiz əlaqələrinin yaradılması, onların müraciətlərinə operativ cavab verilməsi, türk dövlətlərinə aid diaspora təşkilatları birgə fəaliyyət, şimali və cənubi Azərbaycandan köçən insanların vahid təşkilatlarda fəaliyyəti məsələsi, yaşadıqları ölkənin ictimai və siyasi həyatına inteqrasiya problem olaraq qalır. Artıq bir neçə nəsil yaşayan ölkələrdə biz bu problemin nisbətən aradan qalxdığına şahid oluruq.

**Azərbaycan-Türkiyə birgə diaspora fəaliyyəti.** Müstəqilliyin bərpasından sonra Azərbaycan və Türkiyə dövlətlərinin qardaşlıq münasibətləri hər iki dövlətin vahid diaspora fəaliyyətini də zəruri etmişdir. Milli-mənəvi baxımdan yad cəmiyyətdə yaşamaq və inteqrasiya prosesləri azərbaycanlı və türkiyəli mühacirləri hər zaman problemlərin birgə həllinə sövq etmişdir.

Xüsusilə, Azərbaycan və Türkiyə dövlətlərinin diaspora fəaliyyətinin əlaqələndirilməsi və birgə proqramların icrası milli-mənəvi bağlılıqdan əlavə həm də ermənilərin hər iki dövlətə qarşı ərazi iddiaları ilə əlaqədar zəruri olmuşdur [8, 49-118]. Bu səbəbdən də, hər iki dövlətin xarici siyasətində ortaq məsələlərdən biri bu istiqamətlərdə əməkdaşlıq və səylərini birləşdirmək ən doğru qərar olmuşdu.

Xocalı soyqırımına aid birgə tədbirlər xüsusilə ciddi şəkildə təşkil edilirdi bə diqqəti cəlb edirdi. Belə ki, ermənilər 1915-ci il hadisələri ilə əlaqədar saxta faktlarla siyasi qərarlar qəbul etdirərkən, yaxın tarixdə və real faktlarla sübut edilən Xocalı soyqırımının anılması mühüm əhəmiyyət daşıyırdı. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə səfirliklərin və müxtəlif ölkələrdə fəaliyyət göstərən diaspora qurumlarının iştirakı ilə elmi konfrasların, yürüşlərin və ədəbi-kütləvi tədbirlərin təşkili, rəsm və esse müsabiqələrinin keçirilməsi, nəqliyyatda və küçələrdə posterlərin vurulması Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalını, müharibənin ən qanlı tarixinin Xocalı soyqırımı olduğunu və digər məsələləri icimaiyyətə çatdırır, həmin ölkələrində ictimai rəyin formalaşmasına təsir göstərməyə çalışılırdı [14].

Keçən 30 il bu siyasətin ciddi təşkil edildiyini və uğurlu nəticələrin olduğunu göstərir. Qardaş xalqlar arasında əlaqələrin inkişafı və diaspora fəaliyyətinin əlaqələndirilməsi hər iki ölkədə dövlət siyasətidir.

Diaspora fəaliyyətinin əlaqələndirilməsində müntəzəm olaraq təşkil edilən iki əsas tədbiri – Türk dövlət və Cəmiyyətlərinin Dostluq, Qardaşlıq və Əməkdaşlıq qurultaylarının və Dünya azərbaycanlılarının qurultaylarının

əhəmiyyətini qeyd etmək vacibdir.

Türk dövlətləri arasında ən böyük və fəaliyyəti ciddi şəkildə təşkil edilən diaspora Türkiyə və Azərbaycana məxsusdur. Müstəqil türk dövlətlərinin dövlət başçıları səviyyəsində müxtəlif təşkilatlarda birləşməsi, xüsusilə 2021-ci ildə Türk Şurasının Türk Dövlətləri Təşkilatı adlanması inteqrasiya proseslərinin güclənməsinə mühüm təsir edir.

Azərbaycana və Türkiyəyə bağlı icmalar bu gün bütün dünyada türk dünyasının maraqlarının müdafiəsi üçün birgə fəaliyyət göstərirlər. Bu birlik güc, mütəşəkkil fəaliyyət deməkdir.

2020-ci ildə ermənilərin Tovuz rayonu ilə sərhəddə yaratdığı təxribat və 44 günlük Vətən müharibəsi dövründə biz xaricdə yaşayan azərbaycanlı və türk icmalarının birgə fəaliyyətinin yüksək səviyyədə koordinasiya edildiyinin şahidi olduq.

**Xaricdə yaşayan azərbaycanlıların informasiya mübarizəsi.** I Qarabağ müharibəsi ərəfəsində və müharibədən sonra ermənilər dünyanın müxtəlif ölkələrində saxtakarlıqlarını rəsmiləşdirən “tarix” əsərlərini dərc edir, elektron resurslar və internetdə asanlıqla əldə edilməsi mümkün olan məlumatlar yerləşdirir, dünyanın bir çox media orqanları ilə əməkdaşlıq edərək müntəzəm olaraq informasiya müharibəsində üstünlük qazanırdılar.

Təqribən 25 il ərzində düşmənin Azərbaycan-Ermənistan sərhəddində və işğal edilmiş Azərbaycan ərazilərində hər təxribatı internet məkanında yeni bir müharibəyə, müzakirələrə səbəb olurdu. Ümumiyyətlə, Azərbaycanda internet imkanları genişləndikcə, bu gün üçün gündəmdə olan bir sıra həqiqətləri - Qarabağın işğalı ilə əlaqədar BMT-də qəbul edilən qətnamələrin icra edilmədən qalması, ermənilərin Azərbaycana qarşı törətdiyi vəhşiliklər, ermənilərin işğal etdikləri ərazilərdə həyata keçirdikləri qeyri-qanuni siyasətləri – müntəzəm olaraq azərbaycanlılar tərəfindən sosial şəbəkələrdə paylaşılırdı. Bu zaman Azərbaycanın maraqlarını müdafiə etmək istəyən, lakin tarix və digər humanitar fənlərdə təhsili olmayanlar üçün resurların əldə edilməsi problemi yarandı. Bu ehtiyac münaqişə barədə, həmçinin Azərbaycanla əlaqədar müxtəlif dillərdə internet resurslarının hazırlanmasına səbəb oldu. Bütün bu proseslərdə tarixçi gənclərin üzərinə böyük iş düşürdü.

Keçən dövrdə bu məsələlərdə dövlət dəstəyinin olması və prosesə respublikanın əsas kitabxanalarının qoşulması bir çox tarixi materialların, informasiya müharibəsində istifadə edilə biləcək digər materialların dünyanın müxtəlif ölkələrində yaşayan insanlar tərəfindən əldə edilməsinə böyük imkanlar yaratdı.

Bu sahədə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası tərəfindən həyata keçirilən layihələri yüksək qiymətləndiririk. Kitabxanın aşağıda göstərilən layihələri Azərbaycan dili ilə yanaşı ingilis və rus dillərində də hazırlanmışdır. Bu layihələrdə təqdim edilən kitablar, monoqrafiyalar informasiya mübarizəsi zamanı konkret mövzu üzrə çətinlik tapmadan faktlar əldə etməyə imkan verir.

1. XX əsrin faciəsi – Xocalı soyqırımı (Tragedy of the $20^{th}$ century – Khojaly genocide // https://khojaly.preslib.az/index_en.html) – Layihədə Xocalı faciəsinə aid faktlar, foto və video materiallar, tədqiqatlar, həmçinin "Qarabağa azadlıq. Xocalıya ədalət" kampaniyası barədə materiallar Azərbaycan, rus və ingilis dillərində təqdim edilir [1].
2. İrəvan şəhəri (Irevan city // https://iravan.preslib.az/) – İrəvan şəhərinin tarixinə qədimdən günümüzə qədər işıq salan "İrəvan şəhəri" elektron resursu şəhərin aborigen əhalisinin kimlərdən ibarət olduğunu, ermənilərin həmin əraziyə nə vaxt və haradan gəldiklərini, XIX-XX əsrlərdə şəhərin azərbaycanlı əhalisinin dəfələrlə kütləvi qırğınlara və deportasiyalara məruz qoyulduğunu, azərbaycanlılara məxsus maddi-mədəniyyət nümunələrinin erməni vandalları tərəfindən yer üzündən necə silindiyini mənbələr, salnaməçilərin verdikləri məlumatlar, arxiv sənədləri və ayrı-ayrı tədqiqat materialları əsasında üzə çıxarır. Materiallar Azərbaycan və rus dillərində təqdim edilir [17].
3. Erməni vandalizmi: əsirlikdə olan azərbaycan abidələri (Armenian Vandalism: Azerbaijani Monuments in Captivity // https://armenianvandalism.preslib.az) - layihədə 12 rayon və Ermənistan respublikası ərazisindəki vandalism aktları barədə materiallar Azərbaycan, rus və ingilis dillərində təqdim edilir [12].
4. Erməni cinayətləri: Soyqırım. Deportasiya. Terror. (Armenian crimes: Genocide. Deportation. Terror // https://genocide.preslib.az/) – layihədə soyqırımı, deportasiya və terror cinayətləri arxiv sənədləri, tədqiqatlar, foto-video materiallar əsasında hazırlanmış materiallar 2 dildə - Azərbaycan və rus dillərində təqdim edilir [11].

Bu mövzularda ikinci ən böyük baza AMEA-nın A.A.Bakıxanov adına Tarix institunun saytında təqdim edilən elektron kitabxana hesab edilir [10]. Kitabxanada tədqim edilən əsərlər, həmçinin müxtəlif tarixi mətnlər xaricdə yaşayan azərbaycanlıların informasiya müharibəsi aparması üçün zəngin məlumat verir. Saytda müxtəlif dövlərə aid xəritələr də təqdim edilir [18].

2010-cu ildə yaradılan Tarix portalı da internetdə tarixə aid materialların toplandığı ən böyük bazadır. Tarixçi gənclər tərəfindən müxtəlif dövrlərə aid sənədlər, mənbələr, tədqiqatlar informasiya texnologiyalarının imkanlarından istifadə edilərək elektron formata keçirilir və müvafiq bölmələrdə təqdim edilir [20].

Azərbaycanın dövlət rəhbərlərinin, elm xadimlərinin, xaricdə təhsil alan gənclərin, xaricdə yaşayan azərbaycanlıların bu məsələlərdə aktiv fəaliyyəti, koordinasiyalı yanaşması sayəsində tədricən həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün nailiyyətlər əldə edildi. Bu baxımdan Azərbaycan Respublikasının prezidentlərinin, Xarici işlər nazirlərinin, elm xadimləri və ictimaiyyət nümayəndələrinin xaricdə səsləndirdikləri faktlar, müxtəlif ölkələrdə keçirilən tədbirlər Azərbaycan həqiqətlərinin olduğu kimi çatdırılmasında, dünyada ictimai fikrin forlamalaşmasına mühüm təsir etmişdir. Bunlarla

yanaşı beynəlxalq və regional təşkilatlarda münaqişə ilə əlaqədar hüquqi baza yaradıldı. Bu rəsmi sənədlər həmin qurumların mövqeyi kimi qəbul edilir. Bu istiqamətdə görülən işlərin nəticəsi Aprel və Tovuz döyüşləri, Vətən müharibəsi günlərində özünü göstərdi [19, s.189-226, 249-288, 427-440].

2016-cı ilin Aprel döyüşləri informasiya müharibəsində yeni bir prosesə təkan verdi. Qarabağ müharibəsinin tarixində mühüm mərhələ olan Aprel döyüşləri və əldə edilən tarixi qələbənin Azərbaycan cəmiyyətində yaratdığı ümid və inamı qırmağa çalışan ermənilər sosial şəbəkələrdə (facebook, twitter v.s.) psixoloji təzyiq vasitələrini artırmağa başladılar. Gənclərimiz isə onların bu siyasətinin qarşısının alınmasında mübahisə predmeti olmayan tarixi faktlarla cavab verir, düşməni kompüter arxasında da susdurmağı bacarırdılar. Artıq informasiya müharibəsində hamının birlikdə mübarizə apardığı yeni bir təcrübə yaranırdı: sosial şəbəkələrdə müxtəlif dillərdə ermənilərlə debatlara çıxan gənclərimiz tarixi faktlardan istifadə imkanlarını, onları yerində istifadə etmək, düşmənin hücum üçün yazdığı faktlara müvafiq əks arqumentləri təqdim etmək vərdişlərini formalaşdırırdılar. Bu dövrdən başlayaraq, xaricdə təhsil alan və yaşayan azərbaycanlılar, bütün çətinliklərə baxmayaraq yerli mediada tariximizi əks etdirən müxtəlif məqalələrlə çıxış etməyə başladılar. Onlar yaşadıqları dövlətin dilində materiallar yazmaqla, həmin cəmiyyətə hədəflənən və onların xüsusiyyətlərini nəzərə alan fakt və üslubdan istifadə etməyə çalışırdılar.

Döyüş meydanında Azərbaycan Ordusunun qarşısından qaçan ermənilər informasiya məkanında özlərini "qəhrəman" hesab edirdilər. Lakin azərbaycanlı gənclərin internetdə ermənilərə qarşı informasiya müharibəsində formalaşmış təcrübəsi 2020-ci ilin iyul ayında daha da mütəşəkkil şəkil aldı.

2020-ci ilin iyul ayında Tovuz rayonu ilə sərhəddə Ermənistan ordusu növbəti təxribat törətmişdi və beynəlxalq ictimaiyyətə hərbi əməliyyatları başlayan tərəfin Azərbaycan olduğunu təqdim etməyə çalışmışdır. Əvvəlki dövrdən fərqli olaraq, bu dəfə informasiya mübarizəsində azərbaycanlılar arasında koordinasiya ciddi şəkildə təşkil edilmişdi. Nəticədə döyüşlər başlayan gündən iyulun 31-dək 30-dan çox ölkədə 70-dən artıq izdihamlı mitinq keçirildi, ictimaiyyətin diqqətini erməni təxribatlarına cəlb etmək mümkün oldu. Qeyd etmək vacibdir ki, bu mitinqlərdə dost xalqların – Türkiyə, İsrail, Pakistan, Ukrayna və digər xalqların nümayəndələri də azərbaycanlılarla həmrəyliyini bildirmiş və mitinqlərdə iştirak etmişdilər. 36 ölkədə yaşayan azərbaycanlılar 128 bəyanatla çıxış etdi, 40 ölkədə 20 dildə 180 məqalə və xəbər çap edildi [15; 16; 21]. Sosial medianın imkanlarından istifadə edərək ilk dəfə sosial şəbəkələrdə həştəqlər paylaşıldı (#KarabakhisAzerbaijan, #StopArmenianaggression, #StopArmenianoc cupation v.d.) və bu həştəqlər real faktlarla paylaşılaraq dünya trendinə düşdülər. Azərbaycanlıların belə həmrəyliyi tarixdə ilk dəfə müşahidə edilirdi. Əlbəttə, bu həmrəyliyin operativ təşkili və koordinasiyasında müasir texniki imkanların da rolu vardır. Bu proseslər həm dövlət qurumları və səfirliklər tərəfindən, həm də xaricdə yaşayan azərbaycanlı icmaları tərəfindən təşkil edilirdi. Onlar dünya ictimaiy-

yətinin, beynəlxalq qurumların və yaşadıqları dövlətlərin diqqətini həqiqətlərə cəlb edə bilmişdilər. Ermənilər ilk dəfə belə bir qüvvə ilə qarşılaşmışdılar. Çünki onların 100 ildən artıq müddətdə yaratdıqları informasiya blokadası yarılmışdı.

Beləliklə, Azərbaycan dövlətinin mövqeyi, ictimaiyyətin reaksiyası və dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların fəaliyyəti erməni diasporuna ilk ciddi zərbə oldu.

**Vətən müharibəsi dövründə dünya azərbaycanlılarının həmrəyliyi.** Ermənistan silahlı birləşmələrinin sentyabrın 27-dən başlayan təxribatlarına Azərbaycan ordusu layiqincə cavab verdi və 27 ildir düşmən işğalında qalan torpaqlarımızı azad etdi. 44 günlük Vətən müharibəsi günlərində xalq Ali Baş Komandanı və ordunu tam olaraq dəstəkləmişdir. İyul döyüşlərindən sonra daha da güclənən hərbi-vətənpərvərlik hissləri, orduya dəstək yürüşü həmin tarixi günlərdə tam mənası ilə öz gücünü bir az daha artırmışdır.

Həm Tovuz, həm də Vətən müharibəsi dövründə döyüşlər ancaq cəbhədə getmirdi. Düşmən həm də informasiya müharibəsi aparırdı. Bütün resursları tükənmək üzrə olan ermənilər saxta xəbərlər vasitəsilə KİV-in geniş imkanlarından faydalanmaq, psixoloji üstünlük qazanmaq, reallıqları öz mənafelərinə uyğun təqdim etmək istəyirdilər. Dünya azərbaycanlıları və ədalət tərəfdarı olan xalqlar düşmənin bu siyasətinə qarşı mübarizədə birləşmişdilər. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar sosial şəbəkələr vasitəsilə bu prosesdə aktiv iştirak etmiş, dünya ictimaiyyətini obyektiv məlumatlandırmaq və düşmənin susdurulması üçün real tarixi faktlarla mübarizə aparmışdılar. İnformasiya müharibəsində təhlükəsizlik məsələləri, kiber hücumlar, məlumatların etibarlı olmasının müəyyən edilməsi vacib məsələdir. Həmin günlərdə sosial şəbəkələrdə düşmənə aid rəsmi orqanların, mətbuatın paylaşdığı saxta xəbərlərə münasibət bildirmək əlində silah ön cəbhədə olan əsgərin Vətən uğrunda döyüşü ilə birlik yaratmışdır.

Bu dövr müxtəlif ölkələrdə yürüşlər, aksiyalar, etiraz piketlərinin təşkili, müxtəlif dövlətlərin dövlət orqanlarına və parlamentlərinə, beynəlxalq və regional təşkilatlara, tanınmış ictimai-siyasi xadimlərə, beynəlxalq media qurumlarına müraciətlər və bəyanatlar sistemli şəkildə həyata keçirilmişdir. Ermənistanın işğalçılıq siyasəti, terrorçuluq fəaliyyəti, müharibə dövründə mülkü əhalinin hədəfə alınması, Gəncə, Bərdə, Naftalan şəhərlərinə ballistik raketlərin atılması və digər məsələlər müxtəlif dillərdə ictimaiyyətə çatdırılmış, müxtəlif ölkə prezidentlərinə, parlament üzvlərinə, BMT, Avropa İttifaqı, Avropa Parlamenti, Avropa Şurası və s. təşkilatlara müraciətlər göndərilmişdır.

Bu hərəkatın genişlənməsi 44 günlük Vətən müharibəsi dövründə ciddi nəticələr əldə etməyə imkan verdi [2].

Azərbaycanın ərazilərinin işğaldan azad edilməsi və erməni faşizmi üzərində qələbə azərbaycanlıların həmrəy mübarizəsinin nəticəsi idi. 2020-ci il 31 dekabr Dünya azərbaycanlılarının həmrəylik günü qalib xalq olaraq həm böyük fəxr və qürurla, həm də şəhidlərin ruhunu yad etməklə qeyd edildi.

**Nəticə.** Tədqiqat nəticəsində demək olar ki, müstəqilliyin bərpasından

keçən 30 ildə xaricdə yaşayan azərbaycanlıların həmrəyliyi prosesi daha müntəzəm xarakter almış, xalqımız üçün xüsusi əhəmiyyət kəsb edən məsələlərə anında reaksiyalar verilmişdir. Xüsusilə, keçən zamanın qazandırdığı təcrübə 200 ildir erməni faşizminə qarşı davam edən mübarizədə ciddi nəticələr əldə edilməsinə səbəb olmuşdur. Etnik təmizləmələr, soyqırım və terrordan əziyyət çəkən Azərbaycan xalqının erməni millətçilərinə qarşı mübarizəsində və Vətən müharibəsindəki qələbədə dünya azərbaycanlılarının həmrəyliyi ən böyük güc olmuşdur. Eyni zamanda, diasporanın fəaliyyəti Azərbaycan Respublikasının etnik təmizləmə və soyqırıma qarşı diplomatiya sahəsində mübarizə vasitələrindən biri olmuşdur.

30 illik tarix xaricdə yaşayan azərbaycanlıların əsas problemlərindən birinin yaşadıqları ölkənin ictimai həyatına inteqrasiya və Azərbaycan həqiqətlərinin ictimaiyyətə çatdırılması prosesi olduğunu göstərir. Bununla yanaşı, 2020-ci ilin Tovuz döyüşləri və Vətən müharibəsi dövründə dünya azərbaycanlılarının həmrəyliyi ən yüksək həddə çatmış, xalq, ordu və dövlət birliyi bütün dünyaya nümunə olmuşdur. Xaricdə yaşayan azərbaycanlıların həmin dövrdə yaşadıqları dövlətlərin qanunları çərçivəsində Azərbaycanın maraqlarının müdafiəsi və həqiqətlərin ictimaiyyətə çatdırılması prosesində fəaliyyətlərini uğurlu hesab etmək olar.

Dünya azərbaycanlılarının qurultaylarının onların siyasi mərkəzi olan Azərbaycan Respublikasında keçirilməsi diasporanın təşkilatlanması prosesində, azərbaycanlıların problemlərinin aşkar və həll edilməsi istiqamətində mühüm mərhələ olmuşdur. Türk dövlət və Cəmiyyətlərinin dostluq, qardaşlıq və Əməkdaşlıq Qurultayları və Amerika türk Assosiasiyaları Assambleyasının Qurultaylarında fəal iştirak edən azərbaycanlılar türk dünyasının birliyinin formalaşmasında da fəal iştirak edirlər. Diasporanın birgə fəaliyyəti Azərbaycan Respublikasının beynəlxalq mövqelərin möhkəmləndirilməsi və milli maraqların müdafiəsi, həmçinin Azərbaycan və Türkiyə dövlətləri əleyhinə təbliğatın qarşısının alınmasında mühüm əhəmiyyət daşıyır.

Qloballaşma prosesi insanlar üçün məkan anlayışını aradan qaldırsa da Vətənə bağlılıq azərbaycanlılar üçün hər zaman əsas xarakter olmuşdur. Dəyişən zaman azərbaycanlıların bu hissini dəyişməmişdir. Bununla yanaşı, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar dünyada sülhün və sabitliyin qorunması, xalqlar və dövlətlər arasında əlaqələrin inkişafı, yaşadıqları dövlətdə inteqrasiya proseslərində fəal iştirak edən, Azərbaycanın mədəniyyətinin, elminin, milli dəyərlərin təbliği istiqamətində yeni çağırışlara cavab verən qüvvə kimi formalaşırlar.

Dünya azərbaycanlıları 31 dekabr - Dünya azərbaycanlılarının həmrəylik gününün 30 illik ildönümünü qürurla qeyd edir. Demək olar ki, 30 illik müstəqillik dövündə dünya azərbaycanlılarının həmrəyliyini göstərən əsas hadisə Vətən torpaqlarının işğaldan azad edilməsi oldu və bu dövr diasporanın birləşməsində ciddi bir mərhələ oldu. Vətən müharibəsindən qalib çıxmış xalqın həmrəyliyi, bir yumruq kimi birləşməsi digər xalqlara nümunə olacaq ruh verdiyini deyə bilərik.

***Ədəbiyyat siyahısı:***

1. *XX əsrin faciəsi – Xocalı soyqırımı // https://khojaly.preslib.az/index_en.html*
2. *44 gündə diaspor nələr edib? 05.07.2021 / https://axar.az/news/musahibe/570652.html 01.11.2021*
3. *ABŞ-da Yaşayan Həmvətənimiz Qarabağ Haqqında Həqiqəti Dünyaya Yayır: (ABŞ-da Yaşayan Həmvətənimiz Feliks Sertsvadzenin Nyu-Yorkda Rus Dilində Çapdan Çıxmış "Unudulmuş soyqırımı") / Azərbaycan. 2006, 16 Mart, s. 3.*
4. *Azərbaycan diasporu: böyük yolun başlanğıcı. Bakı, Çağıoğlu, 2006. – 208 s.*
5. *Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Londonun "Hilton"otelində Böyük Britaniyada yaşayan azərbaycanlılarla görüşdə çıxışı - 23 fevral 1994-cü il // "Heydər Əliyev: Müstəqilliyimiz əbədidir" (çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, müraciətlər, fərmanlar). Bakı, Azərnəşr, -1997, 1-ci cild, səh.430-435*
6. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 dekabr Dünya azərbaycanlılarının həmrəylik günü münasibətilə dünya azərbaycanlılarına müraciəti. Bakı şəhəri, 26 dekabr 2003-cü il // https://mfa.gov.az/files/shares/Diplomatiya%20alemi/Diplomatiya_Alemi_05.pdf*
7. *Azərbaycandan kənarda yaşayan azərbaycanlıların sayı // https://azerbaijan.az/related-information/207. 19.11.2021*
8. *Azərbaycan-Türkiyə: bir millət, iki dövlət Vahid diaspor. Bakı, Çağıoğlu, 2007. - 120 s.*
9. *Dünya Azərbaycanlılarının I qurultayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi - Respublika sarayı, 10 noyabr 2001-ci il / "Azərbaycan" qəzeti, 11 noyabr 2001-ci il.*
10. *Elektron kitabxana. AMEA-nın Tarix institunun saytı. // http://tarixinstitutu.az/books*
11. *Erməni cinayətləri: Soyqırım. Deportasiya. Terror. // https://genocide.preslib.az/*
12. *Erməni Vandalizmi: Əsirlikdə Olan Azərbaycan Abidələri // https://armenianvandalism.preslib.az/*
13. *Əhmədov E.. Ulu öndər və Azərbaycan diasporu / Xalq qəzeti. 13 dekabr 2020. № 262. -s.8*
14. *Guliyeva Saida. The events of Organization İslamic Cooperation about the recognition of Khojaly genocide. s.63-78/ Tarih araştırmalari dergisi. Ankara Üniversitesi Dil ve Tarih Coğrafya Fakültesi Tarih bölümü. Cilt XXXII. Sayı 54. Ankara, 2013, eylül. 223 s. http://dergiler.ankara.edu.tr/dergiler/18/1842/19395.pdf*
15. *Hacıyev V. Azərbaycanın diaspor siyasəti 18 ildə / Respublika.- 2020.- 5 iyul.- № 128.- s. 6.*
16. *Hacıyev V. Dünya azərbaycanlılarının bir bayraq altında fəaliyyəti prioritet vəzifəmizdir. / "Xalq qəzeti", 19 yanvar 2021. № 12, s. 10 / https://xalqqazeti.com/mobile/az/news/68273*
17. *İrəvan şəhəri // https://iravan.preslib.az/*
18. *Xəritələr. AMEA-nın Tarix institunun saytı // http://tarixinstitutu.az/maps*
19. *Qarabağ Azərbaycandır! Zəfər epopeyası. Kollektiv monoqrafiya. Bakı, AzəriPoliqrafiya, 2021. 600 səh.*
20. *Tarix portalı https://history.az/*
21. *Tovuz döyüşləri: dünya azərbaycanlılarının həmrəylik və birlik hərəkatı // https://azerforum.com/az/tovuz-doyushleri-dunya-azerbaycanlilarinin-hemreylik-ve-birlik-herekati. 10.11.2021*
22. *Yaradılma tarixi və məqsədi. Azərbaycan Respublikasının Diasporla iş üzrə dövlət komitəsi. http://diaspor.gov.az/tarix/*

## II BÖLMƏ

## ÜMUMİ TARİX MƏSƏLƏLƏRİ

**UOT 94**

# MƏRKƏZİ ASİYA TÜRKLƏRİ VƏ MÜASİR ANTROPOGENETİK ARAŞDIRMALAR

**Hicran Mahmudova**
*BDU, Tarix fakültəsi, t.f.d.*
*hicranmahmudova@mail.ru*

*Arxeoloji və yazılı mənbələr sübut edir ki, qədim zamanlardan Mərkəzi Asiyanın avtoxton əhalisi türk tayfaları olmuşdur və müasir əhalinin antropologiyasında türk xalqının antropoloji xüsusiyyətlərinin ənənəviliyi və varisliyi izlənilir. Müasir genetik tədqiqatların və onların nəticələrinin Mərkəzi Asiyanın türk xalqlarının irqi tiplərinin öyrənilməsindəki rolu danılmazdır. Antropogenezin öyrənilməsi prosesi və bu bölgəyə aid ilkin paleoantropoloji tapıntılar Mərkəzi Asiyanın türk xalqları içərisində qeydə alınmış avropoid və monqoloid irqlərinə aid əsas xüsusiyyətlərin olduğunu göstərən əsaslı faktlar verir. Amtropoloji dəlillər əsasında Mərkəzi Asiya xalqlarının etnogenezi və etnilinqvistik xarakteristikasını analiz etmək mümkündür.*

*Mərkəzi Asiyanın əhalisinin antropoloji tərkibi yekcins deyil, uzun illər ərzində bu geniş ərazidə avropoid və monqoloid irqlərin daşıyıcılarının qarşılıqlı mövcudluğu müşaidə olunmuşdur. Ərazinin təbii–coğrafi şəraiti lokal iqlim mühitində irqi diferensasiyaya səbəb olmuşdur. Mərkəzi Asiya ərazisi hələ paleolitin aşel dövründən etibarən insanlar tərəfindən məskunlaşmışdır. Qazaxıstanın Cambul və cənubi-Qazaxıstan vilayətlərində, Varş çayı vadisində, cənubi və qərbi Tacikistanda aşkar olunmuş düşərgələr bunu təsdiq edir. Bunlarla yanaşı məşhur Deşik-daş, Səmərqənd yaxınlığında Aman-Qutan paleolit düşərgələri də bu faktı bir daha təsdiq edir. Mərkəzi Asiyanın müasir əhalisi tayfa, xalq, dil və irqi xüsusuiyyətlərinə görə mürəkkəb konqlomerat təşkil edir. Bölgə adından da göründüyü kimi, Avroasiya məkanında Avropoid və monqoloid irqlərin ortaq, kəsişmə bölgəsi olmuşdur. Minilliklər ərzində bu irqlər daha kiçik tiplərə differensiasiya olduğu üçün, burada iki böyük irqin deyil, onların qolları kimi bir neçə tipin əsas əlamətlərinin qarışmasını müşahidə etmək mümkündür.*

***Açar sözlər:*** *türklər, antropologiya, irqi əlamət, genetika, etnik tərkib*

### *CENTRAL ASIAN TURKS AND MODERN ANTHROPOGENETIC RESEARCH*

*Archaeological and written sources prove that, since ancient times, the autochthonous population of Central Asia was the Turkic tribes, and in the anthropology of the modern population, the continuity and heredity of anthropological characteristics of the Turkic people can be traced. The results of modern genetic research and their role in the study of the racial types of the Turkic peoples of Central Asia are undeniable. The process of studying anthropogenesis and the first paleoanthropological findings of this region provide solid facts that show the main features of the auropoid and Mongoloid races found among the Turkic peoples of Central Asia. On the basis of anthropological data, it is possible to analyze many*

*problems, including ethnogenesis and ethno-linguistic characteristics of the peoples of Central Asia*

*The anthropological composition of the population of Central Asia is heterogeneous, and for many years on this vast territory there has been a mutual existence of carriers of the Caucasian and Mongoloid races. The natural and geographical conditions of the area led to the racial differentiation of the local climate. The territory of Central Asia has been inhabited since the Paleolithic era. Confirms the presence of camps in the Dzhambul and South Kazakhstan regions of Kazakhstan, in the Vars River valley, as well as in the south and west of Tajikistan. In addition, this is confirmed by the famous Paleolithic sites of Deshik-Dash and Aman-Gutan near Samarkand. The modern population of Central Asia is a complex conglomerate in terms of tribe, people, language and race. As the name suggests, this region was the crossroads of the Europoid and Mongoloid races in Eurasia. As these races have been differentiated into smaller types over the millennia, a mixture of the main traits of several types, such as their branches, rather than two large races, can be observed.*

***Keywords:*** *Turks, anthropology, racial characteristics, genetics, ethnic composition*

**Giriş.** Türk xalqlarının antropoloji tarixi uzun müddət keçmiş Sovet İttifaqının paleoantropoloji xəritəsində ağ ləkə olaraq qalırdı çünki, müasir əhalinin antropologiyasının öyrənilməsi baxımından da ən cüzi tədqiq edilən respublikalar sırasında "Orta Asiya və Qazaxıstan" adlandırılan respublikalar olmuşdular. Bu regionlarda ixtisaslı antropoloq kadr olmadığı üçün uzun müddət Mərkəzi Asiya türklərinin fiziki quruluşu, morfologiyası ilə bağlı məlumatlar Rusiya tədqiqatçılarının əsərlərində öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, belə bir vəziyyət təbii ki, obyektiv məlumatların saxtalaşdırılmasına və imperiya siyasətinə xidmət edə bilən nəticələrə gətirib çıxarırdı. Orta Asiya xalqları ilə bağlı məlumatlar qismən sarı və ağ irq daxilində verilmiş, Ümumittifaq xarakterli tədqiqatların içərisində isə ötəri, qısa informasiya xarakterli olmuşdur. Belə bir vəziyyətdə isə türk xalqlarının etnogenezi, avtoxton etnos məsələsi, tarixi torpaqların sərhədləri kimi məsələlərin də öyrənilməsi yarımçıq qalmış və yersiz müdaxilələrlə üzləşməli olmuşdur. Məhz bu baxımdan fiziki antropoloji tədqiqatlara daim ehtiyac duyulur. Bununla belə, məlumdur ki, Mərkəzi Asiya qədim dövrlərdən etibarən ibtidai insanların yaşayış məskənlərindən biri olmuşdur ki, bu da, əsasən, bölgənin təbii-coğrafi şəraiti ilə bağlıdır. Burada qədim daş dövründən başlayaraq insanların məskunlaşması nəticəsində xalqın yaranıb formalaşması üçün zəmin yaranmışdır. Bütövlükdə, Mərkəzi Asiya bölgəsi müxtəlif etnik və etnoqrafik qrupların yaşadığı multikultiralizmə xüsusi önəm verən bir regiondur. Bununla əlaqədar olaraq, Mərkəzi Asiya əhalisinin antropoloji tərkibində də müəyyən qədər nisbi fərqliliklər özünü göstərir. Bütövlükdə, dil və dini mənsubiyyət baxımından əhalinin tərkibi rəngarəng olduğu kimi antropoloji baxımdan da müəyyən fərqli morfoloji əlamətlər müşahidə edilə bilir.

**Mərkəzi Asiya türkləri:** Mərkəzi Asiyada əhalinin məskunlaşması daş dövründən etibarən başlamışdır. Paleolit dövrünün müxtəlif yaşayış yerləri, o cümlədən məşhur Deşik-daş, Səmərqənd yaxınlığında Aman-Qutan paleolit

düşərgələri də bu faktı bir daha təsdiq edir. Bu onu göstərir ki, müasir əhalinin əksər hissəsi yerli, avtoxton olmuş, özünəməxsus irqi tip formalaşmış, təbii ki, sonrakı məskunlaşmalar isə yerli və gəlmə əhalinin irqi tiplərinin müstəqil və ya qarışıq əlamətləri ilə özünü göstərmişdir. Neolit dövründə də burada əsasən Avropoid tipli əhali yaşamışdır. Bu dövrdən etibarən Avropoid əlamətlərin üstünlük təşkil etdiyi şimal-şərqi Qazaxıstan əhalisi ilə, orta Asiyanın cənub rayonlarının Hind-Aralıq dənizi irqinin protomorf variantı arasında fərqliliklər müşahidə olunur. Sonrakı dövrə aid antropoloji tapıntılar çoxluq təşkil etdiyindən, onların irqi təsnifatı daha aydın izlənilir. Belə ki, tunc dövründə əkinçi tayfaların məskunlaşdığı Mərkəzi Asiyada Avropoid əlamətlər daha üstün olmuş, Özbəkistan, Türkmənistan, hətta Pakistana qədər dolixokran element yayılmış, monqoloid qarışığa rast gəlinməmişdir. Xarakterik antropoloji əlamətlər kimi sifətlərinin üfüqi profilinin ortoqnat, şaquli profilinin güclü olması, burunlarının ensiz və uzun olması avropoid irqin cənub qolu ilə genetik bağlılığın göstəricisi ola bilər. Erkən dəmir dövründən başlayaraq, Qazaxıstana monqoloid əlamətlər daxil olur, lakin təxminən e.ə. VII əsrdən etibarən bu əlamətlər çox cüzi şəkildə özünü göstərir [2, 121].

Göründüyü kimi, Mərkəzi Asiyanın müasir əhalisi tayfa, xalq, dil və irqi xüsusiyyətlərinə görə mürəkkəb konqlomerat təşkil edir. Bölgə adından da göründüyü kimi, Avroasiya məkanında Avropoid və monqoloid irqlərin ortaq, kəsişmə bölgəsi olmuşdur. Minilliklər ərzində bu irqlər daha kiçik tiplərə differensiasiya olduğu üçün, burada iki böyük irqin deyil, onların qolları kimi bir neçə tipin əsas əlamətlərinin qarışmasını müşahidə etmək mümkündür. Məhz belə bir vəziyyətin öyrənilməsi genetik araşdırmaların labüdlüyünü şərtləndirdiyindən, son illərdə molekulyar biologiya və genetikanın inkişafı sayəsində "etnogenetika" adlanan tədqiqat sahəsinin formalaşması və bu sahədə aparılan araşdırmalar Paleogenetika isə 1984-cü ildə yaranmış və bu dövrdən etibarən arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş qədim insan qalıqlarının genetik quruluşu və DNT-lərinin öyrənilməsinə başlanılmışdır.

Məlumdur ki, müasir genetik tədqiqatlarda istifadə olunan əsas markerlər MT DNT və Y xromosomları əsas götürülür. Nuklein turşuları ilk dəfə 1868-ci ildə İohan Fridrix Mişer tərəfindən müəyyən olunmuşdur. İlk vaxtlar əsasən spermatogenezdə müşahidə olunan nuklein turşuları tədricən, daha fərqli hüceyrə orqanoidlərində də qeydə alınmışdır. Müasir dövrdə nuklein turşularının iki növünün olmasına baxmayaraq, tədqiqatçılar bildirir ki, dezoksiribonuklein turşuları və ya DNT, nüvədə üstün yer tutur. İnsanlarda hər bir somatik hüceyrədə 6.10-12q DNT, cinsi hüceyrələrdə (spermotozoidlərdə) 3.10-12q DNT olur. Eyni zamanda həm sitoplazmada, həm də nüvədə az da olsa, digər nuklein turşusu olan ribonuklein turşuları (RNT) olur [1, 79-81].

Son genetik tədqiqatlar müəyyən etmişdir ki, insanlarda 200 mindən artıq gen vardır. Onların 46 xromosomda yerləşməsi faktı isə 1956-cı ildə D. Tiyo və A. Livin tərəfindən müəyyən olunmuşdur. Həmin 46 xromosom isə

22 cüt autosom və bir cüt cinsiyyət xromosomundan (XX və ya XY) ibarətdir. Buna görə də genləri autosomla və cinsiyyətlə bağlı olmaqla iki yerə ayırırlar. Məhz bu xromosomların ötürülməsi ilə, insanlarda əksər əlamətlər dominant və ya resessiv olaraq nəsildən nəslə keçir. Bioloji və antropoloji cəhətdən kişilərlə qadınların kariotiplərini ancaq ***X*** və ***Y*** xromosomları ilə müəyyənləşdirildiyi üçün, irqi xüsusiyyətlərin müəyyən edilməsində onlardan daha çox istifadə olunur [1, 200- 202].

Mərkəzi Asiya əhalisinin yerli türk xalqlarının Y xromosomlarının dəyişkənliyinin əsas cəhətləri hələ XX əsrin ortalarından öyrənilmiş, qaploqrupların tezliyi və fərqliliyi barədə faktiki material toplanmışdır. Türk xalqları içərisində Y xromosomunun dəyişmə tezliyinin öyrənilməsi üçün təxminən 13 kiçik etnik qrupa və bölgənin əsas 6 iri etnik birliyinin nümayəndələrinə aid 1094 DNT nümunəsi üzərində tədqiqat aparılmışdır. Hər populyasiya üçün Y xromosomunun 40 SNP markerinin analizi götürülmüş, 12 qaploqrupda Y xromosomu cəmi 1% olmuş, daha "yumşaq" polimorfizmə malik olmuş, 5% "daha kəskin" polimorfizm isə cəmi 7 qaploqrupda - R1a1a, Q, N1c1, N1(xN1c1), R1b1b1, S3s və S(xC3c) rast gəlinmişdir [7]. Haploqrupların belə bölgüsü əsasında populyasiyaları 3 əsas regional bölgü üzrə sistemləşdirmək olar: şimal (Altay-Sayan), orta (çöl-səhra) və cənub (Pamir-Tyan-Şan). Altay–Sayan bölgəsinə aid edilən şorlar, şimal və cənub altaylılar, xakaslar R1a1a, N1(xN1c1), N1c1, Q i R1b1b1 qaploqruplarının populyasiyalarda daha çox variasiyası ilə seçilirlər. Daha çox rast gəlinən R1a1a (M198) haploqrupu çox yəqin ki, əsasən Avropoid əhali işərisində üstün yer tutmuşdur. Qeyd etmək lazımdır ki, bu əlamət həm də mitoxondrial DNT-lərdə də müşahidə olunur [7]. Cənuba, əsasən çöl-səhra zonasına doğru getdikcə, R1a1a haploqrupunun zəifləməsi müşahidə olunur. Qeyd etmək lazımdır ki, müasir tədqiqatlar genomumuzda çoxsaylı "qalıq" DNT-lər olduğunu təsdiq edir. Onlar aktivliyi tənzimləsələr də, hər hansı zülalın kodlaşmasında iştirak etmirlər. Odur ki, insan xromosomları forma və ölçüsünə əsasən, 7 fərqli qrupda sistemləşdirilmişdir.

Çöl-səhra regionu qazaxların populyasiyası nəticəsində formalaşmışdır. Burada genetik müxtəliflik çoxdur. Bölgədə Qərbi Avropa haploqrupu (R1a1a, I, R1b1b2), ön Asiya (G, J) və Sibir (Q, N1(xN1c1)) haploqrupları müşahidə olunur. Qazaxların genofondunda Mərkəzi Asiya tipli haploqrup hesab olunan S3s(M48) və S(xS3s), eyni zamanda, Şərqi Asiya haploqrupu olan O (M175) qeydə alınmışdır. Monqolların genofondunda S3s(M48) və S(xS3s) üstünlük təşkil etsə də, O haploqrupu 5%-dən artıq deyil. Qazax və monqolların genofondunda R1a1a- haploqrupunın olması monqoloid irqinin formalaşdığı ərazidə ən qədimdən avropoid qarışıqın olduğunu təsdiq edir [7].

Türk xalqlarının etnik tarixi ilə bağlı yanlış fikirlərdən birini rus tarixçiləri hələ XX əsrin ortalarında yazmış, VI-VII əsrlərdə xalq kimi formalaşmış türk cəmiyyətinin qədimliyi, göstərdiyimiz kimi, türk tayfalarının təşəkkül tapdığı Hun mərhələsinə gedib çıxdığını göstərmişdir. Deməli, bəzi

müəlliflərin fikrincə, türk tayfaları e.ə. III-I əsrlərdə təşəkkül tapmış, hunların türk olmaması bildirilmişdir. Hətta, IV-V əsrlərdə hunların içərisində iranlılarla yanaşı, türklərin olmasını bir ehtimal kimi qəbul edənlər də mövcud olmuşlar. Ümumi fikir belədir ki, Qazaxıstan və Orta Asiyada eramızın VI-VII əsrlərinə qədər türk dilli əhali yaşamırdı. Türk xalqlarının qədim tarixi haqqında saxta fikirlər rus tədqiqatçılarının nəzarəti altında başqırd, qazax, özbək, qırğız,türkmən və b. xalqların tarix kitablarına da yol tapmışdır. Məsələn, Qazaxıstanın tarixi ilə bağlı deyilirdi ki, qazaxların ulu əcdadları Qazaxıstan ərazisinə orta əsrlərdə gəlmədir. Özbəkistanın qədim tarixinin araşdırıcıları yazırdılar ki, Özbəkistan və Qazaxıstan ərazisində eradan əvvəlki minillikdə yaşamış saklar irandilli idi; Qırğızıstan tarixi və etnoğenezi ilə bağlı əsərlərdə göstərilir ki, Qırğızıstan ərazisinə türklər yalnız Türk xaqanlığı dövründə (VI-VIII əsrlər) gəlmişlər; həmin kitabda qeyd olunur ki, ―XIII-XIV əsrlərdə Şərqi Türküstanın, Fərqanənin, Xarəzm və Daşkənd vadilərinin kənd və şəhər əhalisi kütləvi türkləşməyə məruz qaldı; ―Türkmənistan tarixi ilə bağlı kitablarda deyilir ki, ―IX-XI əsrlərdə Orta Asiyanın çöllərində və şəhərlərində çoxlu maldar tayfalar yaşayırdı.

Tarixi mənbələrdən məlumdur ki, şimal və şərqdən əsasən türk və monqol dilli əhali, cənub və qərbdən isə hind-avropa dil ailəsi daşıyıcıları gəlmişdilər. Qazaxıstan və Qırğızıstanda qədim avropoid əhalinin sonradan güclü monqoloid təsirinə məruz qalması nəticəsində müasir qazax və qırğızlarda monqoloid əlaməti üstünlük təşkil edir. Qzbəkistan və Türkmənistanda isə bunun əks prosesi müşahidə olunmuşdur. Xarəzm, Soqd, Baktriya, Margiana, Parfiya ərazilərində gəlmə monqoloid elementləri çox cüzi şəkildə özünü göstərməklə, avropoid əlamətlərini daha kəskin büruzə verirdi. Odur ki, özbək və türkmənlərdə avropoid xüsusiyyətlər daha üstünlük təşkil etmişdir. L.V. Oşanin Mərkəzi Asiyada aparılan antropoloji tədqiqatlar nəticəsində avropoid və monqoloid tiplərin qarşılıqlı mövcudluğunu izah edərək bildirir ki, monqoloidlər şimal və şərqdən, avropoidlər isə cənub və qərbdən buraya gəlmişdilər, lakin bu o demək deyil ki, onlar gələndə burada yerli əhali olmamışdır. əksinə, burada daha sıx yaşayan avropoid tipli əhali məskunlaşmışlar. O, bunun əsas səbəbi kimi etnik proseslərə müraciət edərək izah edir. Belə ki, o, bildirir ki, yeni ərazidə məskunlaşmış hər hansı etnos (hətta azsaylı bir etnos) yerli əhalini linqvistik baxımdan assimilyasiyaya məruz qoya bilsə də, antropoloji baxımdan özü assimilyasiyaya məruz qala bilir [4, 5]. Beləliklə də, etnik proseslərdə assimilyasiya tam, ya natamam, hətta əksinə də gedə bilən bir proses olduğu üçün Mərkəzi Asiya əhalisinin irqi-etnik mənsubiyyəti özünəməxsusluğu ilə seçilir.

Antropologiya tarixində Homo sapiensin formalaşması onun müxtəlif coğrafi məkanlara yayılması və poliformizminin (fərqlilik) formalaşması haqqında müxtəlif fikirlər, mülahizələr, nəzəriyyələr irəli sürülsə də, hamısını əsasən 2 böyük qrupa ayırmaq olar: Birinci qisim tədqiqatçının nöqteyi nəzərinə görə müasir tipli insanın tamamilə yaranması müəyyən kiçik bir ərazidə baş

vermiş, onlar buradan yer kürəsinin digər bölgələrinə yayılaraq həmin ərazilərdə mövcud olan hominidlərin avtoxton populyasiyalarını ya assimilyasiya etmiş, ya da sıxışdırıb məhv etmişlər. Ümumilikdə bu nöqteyi nəzər təkmərkəzlilik (monosentrizm) adlanır. İkinci qisim tədqiqatçının nöqteyi nəzərinə görə isə Homo sapiensin yaranması bir-birindən asılı olmayan və nisbətən təcrid olmuş şəkildə bir neçə bölgədə baş vermişdir. Bu nəzəriyyə çoxmərkəzlilik (polisentrizm) adlanır. Bu nəzəriyyələrin antropologiya tarixində formalaşmasının əsas səbəblərindən biri Homo sapiensin müasir dövrdə mövcud olan poliformizmi və morfoloji xüsusiyyətlərinin qruplararası fərqliliklərinin özünəməxsusluğudur. Çoxmərkəzlilik konsepsiyasının tərəfdarları sapiensləşmə prosesində hominidlərin müxtəlif populyasiyaları arasında intensiv gen mübadiləsinin olmasını əsaslandırırlar. Müasir dövrdə antropologiyada çoxmərkəzlilik nəzəriyyəsi multiregionalizm adlanır. Mərkəzi Asiyada antropoloji əlamətlərin coğrafi areala görə dəyişməsi və müxtəlif etnik qrupların müqayisəli-antropoloji analizi belə bir fikir yürütməyə imkan verir ki, burada ən azı 6 irqi tip mövcud olmuşdur: iki monqoloid – Cənubi Sibir və Mərkəzi Asiya, dörd avropoid – Orta Asiya ikiçayarası və ya Pamir-Fərqanə, Kaspi və ya Aralıq dənizi tipinin şərq qolu, Xorasan, Ön Asiya [6, 12]. Qeyd etmək lazımdır ki, burada göstərilən bütün tiplər üçün tünd piqmentasiya üstünlük təşkil etmişdir. Bununla yanaşı, onların əksəriyyətində sac, göz və dərinin rəngi tünd olsa da, nisbətən açıq piqmentasiyaya məxsus, qarışıq göz rəngi ilə seçilən, eyni zamanda, az – az olsa da daha açıq saç rənginə təsadüf olunur. Qeyd etmək lazımdır ki, bir sıra çin və orta əsr müsəlman mənbələrində sarışın – açıq rəngli qadınların Semireçyedə (Yeddisu) yaşaması haqda məlumatlar verilir. Bütövlükdə, burada gözlərin rəngi R.Martin şkalasına əsasən tünd - N 1-5, saçlar isə Fişer şkalasına görə N 4 və N 27 olmaqla təsnifatlandırılır [4, 13].

Ümumiyyətlə, türk xalqlarını yalnız avropoid yaxud yalnız monqoloid hesab etmək düzgün deyil. Beləki, hər bir konkret türk boyuna aid fiziki görkəm, lokal antropoloji tipi vardır. Türk boylarının yalnış olaraq monqoloid sayılması daha bir səhv nəticənin etnogenez elimdə formalaşmasına yol açmış, avropoid cizgili müasir türk xalqlarının əksəriyyətinin "Türkləşmiş" etnos hesab olunmuşdur. Bu isə sonradan tarixşünaslıqda yanlış müddəaların formalaşmasına səbəb olmuşdu.

Qazax və uyğurlarda Cənubi Sibir irqinin əlamətlərinin nisbətən zəif əlamətləri müşahidə olunur. Qazaxlar irqi əlamətlərinə görə daha homogen hesab olunurlar. Kişilər və qadınlarda düz, cod, qara saclar xarakterikdir. Qazaxıstanın kişi əhalisinin antropoloji təsnifatında saqqalın və bütövlükdə tük örtüyünün bədəndə inkişafına görə qərb və cənub rayonları bir-birindən fərqləndirilir. Qərb bölgəsinin əhalisində həm saqqal, həm də tük örtüyü zəifdirsə, cənubda yaşayan qazaxlarda əksinə, bu əlamətlər daha kəskin özünü göstərir. Eyni zamanda cənublu qazaxlarda qıyıq gözlülük daha artıq hiss olunur. Qazax qadınlarda 21,7 %, kişilərdə isə 34,6% epikantusa rast gəlmək mümkündür. Qazax kişilərdə boyun nisbi uzunluğu 163,5-168,5 sm,

qadınlarda 150,5-155,7 sm, almacıq sümüyünün diametri kişilərdə 146 – 151 mm, qadınlarda 137-142 mm olmuşdur [3, 21].

Qırğız və dunqanlar da Cənubi Sibir (Turan) irqinə aid edilirlər, ancaq onlarda monqoloid əlamətlər daha da üstünlük təşkil edir: daha enli sifətli, epikantus, gözün çəpəki qıyıqlığı kimi xüsusiyyətlər çox müşahidə olunur. Fərqanə vadisi qırğızlarında Tyan-Şan qırğızlarına nisbətən belə monqoloid əlamətlər nisbətən azdır. Pamir-Tyan-Şan bölgəsi qırğızların iki populyasiyası ilə müəyyən olunur. Onlar bir qayda olaraq, Altay-Sayan və çöl zonanın aralıq populyasiyası kimi qəbul olunurlar. R1a1a və N1(xN1c1), eyni zamanda N1c1, R1b1b1, Q, O haploqruplarının müşahidə olunması qırğızların Sibir mənşəli olduğunu deməyə imkan verir. C3c haploqrunun daha çox qeydə alınması isə çox yəqin ki, monqoloidlərin intensiv miqrasiyaları ilə bağlı olmuşdur. Bununla da, Pamir-Tyan-Şan bölgəsi coğrafi cəhətdən kənar olsa da, özlüyündə digər 2 regionun genofondunun qarışımı nəticəsində formalaşmışdır [7].

Mərkəzi Asiya əhalisinin etnik tərkibi A.İ.Yarxo və Q.F.Debets tərəfindən fraqmental tədqiqatlarla öyrənilsə də, XX əsrin əvvəllərində bu işi sistemli şəkildə L.Oşanin davam etdirmişdir. 1927-ci ildə Qaşqardərya vilayətinə, 1929-cu ildə Türkmənistana, 1935-cil ildə Pamirə, 1936-cı ildə Yaqnoba antropoloji ekspedisiya təşkil edilmiş və bu ekspedisiyanın tərkininə Özbəkistan Qanköçürmə İnstitutunun əməkdaşı, prof. K.V.Yaseviç də iştirak edərək, bölgə əhalisinin qan nümunələri əsasında qan qruplarını müəyyən etməyə çalışmışdır [6, 9].

XX əsrin əvvəllərinə qədər burada A.P.Şişov tərəfindən Daşkənd özbəklərinin, S.Vaysenberq tərəfindən burada yaşayan yəhudilərin, V.D.Paysel tərəfindən isə tarançeylərin (uyğurların) antropoloji göstəriciləri öyrənilmişdir. Qeyd etmək lazımdır ki, Mərkəzi Asiya qonşu dövlət və xalqlardan tam təcrid olunmamış, daim qarşılıqlı münasibətlərdə olmuş, Sinszyan, Ön Asiya, İran, Əfqanıstan və Hindistanla daha sıx tarixi əlaqələr yaratmışdır. Buna görə də, bu bölgənin əhalisinin antropoloji tərkibi tədqiq olunan zaman Ön Asiyadan gəlmiş ərəb və yəhudilərin, İran və Bəlucistandan gəlmiş farsların, azərbaycanlıların, bəlucların da antropoloji göstəriciləri nəzərdə tutulur. Orta Asiya Dövlət Universitetinin əməkdaşı D.D.Bukiniç 1924-1927-ci illərdə Əfqanıstandan gəlmə əhalinin antropoloji xüsusiyyətlərini tədqiq etmişdir. Tədqiqatların nəticələri L.Oşanin tərəfindən sistemləşdirilərək dərc edilmişdir [4; 5]. Bu araşdırmalar uzun illərdir ki, tədqiqiatçılar üçün mənbə rolunu oynayır.

**Nəticə.** Beləliklə, aydın olur ki, türk xalqları özlərinin qədim, çoxəsrlik tarixi ilə seçildiklərindən, onların etnik tarixi və antropologiyası da daim diqqət mərkəzində olmuşdur. Dünya birliyinə müasir inteqrasiya şəraitində türk xalqlarının qarşılıqlı əlaqələrini, sosial-mədəni oxşarlığının bir araya gətirilməsi, ortaq türk mədəniyyətinin, dilinin, tarixinin, incəsənətinin, adət - ənənələrinin, mədəni irsinin araşdırılması, qorunması, inkişaf etdirilməsi, dünyada tanıdılması və gələcək nəsillərə ötürülməsi müasir gəncliyin qarşısında duran mühüm məsələlərdəndir. Mərkəzi Asiya bölgəsi əhalisinin belə

qarışıq, rəngarəng irqi tərkibinin olması, monqoloid və avropoid irqlərin formalaşdığı əsas mərkəzlərə yaxın olması, eyni zamanda neolit dövründən etibarən, miqrasiyalar, hərbi yürüşlər, eyni zamanda, yeni torpaqların məskunlaşması və bu proseslərin ümumi nəticəsi olaraq, onların genofondunda baş vermiş dəyişikliklərlə əlaqələndirilir.

Göründüyü kimi, antropoloji araşdırmaların son nailiyyətləri əsasında da Mərkəzi Asiya əhalisinin avtoxton olması və əsasən avropoid irqi xüsusiyyətlərinin üstünlük təşkil etməsi müəyyən edilmişdir.

***Ədəbiyyat siyahısı:***

*1.Həsənova S.Q., Qarayeva A.Q., Qədimov Ə.H., Şəfiyeva M.R. Genetika. Sumqayıt, Sumqayıt Dövlət Universiteti, 2014. s. 245.*

*2.Абашин С.Н. Национализмы в Средней Азии: в поисках идентичности. СПб. 2007, с.280*

*3.Исмагулов О. Этническая антропология Казахстана (соматологическое исследование): Автореф. дис. на соиск. учен. степ. д.и.н. / АН СССР. Ин-т этнографии им. Н.Н. Миклухо-Маклая. Москва, 1983. - 47 с*

*4.Ошанин Л.В. Антропологический состав населения Средней Азии и этногенез ее народов. Часть 2 Ереван: Изд-во Ереванского университета, 1958. - 148 с*

*5.Ошанин Л.В. Антропологический состав населения Средней Азии и этногенез ее народов, ч. 1, Ереван, 1957, стр. 147*

*6.Ошанин Л.В. Вопросы этногенеза народов Средней Азии в свете данных антропологии // Сборник статей. Ташкент: Изд-во АН УзССР, 1953. с.9-56*

*7.Гахраман Гумбатов Генофонд тюрков Средней Азии и Сибири. https://proza.ru/2016/05/03/1354*

**UOT 94; 39**

# QARABAĞ BÖLGƏSİ ÜZRƏ ETNOTOPONİMİK LÜĞƏTİNİN HAZIRLANMASINA DAİR

**Nigarxanım Qasımova**
*BDU,Tarix fakültəsi, elmi işçi*
*nigarqasimova509@mail.ru*
**İlham Məmmədov**
*BDU,Tarix fakültəsi, elmi işçi*
*mammadov-1965@mail.ru*

*Məqalə Qarabağın keçmişinə, onun qədim türk mənşəli tayfalarına və coğrafi adlara (toponim, etnonim, oykonim ...) həsr olunmuşdur. Tədqiqata əlavə olunmuş izahlı toponimik lüğət qədim dövrlərdən adıçəkilən ərazidə türk mənşəli tayfaların olmasını bir daha təsdiqləyir. Azərbaycan türklərinin Qarabağda əzəldən yaşamaları, bu torpaqların ilkin sakinləri və sahibləri olması faktı elmi əsasla, toponimlərin dili ilə araşdırılır.*

*Həmçinin Qarabağ bölgəsinə dair etnotoponimik lüğətin hazırlanmasına kompleks şəkildə yanaşılır və tədqiq edilir.*

***Açar sözlər:*** *Azərbaycanın toponimikası, etnonim, Qarabağ, lüğət, oykonim*

## *PREPARATION OF THE ETHNOTOPONOMIC DICTIONARY OF THE KARABAKH ZONE*

*This article is devoted to the past of Karabakh, inhabited by ancient tribes of Turkic origin and geographiical names (toponims, ethnonyms, oykonyms..) The toponomic dictionary attached to this article once again confirms the existence of the Turkic tribes in the mentioned territories since ancient times. The initial residence of Azerbaijanis on the territory of Karabakh is researched on a scientific basis, in the language of toponyms.*

*This article also presents a comprehensive approach to the preparation and compilation of the ethnotoponomic dictionary of the Karabakh region.*

***Keywords:*** *toponymy of Azerbaijan, ethnonym, Karabakh, dictionary, oykonym.*

**Giriş.** Toponimlər digər dil vahidlərindən fərqli olaraq ictimai-siyasi xarakter daşıyır. Belə ki, hər hanst bir yazılı mənbənin deyə bilmədiyi məlumatları, məhz coğrafi adların köməyi ilə müəyyənləşdirmək mümkündür.

Bir çox alimlər toponimik məlumatları arxeoloji materiallar ilə müqayisə edir. Onların fikrincə, tarix elmində toponimlərin rolunu maddi mədəniyyət qalıqlarının rolu ilə müqayisə etmək olar. Toponimika respublikamızın etnik tarixini, dilini və tarixi coğrafiyasını işıqlandırmaq üçün bu istiqamətdə maraqlı məlumatların əldə edilməsində mühüm rol oynaya bilər. Toponimiya müxtəlif tarixi dövrlərin etnik tərkibi, etnik icmaların dilləri haqqında məlumatlar ilə doludur.

Toponimik faktlar təkcə müxtəlif tarixi dövrlərin etnik tərkibini təyin

etmək üçün deyil, həm də qədim lüğət elementləri yalnız coğrafi adlarda əks olunan müxtəlif etnik qruplarının tarixini öyrənmək üçün mühüm mənbədir. Çoxsaylı etnonimlər Azərbaycan toponimiyasında öz əksini tapmışdır .

Qafqaz Albaniyasının ərəblər tərəfindən işğalına qədər Qarabağda erməni-hay adlı etnos, tayfa, qəbilə olmamış, yaşamamışdır.

Qədim dövrə aid toponimlər, etnonimlər, oronimlərin etimologiyası bir qayda olaraq türk mənşəlidir və türk dilli tayfaların Qarabağ bölgəsində yaşamasına parlaq sübutdur. Odur ki, burada işlənən toponimlərlə yanaşı, coğrafi, tarixi əhəmiyyət kəsb edən bir sıra passiv adlara da izahat verilmişdir.

Beləliklə, milli etnomənəviyyatımızın sərvəti Qarabağın toponimik lüğətini qismən diqqətinizə təqdim edirik.

**Abdal** *oyk.,sadə.* Ağdam r-nun Gülablı i.ə.v.-də kənd. Dağ yamacındadır; Tovuz r-nunun Yanıxlı i.ə.v.-də kənd. Çınqıldağ silsiləsinin ətəyindədir. Oykonim *abdal* tayfasının adı ilə bağlıdır. Qafqaz Albaniyasında hələ eradan əvvəl yaşaması ehtimal olunan abdalıların (heftal/heptal/eftal) adına qazax, qaraqalpaq, türkmən və türk toponimiyasında da rast gəlmək mümkündür [2].

**Abdalanlı** *oyk., düz.* Qubadlı r-nun Qayalı i.ə.v.- də kənd. Dağ ətəyi ərazidədir. Keçmiş adı Ocaqqışlaqdır. Yaşayış məntəqəsi keçmiş qışlaq yerində salınmışdır. Tədqiqatçılara görə, kəndin adı *abdalanlı* adlı elatın adı ilə bağlıdır. Oykonim *abdal* etnonimindən, *-an* (far. cəm şək.-si) və *-lı* (azərb. mənsubluq, aidlik bildirən şək.) şəkilçilərindən düzəlib, "abdallara məxsus, abdallar yaşayan kənd"deməkdir [1].

**Abdallar** *oyk., sadə.* Laçın r-nun Qarıkaha i.ə.v.- də (keçmiş Abdallar ) kənd. Həkəri çayının sahilində, Qarabağ silsiləsinin ətəyindədir. 1923-cü ilədək Laçın şəhərinin adı da Abdallar olmuşdur [2].

**Abdinli** (1961, 1968)/ **Abdınlı** (1933, 1979) / **Abidinli** (1917) *oyk. , sadə.* Ağdam r-nun Göytəpə i.ə.v.- də kənd. Düzənlikdədir. Kəndin ərazisi keçmişdə Tağıbəyli kəndinin abdınlı nəslinə məxsus qışlaq yeri olmuşdur [2].

**Abdullauşağı** *oyk., sadə.* Kəlbəcər r-nun eyniadlı i.ə.v.- də kənd. Mozçayın sol sahilində, dağətəyindədir. Keçmiş adı Şahsevənlidir.Yerli əhalinin məlumatına görə, XIX əsrin sonlarında Ağcabədi r-nun Şahsevən kəndindən köçmüş Abdulla adlı şəxs ərazidə iki binə salmışdır. XX əsrin əvvəllərində də Cavanşir qəzasında Böyük və Kiçik Abdullauşağı adlı iki binə adı qeydə alınmışdır. Rayonun Çobangərəkməz kəndi yaxınlığında bir yurd yeri indi də Abdullayurdu adlanır . Etnotoponimdir [2].

**Açarlı** *oyk., sadə.* Ağdam r-nun Novruzlu i.ə.v.- də kənd. Dağ ətəyi ərazidədir. Toponimiyada *atsa/aça* coğrafi termin kimi "iti uclu qaya; yüksəklik; dağətəyi yer" mənalarını ifadə edir [2].

**Ağabəyələnc/Ağabəyəlenc** (1979) /**Ağabəyəlinc** (1933) *oyk,mür.* Ağdərə r-nun Möhrətağ i.ə.v.- də kənd. Oykonim *ağabəy* (ağabəyli etn.-nin qısaldılmış forması), (bitişdirici sait) və *linc/lənc* (tat dilində "ətək, yer, yüksəklik") sözlərindən düzəlib, "ağabəylilərə məxsus yüksəklik" deməkdir. Kəndin adı XIX əsrdə Ağabəyyal kimi qeydə alınmışdır. Toponimin ikinci

komponentinin lənc sözü ilə əvəz olunması XIX əsrin əvvəllərində İrandan gəlmə erməni ailələrinin həmin ərazidə məskunlaşması ilə əlaqədardır. 1992-ci ildən kənd Ağabəyyal adı ilə rəsmiləşdirilmişdir [5].

**Ağalaruşağı** *oyk., sadə.* Laçın r-nun Qorçu i.ə.v.-də kənd. Dağlıq ərazidədir. Etnotoponimdir [2].

**Ağanus** *oyk., sadə.* Laçın r-nun Fətəlinəyə i. ə.v.- də kənd. Adını ərazidəki eyni-adlı mineral bulaqdan almışdır. Bəzi tədqiqatçılara görə, toponim *ağ* və *naus* (ərəbcə "məbəd" deməkdir. Sasanilər dövründə zərdüştiliyə sitayiş edənlərin qəbirüstü tikilisi də "naus" adlanırdı) sözlərindən düzəlib, "ağ rəngli məbəd" mənasını ifadə edir [2].

**Ağbulaq** *oyk., sadə.* Xocalı r-nun eyni adlı i.ə.v.- də kənd. Dağətəyi ərazidədir. Keçmiş adı Talıb xanbəyli olmuşdur. Yaşayış məntəqəsi XIX əsrdə Talıbxan bəy adlı birisinə məxsus maldar ailələrin Ağbulaq adlı yerdə məskunlaşması nəticəsində yaranmışdır; Xocavənd r-nun Edilli i.ə.v.-də kənd. Qarabağ silsiləsinin ətəyindədir. XIX əsrdə Cənubi Azərbaycanın Qaradağ əyalətindən köçüb gəlmiş ailələrin burada məskunlaşmasından yaranmışdır. Sovet hakimiyyəti illərində 1992-ci ilədək Mısmına adlandırılmışdır [2].

**Ağcakənd** oyk.,mür. Xocavənd r-nun Köhnə Tağlar i.ə.v.- dır. Qarabağ silsiləsinin ətəyindədir; Kəlbəcər r-nun eyniadlı i.ə.v.- də kənd. Qarasu çayının sol sahilində Qonqur silsiləsinin ətəyindədir. Digər adı Kamyanlıdır. Kamyanlı burada məskunlaşmış nəslin adıdır. XIX əsrin əvvəllərində Laçın r-nun Ağcakənd kəndindən çıxmış bir qrup ailənin burada məskunlaşması nəticəsində kəndin adı da dəyişdirilmişdir; Laçın r- nun Qoşasu i.ə.v.- də kənd. Hocazsu çayının sahilində, Qarabağ yaylasındadır. Kənd pirembel tayfasının məskunlaşması nəticəsində yaranmışdır. Oykonim *ağca* (ağımtıl) və *kənd* (yaşayış məntəqəsi termini) sözlərindən düzəlib, "ağımtıl, bozumtul, quru sahəsi olan kənd" deməkdir. 1960-cı ilə qədər Ermənistan ərazisində Ağca kənd, 1933-cü ildə Qarabağ ərazisində Aşağı Ağca kənd kəndləri qeydə alınmışdır. Goranboy r-nun ərazisində olan bu kənd 1938-ci ildə Şayumyanselska adlandırmışdı. 1992-ci ildən kəndin keçmiş adı yenidən bərpa edilmişdir [3].

**Ağdaban** *oyk, sadə.* Kəlbəcər r-nun eyniadlı i.ə.v.- də kənd. Ağdaban çayının sağ sahilində, Murovdağ silsiləsinin cənub ətəyində, Ağdaban dağının yamacındadır. Adını eyni-adlı dağdan almışdır. XIX əsrin sonunadək kəndin ərazisi Dəmirçidam kəndinin binəsi olmuşdur. 1905-ci ildə həmin kəndin dəlikli, məmmədli, məhərrəmli, feyzalılar adlı nəsillərindən bir qrup ailələr bu binəyə köçərək burada məskunlaşmışlar [1].

**Ağdam** *oyk.,sadə.* Azərbaycanda inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Kür-Araz ovalığının qərb hissəsində və Kiçik Qafqazın şərq ətəklərində yerləşir. Xaçın və Tərtər çayları r-nun ərazisindən axır. Burada tikinti daşları istehsal edilir. Mərkəzi Ağdam şəhəridir; Azərbaycanda şəhər (1828-ci ildən). Eyniadlı r-nun mərkəzidir. Qarqar çayının sol sahilində, Qarabağ düzünün cənub qərbindədir. şəhərin əsası XVIII əsrin ikinci yarısında qoyulmuşdur. Burada Pənah xanın ağdaşdan tikdirdiyi "imarət"

mühafizə edilib. Şəhərin adının bu bina ilə əlaqədar olması ehtimal edilir. Lakin əslində, şəhərin adı yaşayış məntəqəsi kimi ilk dəfə 1357-ci ilə aid mənbələrdə çəkilir. Ağdam yaxınlığındakı Şahbulaq adlanan yerdə əhəng daşından ibarət qədim daş karxanası vardır. Qalanın divarları həmin daşdan hörülmüşdür. Bütün bunlara baxmayaraq, şəhərin adı r-nun ərazisindəki eyniadlı dağdan götürülmüşdür ; Tovuz r-nun Vahidli i.ə.v.- də kənd. Kiçik Qafqazın ətəyindədir. Kəndin adı r-nun ərazisindəki eyniadlı dağdan götürülmüşdür. 1917-ci ildə bu kəndin adı Ağdam Ocaqlı şəklində qeydə alınmışdır; Xocavənd r-nun Tuğ i.ə.v.- də kənd. Qarabağ silsiləsinin ətəyindədir. XIX əsrdə buraya gələn ermənilər kəndin adını Akaku toponimi ilə əvəz etmişdilər. 1992-ci ildə kəndin əvvəlki adı özünə qaytarılmışdır [6].

**Ağdamkənd** *oyk., mür.* Ağdam r-nun eyniadlı i.ə.v.-də kənd. Qarabağ düzündədir. Ağdamkənd su anbarı kəndin yaxınlığındadır. Oykonim *Ağdam* (r-nun ərazisindəki dağın adı) *kənd* (yaşayış məntəqəsi) sözlərindən düzəlib, kəndin ərazisindəki dağın adını əks etdirir [2].

**Ağvanbaşı -** toponimdir (Şuşa bölgəsi, Malıbəyli kəndi ətrafında düzənliyin adı). Malıbəyli kəndi yaxınlığından axan Qarqar çayının sağ qolunun adı da Ağvandır. Ağvan yaşayış yerinin adı belə adlanmışdı. "Ağvan", "Alban" - Qarabağda qədim vaxtlardan məskunlaşmış tayfa adının başqa bir formasıdır. Açılışa aid birinci izahat yuxarıda verilmişdir. Mövcud başqa izahata görə "yüksək soyluların, idarə edənlərin tayfa, el-oba başçılarının qorunan, mühafizə və müdafiə olunan yurdu" - deməkdir [3].

**Ağoğlan** - passiv toponimdir (Xocavənd bölgəsində Keçmiş qala, kənd adıdır). Ağoğlan yeri ocaq, pir olaraq "müqəddəs övlad, oğlan" mənasında işlənir [3].

**Ağcakənd** - Antroponimdir (Xocavənd bölgəsində kənd adı). Kəndin ilk sakinlərindən olan Ağcanın adını daşıyır. Türkcədən "gümüşü, işıqlı, nurlu" deməkdir. Bu adı "ağımtıl, bozumtul yer, torpaq" kimi də izah edənlər var [3].

**Ağbaşyurd** or., mür. Zəngilan r-nu ərazisində dağ. Oronim Ağbaş (tayfa adı) və yurd sözündən düzəlib, "Ağbaş tayfasının məskəni" deməkdir. Etnotoponimdir [2].

**Ağgədik** *oyk., sadə.* Xocalı r-nun Xanabad i.ə.v.- də kənd. Dağ ətəyi ərazidədir. Keçmiş adı Ağdar, 1992-ci ilədək Kötük ("gədik" sözünün təhrif forması) olmuşdur. Oykonim ərazidəki eyni adlı dağ keçidinin adından yaranmışdır [6].

**Ağqaya** oyk., sadə. Kəlbəcər r-nun Almalıq i.ə.v.-də kənd. 1933-cü ildə Ağqaya binəsi kimi qeydə alınmışdır. Kənd XIX əsrdə Zəngəzur qəzasının ğəlvə dərəsindəki kəndlərdən öz yaylaq yerlərinə gələrək məskunlaşmış Rəhimli və Kərimli nəsilləri tərəfindən salınmışdır. Sonralar yaxınlıqdakı Pələnkəli kəndi dağıdıldıqdan sonra onun əhalisinin çox hissəsi də Ağqaya kəndinə köçmüşdür. Adını r-nun ərazisindəki Ağqaya adlı yüksəklikdən almışdır. Hazırda bu yüksəklik Gişqaya adlanır [2].

**Ağkənd** *oyk., mür.* Zəngilan r-nun Canbar i.ə.v.- də kənd. Dağətəyi

ərazidədir. Kənd XIX əsrdə sarallı tayfasının aldavudlu, qəzənfərli, ismayıllı, Hacı axundlu nəsillərinə məxsus binə yerində salınmışdır. Oykonim ağ (burada varlı, dövlətli, yaşayış səviyyəsi yüksək olan) və kənd (əhalisi əksəriyyətlə kənd təsərrüfatında çalışan yaşayış məntəqəsi) sözlərindən düzəlib, "varlı kənd" deməkdir; Tərtər r-nun Dəmirçilər i.ə.v.- də kənd. İncə çayın sahilindədir. Keçən əsrin 20-ci illərində bir qədər yerini dəyişdiyindən Təzə kənd də adlanır; Xocavənd r-nun Ağkənd i ə.v.- də kənd. 1828-ci ildə İranın Xoy əyalətindən gəlmə ermənilər burada məskunlaşdıqdan sonra kəndin adı erməni dilinə kalka edilərək Spitakşen (Ağkənd) adlandırılmış, 1992-ci ildən kəndin əvvəlki adı özünə qaytarılmışdır. 1917-ci ildə Gəncə və Şuşa qəzalarında da Ağkənd kəndləri qeydə alınmışdır. Keçən əsrdə Ermənistan ərazisində Ağkənd adlı 6 kənd olmuşdur [2].

**Ağoğlan** *oyk., sadə.* Laçın r-nun Malıbəy i.ə.v.- də kənd. Ağoğlan çayının sahilində, Qarabağ yaylasındadır. Keçmiş adı Kosalar olmuşdur. Sonralar yaşayış məntəqəsi ərazidəki Ağoğlan pirinin adı ilə adlandırılmışdır. Yerli əhalinin rəvayətinə görə, Ağoğlan qədimdə buraya basqın etmiş yadellilərə qarşı döyüşdə öldürülmüş və alban kilsəsi ərazisində dəfn edilmiş igidin adı dırvə "pak, təmiz, müqəddəs oğlan" mənasını daşıyır. Xocavənd r-nun ərazisinə daxil olan keçmiş Hadrut r-nun 1923-cü ilədək adı Ağoğlan olmuşdur [2].

**Axullu** *oyk., sadə.* Xocavənd r-nun Edilli i.ə.v.- də kənd. Qarabağ silsiləsinin ətəyindədir. Bəzi tədqiqatçılar bu sözü “haxıllı” etnoniminin təhrif forması hesab edirlər. Etnotoponimdir. Akullar (Axsullar) Dağıstanın cənubunda (Aqul və Qurax rayonlarında) yaşayan xalqın adıdır. Etnoqrafik cəhətdən ləzgilərə yaxındırlar. Ərazidə Ləzgisuyu adlı obyektin olması bunu bir daha sübut edir. *Axu (axul)* Qafqaz xalqlarının (abxaz) dilində "təpə, yüksəklik" deməkdir [2].

**Alaçadırlı** *oyk., sadə.* Bərdə r-nun Kələntərli i.ə.v.- də kənd. Tərtər çayının sağ sahilində, Qarabağ düzündədir. Keçmiş adı Məzməzəkdir. Ərazi XIX əsrdə Zəngəzur qəzasının Məzməzək kəndinin qışlağı olmuşdur. Sonralar bu kəndə nalaçadırlı nəslinə mənsub ailələr köçərək qışlaq yerində məskunlaşdığı üçün kənd də həmin nəslin adını daşımışdır [2]. Etnooykonimdir.

**Alxanlı** *oyk ,düz.* Füzuli r-nun eyniadlı i.ə.v.- də kənd. Köndələn çayın sol sahilində, Mil düzündədir. Tədqiqatçıların əksəriyyəti bu oykonimi “alıxanlı” etnonimi ilə əlaqələndirir və belə bir məlumata istinad edirlər ki, kəndi XVIII əsrdə Qarabağ xanı Pənahəli xanın Naxçıvandan Qarabağa köçürtdüyü kəngərlilərin alıxanlı tirəsi almışdır. Lakin nəzərə almaq lazımdır ki, *alxan* sözü Azərbaycan dilinin qərb qrupu dialektlərində "köndələn qazılmış xəndək yeri" deməkdir. Kəndin Köndələn çayının sahilində yerləşdiyini nəzərə alsaq, bu oykonimi "Köndələnçayın axdığı kənd" kimi izah etmək olar. Çeçenistanda VI-XIII əsrlərdə alanların yaşayış məskəni olan Alxan qala yer adı və Alxançurt dağ adıda "köndələn" mənasında izah olunur [2].

**Alxaslı** *oyk., sadə.* Laçın r-nun eyniadlı i.ə.v.- də kənd. Hocazsu çayının sağ sahilində, Hocaz dağının şimal şərq yamacındadır. Yerli əhalinin verdiyi

məlumata görə, yaşayış məntəqəsini XVIII əsrdə Qazax sultanlığından köçmüş ailələr salmışlar. Kəndin bünövrəsini onlardan Alxas adlı bir şəxs qoymuşdur. Kənddəki binnətalılar, əhmədxanlı, hüseynler və şalıxlı nəsilləri özlərini Alxasın törəmələri sayırlar. Etnooykonimdir. 1933-cü ildə Kəlbəcər r-nda Alxaslı, Göyçay r-nda isə Birinci və ikinci Alxasava (Alxasoba) adlı yaşayış məntəqələri qeydə alınmışdır [6].

**Alıbəyli** *oyk., sadə.* Ağdam r-nun Üçoğlan i.ə.v.- də kənd. Düzənlikdədir. Keçmiş adı Tərəkəmə Alıbəylidir. Kəndi tərəkəmə elatının Alıbəyli tirəsi saldığı üçün belə adlandırılmışdır. Sonralar toponimin birinci komponenti düşmüşdür. 1933-cü ildə Cəlilabad r-nun Qaralı i.ə.v.-də də eyniadlı kənd qeydə alınmışdır [2].

**Alpout** *or., sadə.* Bərdə r-nun eyni-adlı i.ə.v.- də kənd. Yuxarı Qarabağ kanalından bir qədər aralı, Qarabağ düzündədir; Goranboy r-nun Fəxralı i.ə.v.- də kənd. Gəncə-Qazax düzənliyindədir. 1953-cü ildə keçmiş Samux r-nun Alpout kəndinin buraya köçürülməsi ilə yaranmış yaşayış məntəqəsi keçmiş kəndin adını saxlamışdır; Göyçay r-nun eyni adlı i.ə.v.-də kənd. Şilyan çayının sol sahilində, Şirvan düzündədir; Qazax r-nun eyniadlı i.ə.v.-də kənd. Coqas çayının sol sahilində, dağ ətəyindədir; Laçın r-nun Qoşasu i.ə.v.-də kənd. Hocaz su çayının sol sahilində, Qabaq təpə dağının ətəyindədir [2].

**Araçadzor** *oyk., mür.* Kəlbəcər r-nun eyniadlı i.ə.v.- də kənd. Xaçın çayının sol sahilində, Qarabağ silsiləsinin ətəyindədir. Dovçanlı kurqanları (e.ə. Xl-IX əsrlərə aid 9 kurqan) kəndin yaxınlığındadır. Bəzi mənbələrdə Dovşanlı, Ayıdərəsi adları ilə də yad olunur. Tədqiqatçılar Araçadzor oykonimini erm. *Arç* və *dzor* sözlərindən ibarət "ayı dərəsi" mənasını ifadə edən toponim kimi izah etmişlər. Əslində *araça/araçı* türkdillərində" qoruyucu, keşikçi", "*zor/zur* " təpə, zirvə" deməkdir. 1992-ci ildən kəndin adı Dovşanlı kimi rəsmiləşdirilmişdir [2].

**Aranzəmin** - etnoxoronimdir (Xocalı bölgəsində kənd adı). Türk mənşəli Aran tayfası adından və "zəmin" - yer, diyar, ölkə" sözlərindən yaranmışdır. Açımı belədir: "Ərənlər, igidlər məskəni, diyarı". Bu yerin ilk adı Alban hökmdarı Varazin (miladın 6-cı yüzilliyi) adı ilə bağlıdır və onun burada iqamətgahı olmuşdur. Ona görə də kənd ilk vaxtlarda Varazabun adlanmışdır. Elmi ədəbiyyatda bu etnoxoronimin yaranması "Aran" tayfasının adı ilə izah ounur [3].

**Arayatlı** *oyk, düz.* Füzuli r-nun eyniadlı i.ə.v.- də kənd. Araz çayının sol sahilindən bir qədər aralı düzənlikdədir. XIX əsrə aid sənədlərdə Mustafa Sərkarlı adı ilə verilir. 1933-cü ildə Arayatılı şəklində qeydə alınmışdır. Belə güman edilir ki, toponim XIII əsrdə monqolların tərkibində Azərbaycana gəlmiş türkdilli uryat tayfasının adını özündə əks etdirir. Etnonim isə türk dillərindəki *ara* (orta) və *yat/yatuq* (hərəkət etməyən, oturaq türk) sözlərindən olub, "mərkəzdə yerləşən oturaq türklər" deməkdir. Burada *lı* şəkilçisi aid lik, mənsubluq ifadə edir [2].

**Ardıclı/Ardışlı** *oyk.,düz.* Laçın r-nun Vaqazin i.ə.v.-də kənd. Piçənis

çayının sahilində, Qarabağ silsiləsinin ətəyindədir. Oykonim "ardıc ağacı çox olan yer", "ardıc bitən yer" deməkdir [2].

**Arış** *oyk., sadə.* Füzuli r-nun Qoçəhmədli i.ə.v.- də kənd. Qarabağ silsiləsinin ətəyindədir. Türkdillərində *arış/arıs* sözü tayfanın bir qolu"; "arabanın yanqoşqu su"; "həris, acgöz"; "çovdar" mənaların ıifadə etmişdir. 1933 - cü ildə Gədəbəy r-nunda Arışlı kəndi, 1917-ci ildə Quba qəzasında Arısküş kəndi qeydə alınmışdır [1]. Başqırdıstanın Pobonin yaşayış məntəqəsinin adı əvvəllər Arış olmuşdur. Qazaxıstanda Sırdərya çayının sağ qolu, həmin çayın sol sahilində şəhər və Qızıl Orda vilayətində şor göllərdən biri Arıs adlanır. Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, Arış - tayfadan bir qol; Arışlı –çovdarlı, Arışküş-çovdar zəmisi; Arıs-çay qolu deməkdir [2].

**Arpadüzü** *oyk.,sadə.* Xocavənd r-nun eyniadlı i.ə.v.- də kənd. Qarabağ silsiləsinin ətəyindədir. XIX əsrdə burada gəlmə ermənilər məskunlaşmışdı. Sovet hakimiyyəti illərində kəndin adı Kolxozaşen (Kolxozkəndi) adlandırılmış, 1992-ci ildə isə dəyişdirilərək Arpa düzü kimi rəsmiləşdirilmişdir. Kənd öz adını ərazidəki "arpa əkiləndüz, çöl" mənalı eyniadlı sahədən almışdır [2].

**Arpagədik** *oyk ,sadə.* Xocavənd r-nun Çaylaq qala i.ə.v.- də kənd. İlk dəfə adı Arpa şəklində XII əsrə aid mənbədə çəkilmişdir. Oykonim *arpa* (etn.) və *gadik* (dağın yastı yeri, dağarası yol) sözlərindən düzəlib. Kənd öz adını yaxınlığındakı yüksəkliyin adından almışdır. Mənbələrdə Qarabağ ərazisində Arpa döşü qeydə alınmışdır [2].

**Artunaqomer** *oyk. ,mür.* Kəlbəcər r-nun eyni adlı i.ə.v.- də kənd. Keçmiş adı Qızılqaya olmuşdur. Keçən əsrdə ermənilərin dəyişdirdikləri adlardandır. Tərtər çayından bir qədər aralı, dağ ətəyindədir. Erm. *Artuna-qomer* "Artunpəyəsi" deməkdir. 1992-ci ildən kəndin adı yenidən Qızılqaya kimi rəsmiləşdirilmişdir [2].

**Aşağı Çəmənli** *oyk., mür.* Beyləqan r-nun Yuxarı Çəmənli i.ə.v.- də kənd. Mil düzündədir. Yerli əhalinin məlumatına görə, kəndi Ağdam r-ndakı Çəmənli kəndindən ayrılmış ailələr salmışlar. Bəzən Araz Çəmənlisi də adlanır. Oykonim yaşayış məntəqəsinin coğrafi mövqeyi ilə əlaqədar yaranmışdır [2].

**Aşağı Əbdürəhmanlı** *oyk., mür.* Füzuli r-nun Əbdürəhmanlı i.ə.v.- də kənd. Çərəkən çayının sahilindədir. Kəndi Əbdürəhmanlı nəslinə mənsub ailələr salmışlar. "Əbdürəhmanlı yaşayış məntəqəsinin aşağı hissəsi" deməkdir. Oykonim yaşayış məntəqəsinin coğrafi mövqeyi ilə əlaqədar yaranmışdır [2].

**Aşağı Fərəcan** *oyk., mür.* Laçın r-nun eyni adlı i.ə.v.- də kənd. Həkəri çayının sol sahilindən bir qədər aralı, Qarabağ silsiləsinin cənub-qərb ətəyindədir. Keçmiş adı Haraldır. 1954-cü ildə qonşu Fərəcan kəndindən köçüb gəlmiş ailələr məskunlaşdığı üçün kəndin adı dəyişdirilərək Aşağı Fərəcan adlandırılmışdır. Oykonim "Aşağıda yerləşən Fərəcan kəndi" deməkdir [2].

**Aşağı Kürdmahmudlu** *oyk. ,mür.* Füzuli r – nun Kürdmahmudlu i.ə.v.-

də kənd. Düzənlikdədir. Oykonimin birinci komponenti yaşayış məntəqəsinin coğrafi mövqeyi, ikinci komponenti isə maldar Kürdmahmudlu tayfasının adı ilə bağlıdır [7].

**Aşağı Qılıçbağ** *oyk., mür.* Xocalı r-nun Xanabad i.ə.v.- də kənd. Dağətəyi ərazidədir. XIX əsrin 20-ci illərində İrandan köçüb gəlmiş erməni ailələri məskunlaşdıqdan sonra kəndi Nerkin (erm."aşağı") Qılınç bağ adlandırmışdılar. 1992-ci ildə kəndin əvvəlki adı bərpa edilmişdir. Toponimin *Qılınc* şəxs adından və *bağ* sözündən ibarət olub, "Qılınca məxsus bağ" mənasını bildirməsi ehtimal olunur. Oykonimin birinci komponenti kəndin coğrafi mövqeyi ilə bağlıdır [2].

**Aşağı Oratağ** *oyk., mür.* Tərtər r-nun eyni adlı i.ə.v.- də kənd. Dağətəyi ərazidədir. XIX əsrdə ermənilər burada məskunlaşdıqdan sonra kəndin adı tədricən erməniləşmiş və Sovet hakimiyyəti illərində Nerkin (erm."aşağı") Oratağ kimi rəsmiləşmişdi. 1992-ci ildən kənd indiki adını daşıyır. Toponimin ikinci komponenti qədim İrandilli materialları əsasında "qalayeri" mənasında izah olunur [7].

**Aşağı Rəfədinli** *oyk., mür.* Füzuli r-nun Pirəhmədli i.ə.v.- də kənd. Düzənlikdədir. Yaşayış məntəqəsini XIX əsrdə keçmiş Rəfədinli kəndindən çıxmış ailələr salmışlar. Oykonimin birinci komponenti yaşayış məntəqəsinin coğrafi mövqeyini təyin edir, ikinci komponenti isə Rəfiəd dinli antropotoponiminin təhrif olunmuş formasıdır [2].

**Aşağı Seyidəhmədli** *oyk., mür.* Füzuli r-nun eyniadlı i.ə.v.- də kənd. Quruçay və Köndələnçay arasındadır. Oykonimin birinci komponenti yaşayış məntəqəsinin yerləşdiyi coğrafi mövqeyi, ikinci komponenti isə *seyidəhmədli* nəslinin adını əks etdirir [2].

**Aşağı Şurtan** *oyk., mür.* Kəlbəcər r-nun Şurtan i.ə.v.- də kənd. Tərtər çayının sahilində, Dəli dağın ətəyindədir. Yaşayış məntəqəsi ərazidəki Şurtan çayın aşağı axarında yerləşdiyi üçün belə adlandırılmışdır [2].

**Aşağı Veysəlli** *oyk., mür.* Füzuli r-nun eyni adlı i.ə.v.- də kənd. Qara su çayının sol sahilində, düzənlikdədir. Oykonimin birinci komponenti yaşayış məntəqəsinin coğrafi mövqeyini təyin edir, ikinci komponenti isə veysəlli nəslinin adı ilə bağlıdır [2].

**Aşağı Yağlavənd** *oyk., mür.* Füzuli r-nun Kərimbəyli i.ə.v.- də kənd. Araz çayının sol sahilində, düzənlikdədir. Oykonimin birinci komponenti yaşayış məntəqəsinin coğrafi mövqeyini təyin edir, ikinci komponenti isə *yağıla* (qədim abidələrin dilində "döyüş, vuruş, cəng") və *vənd* (bir çox xalqların toponimiyasında "yer, məkan") sözlərindən ibarət olub, "döyüş yeri", "savaş meydanı" mənasını ifadə edir. Bu baxımdan oykonim Cəngan toponiminin sinonimidir. XIX əsrə aid sənədlərdə Cəbrayıl qəzasında maldarlıqla məşğul olan yağlavənd adlı bir elat haqqında məlumat verilir. Oykonimin etnotoponim olması da istisna deyil [2].

**Aşağı Yemişcan** *oyk., mür.* Xocalı r-nun Qızıloba i.ə.v.- də kənd. Dağətəyi ərazidədir. XIX əsrdə gəlmə ermənilər Sıznaq adlanan bu yer də

məskunlaşmış, kəndin adını da Nerkin Sıznək (Aşağı Siznək) kimi rəsmiləşdirmişdilər. 1992-ci ildə kəndə Aşağı Yemişcan adı verilmişdir. Toponimin ikinci komponenti "yemişan" sözünün tələffüz formasıdır [2].

**Ataqut** *oyk, sadə.* Xocavənd r-nun Tuğ i.ə.v.- də kənd. Qarabağ silsiləsinin ətəyindədir. Adını ərazidəki eyniadlı çaydan almışdır [2].

**Atyeməzli** *oyk., sadə.* Ağdam r-nun Qiyaslı i.ə.v.- də kənd. Dağətəyi ərazidədir. Çox vaxt Ətyeməzli şəklində təqdim olunan bu coğrafi ad etnotoponim olub Atyeməzlər tayfasının adı ilə bağlıdır və "at əti yeməyənlər" deməkdir. Atyeməzlik əbirli tayfa qrupuna daxil olan qərvəndli elinin bir qoludur. İranın Xorasan vilayətində də Atyeməz adlanan kənd qeydə alınmışdır. Güman edilir ki, atyeməzlilər vaxtilə Cənubi Azərbaycanın Atyeməz mahalından gəlmişlər [4].

**Avazlar** *oyk ,sadə.* Laçın r-nun Hoçaz i.ə.v.- də kənd. Qarabulaq yaylasındadır. Xəzər və peçeneqlərin tərkibindəki *avaz/abaz/abas* tayfasının birqolunun adı ilə bağlıdır. Gürcüstanın Bolnisi r-nda yaşayan avazlar nəsli burada da Avazlar məhəlləsini təşkil etmişdir [4].

**Ayaq Qərvənd** *oyk., mür.* Ağdam r-nun Qərvənd i.ə.v.- də kənd. Xaçın çayının sahilindədir. Toponimiyada *ayaq* "kənar, uzaq"; "aşağı"; "qurtaracaq" mənalarını ifadə edir. Yaşayış məntəqəsi Baş Qərvənd kəndindən aşağıda yerləşdiyinə görə belə adlandırılmışdır. Qərvənd etnotoponimdir [2].

**Ayıbasanlı** *oyk., mür.* Füzuli r-nun eyniadlı i.ə.v.- də kənd. Bəzi mənbələrdə Ayıbasan kimi də verilir. Oykonim *ayı* (heyvan adı), *basan* (yenən, qalib gələn, məğlub edən) və *-lı* (Çək.) komponentlərindən düzəlib. 1980-ci ilə qədər Ermənistanda Ayıbasan adlı kənd olmuşdur. Sonralar bu kəndi ermənilər Marqahovit adlandırmışlar. Yəqin ki, Ayıbasanlı kəndində məskunlaşmış əhali Ermənistandan köçüb gəlmişdir. *Ayıbasan* "ayını məğlub edən" və ya "ayının çox olduğu yer" deməkdir. *Ayıbasanlı* isə Ayıbasan kəndindən gələnlər" mənasına uyğundur. Hal-hazırda Ayıbasanlı kəndi Yuxarı və Aşağı Ayıbasanlı adı ilə iki kəndə ayrılmışdır [4].

**Ayıbazar** *oyk., mür.* Laçın r-nun Təzəkənd i.ə.v.- də kənd. Ayıbazar çayının (ġəlvə çayının qolu) kənarında, Qarabağ silsiləsinin ətəyindədir. Əsli Aybazardır. Yaşayış məntəqəsi meşəlikdən zolaq şəklində ayrılmış sahədədir. Tədqiqatçılara görə, oykonim *ayı* (heyvan adı) və *bazar* (satış yeri; bolluq olan yer) sözlərindən düzəlib, "ayı bol olan yer; ayının satışa çıxarıldığı yer" deməkdir. Əslində isə, kəndin adı keçmişdə bu ərazidə ayda bir dəfə təşkil olunan bazarla əlaqədar yaranmışdır [4].

**Nəticə.** Qarabağ bölgəsinin izahlı toponimik lüğətinin bir qisminin hazırlanması və təhlili nəticəsində belə bir qənaətə gəlirik ki, qədim dövrlərdən başlayaraq bu ərazilərin ilkin və əzəli sahibləri – aborigen tayfaları türk mənşəli olmuşlar. Qarabağ sakinləri yüziliklər boyu etno-mənəvi sərvətin yaradılmasında bilavasitə iştirak etmişlər. Onların maddi-mədəniyyət nümunələrilə yanaşı, minlərlə türk toponimlərimizi, milli mənəviyyatımızı, mədəni irsimizi zənginləşdirmişlər.

Beləliklə göründüyü kimi erməni vandallarının ərazilərimizə qarşı haqsız iddialarına baxmayaraq, Azərbaycan türklərinin Qarabağda əzəldən yaşamaları, bu torpaqların ilkin sakinləri və sahibləri olması faktı elmi əsasla, toponimlərin dili ilə təsdiqini tapmışdır.

***Ədəbiyyat siyahısı:***

1. *Azərbaycan tarixi. I-IV cildlər Bakı: Elm, 2007, 504 səh.*
2. *Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. II cilddə, I cild, Bakı, "Şərq-Qərb" nəşriyyatı, 2007, 304 səh.*
3. *Məmmədov A.B. Qarabağ, onun qədim tayfaları və toponimləri. Bakı, "Mütərcim", 2008, 480 səh.*
4. *Məmmədov N. G. Toponimika (dərslik). Bakı, "Bakı Universitetinin nəriyyatı", 2007, 408 səh.*
5. *Qeybullayev Q.A. Azərbaycan toponomiyası. Bakı, "Elm", 1986, 192 səh.*
6. *Yusifov Y.V., Kərimov S.K. Toponomikanın əsasları. Bakı, "Maarif", 1987, 542 səh.*
7. *İsmayilova A. Dağlıq Qarabağın toponimlərinin tədqiqi. /dis.işi/"Bakı", 1995, 144 səh.*

***Rəyçi: Hicran Mahmudova***
*BDU, Tarix fakültəsi, t.f.d.*

**UOT 94; 930:314**

# İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ SSRİ-DƏ ALMANLARIN DEPORTASİYASI MƏSƏLƏLƏRİNƏ DAİR

**Balamirzə Məmmədli**
*BDU, Tarix fakültəsi, magistrant*
*balamirzamammadli@gmail.com*

*İkinci dünya müharibəsi illərində xalqların deportasiyası SSRİ tarixinin mürəkkəb və uzun müddət səthi tədqiq edilmiş problemlərindən biri olmuşdur. Son dərəcə gərgin müharibə şəraitində İ.Stalinin deportasiya siyasəti aparmasının və bu işdən ötrü xeyli sayda hərbi, nəqliyyat, maddi resurslarının cəlb olunmasının əsl səbəbləri hələ də mübahisəli mövzü olaraq qalır.*

*Məqalədə İkinci dünya müharibəsi illərində SSRİ-də "total deportasiyaya" məruz qalan xalqlardan biri olan almanların hansı səbəblərdən öz yaşadıqları ərazilərdən məcburi köçürülməsi, deportasiya əməliyyatının necə hazırlanması və həyata keçirilməsi, habelə yeni ərazilərə köçürülmüş almanların sonrakı taleyi geniş elmi ədəbiyyat əsasında tədqiq olunmuşdur.*

***Açar sözlər:*** *SSRİ, İkinci dünya müharibəsi, deportasiya, almanlar, məskunlaşma.*

## *ON THE ISSUES OF DEPORTATION OF GERMANS IN USSR IN THE YEARS OF THE SECOND WORLD WAR*

*The deportation of peoples during the Second World War was one of the most complex and long unexplored problems in the history of the USSR. The true reasons for Stalin's deportation policy and the diversion of significant military, transport and material resources to this during a tense war is still debatable.*

*The article examines the reasons for the forced eviction of Germans, one of the peoples subjected to "total deportation" to the USSR during World War II, the preparation and conduct of the deportation operation, as well as the fate of the Germans relocated to new territories on the basis of extensive scientific literature.*

***Keywords:*** *USSR, World War II, deportation, Germans, resettlement.*

**Giriş.** İkinci dünya müharibəsi illərində SSRİ-də milyonlarla sovet vətəndaşının – xalqların, milli azlıqların, etnik qrupların məcburi köçürülmələri bütövlükdə ölkə üçün ən ciddi demoqrafik və iqtisadi nəticələrə səbəb olan amillərdən biri olmuşdur. Sovet dövləti xalqların deportasiyasına SSRİ-nin strateji əhəmiyyətli ərazilərini potensial "xəyanətkar" əhalidən "təmizləmək" məqsədi ilə görülən qabaqlayıcı tədbir, habelə cəza tədbiri kimi baxırdı. Buna görə də, nasist Almaniyası ilə müharibə illərində SSRİ-də deportasiyalar dalğasının ilk zərbəsi sırf etnik mənsubiyyətinə görə potensial "kollaborasionistlər" kimi təsnif edilən almanlara dəydi. 1939-cu ildə aparılmış Ümumittifaq siyahıyaalmasına görə, SSRİ-də 1,4 milyondan çox etnik alman var idi. Müharibə illərində SSRİ ərazisindəki bütün alman əhalisinin 80%-dən

çoxu deportasiyalara məruz qalmışdır.

**SSRİ-də almanların deportasiya olunması səbəbləri.** SSRİ-Almaniya müharibəsinin başlanmasından cəmi 1 ay sonra, 1941-ci il iyulun 31-də Volqaboyu almanlarının Muxtar Sovet Sosialist Respublikasının paytaxtı Engels şəhərində Kuybışev adına kolxozun qoyunçuluq fermasının müdiri İ.Belousovun işi ilə bağlı qeyri-adi bir məhkəmə prosesi baş verdi. Həmin şəxs "SSRİ-də yaşayan almanlara qarşı şovinist hücumda" günahlandırılırdı. Məsələnin mahiyyəti ondan ibarət idi ki, Belousov sərxoş vəziyyətdə olarkən öz alman həmkarlarını "faşist" adlandıraraq təhqir etmişdi. Volqaboyu almanlarının MSSR-nın Ali Məhkəməsi İ.Belousova 6 il müddətinə azadlıqdan məhrum etmə cəzası verdi [6, s.417]. Həmin məhkəmə prosesi, orada qəbul edilən sərt cinayət hökmü geniş şəkildə ictimaiyyətə çatdırıldı. Lakin, məlum olduğu kimi totalitar quruluşa malik sovet dövlətində xüsusilə də müharibə şəraitində ölkənin ali rəhbərliyinin icazəsi olmadan məhkəmə təqsirləndirilən şəxsə ağır cəza verilə bilməzdi.

Sözügedən məhkəmə prosesi tamamilə sovet dövlətinin müəyyən siyasi məqsədlərinə xidmət edirdi. Belə ki, təkcə sovet cəmiyyətində deyil, həm də bütün dünyada, ilk növbədə isə Almaniyanın özündə insanlar bilməli idilər ki, "sovet sosialist dövlətində" alman faşizmi ilə sadə zəhmətkeş almanlar heç bir halda eyniləşdirilmir, Almaniya ilə müharibəyə baxmayaraq, SSRİ-dəki milliyyətcə alman vətəndaşlar da bərabərhüquqludur, qanunla qorunur və millətlər arasında dostluq ideologiyası olan beynəlmiləlçilik müharibə şəraitində də sovet həyat tərzinin ən mühüm atributudur. Beləliklə, Belousovun işi ilə bağlı məhkəmə prosesi müharibənin ilk aylarında sovet rəhbərliyinin Almaniyaya qarşı yönəltdiyi geniş və kütləvi əks-təbliğat kampaniyasına öz töhfəsini verməli və ondan tezliklə sovet almanlarına qarşı həyata keçiriləcək qəddar tədbirlərdə vasitə kimi istifadə olunmalı idi [6, s.417].

Müharibə davam etdikcə şiddətli hücumlarını davam etdirən vermaxt getdikcə daha çox sovet ərazilərini ələ keçirir və sovet-alman cəbhə xətti tədricən Volqaya yaxınlaşırdı. Belə bir şəraitdə, əks-təbliğat kampaniyası zamanı Stalin ideoloqlarının primitiv üsulları, o cümlədən Volqadakı alman muxtariyyətini bir növ dünyanın gözündə "sosializmi sərgiləyən vitrinə" çevirmək cəhdləri heç bir nəticə vermirdi. Volqaboyu almanlarının MSSR-dan şəxsən İ.Stalinə və L.Beriyaya daxil olan partiya və xüsusi orqanların hesabatlarında muxtar respublikadakı vətəndaşlar arasında "antisovet", "faşistyönümlü" elementlərin olması məlumatları sızdırılırdı ki, bu da sovet rəhbərliyində güclü qıcıq yaradırdı [6, s.418]. Qeyd etmək lazımdır ki, hələ müharibədən əvvəl də etnik almanlar arasında bolşevik rejiminə qarşı kifayət qədər nəzərə çarpacaq dərəcədə ümumi etimadsızlıq var idi. Rusiya tarixçisi A.Germanın fikrincə, qərbi Avropa sivilizasiyasına məxsus bir çox dəyərləri öz adət-ənənələrində qoruyub saxlayan almanlar bolşeviklərin bərqərar etdiyi ictimai quruluşa ən gec və ən çətin uyğunlaşan xalqlardan biri idi. Mentalitetlərinin spesifikliyi səbəbindən almanlar bir qayda olaraq bolşeviklərin

ənənəvi həyat tərzini pozmaq cəhdlərinə daha mənfi reaksiya verir, inadkar müqavimət göstərirdilər və buna görə də mövcud rejimin sərt cəza tədbirlərinə məruz qalırdılar [4, s.284-293].

Almanların öz identik xüsusiyyətlərini və ənənəvi həyat tərzlərini qoruyub saxlamaq uğrunda sovet hakimiyyəti ilə mübarizələrinin mühüm xüsusiyyəti ondan ibarət idi ki, onlar da SSRİ-dəki digər bir çox xalqları kimi sosial eksperimentlərin qurbanına çevrilir və çətin vəziyyətə düşürdülər. Belə bir şəraitdə onlar öz tarixi vətənlərinə qayıtmağa, oradan maddi yardım almağa cəhd edir, xaricə mühacirət etmiş qohumlarına və dostlarına kömək üçün müraciət edirdilər. Artıq SSRİ-dəki almanlar arasındakı daxili sosial gərginlik beynəlxalq səviyyəyə çatmışdı. 1933-cü ildə sovet almanları tərəfindən Almaniyaya “aclıq məktublarının” göndərilməsi və maddi yardım istənilməsi yuxarıda deyilənlərə ən parlaq misaldır. Təbii ki, sovet rəhbərliyi “öz almanlarının” bu cür hərəkətlərinə son dərəcə mənfi reaksiya verirdi, çünki onlar bolşevik rejimini bütün dünya ictimaiyyəti qarşısında gözdən salır, “fəhlə və kəndli dövlətində” işlərin əsl mahiyyətini ortaya qoyurdular. Beləcə, Almaniyada nasistlərin hakimiyyətə gəlməsi fonunda sovet almanlarına qarşı SSRİ-də sərt repressiv kampaniya geniş vüsət almağa başladı [13, s.75-83].

**Almanların deportasiyası əməliyyatının hazırlanması.** SSRİ-də bir çox qapalı arxiv fondlarına uzun müddət çıxışın olmaması səbəbindən Volqaboyu almanlarının deportasiyasının həyata keçirilməsi ilə bağlı yeganə sənədin SSRİ Ali Soveti Rəyasət Heyəti tərəfindən 28 avqust 1941-ci ildə qəbul edilmiş “Volqaboyu rayonlarında yaşayan almanların köçürülməsi haqqında” sərəncam olduğu hesab edilirdi. Lakin, məlum olduğu kimi SSRİ-də dövlət və cəmiyyət həyatının istənilən məsələsi üzrə ilkin qərarlar partiya orqanları tərəfindən qəbul edilir və yalnız bundan sonra onlar “dövlət qərarı” xarakteri alırdı. Volqaboyundan yüz minlərlə insanın məcburi şəkildə köçürülməsi kimi mühüm qərarı da əvvəlcə ali partiya orqanı – Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu verməli idi. Bu baxımdan, SSRİ XKS və ÜK(b)P MK-nin 26 avqust 1941-ci ildə qəbul etdiyi “Almanların Volqaboyu respublikasından, Saratov və Stalinqrad vilayətlərindən başqa diyar və vilayətlərə köçürülməsi haqqında” qərarı Volqaboyu almanlarının muxtar respublikasının taleyinə son qoyan, sovet almanlarının deportasiyasının başlanğıcını qoyan ilk sənəd oldu [5, s.229].

Bu sənəd 6 vərəqdən ibarət olmaqla konkret qərar idi. Qərarın birinci bəndində heç bir ön söz və izahat olmadan qeyd edilirdi:

“1. Bütün almanlar Volqaboyu alman Respublikasından, Saratov və Stalinqrad vilayətlərindən aşağıdakı diyar və vilayətlərə köçürülsün:

Krasnoyarsk diyarına – 70 000 nəfər,
Altay diyarına – 91 000 nəfər,
Omsk vilayətinə – 80 000 nəfər,
Novosibirsk vilayətinə – 92 000 nəfər,

Qazaxıstan SSR-ə – 100 000 nəfər,
o cümlədən:
Semipalatinsk vilayətinə – 10 000 nəfər,
Akmola vilayətinə – 20 000 nəfər,
Şimali Qazaxıstan vilayətinə – 20 000 nəfər,
Kustanay vilayətinə – 16 000 nəfər,
Pavlodar vilayətinə – 18 000 nəfər,
Şərqi Qazaxıstan vilayətinə – 16 000 nəfər.

Köçürülmə həm şəhər, həm də kənddə yaşayan bütün almanlara şamil edilir" [12, s.288].

Qərarın 2-ci bəndinə əsasən, almanların məcburi köçürülməsi işinə rəhbərlik SSRİ Xalq Daxili İşlər Komissarlığına (XDİK) həvalə edilirdi. Köçürülənlərə özləri ilə yalnız hər ailə üzrə bir tona qədər çəkisi olmaqla şəxsi mülkiyyət, ərzaq, xırda kənd təsərrüfatı və məişət alətləri aparmaq icazə verilirdi. Onlara məxsus tikililər, iri kənd təsərrüfatı vasitələri, mal-qara və taxıl yemləri yerində qalmalı və qiymətləndirmə aktına əsasən xüsusi komissiyalara təhvil verilməli idi. Sözügedən qərarın 17-ci bəndində isə deyilirdi: "Köçürülmə prosesi 1941-ci il sentyabrın 3-də başlansın və 1941-ci il sentyabrın 20-də başa çatdırılsın. SSRİ XDİK köçürülmə planını, köçürülmüş kolxozlar üçün mənzil və təsərrüfat tikintisinin maddi-texniki təchizatı ilə bağlı təklifləri 1 sentyabra kimi SSRİ XKS və ÜK(b)P MK-nə təqdim etsin" [6, s.421]. Növbəti bənddə deportasiyanın hansı şəkildə həyata keçirilməsi müəyyən olunurdu: "Volqaboyu Respublikadan və Saratov vilayətindən köçürülən almanların daşınması dəmir yolu ilə, Stalinqrad vilayətindən daşınması isə Quryev su yolu vasitəsilə həyata keçirilsin" [6, s.421].

SSRİ Xalq Daxili İşlər komissarı L.Beriyanın avqustun 27-də verdiyi "almanların köçürülməsi əməliyyatının həyata keçirilməsi tədbirləri" haqqında 001158 nömrəli əmrdə konkret şəkildə aşağıdakı sərt tələblər irəli sürüldü:

"XDİK-nın yerli orqanlarının kəşfiyyatı və əməliyyat materialları əsasında "antisovet elementlər" nəzərə alınsın, onlar əməliyyatdan əvvəl həbs edilsin, ailələri isə ümumi qaydada köçürülsün;

deportasiya əməliyyatına başlamazdan əvvəl sovet partiya fəalları ilə birlikdə izahat işləri aparılsın və köçürülənlərə xəbərdar edilsin ki, ayrı-ayrı ailə üzvlərindən hər hansısa biri qanunsuz fəaliyyətə keçdikdə cinayət məsuliyyətinə cəlb olunacaq, onun qalan ailə üzvləri isə repressiya olunacaq;

köçürüləcək ailələrin ayrı-ayrı üzvləri köçürülmədən imtina etdikdə, həmin şəxslər həbs olunsun və icbari qaydada köçürülmə yerinə gətirilsin;

bütün operativ heyətə xəbərdarlıq edilsin ki, əməliyyat "səs-küysüz və panikasız" həyata keçirilsin. Ləngimə yaranarsa, antisovet çıxışları və ya silahlı toqquşmalar baş verərsə, onları aradan qaldırmaq üçün qətiyyətli tədbirlər görülsün" [9, s.41-43].

Beləliklə, göründüyü kimi almanların Volqaboyundan deportasiyası əməliyyatı hələ 1941-ci il 28 avqust qərarına qədər nəzərdə tutulmuş,

deportasiyanın bütün mərhələləri üçün icraçılar seçilmiş, təyin edilmiş və ətraflı təlimatlandırılmış, habelə əməliyyatın maddi təchizatı məsələsi işlənib hazırlanmışdı. Artıq yerlərdəki bütün partiya, inzibati və polis aparatı almanların deportasiyasını həyata keçirməyə hazır idi. Lakin, bütöv bir xalqa qarşı hazırlanan bu nəhəng repressiya tədbirinə ən azından müəyyən dərəcədə "qanuni" xarakter vermək lazım idi. Məhz buna görə də, SSRİ Ali Soveti Rəyasət Heyəti 28 avqust 1941-ci ildə "Volqaboyu rayonlarında yaşayan almanların köçürülməsi haqqında" sərəncam qəbul etdi [2, s.144-145].

Yuxarıda adı çəkilən sərəncamın ilk iki bəndində deportasiya qərarı ideoloji və siyasi cəhətdən əsaslandırılırdı. Lakin, həmin bəndlərdəki Volqaboyu ərazisində yaşayan 400 min alman əhalisi arasında "minlərlə, on minlərlə diversant və casuslar var" ifadəsinin aldadıcı mahiyyəti o dövrün istənilən peşəkar sovet partiya işçisi, cəza aparatı nümayəndəsi, hərbi mütəxəssisi üçün son dərəcə aydın idi. Sərəncamın ikinci bəndində Volqaboyu almanlarının bilavasitə vətənə xəyanətdə ittiham olunması aydın şəkildə təsdiq olunur: "Volqaboyu ərazisində yaşayan almanların heç biri həmin ərazidə bu qədər sayda diversant və casusun olması barədə sovet hökumətinə məlumat verməyib. Deməli, Volqaboyunun alman əhalisi sovet xalqının və sovet hakimiyyətinin düşmənləri arasında gizlənirlər". Beləliklə, Volqaboyu almanları Vətən xaini, casus və diversantdır. Lakin buna baxmayaraq, üçüncü və dördüncü bəndlərinə görə, sovet rəhbərliyi onlara qarşı qayğı göstərir: "Əgər diversiya aktı baş verərsə ...sovet hökuməti müharibə dövrünün qanunlarına əsasən, bütün Volqaboyu alman əhalisinə qarşı cəza tədbirləri görməyə məcbur olacaq, qan töküləcək. Belə arzuolunmaz halların qarşısını almaq üçün SSRİ Ali Sovetinin Rəyasət Heyəti Volqaboyu ərazisində yaşayan bütün alman əhalisinin başqa bölgələrə köçürülməsini zəruri hesab edir" [6, s.428].

1941-ci ilin sentyabrın 2 – də ÜK(b)P-nın Volqaboyu almanlarının MSSR vilayət komitəsinin birinci katibi S.Malov Stalinə xüsusi memorandum göndərərək 28 avqust sərəncamından sonra muxtar respublikadakı siyasi vəziyyəti xarakterizə edərək bildirdi: "Rus və digər (almanlar istisna) millətlərdən olan zəhmətkeşlərin böyük əksəriyyəti bu sərəncamı arxa cəbhənin möhkəmləndirilməsi istiqamətində ciddi tədbirlərdən biri kimi böyük təqdirlə qarşıladılar" [6, s.430]. Memorandumda həmçinin, Volqaboyu alman əhalisini kobud şəkildə təhqir edən açıq-aşkar şovinist xarakterli "fəhlə fikirləri" göstərilirdi. Xüsusən də, "bir fəhlə" deyirdi: "Bəli, indi onlar (yəni almanlar – B.M.) qoy hamılıqla getsinlər! Ailəmin daxili düşmən təhlükəsindən xilas olduğunu bildiyim üçün indi arxayın cəbhəyə yollana bilərəm" [6, s.430].

Daha sonra, S.Malov 28 avqust qərarından sonra "əks-inqilabi elementlərin fəallaşması, antisovet və faşist yönümlü təbliğatın güclənməsinin" müşahidə olunması ilə bağlı məlumat verir: "Əksinqilabi elementlərin fəallaşması məğlubiyyətçilik xarakteri daşıyan fikirlər, panika yaratma və provokasiya xarakterli şayiələr yaymaq cəhdləri, həmçinin diversiyaya çağırış

və köçürülməyə müqavimət göstərmə xətti üzrə gedir” [6, s.430]. Digər tərəfdən, bütün bunlara baxmayaraq almanların qalan hissəsinin qərara normal reaksiya verdiyini, mövcud vəziyyəti dərk etdiyini bildirən S.Malov öz fikrini təsdiqləmək üçün bəzi alman vətəndaşlarının söylədiklərindən misallar gətirirdi. Məsələn, qulluqçu Kober deyirdi: “Bu gözlənilən idi, çünki Hitler rusları möhkəm sıxışdırır. Tezliklə alman qoşunları Stalinqrada və Stalinqraddan çox da uzaq olmayan Engels şəhərinə yaxınlaşacaqlar. Ona görə də, biz almanlar köçürülürük” [6, s.430].

**Deportasiyanın həyata keçirilməsi.** 1941-ci il 28 avqust tarixli sərəncam yerli qəzetlərdə dərc olunan kimi almanların Volqaboyundan çıxarılması əməliyyatı başladı və son dərəcə sərt və qızğın şəkildə həyata keçirildi. Bunu XDİK-nın əməliyyat qrupu tərəfindən hər gün Moskvaya göndərilən və L.Beriyaya ünvanlanan hesabatlardan görmək olar. Xüsusilə, deportasiya qatarlarının ilk eşelonlarına göndərilən almanlar çətin şəraitdə avqustun 31-nə kimi mülklərini təhvil verməli və tələsik şəkildə yola hazırlaşmalı idilər. Onlar əsasən Pokrovsk, Qmelinka, Pallasovka, Krasnıy Kut şəhərlərinin və dəmiryol vağzallarının mövcud olduğu digər yaşayış məntəqələrinin, eləcə də yaxınlıqdakı kəndlərin sakinləri idilər [6, s.432]. Sentyabrın 1-də qatarların ilk eşelonunun yüklənməsinə başlanıldı. Sonrakı eşelonlara insanların yerləşdirilməsi ardıcıllığı müvafiq olaraq kəndlərdən stansiyaya qədər olan məsafə üzrə müəyyən edildi. Yəni, əvvəlcə stansiyaya yaxın olan kəndlərin sakinləri köçürüldü. Uzaqda yerləşən yaşayış məntəqələrinin sakinlərinin stansiyalara gətirilməsi bir qayda olaraq, at-araba nəqliyyatı və avtomobillər vasitəsilə həyata keçirilirdi. Lakin, çox vaxt nəqliyyat vasitələrinin çatışmazlığı səbəbindən kişilər stansiyalara piyada getməli olurdular. Bəzi hallarda stansiyalara qədər məsafələr daha uzun olduqda su nəqliyyatından da istifadə olunurdu.

1941-ci ilin sentyabrın 6-da SSRİ XKS və ÜK(b)P Mərkəzi Komitəsi “Keçmiş Volqaboyu alman Respublikasının ərazilərinin inzibati quruluşu haqqında” qərar verdi, səhəri gün SSRİ Ali Sovetinin Rəyasət Heyəti bu qərarı təsdiqləyən sərəncam imzaladı [11, s.81]. Bu sənədlərə uyğun olaraq muxtar respublikanın ərazisi Saratov və Stalinqrad vilayətləri arasında bölündü. Saratov vilayətinin tərkibinə Engels şəhəri, Qırmızı toxucu qəsəbəsi və 15 kanton, Stalinqrad vilayətinə 7 kanton keçdi.

SSRİ Xalq Daxili İşlər komissarının müavini, sonradan Dövlət Təhlükəsizlik Komitəsinin (KQB) ilk sədri olmuş İ.Serov 1941-ci il sentyabrın 13-də Beriyaya bildirdi ki, köçürülmə əməliyyatının yaxın vaxtda başa çatması ilə əlaqədar o, XDİK-nın Saratov və Stalinqrad vilayətlərindəki idarələri üçün “alman milliyyətindən olan şəxslərin məskunlaşma ərazilərində yerləşdirilməsi qaydasının müəyyənləşdirilməsi və istiqamətləndirilməsi haqqında” direktiv hazırladı. Direktivə görə, almanların kimliklərinin müəyyənləşdirilməsi dəmiryol stansiyaları, məskunlaşma məntəqələri, pasport şöbələri və s. idarələrdə sənədlərin yoxlanılması yolu ilə həyata keçirilməli idi. İ.Serov göstərirdi ki, milis orqanları almanlara icbari şəkildə Qazaxıstan

SSR-ə getməli olduqlarını və pasport sahiblərinin yalnız SSRİ XDİK-nın əmri üzrə qeyd olunmuş ərazilərdə yaşamaq hüququna malik olduğunu elan edəcəkdi. Beləcə, almanlar göstərilən yerlərə getməyə məcbur olacaqlar, çünki pasportlarında qeyd olunan yazı ilə başqa heç bir ərazidə qeydiyyata alınmayacaqlar. Rusiya tarixçisi A.Germanın yazdığı kimi: "Bu, Serovun çox gözəl ixtirası idi! Dövlətin və polis aparatının həyatını necə də yüngülləşdirir, nə qədər vəsaitə qənaət edirdi. Artıq sovet almanları qırmızı bayraqlarla əhatə olunmuş canavarlar kimi yalnız sovet rəhbərliyinin onları görmək istədiyi yerə getməyə məcbur idilər" [6, s.436].

Almanların yaşadıqları ərazilərdən çıxarılması əməliyyatı sentyabrın 20-də başa çatdı. Həmin gün Pokrovsk və Uvek şəhərlərindən son üç eşelon yüklənərək yola salındı. Deportasiya əməliyyatı çoxsaylı itkilərlə müşahidə olunurdu. Yükləmə stansiyalarında antisanitar şərait, xəstəliklərin yayılması daha çox buna səbəb olan amillər idi. Həmçinin əməliyyatın gedişində kütləvi həbslər də olurdu. Məsələn, XDİK orqanları "profilaktika" məqsədilə "antisovet elementlər" kimi tanıdığı 349 nəfəri həbs etmişdi. Deportasiyaya məruz qalan almanların bəzilərinin bizə gəlib çatan xatirələrinə baxdıqda onların öz doğma torpaqlarını könüllü tərk etmədiyini görmək olar. Məsələn, onlardan biri olan A.Gerr deportasiya prosesini belə xatırlayırdı: "Bizim 842 saylı eşalon 1941-ci il sentyabrın 11-də gecə saat üç radələrində Saratov stansiyasından yola düşdü. ...Qatar stansiyadan yola düşəndə göz yaşları yox idi. Amma biz Uvekdən keçib körpüyə girəndə bütün vaqon hönkür-hönkür ağlayırdı" [6, s.437].

1941-ci ilin sonuna qədər təkcə Volqaboyu muxtar respublikasında deyil, SSRİ-nin qərbində – Avropa hissəsində yaşayan demək olar ki, bütün almanlar deportasiyaya məruz qaldılar. Hələ, Volqaboyu almanlarının deportasiyasına qədər həyata keçirilən bu cür ilk mühüm addım 60 minlik alman əhalisinin Krımdan qovulması idi. Evakuasiya üzrə şuranın 15 avqust 1941-ci il tarixli SE-75 qərarı ilə Krım MSSR-in alman əhalisi Divenski, Blaqodarnenski və Budyonnovski rayonlarından Orconikidze diyarına köçürüldü. Əməliyyatı həyata keçirən XDİK işçilərinin özlərinin etiraf etdiyi kimi evakuasiya tələm-tələsik aparılmışdı. Məsələn, SSRİ XDİK-nın Orconikidze diyarı üzrə idarəsinin 12-ci şöbəsinin rəis müavini Qusev ali orqana göndərdiyi məktubunda qeyd edirdi: "Krımın bir sıra bölgələrində (Aluşta, Yalta və s.) tamamilə lüzumsuz tələsikliyə yol verilir, evakuasiya edilənlərə hara aparıldıqları, nə qədər yol gedəcəkləri, özləri ilə nə kimi ehtiyat götürmək lazım olduğu bir qayda olaraq deyilmirdi" [3, s.39].

Qeyd etmək lazımdır ki, artıq 1942-ci il yanvarın 1-də deportasiya olunan almanların ümumi sayı 7.995 min nəfər idi [6, s.452].

**Azərbaycan SSR-dən almanların deportasiyası.** İkinci dünya müharibəsi illərində SSRİ-nin Avropa hissəsindəki alman əhali ilə yanaşı, Qafqazdan, xüsusilə Azərbaycan SSR və Gürcüstan SSR-də yaşayan almanlara da "düşmən elementlər", "beşinci kolon" kimi yanaşılmış, sərt deportasiyalara

məruz qoyulmuşdur. 1941-ci il oktyabrın 8-də Dövlət Müdafiə Komitəsinin qəbul etdiyi "Gürcüstan, Azərbaycan və Ermənistan SSR-dən almanların köçürülməsi haqqında" 744 ss nömrəli əsasnamədə deyilirdi: "Gürcüstan SSR-dən – 23.580 nəfər, Azərbaycan SSR-dən – 22.741 nəfər və Ermənistan SSR-dən – 212 nəfər alman əhalisi köçürülsün". Üstəlik, Qafqaz almanlarının Qazaxıstan SSR-ə köçürülməsi ilə bağlı bütün tədbirlər qısa müddətdə – 1941-ci il oktyabrın 15-dən oktyabrın 30-dək SSRİ XDİK tərəfindən həyata keçirilməli idi [7, s.146].

SSRİ XDİK-in "Gürcüstan, Azərbaycan və Ermənistan SSR-dən almanların köçürülməsi tədbirləri haqqında" 001487 nömrəli əmrində köçürülmə ilə bağlı müfəssəl təlimatlar da var idi [7, s.146]. Bu əmrə əsasən, Gürcüstan, Azərbaycan və Ermənistan SSR-də yaşayan alman millətindən olan bütün sakinlər, o cümlədən partiya və komsomol üzvləri, Qırmızı Ordunun hərbi qulluqçularının ailə üzvləri də köçürülməli idi. Köçürülənlərə hər ailə üzvünə görə çəkisi 200 kq-dan çox olmayan zəruri məişət əşyalarını özləri ilə aparmaq icazəsi verilirdi. Köçkünlərin bütün daşınmaz əmlakı, kənd təsərrüfatı alətləri, ərzaq məhsulları, mal-qarası dövlət təşkilatlarının, kolxozların tabeliyinə verilirdi. Köçürülmə əməliyyatı Qırmızı Ordu əsgərlərinin iştirakı ilə NKVD-nin əməliyyat qrupları tərəfindən çox cəld və mərkəzləşdirilmiş şəkildə həyata keçirilirdi. Təlimatlara əsasən, eşelonlara NKVD-nin rəisləri və əməliyyatçıları rəhbərlik edirdilər, onlar köçkünlərə diqqətlə nəzarət edirdilər. Beləliklə, almanların Azərbaycandan köçürülməsi prosesi vaxtında başa çatdırıldı və artıq 1941-ci ilin noyabrında Azərbaycandan deportasiya edilən alman əhali qruplar şəklində Qazaxıstan SSR-in Akmola, Karaqanda, Kustanay, Pavlodar kimi vilayətlərində yerləşdirildi [7, s.147].

Qazaxıstanın ucqar çöllərində xüsusi yaşayış məntəqələrində məskunlaşdırılan Azərbaycan almanlarının sonrakı aqibəti faciəvi oldu. Onların çoxu qıtlıq, xəstəliklər və epidemiyaların yayılması səbəbindən ağır yaşayış şəraitinə tab gətirə bilmədilər və orada qaldıqları ilk illərdə vəfat etdilər. Deportasiya edilmiş almanlar üçün belə ağır vəziyyət 1950-ci illərin əvvəllərinə qədər davam etdi. 1950-1960-cı illərdə SSRİ-nin həm daxili, həm də xarici siyasət amilləri ("Xruşşov mülayimləşməsi", müharibədən sonrakı sovet-alman münasibətləri və s.) alman əhalisinin vəziyyətinə nəhayət ki, müsbət təsir göstərdi. SSRİ Ali Soveti Rəyasət Heyətinin 13 dekabr 1955-ci il, 29 avqust 1964-cü il, 3 noyabr 1972-ci il tarixli fərmanları ilə xüsusi yaşayış məntəqələrindəki (спецпоселения) alman köçkünlərinin hüquqi statusuna qoyulan məhdudiyyətlər aradan qaldırıldı [1, s.115-128].

**Deportasiya olunan almanların sonrakı taleyi.** Deportasiya olunmuş almanların yeni ərazilərdə məskunlaşdırılması ailələr üzrə həyata keçirildi. Hər rayona müəyyən sayda ailə göndərildi ki, onlar da öz növbəsində sonradan kəndlər və kolxozlar üzrə bölünürdü. Nəticədə hər kəndə, kolxoza, sovxoza, yaxud MTS-ə cəmi bir neçə ailə düşürdü. Məsələn, bunun nəticəsində SSRİ-də almanların kompakt halda məskunlaşdıqları ən mühüm ərazi

olan Volqaboyu MSSR-in alman əhalisi 2,5-3 milyon kv.kilometrlik geniş bir əraziyə səpələndi. Məhz həmin vaxtdan etibarən yüksək tempdə almanların rusdilli mühitlə assimilyasiyası prosesi başladı.

Yeni ərazilərdə məskunlaşdırılan almanlara həmin ərazilərdəki yerli hakimiyyət orqanlarının münasibəti bütövlükdə mənfi idi. Hətta öz sədaqətini ifadə edən, vicdanla işləyənlər üçün də münasibət belə idi. Buna tipik bir misal kimi, Krasnoyarsk diyarındakı kolxozlardan birində («Путь пятилет-ки» kolxozu) baş verən hadisəni göstərmək olar: Yakov Krikau adlı alman kombaynçı kolxoza gəldiyi ikinci gündən işləməyə başlayaraq bu yerlərdə görünməmiş nəticələr göstərməyə başladı. Belə ki, o, gündə 9-11 hektar taxıl sahəsi biçərək bütün yerli normaları xeyli üstələyirdi. Buna baxmayaraq, bir gün arvadı düz meydançada onun yanına qaçıb gələrək ağlaya-ağlaya dedi ki, sədr çörək vermir, uşaqlara yedizdirməyə heç nə yoxdur. "İşini başa çatdır, gedək çörək axtaraq!" Yakovun arvadına qulaq asmaqdan başqa çarəsi qalma-dı və bundan sonra o, artıq öz işində çox canfəşanlıq göstərmədi [6, s.438].

Belə bir şəraitdə təbii ki, aldadılmış, alçaldılmış, qarət edilmiş və qeyri-insani həyat şəraitinə məhkum edilmiş almanlarda sovet hakimiyyətinə qarşı heç bir isti münasibət ola bilməzdi. Onların ümidsizliyi, stalinist rejiminə olan qəzəbi, nifrəti sovet agenturası tərəfindən qeydə alınmış ifadələrində açıq şəkildə hiss olunur. Məsələn, A.Henrixs adlı alman köçkünü öz ifadəsində deyirdi: "Bizi bura acından ölmək üçün sürgün etdilər. Bura getməkdənsə, Volqada boğulmaq daha yaxşı olardı". K.Lüdviq adlı başqa bir köçkün isə: "Sovet hökuməti bizi aldatdı. Bizə dedilər ki, yeni ərazilərdə hər şey alacağıq, indi yemək belə vermək istəmirlər. Hər şeyi biz Volqaboyunda tərk etdik!" – deyə, kədərini bildirirdi [6, s.449]. Qeyd olunan ifadələr rejimin rəsmi dilində alman köçkünlərinin "qeyri-sağlam əhval-ruhiyyəsi" faktları adlandırılırdı. XDİK nümayəndələri bu cür hisslərin kütləviliyini qeyd edirdilər. Lakin, məlum məsələdir ki, ümidlərini itirmiş insanlardan "sağlam" əhval-ruhiyyə gözləmək sadəcə axmaqlıq olardı.

Soyuq, qəddar və düşmən münasibət şəraitində alman köçkünlərindən bəziləri yeganə xilas yolunun müharibədə sovet rejiminin məğlubiyyəti olduğuna inanırdılar. Ona görə də, XDİK orqanları deportasiya olunan almanlar arasında həm də "məğlubiyyətçi" və "faşist" əhvali-ruhiyyəsinin olması faktını da qeydə aldılar. Məsələn, Matilda Kerr adlı alman köçkünü deyirdi: "Kaş Hitler Sovet İttifaqını tez bir zamanda işğal edərdi, yoxsa burada gecə-gündüz ancaq kolxozçulara əzab verirlər". A.Hamm adlı köçkün isə: "Hər şeyə rəğmən, bu gün ya sabah öləcəyik. Bizlərdən sağ qalanları Hitler xilas edəcək", – deyə, fikirləşirdi [6, s.449-450].

Almanlar SSRİ-nin qərbindən kütləvi şəkildə deportasiya olunduqdan sonra, 1942-ci ilin yanvarından onların vilayətlər və diyarlardakı "əmək ehti-yatları" üzrə yenidən bölüşdürülməsi tədbirləri həyata keçirildi. Belə ki, SSRİ XKS və ÜK(b)P Mərkəzi Komitəsinin 6 yanvar 1942-ci il tarixli 19 ss saylı qərarına əsasən, XDİK-na 50 min almanın balıqçılıq və balıq emalı müəssi-

sələrində işləmələri üçün bölüşdürülməsi həvalə edildi. 1942-ci ilin oktyabrında SSRİ XKS və ÜK(b)P Mərkəzi Komitəsinin 1732 ss saylı başqa bir qərarına əsasən 1943-cü ildə 30 minə yaxın insan Şimal Sibirə köçürüldü [12].

**Nəticə.** Beləliklə, müharibə illərində stalinist rejimin kobud və qeyri-adekvat addımı olan deportasiya SSRİ-də alman əhalisinin vəziyyətinin, məskunlaşma coğrafiyasının əsaslı şəkildə dəyişilməsinə səbəb oldu. Əgər müharibədən əvvəl sovet almanlarının böyük əksəriyyəti kompakt halda ölkənin Avropa hissəsində (Volqaboyu, Ukraynanın cənubu, Krım və s.) yaşayırdılarsa, deportasiyadan sonra onlar əsasən Qərbi Sibir və Qazaxıstanda məskunlaşdılar. Sovet almanları 5 milyon kv.kilometrlik geniş ərazilərə səpələndilər ki, bu da onlarda assimilyasiya prosesinin sürətlənməsi ilə nəticələndi. Deportasiya nəticəsində etnik almanların bütün məhəlli qrupları (Volqaboyu, Qara dəniz ətrafı, Zaqafqaziya, Volın və s.) sıradan çıxaraq qarışıq bir hala gəldi. Müharibə illərində SSRİ-də deportasiya olunan almanlar müharibədən sonra da uzun müddət "xüsusi məskunlaşma" (спецпоселение) adlanan ağır rejimdə yaşamalı oldular. 1949-cu ilin 15 iyul hesablamasına görə, SSRİ-dəki alman "xüsusi məskunlarının" sayı 1093490 nəfər idi [8, s.167]. Xüsusi məskunlaşma rejimi yalnız 1955-ci ilin 13 dekabrında SSRİ Ali Soveti Rəyasət Heyətinin sərəncamı ilə ləğv edildi. Lakin, eyni zamanda, həmin sərəncamda xüsusi şəkildə qeyd olunurdu: "Almanlar üzərində xüsusi məskunlaşma ilə bağlı məhdudiyyətlərin götürülməsi köçürülmə zamanı müsadirə edilmiş əmlakın geri qaytarılmasına səbəb olmur və onların (almanların – B.M.) yaşadıqları əvvəlki yerlərə qayıtmaq hüququ yoxdur" [10, s.177]. Heç bir əsası olmayan bu məhdudiyyət yalnız 1972-ci ilin noyabrında ləğv edildi. Bütün bunlarla yanaşı, SSRİ Ali Sovetinin 1989-cu ilin noyabrında, yəni deportasiyadan 50 ilə yaxın zaman keçdikdən sonra qəbul etdiyi fərmanları ilə almanlar, Sovet İttifaqında deportasiyaya məruz qalmış digər bir çox xalqlar kimi tam bəraət aldılar.

***Ədəbiyyat siyahısı:***

1. *Айсфельд А.А. Российские немцы в послевоенных советско-германских отношениях // Отечественная история, 1996, № 3, 224 с.*
2. *Бугай Н.Ф. «Погружены в эшелоны и отправлены к местам поселений...» Л. Берия – И. Сталину // История СССР, 1991, № 1, 224 с.*
3. *Бугай Н.Ф. Л. Берия – И. Сталину. Согласно Вашему указанию. Москва, АИРО-ХХ, 1995, 323 с.*
4. *Герман А.А. Большевизм и российские немцы // Немцы России в контексте отечественной истории: общие проблемы и региональные особенности. Материалы международной научной конференции (Москва, 17-20 сентября 1998). Москва, Готика, 1999, 488 с.*
5. *Герман А.А. История Республики немцев Поволжья в событиях, фактах, документах. Москва, Готика, 2000, 320 с.*
6. *Герман А.А. Немецкая автономия на Волге 1918-1941. Москва, МСНК-пресс,2007,576 с.*
7. *Зейналова С.М. Немецкие колонии в Азербайджане (1819-1941 гг.). Баку, Араз, 2002, 222 с.*

8. *Земсков В.Н. Спецпоселенцы в СССР, 1930-1960. Москва, Наука, 2005, 306 с,*
9. *Иосиф Сталин – Лаврентию Берии: «Их надо депортировать...»: Документы, факты, комментарии. Москва, Дружба народов, 1992, 288 с.*
10. *История российских немцев в документах (1763-1992 гг.) / сост.: Ауман В.А., Чеботарева В.Г. Москва, Международный ин-т гуманит. программ, 1993, 448 с.*
11. *Сборник законов СССР и указов Президиума Верховного Совета СССР: 1938-1975. В 4-х томах: Том 1. Москва, Изд-во «Известия Советов депутатов трудящихся СССР», 1975, 718 с.*
12. *Сталинские депортации 1928-1953. Под общ. ред. Яковлева А.Н. Москва, МФД: Материк, 2005, 904 с.*
13. *Хаустов В. Репрессии против советских немцев до начала массовой операции 1937 г. // Наказанный народ: По материалам конференции "Репрессии против российских немцев в Советском Союзе в контексте советской национальной политики", 18-20 ноября 1998 года. Москва, Звенья, 1999, 288 с.*

***Rəyçi: Rövşən Hətəmov***
*BDU, Tarix fakültəsi, dosent*

## YUBİLEYLƏR

### "Dost sözü və DOSTUN ÖZÜ"
### (Səidə Əli qızına həsr olunur)

...Mənəviyyat dünyasının Xəzri - Gilavarından, "zəlzələləri", "fırtınaları", "qasırğalarından"... qələbə ilə çıxmaq, dönüklərin, mənəviyyat düşkünlərinin, min sifətli riyakarların...sıralarına qatılmaqdan özünü qorumaq, bununla da öz şərəf və ləyaqətinə sadiq qalmaq hər adamın hünəri deyil!

Bu yazını həsr etdiyim həmkarımı ötən əsrin 60 - cı illərindən bugünədək yaşadığımız dünyanın bütün çətinliklərində, ağır sınaqlarında, bir sözlə həyatın hər cür sərt məqamlarında müşahidə etmək qismətimə düşüb. Elə bu səbəbdən də bu kiçik yazının baş qəhrəmanına həsr olunmuş həmin sətirləri qələmə almaq mənim üçün çox - çox çətin oldu...

Bu da səbəbsiz deyil. Tək - tək insanlar (min təəssüflər ki, bu tək-təklərin sayı getdikcə azalmaqdadır!) var ki, onlar barədə ürəkdolusu xoş sözlərini yazıya köçürmək, ya dilə gətirmək üçün söz tapmaqda çətinlik çəkirsən. Dilimizdə olan sözlər, sanki buna azlıq edir!!!

...Bizi əhatə edən aləmdə "görkəmli " adamlar, "nadir peşə sahibləri" tapmaq o qədər çətin deyil. Bəc insan, əsl insan necə? Rastlaşdığımız, tanıdığımız, "görkəmlilərin", "nadirlərin" hamısımı sözün əsl mənasında insandır!?

Bu yazını həsr etdiyim həmkarım öz peşəsinin kamil bilicisi olmaqla yanaşı, həm də insandır, əsl İNSAN!

Həyatın kiçicik sınağına belə dözə bilməyən, bir tikə çörək üçün durmadan mövqeyini dəyişən, riyakarlığı..., alçaqlığı özünə peşə seçənləri çox görmüşük. Lakin haqqında söz deməyə çalışdığım həmkarım, sağlamlığı da daxil olmaqla, bu dünyanın ən sərt sınaqları ilə üzləşib, hamısına dözüb, sınmayıb və qalib gəlib. MƏNLİYİNİ qoruyub saxlamağı bacarıb! Bu hər kəsin hünəri deyil! Belələri azdır. Və getdikcə azalmaqdadır!

Müqəddəs dost adına axıradək sadiq qalanlar ancaq və ancaq əqidə dostlarıdır, məslək dostlarıdır. Bu kiçik yazımı ünvanladığım həmkarım əsl əqidə dostudur, məslək dostudur. Uzun illər ərzində dünyanın heç bir qüvvəsi bu cümləri həsr etdiyim insanı öz dostlarından ayrı sala bilmədi. Ötən əsrin 60-cı illərindən başlayaraq bu günədək eyni dostlar həmişə onun əhatəsindədir!

Fikrimcə, duşuncə və əqidəmə görə əsl insan adını daşımaqa o kəs layiqdir ki, o bütün varlığı ilə öz Vətəninə, mənsub olduğu xalqa bağlıdır. Həmişə Vətəninin, millətinin taleyini öz taleyindən uca tutur. Bu sətirləri ünvanladığım həmkarım Vətən aşiqidir, öz millətinin, Böyük Türk Dünyasının təkrarsız sevdalısıdır. Doğulduğu torpağa ruhu və damarlarında

axan qanla bağlıdır. Əqidə və məslək adamıdır!

Nə böyük xoşbəxtlikdir ki, çoxlarına qismət olmayan bütün bu ali insani keyfiyyətlərə malik olan həmkarım tarixçidir, tariximizin misilsiz bilicisi, tədqiqatçısı və təbliğatçısıdır. Onun Əhməd bəy Ağaoğluna həsr olunmuş "Türk dünyasının mübariz mütəfəkkiri" kitabının təkcə adı, böyük türkçüyə həsr etdiyi dağdan ağır şeiri bu Vətən övladının nə qədər dönməz məslək və əqidə insanı olmasından xəbər verir.

Haqqında söz açdığım bu təkrarsız insan, dönməz əqidə və təfəkkür insanı, dünyanın bütün sərt sınaqlarından qələbə ilə çıxmağı bacaran mübariz həmkarım, "dost" sözünü sağa - sola işlədən və bu sözün ağır yükünü daşımağa layiq və qadir olmayan yüzlərlə "dost"lardan fərqli olaraq öz dostlarının əsl Dostu olan, böyük türkçü Əməd bəy Ağaoğlunun çoxşaxəli və olduqca zəngin çalarlarla dolu fəaliyyətini poetik duyğularla oxucularına çatdırmağı bacaran Şəxsiyyət tarixçi alimimiz Səidə Əli qızıdır!

Qürurlan, fəxr elə Əzizimiz Səidə Əli qızı! Sən xoşbəxtlərin xoşbəxtisən! Çünki sən əsl İNSANSAN! Çünki sən bu çətin dünyada öz MƏNLİYİNİ qoruyub saxlamağı bacarmısan! Çünki sən dərin biliyinlə, çox geniş dünyagörüşünlə şərəfli TARİXÇİ ADINI ZİRVƏYƏ QALDIRMISAN! Çünki sən dönməz VƏTƏNÇİSƏN, AZƏRBAYCAN MİLLİYYƏT-ÇİSİSƏN, Böyük Türk Dünyasının sevdalısısan - dönməz TÜRKÇÜSƏN!

Əziz Səidə xanım, bir ali keyfiyyətinlə də Sən çoxlarına nümunəsən: bir var çoxlarının bir - birinə gen - bol söylədiyi "dost" sözü, bir də var DOSTUN ÖZÜ! Sən bizim üçün ƏSL DOSTUN ÖZÜSƏN!

Yaşa, bütün arzularınla yaşa, sağlam yaşa, öz uğurlarınla sevimli dost-larını - Fatma xanımı, Zoya xanımı, Nazilə xanımı, Ulduz xanımı, Sevinc xanımı və Sənin sevdiyin və Səni sevən digər İnsanları sevindirmək üçün yaşa!

**Yaqub Mahmudov**
*AMEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi, BDU-nun*
*Tarix fakültəsinin "Qədim dünya və orta əsrlər tarixi" kafedrasının müdiri*

# SƏDAQƏT VƏ PEŞƏKARLIQ NÜMUNƏSİ
***(Səidə Əli qızının 75 illiyinə həsr olunur)***

2021-ci il sentyabın 19-da tarixçi - alim və pedaqoq, dosent Səidə Əli qızının 75 yaşı tamam oldu.

Səidə Əli qızı 19 sentyabr 1946-cı ildə Bakı şəhərində anadan olmuş, 1967-1973-cü illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Tarix fakültəsində təhsil almışdır. 1969-cu ildən BDU-nun Tarix fakültəsində baş laborant kimi əmək fəaliyyətinə başlamış, əvvəl SSRİ tarixi kafedrasında baş laborant, müəllim kimi, 1980-ci ildən isə "Mənbəşünaslıq, tarixşünaslıq, tarixin tədrisi metodikası" kafedrasında baş müəllim, dosent vəzifələrində çalışır. Səidə Əli qızı 1987-ci ildə namizədlik dissertasiyası müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi almışdır.

Pedaqoji fəaliyyətə 1974-cü ildən başlayan Səidə Əli qızı uzun illərdir ki, Bakı Dövlət Universitetinin Tarix fakültəsində Mənbəşünaslıq və Tarixşünaslıq fənlərindən mühazirələr oxuyur və seminar məşğələləri aparır. Səidə Əli qızının rəhbərliyi ilə hər il magistr dissertasiyaları hazırlanır. O, 2 namizədlik dissertasiyasının rəhbəri olmuş, bir sıra dissertasiyalara opponentlik etmişdir.

Səidə Əli qızı 160-dan çox elmi əsərin və 3 kitabın müəllifidir. O, eyni zamanda respublikanın bir sıra kütləvi informasiya vasitələrində, dövri mətbuat səhifələrində, həmçinin Beynəlxalq və Respublika miqyaslı konfrans və simpoziumlarda maraqlı tarixi mövzularla və şeirlərlə çıxışlar edir.

Səidə xanımın dərs dediyi tələbələr bu gün də respublikanın elm və təhsil müəssisələrində, dövlət idarələrində uğurla çalışırlar. Səidə xanım yüksək ixtisaslı tarixçi kadrların hazırlanmasında öz elmi məsləhətlərini və tövsiyələrini əsirgəmir.

O, Azərbaycan təhsil sistemində ilk dəfə 1991-ci ildən sonra ali məktəblərin tarix fakültələrində yeni bir fənn kimi tədris olunmağa başlayan "Azərbaycan tarixinin mənbəşünaslığı" (bakalavr pilləsi üçün – Azərbaycan və rus dillərində), "Tarixi tədqiqatların metodoloji problemləri" (magistratura üçün - Azərbaycan və rus dillərində), "Əhməd bəy Ağaoğlu və erməni millətçiliyi", "Əhməd bəy Ağaoğlu və onun ictimai - siyasi görüşləri", "Azərbaycan milli - demokratik mətbuatı tarixi mənbə kimi (XIX əsrin sonu - XX əsrin əvvəlləri)"(Azərbaycan və rus dillərində) dərs proqramlarının müəllifidir və bu proqramlardan respublikamızın bütün ali məktəblərində istifadə olunur.

O, müxtəlif dərslikləri rus dilindən Azərbaycan dilinə tərcümə etmişdir. Səidə Əli qızı 2019 - cu ildə çap edilmiş Azərbaycan ictimai fikrinin görkəmli nümayəndələrindən biri, əvəzsiz publisist və tənqidçi, tanınmış hüquqşünas və şərqşünas alim Əhməd bəy Ağaoğlunun (Əhməd bəy Mirzə Həsən oğlu Ağayevin) anadan olmasının 150 illik yubileyinə həsr etdiyi "Türk dünyasının

mübariz mütəfəkkiri" adlı kitabın və poemanın müəllifidir. Həmin poemadan bir bəndi təqdim edirik.

*Publisist və tənqidçi, hüquqşünas, şərqşünas,*
*Həyatda bir nömrəli islamşünas, türkşünas.*
*Nə qədər adların var, arxasında nə zəhmət,*
*Qürur, vüqar, əziyyət, misilsiz milli qeyrət.*

O, BDU-nun 100 illik yubileyi ilə əlaqədar "Bakı Dövlət Universiteti - 100 ilin elm və təhsil məbədi" kitabının müəlliflərindəndir. Həmçinin 2019-cu ildə Bakı Dövlət Universitetinin 100 illiyi münasibəti ilə UNESCO-nun Baş Qərargahında keçirilən tədbirdə təqdim olunan "Bakı Dövlət Universiteti AXC - nın yadigarıdır" kitabının (Azərbaycan, rus və ingilis dillərində) həmmüəllifidir.

Səidə Əli qızı təkcə mənbəşünas - tarixşünas alim deyil, həm də tarixi hadisələri ətraflı qələmə alaraq poemaya çevirən incə qəlbli İnsandır.

2021-ci ildə "Qarabaq Azərbaycandır. Zəfər epopeyası" (Kollektiv monoqrafiya) kitabının müəlliflərindən biri və "Qarabağın zəfər nəğməsi" poemasının müəllifidir. Səidə Əli qızının Vətənpərvərlik ruhunda yazdığı bu əsərinin son bəndlərini diqqətinizə çatdırırıq:

*Bu gün Zəfər günündür Qarabağ, Azərbaycan!*
*Nə qədər şəhid verdik, nə qədər töküldü qan?*
*Ölümsüz şəhidlərin qoy ruhları şad olsun,*
*Milli Müzəffər Ordum, Prezidentim sağ olsun!*
*Onlar yaşatdı bizə bu sevincli günləri,*
*Onların sayəsində qazandıq bu Zəfəri.*
*Yaşa Qarabağ Yaşa! Yaşa baş tacım Şuşa!*
*Yaşa qəhrəman xalqım! Azərbaycanım Yaşa!*

Səidə Əli qızı müdrikliyi və sadəliyi ilə ətrafındakı insanların, işlədiyi kollektivin hörmət və ehtiramını qazanmışdır.

Uzun illər təhsil sahəsində çalışan Səidə Əli qızının əməyi Azərbaycan Respublikası Təhsil nazirliyi və BDU-nun rəhbərliyi tərəfindən layiqincə qiymətləndirilmişdir.

O, 2003-cü ildə Bakı Dövlət Universitetinin "İlin ən yaxşı müəllimi" adına layiq görülmüş, 2014-cü ildə Bakı Dövlət Universitetinin 95 illiyi münasibəti ilə Azərbaycan Respublikası Təhsil nazirliyinin "Fəxri fərman"ı ilə təltif olunmuş, 2019-cu ildə isə Təhsil nazirliyi tərəfindən "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalına layiq görülmüşdür.

Arzu edirik ki, 50 ildən artıq təhsil və elm sahəsində göstərdiyi fədakar əməyinə görə, ona ali fəxri adlar nəsib olsun.

Sonda onu qeyd etmək istəyirik ki, Səidə xanım öz xalqına, millətinə, sevdiyi peşəyə, onu əhatə edən sadiq dostlarına bağlı qayğıkeş bir İnsandır.

O, öz sevgisini, duyğusunu, etibarını özünün qələmə aldığı şeirlərdə ürəkdolusu oxucularına çatdırır. Səidə xanım başqa yazarlardan fərqli olaraq, öz şeirlərində tariximizin mühüm hadisələrini əks etdirməklə yanaşı özünün həyata baxışını, dünya görüşünü, ətrafındakılara münasibətini poetik çalarlarla tarixi poemalar şəklində təqdim edir.

Səidə xanım özünün dostluğa olan münasibətini aşağıdakı misralarla belə qələmə alır:

*Əziz dostum ürəyimdən keçəni*
*Sən hamıdan gərək öncə biləsən.*
*Dar günümdə, xoş günümdə, hər zaman*
*Mənlə qoşa ağlayasan, güləsən.*

*Saxta dosta ehtiyacım yox mənim,*
*Üzdə gülə, dalda məndən danışa,*
*Boş-boşuna min bəhanə axtarıb,*
*Kefi gəlsə gah küsə, gah barışa.*

*Dost istərəm əməli düz, sözü düz,*
*Göz içinə baxa bilsin dübbədüz.*
*Dost odur ki, dostu üçün can verə,*
*Sevinc desən, sənə bir ümman verə.*

*Dost Allahım, dost Vətənim, dost anam,*
*Dərdim, acım olsa, qoymaz tək yanam.*
*Qoşular dərdimə, həm həyan olar,*
*Onun bu dostluğu bir dastan olar.*

**Əzizimiz Səidə xanım!** Sizi 75 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı və Azərbaycan tarix elminin tərəqqisi naminə yeni-yeni yaradıcılıq uğurları arzu edirik.

**Ulduz Paşayeva**
*BDU, Tarix fakültəsi, böyük elmi işçi*

# BİZİM SƏİDƏ XANIM!

Həyat sınaq desək, hər kəsin kimliyi bu meydanda üzlənir: kimisi bundan mübariz - aciz, kimisi dəyərli-dəyərsiz, kimisi isə faydalı - faydasız çıxır.

Lakin bu həyatı özünə ərməğan bilən şəxslər onun problemlərini aşaraq, problemsizliyi əsas götürürlər. Onlar nəinki özü üçün, heç ətrafına da çətinlik yaratmağa qıymazlar. Belə insanlardan biri də gənclikdən tanıdığım Səidə Əli qızıdır.

Mən ilk dəfə onun adına 40 il əvvəl BDU-nun Aspirantura şöbəsində işləyərkən rast gəldim və sənədlərinə baxarkən təəccübləndim. Bu, ilk dissertant idi ki, soyadı yox idi. Müdirimə dedim ki, bəlkə soyadı var, amma yazılmayıb. O dedi ki, elə belədir, gördüyün kimidir.

Səidə xanım kimdir? Bu yaraşıqlı bir qadın, gözəl tədqiqatçı, tarix üzrə fəlsəfə doktoru, dosentdir. 50 ildən çoxdur ki, BDU Tarix fakültəsinin aparıcı alimləri sırasında çalışır, özünəməxsus yer tutur. Sonralar özündən öyrənə bildim ki, əslində soyadı Hüseynova olsa da, 16 yaşında pasport alanda vətənpərvərlik, milli qürur üzündən rus soyadı sonluğundan imtina edərək, ata adına üstünlük verib.

Hazırda o, Bakı Dövlət Universiteti Tarix fakültəsinin "Mənbəşünaslıq, tarixşünaslıq və tarixin tədrisi metodikası" kafedrasında işləyir və həmkarlarının, Universitet kollektivinin ən hörmətli alimlərindən biridir. Onun tədqiq etdiyi sahə dərin bilik tələb edir. Bu elmi ada çatanacan onlarla beynəlxalq, respublika konfranslarında maraqlı çıxış, məqalələri ilə tarixçilərin diqqətini özünə cəlb etmişdir.

Bir oğul övladı və bir nəvəsi olan Səidə xanım nikbin və xeyirxah bir xanımdır.

Səidə xanım daim öz bilik dairəsini genişləndirən alim, pedaqoq kimi tarixi mənbələrdən həm rus, həm də doğma dilimizdə dərs deyir. Mənbəşünaslıq və tarixşünaslıq dərin savad tələb edən elm sahələridir. Azərbaycanda ilk tədqiqatçılar içində Səidə xanımın da özünəməxsus payı vardır.

Öz işinə böyük məsuliyyətlə yanaşan Səidə xanım nəinki professor - müəllim həmkarlarının, ümumiyyətlə, bütün Universitet kollektivinin dərin hörmətini qazanmış çox savadlı, həssas pedaqoq kimi tələbələrinin də sevimlisidir.

Səidə xanım güclü məntiqi araşdırıcı olmaqla yanaşı, həm də romantik əhval-ruhiyyəli insan olaraq, bədii yaradıcılığa da bağlı, incəruhlu şairdir. Onun Vətən, şəhid, ana, dost və s. mövzularda çoxlu şeiri var. Bunların bir qismi müxtəlif jurnallarda çap olunub. Eşitdiyimə görə, yaxın zamanlarda onun şeir kitabı çıxacaq.

Artıq yeddi onillik geridə qalmış, Səidə xanım artıq 75 yaşını qeyd etmişdir. Onu sevən bizlər arzu edirik ki, belə qürurlu,vətənpərvər, insansevər, dərin biliyə malik Səidə xanımımız 100 yaşını da bizimlə bölüşsün. Allah ona Qafqaz sağlamlığı və ömrü bəxş etsin!

**Fikrət Əlizadə**
*BDU - nun Filologiya fakültəsinin*
*Azərbaycan dilçiliyi kafedrasının dosenti*

## JURNALIN QAYDALARI

**Məqalənin qəbulu şərtləri:**
- Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının elmi nəşrlər qarşısında qoyduğu tələblər əsas götürülür.
- Tələblərə əsasən xaricdə və ya respublikada çap edilmiş eyni adlı və məzmunlu məqalələrin jurnala tədqim edilməsi yolverilməzdir.
- Plagiat aşkar edilən müəlliflərin məqalələri çap edilmir və həmin müəllifə jurnala məqalə təqdim etməyə qadağa qoyulur.
- Məqalələr Azərbaycan, rus və ingilis dillərində qəbul edilir.
- Yalnız Redaksiya heyəti tərəfindən müsbət rəy verilən məqalələr çap olunur.
- Redaksiya heyəti müəlliflərin elmi yaradıcılığında mövqelərini tam ifadə etməsi üçün hər cür şərait yaratmışdır.
- Müəlliflərin və Redaksiya heyətinin mövqeyi uyğun gəlməyə bilər.
- Məqalələr Redaksiya heyəti tərəfindən redaktə olunduqdan sonra çapa təqdim edilir.
- Toplunun materiallarından istifadə edərkən istinad zəruridir.
- Jurnal ildə bir dəfə nəşr edilir.
- Məqalələr müəlliflərin hesabına çap edilir.
- Məqalələr çap və elektron formada Dünya azərbaycanlıları: tarixi demoqrafiya elmi-tədqiqat laboratoriyasına təqdim edilməlidir.
- Jurnal respublikanın əsas kitabxanalarına təqdim edilir.
- Jurnalın elektron variantı Bakı Dövlət Universitetinin saytında yayımlanır: http://bsu.edu.az

**Məqalənin tərtibi qaydaları:**
- Mətn Times New Roman şrifti, 12 öLçü, 1 interval ilə yazılmalıdır;
- Həcm 7-10 səhifə (təqribən 2500-5000 söz);
- Məqalənin adı hamısı böyük hərflərlə tünd rəngdə (Bold) mərkəzdə yazılmalıdır;
- Məqalənın adı 3 sətirdən artıq olmamalıdır.
- Məqalənin adı ilə məzmunu tam uyğun olmalıdır;
- Məqalənin başlığının altında sağ tərəfdə müəllifin adı, soyadı – tünd rəngdə (Bold), fakültəsi, akademik və elektron poçt ünvanı göstərilməlidir;
- İlk səhifədə 100-200 sözdən ibarət 2 dildə (Azərbaycan və ingilis dillərində) xülasə və açaq sözləri verilir. Azərbaycan dilində xülasənin altından məqalənin ingiliscə başlığı, xülasə və açar sözlər verilməlidir. Xülasələrin adı, mətni və açar sözlər eyni olmalıdır;
- Məqalələr struktur olaraq “Xülasə”, "Giriş”, "Əsas hissə” (Başlıqlar), "Nəticə” (yekun, elmi yenilik, təklif), "Ədəbiyyat siyahısı”ndan ibarət olmalı və məzmun buna uyğun qurulmalıdır;
- Məqalə içindəki yarımbaşlıqlar Birinci hərfi böyük, qalanları kiçik olmaqla verilməlidir. Məsələn, Giriş; Nəticə, Ədəbiyyat siyahısı;

- Məqalədə istifadə edilən ədəbiyyat və internet resursları son 5-10 ilin tədqiqatlarını əhatə etməlidir. Mənbələrin ünvanı isə dəqiq göstərilməlidir (nəşr yeri, ili, nəşriyyat və cəmi səhifəsi);
- Məqalədə istifadə edilən bütün ədəbiyyat və internet resursları məqalənin sonunda əlifba sırası ilə düzülür. Mətndə istinadlar həmin sıraya uyğun kodla verilir. Məsələn [5, s. 8];
- İnternet resursları göstərilərkən, əvvəlcə istinad olunan məqalənin ya yazının müəllifi, məqalənin ya məlumatın bağlılığı və ondan sonra hiperiqtibas qoyulmalıdır;
- Məqalədə sitatlar məqalənin ümumi həcminin yalnız 30 faizini əhatə edə bilər. Yerdə qalan hissə yeni fikir olmalıdır;
- Cədvəl və şəkil verilərsə, cədvəl 1, cədvəl 2; şəkil 1, şəkil 2 və s. şəklində sıralanmalı və ad verilməlidir. Məsələn, Cədvəl 1. Azərbaycan respublikasının əhalisi (1999-cu il siyahıyaalmasına əsasən);
- İqtibaslar, cədvəllər və cədvəlin mənbəsi cədvəlin aşağısında 10 ölçüdə verilməlidir;
- Məqalədə verilən şəkil və xəritələr ayrıca fayl (GİF, JPEG) kimi də təqdim edilməlidir;
- Məqalələr tam redaktə olunduqdan sonra təqdim edilməlidir.

# DÜNYA AZƏRBAYCANLILARI:
# TARİX VƏ MÜASİRLİK
**(Elmi-nəzəri toplu)**

**VIII BURAXILIŞ**

*Çapa hazırlayanlar:* ***Ulduz Paşayeva***
***Zəhra İslamova***

**BAKI - 2021**

Nəşriyyat direktoru: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operatorlar: Ümrə Musayeva, Emil Salayev

Çapa imzalanmışdır: 25.12.2021
Kağız formatı: 70x100 Həcmi 20 ç.v.
Sifariş: 66
Sayı 50 ədəd
“Füyuzat” nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850-98-69